**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PAŞA QƏLBİNURUN POEZİYASI

İxtisas: Azərbaycan ədəbiyyatı 5716.01

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: _______________ **Aytən Cəfər Qulu qızı Heybətova**

Elmi rəhbər: Filologiya elmləri doktoru,
_______________ dosent **Əlizadə Bayram oğlu Əsgərli**

**Bakı – 2023**

**MÜNDƏRİCAT**

**GİRİŞ** ............................................................................................................ 3

**I FƏSİL. PAŞA QƏLBİNURUN POEZİYASINDAKI FƏRDİ ÜSLUBUN ƏNƏNƏ VƏ YENİLİK XÜSUSİYYƏTLƏRİ** 8

1.1. Azərbaycan sərbəst şeir ənənəsinin ədəbi tarixi təcrübəsi və təkamül mərhələləri ........................................................................................ 8

1.2. Paşa Qəlbinurun poeziyasını formalaşdıran amillər və üslub fərdiyyətinin özəllikləri ........................................................................ 30

**II FƏSİL. LİRİK "MƏN"İN TƏŞƏKKÜL VƏ TƏKAMÜL MÜƏYYƏNLİYİ** 48

2.1. Paşa Qəlbinur poeziyasının psixologizmi və poetik obrazlar kultu ........... 48

2.2. Təzad assosiativ fikir müəyyənliyinin mahiyyəti kimi ............................. 71

**III FƏSİL. BƏDİİ BÜTÖVLÜKDƏ MƏCAZLAR SİSTEMİNİN ROLU** 91

3.1. Lirik təsvir təhkiyəsinin forma və məzmun birliyi .................................. 91

3.2. Təsvir və ifadə vasitələrinin fərdiliyi ...................................................... 112

**NƏTİCƏ** ...................................................................................................... 133

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** ....................................... 140

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir ədəbiyyatımızda yaradıcı istedadı, təfəkkür və özünəməxsus üslubu ilə seçilən nümayəndələrdən biri Paşa Qəlbinurdur. Ötən əsrin səksəninci illərinin ədəbi-mədəni mühitinin qaynarlığında formalaşan və bütün fitri yaradıcılıq gücü ilə milli ruhun oyanışına köklənmiş şair fövqəlzamanlıq və fövqəlməkanlıq müstəvisində həmişə ciddi təhlillərin predmetinə çevrilmişdir. Ümumiyyətlə, 60-cı illərdən başlayan yeniləşmə sonrakı onilliklərdə müxtəlif tipologiyaların, paradiqmatik mənzərənin fərqli modellərinin, yaddaş kodlarının yeni ifadə sxemlərinin hərəkətliliyi ilə səciyyələnir. Ədəbi-nəzəri fikir bütün aspektləri ilə prosesin ümumi axarını müxtəlif səviyyələrdə təhlilə gətirmək yolunu tutmuş, rasional və irrasional baxış bucaqlarında mahiyyəti dərkə və aydınlaşdırmağa çalışmışdır.

Dövrün ümumi ədəbi məzmununda faktlaşan mətn fenomenliyi modelləşdirici xarakteri ilə fərqli yanaşmaları, sözün məna yaddaşında və nitq janrlarında əlavələrin özünəməxsusluqları ilə şərtlənir. Bunlar isə özlüyündə mühitin mahiyyətini sərgiləyən ədəbi meyl və axın olaraq ayrı-ayrı sənətkarlar timsalında təhlilləri zəruriləşdirir. Etnomədəni düşüncənin yüksək təfəkkür intelleksiyasını özündə ehtiva edə bilmək gücü ilə faktlaşan P.Qəlbinur yaradıcılığı bu kontekstdə ciddi aktuallıqla səciyyələnir. Ədəbi-mədəni prosesin ümumi axarını, bədii-estetik sferada modelləşdirmənin dinamik xarakterini, mətn və mühit səviyyəsində faktlaşmanın məzmun və mündəricəni aydınlaşdırmaq baxımından üfüqi və şaquli yanaşmaları gərəkli edir. Çünki istedadlı sənətkarın yaradıcılığı bütün postulatları ilə mühiti əhatələmək və ədəbi-mədəni prosesin gedişinin çoxşaxəliliyi və çoxqatlılığını əks etdirmək imkanı baxımından ciddi faktura ilə səciyyələnir.

Etnik-kulturoloji və ictimai-siyasi proseslərin bir zərurət olaraq ortaya qoyduğu təsəvvür özlüyündə ədəbiyyat texnologiyalarının özündə də müəyyən əlavələrin aparılmasını qaçılmaz edir. Əslində bunlar bir istiqamətdə yaradıcı axtarışlarına, fikrin bədii-estetik modellərinin bir üslub özünəməxsusluğu olaraq uğurluluğuna dayanır. Mövzu, ideya-məzmun, poetik-forma və liberal müasirlik fonunda nizamlanan ədəbi proses tarixilik və millilik müstəvisinə köklənməklə özünüdərki

bir mənsubluq nümunəsi olaraq ortaya qoydu. Paşa Qəlbinur yaradıcılığının ana xəttini müəyyənləşdirən bu istiqamət müxtəlif səviyyələrdə ciddi və sistemli yanaşmaları gərəkli edir. Çünki istedadlı sənətkarın keçdiyi yaradıcılıq yolu mühit və yaradıcı şəxsiyyəti, dövrün ictimai, siyasi və mədəni axarı, mürəkkəb situasiya və şəraitlərin bədii mətndə, yaradıcı düşüncəsində hansı səviyyədə əks olunması baxımından ciddi aktuallıqla müəyyənləşir. Çağdaş ədəbi-nəzəri fikirdə bunların sistemli təhlilə gətirilməsi vacib və önəmli məsələ olaraq diqqət mərkəzində dayanır.

Paşa Qəlbinurun zəngin yaradıcılığı müxtəlif kontekstlərdə təhlillərin probleminə çevrilmişdir. Ümumi və fərdi müstəvidə ədəbi-nəzəri fikrin marağına səbəb olan ədibin poeziyası 80-ci illərdən üzü bəri günümüzə qədər mövzu və mündəricəsi, üslub özünəməxsusluğu ilə təhlil olunmaqdadır. “Ay bir əlçim buluddur” (1984), “Payız məktubu” (1987), “Rəngli göz yaşları” (1990), “İtmiş həsrət kimi” (1996), “Ağlıma gələnlər başıma gəldi” (2003) və s. kitabları əsasında aparılmış təhlillər çağdaş ədəbi prosesin ümumi axarında P.Qəlbinur yaradıcılığının bədii-estetik mənzərəsini, fəlsəfi mahiyyətini aydınlaşdırmağa köklənmişdir. M.İsmayıl “Ay bir əlçim buluddur” (1984), B.Nəbiyev “Sözün də su kimi lətafəti var” (1987), B.Budaqov “Şair Qəlbinura məktub” (1992), V.Quliyev “Gözlər bizə nə deyir?” (1992), A.Abdullazadə “İşığın yaşı” (1995), A.Mirseyid “Qəlbinurun işıq metaforası” (1997), Ə.Ələkbərli “Həqiqi sənətdə Tanrı möhürü var” (1997), V.Yusifli “Bu Paşa Qəlbinurdur” (1999), S.Alışarlı “Açılmış qəlbimin şah qapıları” (1999), V.Sultanlı “Ədəbi-nəzəri illustrasiyalar” (2000), A.Kəngərli “Bir şairin poetik dünyası” (2001), R.Behrudi “Sözün işığında” (2001), K.V.Nərimanoğlu “Kəmiyyət və keyfiyyət baxımından” (2001), N.Həsənzadə “Paşa Qəlbinur” (2002), V.Bayatlı “Şairlərin məşhur bir sözü var” (2002), Ş.Salmanov “Paşa poeziyada yorulmadan axtarır” (2002), V.Səmədoğlu “Paşa Qəlbinur haqqında söz düşəndə” (2002), B.Əlibəyli “Yanır bir ilahi şam” (2003), A.Məmmədov “Qəlbinur poeziyası XXI əsrin astanasında” (1999), Ə.Əsgərli “Fərdi üslubun poeziyası” (2017) və s. məqalə, resenziya və kitab səviyyəli araşdırmalarda P.Qəlbinur poeziyası müxtəlif aspektləri ilə təhlilə gətirilmişdir. Lakin istedadlı şairin poeziyasının dissertasiya səviyyəsində araşdırılması olmamışdır. Bütün bunların nəticəsi kimi P.Qəlbinur poeziyasını

sinxron və diaxron müstəvidə təhlilə gətirməyi bir məqsəd olaraq qarşıya qoyduq.

**Tədqiqatın obyekti və predmeti.** Problemin elmi-nəzəri və estetik cəhətdən düzgün aydınlaşdırılmasında ədəbi-tarixi proses, dövrün ədəbiyyat tarixçiliyi və tənqidçiliyi, arxiv və mətbuat, habelə milli və bəşəri ədəbi cərəyanların ənənə xüsusiyyətləri tədqiqatın obyekti qismində çıxış etmişdir.

Tədqiqatın predmetini müasir Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən olan tanınmış şair Paşa Qəlbinurun poeziyası təşkil edir. Eyni zamanda mühiti dərk və ifadə üsullarının tipologiyası, janr səviyyəsinin uğurluluq əmsalı, folklor qaynaqlarının bədii mətnə gətirdiyi bütövlük və s. tədqiqat işinin predmeti siyahısına daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini Paşa Qəlbinur poeziyasını bir bütöv olaraq təhlilə gətirmək, poetik özünəməxsusluq imkanlarını, ənənədən yararlanma səviyyəsini, ayrı-ayrı şeirlərində özünü göstərən formullar sistemini, çağdaş ədəbi-mədəni mühitdə yerini, bədii-estetik təfəkkürünün millilik konseptini, janr və üslub mündəricəsini və s. aydınlaşdırmaq təşkil edir. Bunların reallaşması üçün isə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- mühit və yaradıcı şəxsiyyəti timsalında Paşa Qəlbinur poeziyasının ümumi sistemini aydınlaşdırmaq;
- 80-ci illər poeziyasında özünü göstərən yaddaş arxetiplərinin işləklik səviyyəsini və metaforik xarakterini aşkarlamaq;
- zəngin yaradıcılıq yolu keçən sənətkarın şeirlərinin enerji qaynaqlarını müəyyənləşdirmək;
- folklordan yararlanmanın forma və üsullarını, ayrı-ayrı poetik örnəklərdə modelləşmənin nələrlə səciyyələnməsini açıqlamaq;
- mətn paradiqmalarının gerçəkliyi əks etdirmə imkanları baxımından uğurluluq faktlarını ortaya qoymaq;
- yaradıcı dünyagörüşü və sənətkar üslubu timsalında P.Qəlbinur poeziyasının mahiyyətinə aydınlıq gətirmək;
- janr, müəllif və üslub paradiqması səviyyəsində mətn fakturasının formalaşdırdığı təsəvvürün ümumi sistemini müəyyənləşdirmək və s.

**Tədqiqatın metodları.** Dissertasiya tarixi-müqayisəli, nəzəri tipoloji metodun ortaya qoyduğu ümumi prinsiplər əsasında işlənmişdir. Tədqiqat zamanı müasir ədəbi-nəzəri fikrin əldə etdiyi nailiyyətlər əsas götürülmüş və yeri gəldikcə ondan yararlanılmışdır. Mahiyyətin aydınlaşması üçün struktural metodun konseptual təhlil yanaşmalarına da istinad edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

– Azərbaycan sərbəst şeiri müstəvisində fərdi üslub keyfiyyətinə malikdir;

1970-80-ci illər Azərbaycan poeziyasının ümumi dinamik mənzərəsində P.Qəlbinur poeziyasının özünəməxsus yeri və məqamı vardır;

– sənətkar zəngin folklor ənənələri, habelə Avropa şeirinin bədii təcrübəsindən yaradıcı surətdə bəhrələnmişdir;

– P.Qəlbinur poeziyasının paradiqmatik səviyyəsi və mövzu problematikası tədqiqat işinin predmetidir və geniş şəkildə şərh olunur;

– sənətkarın şeirlərinin janr paradiqması və onun struktur sxemləri və s. öz spesifikliyi ilə şairin üslubunu ortaya qoyur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya çağdaş ədəbiyyatın istedadlı nümayəndələrindən olan və özünəməxsus düşüncə, təqdim üsulları ilə seçilən Paşa Qəlbinurun poeziyasının mahiyyəti, onun ümumi sistemində dayananlar timsalında mükəmməl təsəvvür formalaşdırır və bir sıra elmi yeniliklərlə səciyyələnir.

– Çağdaş ədəbi-mədəni prosesin ümumi dinamikasını, bədi-estetik təfəkkür intelleksiyasının yeni mərhələdə məzmun və mündəricəsini aydınlaşdırmaq üçün ciddi material verir;

– sənətkar özünəməxsusluğu, yaradıcı üslubunun müəyyənliyi müstəvisində mükəmməl təsəvvür formalaşdırır;

–ədəbi-nəzəri fikrin düşüncəsinə oturuşmuş 80-ci illər ədəbiyyat təsəvvürünün mahiyyətini aydınlaşdırmaq baxımından geniş imkanlar yaradır;

– zəngin xalq yaradıcılığı ənənələrindən yaradıcı şəkildə bəhrələnmənin üsul və yolları haqqında dolğun faktura ilə müəyyənləşir;

– mühit və yaradıcı özünəməxsusluğu baxımından tipoloji təhlillərə əsas verir;

– dövrü, mühiti və onun problemlərini əks etdirə bilmək gücü ilə mükəmməl

informasiyaya yüklənir;

− etnokulturoloji sistemin ümumi axarını, funksional xarakterinin spesifik mənzərəsini aydınlaşdırmaq baxımından ciddi material verir;

−milli-mənəvi yaddaşın arxitektonik sistemini, invariant formulasını öyrənmək kontekstində gərəkli zənginliklə səciyyələnir;

− fonopoetik, morfopoetik və sintaktik sistemin mükəmməlliyi, kanonik səviyyənin uğurluluğu ilə faktlaşır və s.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya çağdaş ədəbi-nəzəri fikrin müəyyənləşdirdiyi prinsip və nəzəri-metodoloji müddəalar əsasında işlənmişdir. Müasir ədəbiyyatın istedadlı nümayəndələrindən olan Paşa Qəlbinurun poeziyasının sistemli təhlili ədəbi-mədəni prosesin ümumi axarını, poeziyanın uğur və problemlərini, həyat hadisələrinə, mühitə sənətkar münasibətini aydınlaşdırmaq baxımından kifayət qədər ciddi nəzəri mənbə funksiyası daşıyır. Tədqiqat praktik baxımdan da mühüm əhəmiyyət kəsb edir; ali məktəblərdə araşdırmadan bir mənbə olaraq yararlanmaq olar və xüsusi kurs kimi universitet auditoriyalarında tədris oluna bilər. Doktorantlar, çağdaş ədəbi-nəzəri fikrin nümayəndələri, ədəbiyyatşünaslar və s. tədqiqatdan qaynaq kimi bəhrələnməsi baxımından praktik əhəmiyyət daşıyır.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları respublikada və xaricdə nəşr olunan müxtəlif məcmuə, toplu və jurnallarda, habelə beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslarda edilən məruzələr və çıxışlarda əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən Problem Şurada qeydiyyatdan keçirilmiş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında hazırlanaraq yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 5 səhifə, I fəsil 40 səhifə, II fəsil 43 səhifə, III fəsil 42 səhifə, Nəticə 7 səhifə, ümumi həcmi 149 səhifə – 295 728 işarə.

# I FƏSİL
# PAŞA QƏLBİNURUN POEZİYASINDAKI FƏRDİ ÜSLUBUN ƏNƏNƏ VƏ YENİLİK XÜSUSİYYƏTLƏRİ

## 1.1. Azərbaycan sərbəst şeir ənənəsinin ədəbi tarixi təcrübəsi və təkamül mərhələləri

Müasir Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən olan Paşa Qəlbinurun poeziyası bütün fakturası ilə üfüqi və şaquli yanaşmalarda sistemli təhlilləri zəruri edir. Həkim, alim və şair kimi çoxşaxəli fəaliyyəti ilə keçən əsrin 80-ci illərindən geniş auditoriyanın marağında olan ədibin bədii-estetik təfəkkürünün əhatələdiyi zənginlik mətn paradiqmalarında ciddi bir mükəmməlliklə müəyyənləşir. Ümumiyyətlə, 60-cı illərin "yeni nəsr", "yeni nəsil" təsəvvüründə formalaşan ədəbiyyat konsepsiyası ədəbi meyl və axınların milli özünüdərk və milli özünütəsdiq formulasına yüklənməklə fərqli bir konseptə köklənməsi ilə səciyyələnir. 80-ci illər bütün fakturası ilə bu düşüncədən qaynaqlanmaqla həm də yeni-yeni istedadların timsalında özü ilə bağlı təsəvvürləri də formalaşdırdı. Daha doğrusu, ədəbiyyatın "60-cı illər" və ədəbiyyatın "80-ci illər" dönəminin müəyyənlik spektrlərini bir bütöv olaraq ortaya qoydu. Burada 60-cı illərin etnokulturoloji təfəkkür paradiqmasından 80-ci illərin özünəməxsusluğuna qədər bir çeşidlilik, həm də mükəmməllik formulu faktlaşır. Paşa Qəlbinur da bütün bu zənginliklərdə dövrün və mühitin bədii-estetik düşüncəsinə yaradıcı istedadı ilə öz töhfələrini vermiş simalardandır. Altmışıncı illər nəslinin istedadlı nümayəndələrindən olan xalq yazıçısı Anar yazır: "*Ədəbiyyatşünaslığımızda "60-cı illər nəsli" artıq qəbul olunmuş bir anlayışdır. Mən də yazılarımda dönə-dönə bu ifadəni işlətmişəm. Ancaq mənə elə gəlir ki, həmin ifadə bir qədər dəqiqləşdirilməlidir. Söhbət müasir ədəbiyyatımızın mahiyyətcə yeniləşməsindən gedirsə "60-cılar nəsli yox", "60-cı illər ədəbiyyatı" deyimi daha dürüstdür. Çünki 50-ci illərin ikinci yarısı və 60-cı illərdə şeirimizdə, nəsrimizdə, dramaturgiyamızda, tənqidimizdə yeni ruh, yeni üslub, həyata, cəmiyyətə yeni baxış*

*bucağı, gerçək insan taleləri və xarakterləri gətirmiş əhli-qələmlərin əsas qismi yeni ədəbi nəslin nümayəndələri idisə, bir qismi də ədəbiyyata daha əvvəl gəlmiş, amma yaradıcılıqları məhz 50-60-cı illərdə yeni keyfiyyət kəsb etmiş təcrübəli sənətkarlar idi*" [9]. Doğrudan da, məsələnin mahiyyətinə diqqət yetirdikdə 60-cı illər ədəbiyyatının ehtiva etdiyi mənzərə daha geniş spektrli yanaşmaları gərəkli edir. Burada dövrün özünün ümumi ruhuna bağlanan müxtəlif sənətkarlar nəsli əhatələnir. Onların dünyagörüşündə, yaradıcı ruhunda, bədii-estetik düşüncəsində nəzərə çarpan fərqli yanaşma və fərqli baxış konsepsiyası, eləcə də fərqli ifadə üsulları diqqət önünə gəlir. P.Qəlbinur yaradıcılığına bu kontekstdən yanaşdıqda onun poeziyasının enerji qaynaqlarında əvvəlki onilliklərdən gələn ənənənin uğurlu məqamları özünə yer alır. "Gözləyir" adlı şeiri ilə ədəbiyyata gələn (1971) istedadlı sənətkar 80-ci illər poeziyasının ən parlaq nümayəndələrindən biri kimi müxtəlif təhlillərin predmetinə çevrilmişdir. "Ay bir əlçim buluddur", "Payız məktubu", "Rəngli göz yaşları", "İtmiş həsrət kimi", "Ağlıma gələnlər başıma gəldi" və s. kitabların janr və məzmun mündəricəsində dayananlar özlüyündə bütünlükdə ədəbi-mədəni prosesi əhatələmək gücü ilə xarakterizə olunur.

Paşa Qəlbinur yaradıcılığında bütün parametrlərdə mahiyyətə yönəlikli məsələ kimi diqqət yetirilməli problemlərdən biri onun üslub özünəməxsusluğunda ənənədən gələn tərəflərin aydınlaşmasıdır. Çünki ənənə elə bir köklü, həm də fundamental məsələdir ki, ona yaradıcı üslubunun qaynağı timsalında aydınlıq gətirmədən sənətkar istedadının sərhədlərini aydınlaşdırmaq özü bir problem olaraq müşkül görünür. Ən əsas olan isə şairin yaradıcılıq fəaliyyətinin mənbəyi, enerji qaynaqlarında dayanan mahiyyətin və dinamik mənzərənin aydınlaşmasıdır. Onu da əlavə edək ki, "*şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır. Buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır*" [15, s.137]. P.Qəlbinur poeziyasının yaradıcı şəxsiyyəti və yaradıcı ruhu timsalında ehtiva etdiyi məsələlər onun bütün əsərlərində bir mənəviyyat, özgürlük faktı olaraq boy göstərir. Ona görə də mahiyyətin aydınlığı baxımından ənənə və təkamül müstəvisində şairin yaradıcılığına bir neçə istiqamətdə diqqət yetirmək gərəyi yaranır:

a) Paşa Qəlbinur poeziyasının genetik sistemi və tarixi-mədəni spesifikanı əks etdirmə imkanları;

b) etnomilli səviyyənin ifadəliliyində ənənənin təzahür formaları;

c) sərbəst şeir ənənəsinin ümumi axarında tarixi təcrübənin müəyyənləşmiş forma və üsulları;

ç) əski təsəvvürdə şeir modelləri (məsələn, "Kitabi-Dədə Qorqud"da) və onun ilkin nümunələrinin formalaşdırdığı təsəvvür;

d) müasir poeziyada Azərbaycan sərbəst şeir ənənəsinin təbii və fövqəltəbii xarakteri və təkamül mərhələləri;

e) P.Qəlbinur poeziyasında ənənənin spesifiklik göstəriciləri və s.

Poeziya özlüyündə elə sirli və həm də ecazkarlıqlarla dolu bir ədəbiyyat, təsəvvür hadisəsidir ki, onun əhatələdiyi məzmun ədəbi-nəzəri düşüncəni çox əski çağlardan özünə cəlb etdirmiş və haqqında sözə ehtiyac doğurmuşdur. Ədəbiyyatın şifahi və yazılı qolunda min illər boyu etnosun bədii-estetik zövqünü, təfəkkür intelleksiyasını özündə ehtiva etmək missiyasına köklənən poeziya bu gün də eyni möhtəşəmlikdə dayanır. Ümumiyyətlə, "*şeir sənətinin spesifikası, onun hissi və fikri – intellektual cəhətləri ilə bağlı axtarışlar bütün dövrlərdə canlı və mürəkkəb yaradıcılıq məsələləri sayılmışdır. Təbii haldır ki, bədii yaradıcılığın forma, dil və üslub kimi komponentləri mündəricə ilə sıx əlaqədə qavranılıb mənalandırıldığı üçün bu məsələ - poeziyanın dili və ədəbi prosesin inkişafında aparıcı meyllərdən biri kimi geniş estetik kateqoriyaya çevrilir*" [66, s.10]. Türk xalqlarının zəngin poeziya ənənəsi və Şərq xalqlarının bədii düşüncədə formalaşdırdığı yaradıcılıq konsepsiyasının tarixi-mədəni axarı üfüqi və şaquli keyfiyyət dəyişmələri (zənginləşmələri) ilə həmişə nikbin təsəvvür formalaşdırmış, ədəbi meyl, ədəbi axın timsalında araşdırmaları bir zərurət olaraq qarşıya qoymuşdur.

Sərbəst şeir ənənəsinin tarixi təcrübəsi və onun çağdaş ədəbiyyatın istedadlı nümayəndələrindən olan Paşa Qəlbinura gələn yolu özlüyündə "Kitabi-Dədə Qorqud"dan üzü bəri olanları diqqət önünə gətirir. Azərbaycan poeziya sənətinin möhtəşəmliyi üslubların, yaradıcılıq axtarışlarının, mühitlərin və ədəbi məktəblərin uğurları və əlavələri ilə şərtlənir. Bədii düşüncənin yaradıcılıq təsəvvürləri onun

qnesioloji dərkindən hissi mahiyyətinə qədər bütöv bir sistemlə müəyyənləşir ki, bu da stil, metod, cərəyan və forma ilə reallaşır. "*Bəzi ədəbiyyatçılar bədii yaradıcılığın fərdi iş olduğunu nəzərə alaraq belə qənaətə gəlirlər ki, dünyada nə qədər yazıçı varsa, bir o qədər də bədii stil vardır, çünki bir yazıçı ilə digər yazıçı arasında tam mənada eyniyyət işarəsi qoymaq olmaz. Bu fikirdə müəyyən bir həqiqət olsa da, biz öz əsərlərinin ideyası, mövzusu, kompozisiyası, dili, üslubu etibarı ilə bir-birinə yaxın yazıçılara rast gəlirik*" [72, s.100]. Ümumiyyətlə, ədəbiyyat tarixinə, onun ayrı-ayrı dövrlərində ədəbi prosesin axarına diqqət yetirdikdə bu məsələlərin kifayət qədər mükəmməlləşmiş örnəklərinə rast gəlirik. Epos təfəkküründən dastana, nağıl təhkiyəsinə, yazılı ədəbiyyat mühitinə, eləcə də çeşidli folklor materiallarına nəzər saldıqda müəyyənləşmiş yaradıcılıq təsəvvürlərinin davamlılığını müşahidə etmək olur. Məsələn, sənətkar özünəməxsusluğu timsalında apardığımız təhlillərdə tarixi mədəni, bədii-estetik axarın dinamikasında son dərəcədə təhlillərə gətirilib aydınlaşmalı problemlərlə qarşılaşırıq. Sərbəst şeir ənənəsinin genetik qaynağına diqqət yetirdikdə bir meyar olaraq XX əsrdə mövcud axarı vurğulasaq da, ancaq onun qaynağı qədim türk şeirinə, "Kitabi-Dədə Qorqud" dastanında özünü göstərən rəngarəng nümunələrə diqqət yetirmək gərəyi yaranır.

Ədəbi-nəzəri düşüncədə özünü göstərən "bədii sənət öz yolu ilə tarixə yoldaşlıq edir" meyarı təbii və fövqəltəbii xarakteri ilə şeirdə də eyni təsəvvürü sərgiləyir. Tarixi-mədəni axarın ümumi dinamikası, formalaşdırdığı təsəvvür türk şeir ənənəsi və bütünlükdə Şərq poeziyası timsalında heca vəznli poeziya, əruz vəznli poeziya və sərbəst vəzn timsalında müəyyənləşir. Onu da əlavə edək ki, bədii düşüncə birdən-birə açılmır və onun inkişaf dinamikasının mükəmməlləşmə prosesi də tədrici xarakteri ilə zənginləşmə prosesi keçirir. Daha doğrusu, sadədən mürəkkəbə, formanın mükəmməlliyinə və bir forma daxilində müxtəlif çeşidli örnəklərin yaranmasına əsas olur. Xalq şeiri ənənəsində, heca vəznli poeziyada, aşıq şeiri şəkillərində, eləcə də əruz vəzninin ayrı-ayrı bəhrləri timsalında diqqət yetirdikdə bu bütün fakturası ilə özünü göstərə bilir. Onun genetik qaynağı isə ilkin təsəvvürdə hələ kanonik sistemdə kifayət qədər oturuşmamış türkülərə (döyüş türküsü, yağma türküsü, ov türküsü və s.), maniçi türkülərə, ilahilər kimi çeşidli məzmun və forma ilə

səciyyələnən poetik nümunələrə bağlanır. Sinxron və diaxron yanaşmalarda "*qədim türk ədəbiyyatı tamamilə təbii olaraq, etnosun, xalqın ümumkütləvi yaradıcılıq məhsulu olan eposla başlayır. Qədim türk eposunun ideya-estetik, poetik-poetexnoloji diferensasiyası nəticəsində qədim türk poeziyası, sonralar (eramızın I minilliyinin ortalarında) isə qədim türk nəsri formalaşır"*[21, s.9]. Ədəbi-mədəni prosesin diferensasiyasında nəzərə çarpan tendensiyalar və yaradıcılıq təsəvvürləri polifonik məzmun qatlarının ümumi sintaqmları və xronotop xarakteri ilə eposa qədərki mərhələnin mənzərəsi haqqında təsəvvürü də bir zərurət olaraq qarşıya qoyur. Çünki epos janr səviyyəsi və paradiqmatik mənzərəsi ilə elə arxitektonik mükəmməlliklə müəyyənləşir ki, o, bütünlükdə etnosun tarixi-mədəni, bədii-fəlsəfi gücünü özündə ehtiva edə bilir.

Sərbəst və nisbətən də qafiyəli şeir formatları ilə səciyyələnən ilkin bədii düşüncə modelləri "Kitabi-Dədə Qorqud"da bütün stixiyası ilə (sərbəst və heca vəznli olma imkanları ilə) özünü göstərə bilir. İnsanın idraki potensiyası, qnesioloji mahiyyəti yaddaşa və yaddaşla daşınıb gələn təbii bir prosesə bağlandığı üçün çağdaş ədəbi prosesin ümumi mahiyyətində dayananları mətn//mətn, mətn//mühit, mətn//subyekt səviyyəsində təhlilə gətirdikdə bədii-estetik məzmunun tarixi xronikallığı özünü daha aydın şəkildə göstərir. Epos təhkiyəsində Nizamiyə gələn yol (və yaxud da "Kitabi-Dədə Qorqud" və "Avesta" müstəvisində) öz dinamik mənzərəsi, mükəmməllik səviyyəsi ilə ciddi yaradıcılıq təcrübəsinə bağlanır. Məlum olduğu kimi, "*Azərbaycan şeiri heca, əruz və sərbəst vəznlə yaradılmışdır. Əruz vəzninin Azərbaycan ədəbiyyatında min ildən çox tarixi vardır. Hecanın tarixini isə Azərbaycan şeirinin, xalqının özünün inkişaf tarixindən ayırmaq qeyri-mümkündür. Onu da demək kifayətdir ki, "Avesta"nın "Qatlar" hissəsindəki şeirlər – Zərdüştün özünün şeirləri heca vəzni ilə yazılmışdır. "Qatlar" 896 misradan ibarətdir. "Avesta"nın "Yeşta" adlanan hissəsində 8, 10 və 12 hecalı şeirlər çoxdur... Zərdüştün şeirlərində hecanın ən azı 8 şəkli var"* [45, s.214]. Azərbaycan şeirində poetik sistemin mükəmməlləşməsi və tarixi dinamikası dilin fonopoetik, morfopoetik xarakterinə bağlanmaqla bir təbiiliyi müəyyənləşdirir. Xalq poeziyasını və etnokulturoloji sistemin invariantlarına köklənən mədəni axar nəğmə, oxşama, bayatı,

sınamalar, əzizləmə, mərasim folkloru timsalında bütünlükdə etnoqrafik mühiti əhatələməklə, həm də çeşidli şəkil zənginlikləri, formullar sisteminin formalaşması və oturuşması ilə tədrici proses keçirirdi. Ümumiyyətlə, şeirin təbiəti bir növ özünün ehtiva etdiyi sistemə, ritmə və onun mükəmməllik qanunlarına bağlanır. Tarixi-mədəni proses insanın ruhundakı bədii-estetik prinsipə köklənməklə həm də onun təbii qanunauyğunluğuna, müqəddəs bir nizama əsaslanmışdır. Bütün bunları təhlilə gətirən nəzəriyyəçilər, məsələn, Andre Morua vurğulayırdı ki, "*şeir mənim üçün bir növ musiqidir, xüsusi bir vəznə ehtiyac vardır. Vəznsiz şeir məncə, əbəs yerə qırıq-qırıq edilmiş pis nəsrdən başqa bir şey deyildir*" [145]. Azərbaycan şeirində özünü göstərən vəznlərin (heca, əruz və sərbəst) ümumi prinsipi nəzəri-estetik qanunauyğunluq timsalında sırf dilin özünün ruhani təbiətinə bağlanır, daha doğrusu, dil və vəzn prinsiplərinin ümumi təbii simmetriyası ilə reallaşır.

Azərbaycan sərbəst şeir ənənəsinin bədii-estetik axarı ritm və musiqililik, mətn fərqlilikləri kontekstində ilkin şeir örnəklərindən "Kitabi-Dədə Qorqud", "Avesta" və zəngin folklor arealında olanlarla, eləcə də əruz vəznli ədəbiyyatın möhtəşəmliyində də tipoloji yanaşmaların aparılmasını zəruriləşdirir. Məsələn, mətn tiplərində (və yaxud da ifadə özünəməxsusluqlarında) "Kitabi-Dədə Qorqud" // "Xəmsə" (N.Gəncəvi), "Kitabi-Dədə Qorqud" // "Dastani-Əhməd-Harami" və yaxud da epik ənənə müstəvisində N.Gəncəvi və A.Ərdəbili, N.Gəncəvi və M.Əvhədi, N.Gəncəvi və Ə.Təbrizi, N.Gəncəvi və M.Füzuli və s. Bunlar bir istiqamətdə ənənəyə və ənənənin oturuşması təsəvvürünə bağlanmaqla zənginləşmələrlə faktlaşır. Məsələn, N.Gəncəvinin yaradıcılığı timsalında olanlar bunun klassik nümunəsidir. Geniş *müstəvidə "Nizami həm də "müsəlman renessansının" banisi kimi ədəbiyyatda elmin, sənətin, din və sivilizasiyanın böyük carçısı və təbliğatçısı kimi öz təlimini yaratdı. "Xəmsə" təkcə ideya, məfkurə baxımından deyil, bədii sistem yaradan bir əsər kimi də orijinal idi"* [124, s.98]. Mühit və ədəbi məktəb səviyyəsində baş verənlər (Şirvanşahlar saray mühiti, Atabəylər saray mühiti, Bağdad ədəbi mühiti (M.Füzuli ədəbi məktəbi), Qarabağ ədəbi mühiti, ədəbi məclislər (XIX əsr) və s.) bütün dinamik mənzərəsi və tarixi xronikası ilə zənginləşməni, ədəbi-mədəni prosesin gedişini özündə ehtiva etmək gücü ilə səciyyələnir. *"Milli mədəniyyətin ana*

*xətti "Dədə Qorqud"dan üzü bəri olanlara bağlanır. Sonrakılar əlavə olanlardır və birmənalı olaraq qəbul olunan bundan ibarətdir ki, bir xalqın genetik yaddaşında, mifik dünyagörüşündə özünün ifadəsini tapan, qəlibləşən, kanonik sistem formalaşdıran nə varsa hamısı bir məcrada kodlaşır"* [7, s.138]. Şifahi xalq ədəbiyyatı zəminində formalaşan çeşidli mətn modelləri yazı mühitində bir qaynaq olaraq orta əsrlərdə ürfan və təkyə simvolikasında, eləcə də ədəbi axın və meyillərin yaradıcılıq axtarışlarında çoxşaxəli və çoxqatlı əlavələrlə (zənginləşmələrlə) özünə yer alır.

Orta əsrlərin yeni düşüncə və təfəkkür sferasında gedən proseslər ədəbi-mədəni mühitin zəruri ehtiyac və axtarışlarının nəticəsi olaraq mükəmməl təsəvvür formalaşdırır. İnsan, onun daxili aləminin ruhani və idraki dərki, bədii düşüncədə inikasının fiziki və mənəvi dərkinin konsepsiyalaşması daha çox aparıcı mövqeyə çıxarılır. Lirik-fəlsəfi düşüncələr, fərdi hisslərin təzahürü, ədəbi-mədəni konsorsiumun ortaya qoyduğu konsepsiya bir bütöv olaraq yaradıcı mühitin mahiyyətini faktlaşdırır. Zəngin mədəniyyətə malik orta əsrlərin klassik şeiri N.Gəncəvi, İ.Nəsimi, Ş.İ.Xətai M.Füzuli timsalında bir möhtəşəmliklə səciyyələnir. Etnokulturoloji diferensasiyanın poetexnoloji məzmununda gedən proseslər həm də modelləşmələrdə yeni konseptlərin meydana gəlməsini bir zərurət olaraq qaçılmaz edir.

Paşa Qəlbinur poeziyasının fərdi üslub və yenilik müstəvisində təhlili ədəbi-mədəni axarın ümumi xronikasında dayanan və xüsusi mərhələ səciyyəsi ilə diqqəti cəlb edən XIX əsri də diqqət önünə gətirməyi gərəkli edir. Əlbəttə bu mərhələnin özünün genetikası bir istiqamətdə etnokulturoloji sistemin ümumi formulasına hesablanır və XVII-XVIII əsrlərdən başlayan yeniləşmənin yeni tipi olaraq təsəvvür formalaşdırır. Çünki ədəbiyyatda Vaqif mərhələsi olaraq xarakterizə olunan XVIII əsr tarixi diaxroniyası ilə yeni təfəkkür tipologiyasını və onun ədəbi-nəzəri konsepsiyasını müəyyənləşdirdi. XIX əsrdən başlayaraq şeirdəki fəlsəfi mühakimələrin yerini müasirlik və real obrazların lirik təzahürü tutmuşdur. M.P.Vaqif, M.V.Vidadi timsalında ədəbiyyatın kəsb etdiyi məzmun daxili mahiyyəti ilə yeni məcraya yönəlmiş, realizm üstünlük qazanmağa başlamışdır. Q.Zakir,

S.Ə,Şirvani, A.Bakıxanov, M.Ə.Sabir, A.Səhhət və s. sənətkarların simasında tarixi-mədəni axarın ümumi diferensasiyası forma, struktur, üslub və s. məsələlərin periferik xarakterliliyi ilə şərtlənir.

XVIII əsrdən ədəbi-mədəni sferada başlayan milli birlik, bütövlük düşüncəsi siyasi sferada özünü göstərən qarşıdurmalar, əvvəlki birlikdən parçalanmaya və parçalanmadan birliyə prinsipinin tarixi-fəlsəfi, ictimai-siyasi aurasına bağlanmaqla, həm də reallığı sərgiləyir. Ona görə də bütünlükdə XIX əsr boyu gedən proses əsrin sonunda və XX əsrin əvvəlində ən möhtəşəm mərhələsini yaşayır. Realistlərin, romantiklərin və həm də bunların ortaqlığında dayanan maarifçilərin düşüncə və əqidə mücadiləsində keyfiyyət göstəriciləri ilə xüsusi məzmun daşıyır. Bu mərhələ bütün aspektlərdə milli özünü axtarış və özünü dərk dövrü olaraq mövcud ictimai-siyasi sferada problemlərin həllinə kökləndi və onun həlli üsul, yolları üzərində mücadiləyə qərar verdi. Bütün bunlar isə özlüyündə fikir və yanaşma fərqliliyindən, onun bədii mühitdə ifadəlilik formalarına qədər bir rəngarəngliyi əhatələdi. M.Ə.Sabir, A.Səhhət, M.Hadi, Ə.Hüseynzadə, H.Cavid, Ə.Cavad, C.Cabbarlı, S.Vurğun, M.Müşfiq və başqalarının timsalında ciddi faktura ilə müəyyənləşir. Bütün səviyyələrdə baş verən milliləşmə həm də janr səviyyəsində əlavələrin və genişlənmələrin təzahür formaları ilə şərtlənir. Tendensiya qarşıdurmaları, ideya mücadilələri ilə ədəbi-mədəni mühiti əhatələyən bədii düşüncə, həm də janr tipologiyasında da bir özünəməxsusluq formulu olaraq ənənəvi olandan əlavə yenilərin də boyartımına şərait yaratdı.

İctimai-siyasi, ədəbi-mədəni mühitin determinasiyaları bütünlükdə XX əsr boyu təbəddülatlarla, əvəzləmələrlə, bir-birinə yaxın və bir-birindən fərqli (hətta daban-dabana zidd) mövqelərin görünüşü ilə faktlaşır. XIX əsrin sonları və XX əsrin əvvəllərində baş verənlər, realistlərin və romantiklərin, eləcə də onların ortaqlığında dayanan maarifçilərin yaradıcılıq platforması, Xalq Cümhuriyyəti dövrü, bolşeviklərin ədəbiyyat və sənət təsəvvürləri, sosialist realizm konsepsiyası və sovet adamı fəlsəfəsi, digər kontekstdə sovetlər dönəmində hər onlilliyin özünün doğurduğu ideoloji konsepsiya bütünlükdə ədəbiyyatın taleyindən keçir. Təkcə ideoloji sistemin ortaya qoyduğu metodologiya ilə kifayətlənilmir, burada həm də

modelləşmənin özünəməxsus formullarının formalaşması prosesi də bir tərəf kimi müşahidə olunur. Ədəbiyyatın, bədii düşüncənin mahiyyətində dayanan insan konsepsiyasının yeni bir formatı, sovet adamı modeli müəyyənləşir. Ədəbi-mədəni düşüncənin mahiyyətində olan *"kamil insan xalqı sevməyi, vətənpərvər olmağı bacarmalı, vətənpərvərlik və xalqı sevmək nəşəsini başa düşməli, azadxah olmalı, haqq sözü xalqa çatdırmağa çalışmalı, başqalarını da mübarizəyə cəlb etməyi bacarmalıdır*" [17, s.225] - təsəvvürü bütünlükdə sovet dönəmində polifonik məzmunu ilə ümumi xarakter daşıdı. İdeoloji sistemin mahiyyətinin və repressiyanın paradoksal mənzərəsinin şahidi olanlar müəyyən təhkiyə axarında mahiyyətin metaforik təqdiminə üstünlük verdilər və bir növ ədəbi-mədəni sferanı 60-cı illərə hazırladılar. Beləliklə, bu nəsil ədəbiyyatın və ədəbi-mədəni mühitin taleyi nə qədər sıxıntılarla yaşasa da, sıxıldıqca bətnində milli təfəkkürün, milli müəyyənliyin elmi-nəzəri konseptinin formullarını hazırlamağa üstünlük vermiş və ümumi axarı ona kökləməyi bir məqsəd olaraq planlaşdırmışdır.

Keçən əsrin 60-cı illər nəslinin, nəsrinin, poeziyasının nəzəri konsepti etnosun, onun ədəbi-mədəni düşüncəsinin ümumi ruhuna və mənlik təsəvvürünə köklənmişdir. Vəzn, üslub, yaradıcı özünəməxsusluğu bütün zamanlarda etnosun yaşam tərzində, apardığı mücadilədə əlavələri və bədii düşüncənin imkanlarını bir zərurət olaraq ortaya qoyur. Sərbəst şeir ənənəsinin də bir xətt olaraq XX əsr boyu güclənən tendensiyası və 60-cı illərdə kəsb etdiyi məzmun arxitekstuallıq səviyyəsində kəsb etdiyi çeşidlilik və yeni mahiyyət təsəvvürünə bağlanır. Paşa Qəlbinurun poeziyası timsalında aparılan təhlillər bədii düşüncə və yaradıcı laboratoriyası anlamında tarixi ənənə və təkamül prosesinin ümumi xronotop (məkan və zaman) xarakterini müəyyənləşdirir.

Sərbəst şeir təsəvvürü və onun özünəməxsusluq formulu genetik kodları etibarilə çox-çox dərinlərə, ilkin yaradıcılıq təsəvvüründən "Kitabi dədə Qorqud"a gələnlərə və "Dədə Qorqud" dastanlarında olanlara bağlansa da (eləcə də türkülərə, səmavilərə və s.) onun yeni sferada bütün parlaqlığı ilə görünüşü XX əsrin 20-30-cu illəri ilə müəyyənləşir. "*Bu vəzn özünün varlığında başqa vəzn sistemlərinin səciyyəvi əlamətlərini daşıyır. Ona görə də sərbəst vəzn hər hansı bir xalqın*

*ədəbiyyatına müdaxilə ilə kənardan gələn təmayül deyildir. Xalqların ədəbiyyatında sərbəst vəzn təbii, milli bədii zövqün, milli bədii ehtiyacın, fərdi yaradıcılıq axtarışlarının tələbi ilə yaranmışdır*" [45, s.226]. Ümumiyyətlə, bədii yaradıcılıq nə qədər mürəkkəb bir proses olsa da, bir o qədər də (bəlkə də ondan artıq) təbiiliyə bağlanır. Onun özünəməxsus genetik sistemi, təhlilə gətirilməsi bir qədər də çətin olan ruhaniyyətə bağlanan çeşidli qatları vardır. Doğrudan da, şeir tarixinə fikir verdikdə və şifahi ənənədən yazılı ənənəyə gələnləri izlədikdə vəzn topluluğuna məxsus əlamətlərin boy göstərdiyini müşahidə edirik. Bədii yaradıcılığın nüvəsində dayanan simptomlar və təbiiliyin doğurduğu yaddaş arxetipləri həm də arxetiplərin hərəkətliliyi ilə nəzərə çarpır. Ona görə də ədəbi prosesdə sərbəst vəznin bir təmayül olaraq sərgilədiyi təsəvvür milli yaradıcılıq texnologiyasının ümumi nitq janrlarına bağlanır.

Poetexnoloji sistemlərin rəngarəngliyi və ümumi fiqurallığı məsələsi sərbəst şeir səviyyəsində mahiyyətində hər bir etnosun dil qanunları (və özünəməxsusluqları) ilə nizamlanır. XIX əsrdən başlayan sərbəst şeirdəki güclənmə tendensiyası təkcə türk xalqları səviyyəsində deyil, bütünlükdə dünya poetik düşüncəsini (məsələn, yunan, roma, alman, fransız, yapon, italyan və s.) əhatələyir. Bədii yaradıcılıq nə qədər təbii bir proses olduğu kimi, onu reallaşdıran formalar da eyni ahəngə köklənməklə mahiyyətində eyni təbiiliyi sərgiləyir. Azərbaycan poeziyasının zənginliyində sərbəst ifadə formalarının "Dədə Qorqud" dastanlarından üzü bəri gələn axarında təsvir, təhkiyə, dil-üslub müəyyənliyində bir zənginlik meyilləri ciddi məsələ kimi özünü göstərir ki, bu da yaradıcılıq axtarışlarına bağlanır. İfadə normativlərində güclənən meyil və tendensiyalar eksperimentlikdən çox uzaq bir təmayül faktı kimi sərbəst şeir timsalında yeni şəraitin faktı olaraq modern ədəbiyyat təsəvvürünü müəyyənləşdirdi. "*XX əsr Azərbaycan ədəbiyyatı tarixinin III mərhələsi əsasən nəsr təfəkkürünün inkişafı ilə səciyyələnsə də, həmin mərhələdə poeziyanın imkanları da genişdir - əsasən iki poeziya məktəbi, yaxud tendensiyası fəaliyyət göstərir:*

*1) ənənəvi məktəb, yaxud Səməd Vurğun məktəbi: Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Nəbi Xəzri, Nəriman Həsənzadə, Məmməd Araz, Qabil...*

*2) eksperimental-modern məktəb, yaxud Rəsul Rza məktəbi: Əli Kərimli, Fikrət*

*Qoca, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Ələkbər Salahzadə, Vaqif Cəbrayılzadə...*

*Lakin elə şairlər də var ki, hər iki məktəbi birləşdirməyə çalışmış – kifayət qədər uğurlu bir təcrübə vermişlər*" [20, s.155]. Onu da əlavə edək ki, bu iki xəttin aparıcı dinamikası bütün XX əsr boyu özünü göstərir və doğrudan da, məktəb anlamına gəlməsi ilə bütöv bir zənginləşməni, axarı müəyyənləşdirir. Lakin bunların bir tendensiya olaraq ədəbiyyata gətirdikləri üslub, yaradıcı axtarışları və özünəməxsusluqları (uğurları) timsalında ciddi bir poetexnoloji sistemin oturuşması ilə şərtlənir. "*Azərbaycan ədəbiyyatında sərbəst şeirdən ilk dəfə S.Vurğun, R.Rza, M.Müşfiq, Ə.B.Fövzi istifadə etmiş, sonralar ənənə davamlı təzahürünü O.Sarıvəlli, Ə.Kərimli, İ.İsmayılzadə, F.Qoca, F.Sadıq, Ə.Salahzadə, A.Abdullazadə yaradıcılığında tapmışdır.*

*60-cı illərdən Rəsul Rza daha çox sərbəst şeirdən istifadə etmiş, məqalələrində və bəzi şeirlərində ("Ənənə", "Şeir vəzni və məhəbbət haqqında dastan", "Qafiyə", "Yeni söz", "Nəzirə") bu ölçünün imkanı təsiri və sərbəstliyi barədə fikirlər söyləmişdir*" [45, s.226]. Müasir ədəbi mühitin istedadlı nümayəndələrindən olan P.Qəlbinur da bu ənənələrdən yararlanmaqla özünün bənzərsiz şeir nümunələri ilə çağdaş poeziyaya töhfələrini vermişdir. Azərbaycan sərbəst şeirinin ədəbi təcrübəsi tarixi təkamül baxımından keyfiyyət dəyişmələrinin uğurlu əmsalını müəyyənləşdirir. Ədəbiyyatın çağdaş mərhələsində epitekstoloji mənzərənin yaradıcılıq formulası özlüyündə təkcə məzmun müstəvisində deyil, həm də formul konseptində metamodellərin hərəkətliliyi ilə müşahidə olunur. Bütün aspektləri ilə milli yaradıcılıq ruhuna (və ənənəsinə) bağlanan P.Qəlbinur poeziyası ənənə və özünəməxsusluğun ortaqlığında uğurlu bir təsəvvür formalaşdırır. Poeziyasının ana axarını müəyyənləşdirən sərbəst şeir metamodeli sənətkar üslubunun müəyyənlik formulu olaraq aparıcılıq qazanır.

Paşa Qəlbinur yaradıcılığının epitekstoloji çevrəsini esselər, miniatür roman və s. kimi janrlar müəyyənləşdirsə də, funksional səviyyəni poeziya tutur. Şeir yaradıcılığına gəlincə isə sərbəst vəzn timsalında deyilmiş poetik örnəklərin özünün daha çeşidli mənzərəsi nəzər-diqqəti cəlb edir. "Ay bir əlçim buluddur", "Payız məktubu", "Rəngli göz yaşları", "İtmiş həsrət kimi", "Ağlıma gələnlər başıma gəldi"

və s. kitablarının formalaşdırdığı təsəvvür təkcə mətn modellərinin tipologiyası baxımından önəm daşımır, həm də paradiqmatik səviyyənin uğurluluq dərəcəsi ilə sistemli yanaşmalara yol açır. Bütün yaradıcılığı boyu nəzərə çarpan milli mənsubluq konsepsiyası şeirdən-şeirə, kitabdan-kitaba açılır və yaradıcı ideallarının, sənətkar istəyinin mahiyyətini ortaya qoyur.

Sərbəst şeir mühitində sənətkar imkanlarının və çatdırma üsullarının rəngarəngliyi, həm də onun janr səviyyəsində əldə etdiyi uğurlara bağlanır. Fikrin və məzmunun yaratdığı ritm sərbəst şeirdə çoxcəhətli (həm də çoxşaxəli) yön və istiqamətlərlə, enmə və yüksəlmələrlə bədii mətnə əlavə ovqat gətirir. Sözün sözə, fikirin fikrə hopması, sintaktik səviyyənin geniş mündəricəsi ilə faktlaşır və bədii axarda misralararası, sözlərarası fasilələr bir növ məzmun yaradıcı funksiya daşıyır. Bütün bunlar Azərbaycan poeziya mühitinin invariantlarını aydınlaşdırmaq, genetik ampluasında özünü göstərən məzmunun sxemlərini müəyyənləşdirmək üçün mükəmməl fakt rolunu oynayır. Paşa Qəlbinur poeziyasının daxili dinamikası dil imkanlarına və fikrin obrazlılılıq səviyyəsinin aparıcılığına əsaslanır. Onun yaradıcılığının ümumi sistemi ədəbi-nəzəri təfəkkürdə müəyyənləşmiş sərbəst şeir qanunauyğunluğuna hesablanmaqla bədii mətnin özünün ortaya qoyduğu bütövlüklə faktlaşır. Çünki *"sərbəst şeir tamam sərbəstlik, vəznsizlik, misraları necə gəldi qafiyələndirmək, qırmaq və səpələmək deyildir. Sərbəstlik vəznin poetik imkanlarından yaradıcı, fikrin hərtərəfli açılmasına uyğun sərbəst istifadə deməkdir"*[45, s.228].

P.Qəlbinur poeziyası sərbəst şeir ənənəsinin məzmun və poetexnoloji mükəmməlliyinə rəngarəng çalarlar qatmaqdan əlavə, orijinal boya və fikir yükünün dolğunluğu ilə ciddi önəm kəsb edir. "Xallı balıq", "Gecənin əynində", "Min illik şərab", "Qızılgül", "Yuxu", "Bənövşə", "Üç yarpaq", "Borc", "Sarı gül", "Ağ qu, qara qu", "Bu göl niyə quruyubdu", "Gecələr işığa sürtər üzünü", "Doluxsunmuş sükut" və s. şeirlərin formalaşdırdığı təsəvvür ədəbi-tarixi təcrübənin uğurluluğuna bağlanır.

*Vaxt uzanır...*
*Ağrıların saqqızında.*

*Gecənin bağrından yol salır anam.*

*Gedir addım-addım*

*gedir dönmədən*

*Bu ağrı yolunda*

*ən nəhəng inam!* [91, s.212].

Göründüyü kimi, bədii mətn şeirdə əlavə yükə, səciyyələndirmənin rəngarəng formalarını axtarmağa, bənd nizamına ehtiyac doğurmadan düşüncənin axarında nə lazımsa hamısını yerinə qoyur. Mətn boyu nəzərə çarpan tərkiblər, söz və ifadələrin yerli-yerində işlənməsi birbaşa hiss və duyğuların, fikir və düşüncənin tələbinə hesablanır. Sərbəst şeirin mahiyyəti və onun özünəməxsusluq sistemi adındakı sərbəstlik qədər, həm də dilin, söz axarının mükəmməl nizamını bir zərurət olaraq qarşıya qoyur. Formanın təbiətindəki çeviklik, fikrin ümumi axarı üçün sərbəstliyin yaratdığı şərait, gerçəkliyə və predmetə yanaşma üsullarının çeşidliliyi, mahiyyəti dərk və ifadə üsullarının poetik dinamikası bir bütöv olaraq sənətkar qarşısında geniş imkanlar yaradır. P.Qəlbinurun da bir sənətkar kimi sərbəst şeirə üstünlük verməsi daha çox ruhu ilə həmin formaya bağlanmasından və özünü orada tapmasından irəli gəlir.

Dünya ədəbi-mədəni mühitində fikri ifadənin müxtəlif forma və üsulları olmuşdur və bunun dinamikası tarixən ənənəyə, sadədən mürəkkəbə, daha çeşidli forma və üsulların müəyyənliyinə və yaradıcı axtarışlarının uğurlu örnəklərinin ortaya çıxmasına köklənmişdir. Türk şeir ənənəsinin ilkin nümunələrindən (əmək və mərasim nəğmələrindən) eposa gələn möhtəşəm yol həm də yaddaşın xronikal faktı olaraq bədii-estetik diaxroniyanın çoxqatlılığını aydınlaşdırmağı zəruri edir. Söz//Mətn//İntonasiya paradiqmasında müəyyənləşən bütövlük bütün tarix boyu bədii düşüncəni izləmişdir. İlkin bədii düşüncənin söz və ifadə (misra) musiqililiyi (ritmi) bir növ insan zəkasının və ruhani dünyasının qiymətləndirməsi, həm də ona köklənməsi olaraq tədrici prosesdə mükəmməlləşmişdir. Hecaya gəlişin özü bir proses olaraq ibtidai mərhələdən sərbəst şeirin musiqili söz və musiqili ifadə texnologiyasından istifadə ilə reallaşmışdır. Yunan və romalıların "Algey beyti" adı ilə vurğuladığı forma və bədii mətn modeli fərqli sayda hecaların sıralanmasına

köklənir. “Kitabi-Dədə Qorqud” dastanlarının ecazkarlığında dayanan məsələlərdən birisi bu ifadə özünəməxsusluğunun mətn modelində uğurluluğudur.

*Açıq-açıq meydana bənzər sənin alıncığın,*
*İki şəbçırağa bənzər sənin gözciyəzin.*
*Əbrişimə (ipəyə) bənzər sənin yaliciyin,*
*İki qoşa qardaşa bənzər sənin qulacığın,*
*Əri muradına yetirər sənin arxacığın.*
*At deməzəm sana, qardaş derəm*
*Qardaşımdan yey!*
*Başıma iş gəldi, yoldaş derəm.*
*Yoldaşımdan yey!* [75, s.61].

Və yaxud da dünya şöhrətli “Koroğlu” dastanı kimi mükəmməl abidə nə qədər xalq şeiri ənənəsinə köklənsə, sazın ruhu üzərində nizamlansa da müəyyən sərbəst misra fərqlilikləri ilə nəzərə çarpan örnəkləri də özündə qoruyub saxlayır.

*Koroğlunun atı olsa,*
*Dəmir, polad qatı olsa,*
*Bir iyidin zatı olsa,*
*Pullu da olur, pulsuz da olur* [76, s.74].

“Kitabi-Dədə Qorqud”dan, “Orxon-Yenisey” və “Gültəkin” abidələrindən “Koroğlu”ya gələn yol bədii düşüncə modellərinin dinamikası, fərqli zaman xronotoplarının faktı olaraq müəyyənləşir. “Dədə Qorqud”da bədii mətnin möhtəşəmliyi və ecazkarlığı özlüyündə bədii kamilliyin mümkünlüyü haqqında təsəvvür formalaşdırır və onu da deməyə əsas verir ki, epos təkcə xalqın tarix dərsliyi deyil, həm də bədii düşüncə göstəricisidir. “Dastanın dilində ritm yaradan amillər kimi qrammatik təyinləri və alliterasiyanı ön plana çəkən alim buradan çıxış etməklə vurğulayır ki, bunlar bizə belə fikir söyləməyə əsas verir ki, sərbəst vəznin də mənşəyi məhz “Kitabi-Dədə Qorqud” eposudur” [112, s.336]. Əlimizdə olan fakt və yazılı ədəbiyyat örnəyinin bizə çatdırdığı informasiyadır, ancaq epos mükəmməlliyində özünü göstərən sərbəst şeir nümunələrinin poetik sistemi “Dədə Qorqudun” oğuz auditoriyasında yer aldığı zamandan daha əvvəllərdə olan

vəziyyətini düşünməyə əsas verir. Eyni zamanda xüsusi bir mərhələ təsəvvürünü ehtimal olaraq ortaya qoyur. Sərbəst şeirin Azərbaycan mühitində tarixinin daha qədimlərə bağlanması haqqında elmi sferada söylənənlər bizə buna bəraət qazandırmağa haqq verir. M.Cəfər bayatılarla bağlı təhlil yazılarında vəzn "pozulmasını" sərbəstliyə meyl olaraq vurğulayır. Bayatı ustadı kimi tarixə adını yazmış Lələnin, Əzizinin, Sarı Aşığın, eləcə də yazılı ədəbiyyatın görkəmli nümayəndələrindən olan M.Əmaninin əlimizə gəlib çatan örnəklərində də bu hal müşahidə olunur. Görkəmli ədəbiyyatşünas Ə.Abid vurğulayır ki, *"vəzn dilin məhsuludur, hər ictimai zümrənin öz ilk şeirinə verdiyi ahəng, dilinin ümumi ahəngindən ayrılan "ənsar element"lər məcmusudur. Türklərin şeir musiqisini axtarmaq üçün nə Ərəbistanın qızğın çöllərinə, nə də İranın tozlu ovalarına getmək lazım deyildir. Sözlərin dilimizə çevrilməsi bunun fəlsəfəsini anlamaq üçün yetişər"* [3, s.144]. Epos təhkiyəsi üzərində təhlil aparan ədəbiyyatşünas əlavə edir ki, *"cümlələrin sonlarına bir taqım zəif səcilər konulması, cümlə və siğələrin təkrar edilməsi və yaxud bəzi nida ədatının cümlə başına və sonuna dəfələrlə əlavəsi, adəta ibtidai vəzn və qafiyə deməkdir. Zaman keçdikcə türkcənin təkamülü, bu ahəng hərəkətlərindən öz vəznini yaratdı"* [3, s.144]. Mövcud nəzəri fikirdəki müxtəlifliklər vəznli nəsr və şeir vəznləri ətrafındakı fikir ayrılıqlarını da qaçılmaz edir. Məsələn, "Kitabi Dədə Qorqud" dastanı nə şeirlə yazılmışdır, nə də nəsrlə". Buna görə orada sərbəst və ya qeyri-sərbəst şeir nümunələri axtarmaq düzgün deyildir" [10, s.43]. Bütün bunlar poeziyanın tarixin çox-çox dərinliklərindən gələn qaynaqlarına həssaslıqdan və XX əsr boyu çoxalan istiqamətdə gedən sərbəst şeir təsəvvürünün aydınlaşması tendensiyasından irəli gəlir. E.Verxran, A.Blok, V.Brüssov, V.Mayakovski, N.Hikmət və başqalarının bu prosesdə əldə etdiyi uğurlar özlüyündə janr paradiqmasına əlavə ovqat qatmışdır.

Sərbəst şeir, adın ehtiva etdiyi təsəvvür həm də onun özünəməxsusluq tipologiyasını ortaya qoyur. Heca və əruz sistemlərində olan mükəmməllik, janr və vəzn texnologiyası bir bütöv olaraq müəyyənlikli (həm də oturuşmuş) sistemlə faktlaşır. Sərbəst vəzndə bunun özünəməxsusluğu vəznin adındakı sərbəstliyə (heca və qafiyələnmə prinsipinə) əsaslanmaqla, həm də sərbəst olduğu qədər daxili bir

nizama köklənir. Daha doğrusu, şeirin ölçü, bölgü, qafiyə sisteminin özünəməxsus anatomiyası mətnin sərgilədiyi məzmunda müxtəlif səviyyələrdə reallaşır. İki-üç misradan bir və ya bir neçə misrada ardıcıllıqla qafiyələnmə nümunələri var ki, bunlar hamısı həm də məzmun yaratma xüsusiyyəti ilə özünü göstərir. Misraların fonopoetik, morfopoetik, sintaktik unikallığında aparılan modelləşdirmə artıq şeir mühitində mükəmməl bir əlvanlıqla, bədii poeziya arsenalının mahiyyətinə öz töhfələrini verməklə şərtlənir. Sərbəst şeirin özünün struktur formulasında nəzərə çarpan misraların sıralanması, heca sayı, qafiyələnmənin ümumi mənzərəsi hansısa bir ideyanın, məzmunun uğurlu çatdırılmasına xidmət edir. Janr özünəməxsusluğunda boy göstərən bütün fiqurlar mahiyyəti, sənətkar imkanlarını sərgiləyir.

Şeir ümumiyyətlə milli ruha, etnopsixoloji düşüncənin ümumi genetik kodlarına, dilin təbiətinə bağlanır. K.Paustovski yunan ədəbiyyatını böyük simalarından olan Homer haqqında söhbət açarkən "İliada" əsərinə istinad edir və vurğulayır ki, "*Homer ilk dəfə "İliada" əsərində vəzndən istifadə etmişdir. Bu vəzn, başqa sözlə "İliada"nın ölçüsü hekzometrdir. Hekzometrlə misralar doqquz qısa, beş uzun hecaların birləşməsi əsasında yaranır. Homer dalğanın fasiləsi arxasınca gedərək özünün şeir ölçüsünü yaratmışdır. Homer hekzametri dənizdən götürür*" [144]. V.A.Nikonov özünün "Şeir və dil" məqaləsində K.Paustovskinin bu fikrini əfsanə adlandıraraq yazır ki, *"İliada"nın hekzametri qoşulanda şeir artıq uzun bir inkişaf yolu keçmişdir. Ona görə də həmin şeir ölçüsünün yaranması dəniz dalğalarını təqlidlə əlaqədar deyil, şeirin uzun əsrlərdən bəri inkişafının nəticəsidir"* [134, s.32]. Doğrudan da, şeirin təkamül və inkişaf dinamikası ətrafında aparılan təhlillər geniş mülahizələr sferasında müxtəlif səpkili fikir ayrılıqlarına şərait yaradır. Şeir və onun bütün formaları təbii bir prosesin faktı olaraq zənginləşmə qazanır. Sərbəst şeirdə də belədir və ümumi xarakteri ilə vəznin müəyyənləşmiş qanunauyğunluqları əsasında nizamlanır. Məna, təqti və bölgülər bir tərəf kimi bədii mətnin poetik sistemində özünü tapır və buradakı bağlantılar sərbəst şeir timsalında fikir yaxınlığı, ritm vahidləri ilə bütövləşir.

*Məni qoşun*

*Çəkim dünyanın dərdini.*

*Dünya mənim dərdimi*

*Çəkə bilməz.*

*İmtahana çəkilmişəm*

*Yerdən, göydən*

*Mən hazıram!* [91, s.67].

Ədəbi-nəzəri fikrin təhlillərində sərbəst şeirin tipologiyasını bölgü, qafiyə prinsipləri baxımından müxtəlif kontekstlərdə qruplaşdırırlar. Məsələn, Ş.Ədilli bu qruplaşdırmanı aşağıdakı kimi təqdim edir:

1. *Eyni bölgülü, qafiyəli sərbəst şeir;*
2. *Fərqli bölgülü, qafiyəli sərbəst şeir;*
3. *Qismən bölgülü, qafiyəli sərbəst şeir;*
4. *Bölgüsüz, qafiyəli sərbəst şeir ("qafiyəli nəsr");*
5. *Eyni bölgülü, qafiyəsiz sərbəst şeir (yalnız nəzəri olaraq);*
6. *Fərqli bölgülü, qafiyəsiz sərbəst şeir;*
7. *Qismən bölgülü, qafiyəsiz sərbəst şeir;*
8. *Bölgüsüz, qafiyəsiz sərbəst şeir (mənsur şeir).* [25, s.61]

Azərbaycan ədəbi-nəzəri fikrində sərbəst vəzn müxtəlif səpkili təhlillərin predmeti olaraq, həm də ciddi fikir ayrılıqlarına yol açmışdır. Sərbəst şeir təsəvvürünün formalaşdırdığı düşüncədən çıxış edərək hər cür nəzm nümunəsini poetik fikrin uğuru kimi qələmə verilməsi tendensiyaları həmişə tənqid və etirazla qarşılanmışdır. Sərbəst şeir sahəsində yaranan mübahisələr haqlı və təbii idi. Belə ki, 1920-1930-cu illərdə formalizm mövqeyindən yanaşma meyilləri bir tendensiya olaraq nəzərə çarpsa da, ədəbi-nəzəri fikir ona biganə qalmadı və özünün mövqeyini nümayiş etdirdi. *"Lirikamızda qüvvətli və cəsarətli novatorluq axtarışları sərbəst şeir ənənələri ilə sıx bağlıdır. Fransızların "verlibr" adlandırdıqları sərbəst vəzndən XIX əsrin sonu, XX əsrin əvvəllərində Belçika şairi Emil Verxarn, Rusiyada isə Aleksandr Blok və Valeri Bryusov ilk dəfə istifadə etmişlər. Sərbəst şeirin Azərbaycan ədəbiyyatında yaranması və inkişafı sovet poeziyasının bayraqdarı V.Mayakovskinin və inqilabçı türk şairi N.Hikmətin əsərlərinin respublikamızda tərcüməsi və nəşri ilə əlaqədardır. Otuzuncu illərin əvvəllərində S.Vurğun, R.Rza, M.Rəfili kimi şairlərin*

*müraciət etdikləri sərbəst şeir indi heca vəznilə yanaşı şeirimizin kütləvi vəzninə çevrilmişdir”* [87, s.76]. Sərbəst şeirin özünün mətn strukturu, mükəmməl dinamikası heç də vəznsizlik təsəvvürünə gəlmir, əksinə bədii mətnin özünün mükəmməllik (uğurluluq) mexanizminə (şeirin alınıb-alınmaması məsələsinə) bağlanır. Çünki sərbəst şeirin tipologiyası, mətn axarındakı detallar, mənzərələr, təsvir və ifadə vasitələri yaradıcı istedadının sayəsində nizamlanmaqla mükəmməllik qazanır. Bədii mətnin harmoniyası bütün komponentləri ilə sənətkar idealına bağlanır və onu çatdırmağa xidmət edir.

Sərbəst şeirin Azərbaycan poeziyasında milli özünəməxsusluq formulası əski düşüncədə olanlardan öz qaynağını almaqla XX əsrdə yeni sferaya daxil olur [50]. Yeni tarixi şəraitdə, ədəbi meyil və axınların yaradıcılıq axtarışlarında yeni məzmun və mahiyyət kəsb etməsi təsəvvürü ilə faktlaşır. Müasir ədəbiyyatda bu tendensiyanın diaxroniyasında Nazim Hikmət və V.Mayakovskidən gələn təsirlər də az deyildir. Məsələn, 1927-ci ildə Bakıda N.Hikmətin “Günəşi içənlərin türküsü” adlı ilk şeirlər kitabı çap olundu və inqilabi poeziya nümunəsi olaraq böyük əks-səda doğurdu. Oradakı coşqun ahəng, rəvan ritm, mətn modelləşməsinin özünəməxsusluq funksiyası sonrakı mərhələ üçün güclənən tendensiyanı müəyyənləşdirdi. Ayrı-ayrı şeirlərdə özünü göstərən coşğu, emosional ekspressivlik, tükənməz güc, enerji geniş oxucu auditoriyasının marağına səbəb oldu. Mikayıl Rəfili, Əli Nazim, Rəsul Rza ilə sıx əlaqələr onların bədii sferada da yaxınlığının təminatçısına çevrilmişdir. Məsələn, M.Rəfilinin mövzuları sadə həyati faktların ümidverici ruhani məzmunu, həm də sərbəst şeir formasında poeziyaya gətirdikləri gələcəyə ünvanlanması ilə səciyyələnirdi. Bunlar bir növ poeziya məkanının mahiyyətindən və mühitin sənətin qarşısına qoyduğu tələblərdən, yeni düşüncə modellərinin yaradılması ehtiyacından doğmuşdu.

Azərbaycan ədəbiyyatında sərbəst şeir ənənəsinin tarixi təcrübəsi və genetik qaynağı ilkin yaradıcılıq təsəvvürlərinin və epos mühitinin janr səviyyəsinə bağlanmaqla öz mahiyyətində bir mərhələni səciyyələndirirsə, onun ikinci sferası XX əsrin zəngin yaradıcılıq axtarışları ilə müəyyənləşir. S.Vurğun, M.Müşfiq, M.Rəfili, O.Sarıvəlli, R.Rza və başqalarının şəxsində şeirin keyfiyyət dəyişmələri ədəbi-

mədəni prosesin 60-cı illərə və ondan sonraya gedən axarını bir istiqamət olaraq ortaya qoyur. S.Vurğunun "Qanlı bazar", "Hərəkət", "Raport", "Fanar", "Ölən şeirlərim", "Şeir və xaltura" [120], O.Sarıvəllinin "Atamın oğlu", "Daşsız qəbirlər", "Xram uçur", "Ürəklərdə yanan işıqlar" [112], M.Rəfilinin "Dünya paralanırkən", eləcə də "Durna" şeirlər kitabına toplanan poetik örnəklər (1936) və s. sərbəst şeir təcrübəsinin təkamül mənzərəsini müəyyənləşdirir. R.Rzanın "şerimizin arıdılmamış budağı" adlandırdığı M.Rəfili həm də sərbəst şeirin nəzəri-estetik prinsiplərini məqalələrində sistemli açmaq yolunu tuturdu. O, "Sərbəst şer haqqında ilk söz" [105] məqaləsində (1929) radikal mücadilə üsulunu seçirdi ki, bu da ciddi mübahisələrə, fikir ayrılıqlarına yol açırdı. Burada əsrlər boyu işlənmiş vəzndən imtinadan, qafiyəyə üsyana qədər olan mülahizələrin birmənalı qarşılanması mümkün də deyildi. Çünki poeziyanın tarixi ənənəsi, sənət prinsipi həm də etnokulturoloji mühitin bədii-estetik təfəkkür intelleksiyasının göstəricisidir. Şeirin daxilən zənginləşməsi, yeni forma və məzmun axtarışları, nitq janrlarının mövcudluğu və yaranması isə təbiidir.

"Sərbəst şeir haqqında ilk söz" məqaləsini sərbəst şeir nəzəriyyəsinin başlanğıcı" kimi təhlilə gətirənlər onun bədii-estetik prinsipləri məsələsinə də həssaslıq göstərirlər. M.Rəfilinin "*biz sərbəst şeirçilər, heç bir zaman buna şübhə etməmişik ki, öz ədəbi reformamızı yalnız kəskin bir mücadilə ilə keçirə biləcəyik*" [105, s.78] qənaəti mahiyyətində mübahisələrə şərait yaradırdı. Bu sərt sənətkar mövqeyi idi. Çünki M.Rəfilinin "*biz yeni bir şeir, hər hansı formal şərtlərdən uzaq və sərbəst, yalnız sənətkarın duyduğu, anlağı və mədəni səviyyəsinə tabe bir şer vücuda gətiririk və gətirəcəyik*" [105, s.77] mülahizəsi bir istiqamətdə ənənəyə etiraza bağlanırdı. Təhlillərdə inqilabi keyfiyyət və inqilabi pafos məsələsi daha çox diqqət önünə gətirilirdi. Həm yazdığı poetik örnəklərlə və həm də nəzəri konsepsiyasını verməyə çalışdığı məqalələrlə M.Rəfili sərt mövqe sərgiləyirdi. M.Arif isə bütün bunlar fonunda yazırdı ki, "*...buradakı ürəkaçıqlığı, fikir müstəqilliyi, hüzn və kədər buludları arasında parıldayan nikbinlik, həyat və mübarizə eşqi, yeniliyə, yüksəlişə qızğın bir meyl, formadakı cəsarətli sərbəstlik, eşidilməmiş bakir məcazlar, təşbehlər... bütün bunlar Rəfilinin poeziyasını əsl poeziya sferasına daxil edir*" [10, s.78]. M.Rəfilinin "Mədəni ədəbiyyat yolunda" məqaləsi də ("Gülən adam" imzası

ilə “Pəncərə” kitabında çap olunmuşdur) sərbəst şeirin ümumi nəzəri konsepsiyasını ortaya qoymaq baxımından ciddi təsəvvür formalaşdırır.

1920-1930 və hətta 40-50-ci illərdə yaranan sərbəst şeir örnəkləri ədəbi tarixi təcrübədə bəzən tendensiyalarla, aludəçiliklə, tribunallıq, şüarçılıq və s. kimi halların əndazədən çıxması vəziyyəti ilə səciyyələnir. Bunun da bir istiqamətdə mahiyyətində ictimai-siyasi mühitdən gələn sosioloji amillər dayanırdı. Azərbaycan ədəbiyyatında sərbəst şeirin ilk dəfə canlandığı illər (30-cu illər) Əli Nazim, R.Rza, S.Vurğun, M.Rəfili və başqaları ilə faktlaşır. Gənc yaşlarından fitri istedadı ilə parlayan S.Vurğun (ruhu etibarilə heca vəzninə bağlı olsa da) öz tükənməz istedadı ilə sərbəst şeirin əvəzsiz örnəklərini yaratmışdır. Tarixi təcrübə və təkamül baxımından boy göstərən canlanma 30-cu illərin sonunda və 40-cı illərdə bir qədər zəifləyir və yeni mərhələ 50-ci illərlə başlayır. M.Rəfilinin “Heraklit şairinə”, S.Vurğun “Aprel”, “Məktub”, “Şairin andı”, “Raport”, “Ölən şeirlərim”, “Cavabımız”, “Şeir və xaltura”, “Tikanlı sözlər”, “Fanar”, M.Müşfiqin “Tar”, “Zəfər səsləri”, “Gecə çeşməsi” və s. şeirləri sərbəst şeirin ilk örnəkləri kimi 50-ci illərə gələn yolun dinamikasını ortaya qoyurdu. “*Hansı vəzndə yazmasından asılı olmayaraq S.Vurğunun şeirləri həmişə coşğun bir ilhamın və odlu bir ürəyin çırpıntılarından yaranırdı*” [122, s.5].

*“Dürrənin səsi”,*
*“Dilcan dərəsi”,*
*“Gözəllərim”,*
*“Qəzəllərim”,*
*... lərim..., lərim...*
*və nələrim...*
*Artıq gözlərimdən uzaqlaşdınız;*
*Ölən bir cahanla siz*
*gülüşsüz qucaqlaşdınız...* [121, s.83]

Artıq bunlar S.Vurğun yaradıcılığında özünü dərk və yaradıcılıq axtarışlarında sənət prinsipinin mövqe müəyyənliyi idi. M.Müşfiq, O.Sarıvəlli, M.Rəfili, R.Rza, S.Rüstəm, eləcə də digər sənətkarların ədəbiyyatda müəyyənləşdirdiyi təsəvvür həm də təmayüllərin, ədəbi meyil və axınların yeni sistemləri üçün əsas olurdu.

*Oxu, tar!*

*Mən səndə*

*İstənən havanı çala da bilərəm.*

*Mən səndən bu günün zövqünü ala da bilərəm.* [101, s.122].

Bu şeir, eləcə də bu tip çeşidli örnəklər müxtəlif təhlillərin mövzusu olaraq təkcə məzmun baxımından deyil, həm də formal struktur müstəvisində təhlillərə yol açmışdır. Məsələn, G.Hüseynoğlu deyilənlərə cavab olaraq *"bəs onda bu şeirlər hansı vəzndə yazılmışdır*" [65, s.6] sualını qoyur və cavabını da özü verərək "bu, Müşfiq vəznidir və bu vəznin poeziya tariximizdə yeganə nümunələrini Müşfiq yaratmışdır" söyləyir. Burada, daha doğrusu sərbəst vəzndə poeziya örnəklərinin yaranmasında əsas məsələ xəlqi-milli formanın müəyyənləşdirilməsi məsələsi idi. XX əsrin əllinci illərinə qədər özünü göstərən tendensiya və meyillər bir növ ilkin mərhələ olaraq axtarışla, müəyyənlik prinsiplərinin faktorlaşması, modelləşmənin konstruktiv xarakteri ilə səciyyələnir. A.Axundov bunları 20-30-cu illər və 50-ci illərdən başlanan dövr şəklində sistemləşdirir və əlavə edir ki, "*ümumiyyətlə, sərbəst şeirin birinci mərhələsi əsasən öz fonetik tərkibinə görə böyük "sərbəstliyi" ilə fərqlənirdi. Səs təqlidi yolu ilə yaranmış müxtəlif səs kompleksləri bu şeirlərin - aparıcı qüvvəsini təşkil edirdi.*

*... İkinci inkişaf mərhələsində sərbəst şeir zamanın ruhunu, əsrin səsini milli zəminə malik poetik bir qüvvətlə əks etdirdiyindən, o gənc yaradıcı qüvvələrin diqqətini cəlb edir və poeziyada öz mövqeyini gündən-günə möhkəmləndirirdi..*" [5, s.53]. 60-cı illərdə sərbəst şeir Rəsul Rza ilə yeni sferaya daxil olur və bütün poetexnoloji struktur konseptləri ilə güclənən tendensiyanın müəyyənlik fəlsəfəsini diktə edir. Məqalə və bəzi şeirlərində ("Ənənə", "Şeir vəzni və məhəbbət haqqında dastan", "Ənənəçi donuz", "Qafiyə", "Yeni söz", "Nəzirə") müxtəlif səpkili (hətta bəzən mübahisələrə yol açacaq) fikirlər söyləmək yolunu tutur. R.Rzanın şeir fəlsəfəsi, bədii struktur kombinasiyaları, mətn informasiyasının paradiqmatik mənzərəsi müxtəlifliklərlə, çoxçeşidli panoraması ilə özəllik qazanır. Dildə, fikirdə, fonetik kombinasiyalarda, bədii təsvir və ifadənin yeniliyində nəzərə çarpan tendensiyanın episentri qafiyənin uğurluluğu ilə müəyyənləşir. Ə.Kərim "Şair" adlı

şeiri ilə bunlara diqqəti yönəldir və özünün, R.Rzanın şəxsində mahiyyətə varmağa çalışır. R.Rza "Kanonları pozaraq" məqaləsində vurğulayır ki, "Kitabi Dədə-Qorqud" dastanındakı şeir parçalarının hamısı sərbəstdir və bu şeirlər sərbəstin ulu babası kimi gəlib bizə çatmışdır.

R.Rzanın "Bu gün", "Bolşevik yazı", "Çinar", "Firdovsi", "Həbəşistan", "Qüvvət nəğməsi", "Qanadlar", "İlqar", "Qürur nəğməsi", "Kəhər", və s. şeirləri onun sənətkar ruhunun özünəməxsusluq məzmununu faktlaşdırır. Ədibin şeir fəlsəfəsi mahiyyətin aparıcılığı ilə şərtlənir. "*Qafiyə və ya ölçü poeziya illüziyası yarada bilər, forma etibarilə oxucuların diqqətini cəlb edə bilər, lakin poeziyadan məhrum olan fikrə poetik ruh verə bilməz. Bir sözlə, poeziya qanuniləşmiş ölçü və ya qafiyə deyil, fikrin, hissin, qavrayışın poetik ifadəsidir ki, bu da başqa komponentlərlə birlikdə sözü şeirə çevirir*" [106, s.321].

50-60-cı, eləcə də 70-80-ci illər ədəbiyyatda yeni yazarlar nəslində mühüm bir hissə R.Rza üslubuna və onun həmin illərdə adı ilə bağlanan xəttə köklənir. Ə.Kərim, F.Qoca, F.Sadıq, M.Araz, A.Abdulla, V.Səmədoğlu, R.Rövşən, V.Cəbrayılzadə (Bayatlı Odər), Ç.Əlioğlu, S.Rüstəmxanlı, İ.Saleh, V.Əziz, Rövzət, Ş.Aslan, E.Borçalı, A.Kəmərli, A.Sadiq, D.Nəsib və bir sıra gənc yazarlar gəlişləri ilə ədəbiyyata yeni nəfəs gətirmiş və etnokulturoloji dəyərlərin ümumi ruhuna köklənməklə ciddi uğurlara imza atmışlar. R.Rza müxtəlif səpkili məqalələrində ("Ümid və arzular", "Əli Kərim haqqında söz", "Duyğuların izi ilə", "Fikrət Qoca haqqında", "Durna günü", "Geniş yollara çıx", "Ramiz Rövşən", "Uğur olsun, Abbas", "İki şair haqqında", "İstedad+zəhmət+dözüm", "Qayğı sözü və qayğı özü", "Dəyirman dərdi"və s.) mövcud mənzərəni ayrı-ayrı fərd və ümumi mühit səviyyəsində qiymətləndirmiş və prosesə obyektiv münasibəti ilə mükəmməl mövqe sərgiləmişdir.

Məlum olduğu kimi, hər bir vəznin şeirin gəldiyi möhtəşəm yolda özünəməxsusluq, inkişaf və zənginləşmə məqamları vardır. Sərbəst şeir və onun inkişaf dinamikası tarixi-mədəni xronikallığı, ayrı-ayrı mərhələlərdə özünü göstərən diferensasiyaların determinasiyası ilə şərtlənir. Hər bir poetik mətn, eləcə də vəzn modeli "*sərbəst şeir forması, sözçülüyü, uzunçuluğu, əhvalatçılığı, bayağı, kasıb qafiyələri, qafiyə xətrinə lazım olmayan sözlər işlətməyi, yersiz təntənə və dəbdəbəni*

*aradan qaldırır, sözə qənaət yaradır, milli dilin gözəlliyini, axıcılığını, musiqisini, melodiyasını qoruyur, dilin qüdrətini ifadə edir, şeiriyyəti, emosionallığı gücləndirir, o yerdə bu forma gözəldir, üstündür*" [18, s.113]. Bədii forma və üslub özünəməxsusluqlarına köklü böyük ədəbiyyat məktəb və mühit fonunda da meyil və axınları diqqət önünə gətirir. Onu da əlavə edək ki, sərbəst şeirin inkişaf dinamikası 30-cu illərdən və daha çox isə 50-60-cı illərdə tendensiyalarla, vəzn mübahisələrinin baş alıb gedən mövqe fərqlilikləri ilə ucu-bucağı görünməyən söhbətlərə yol açır. Hətta bunlar bəzən qeyri-ciddi yanaşmalara, sözçülüyə qədər gedib çıxır. Əslində isə ədəbiyyat bütün zamanlarda, real ədəbi-mədəni axınlarda axtarışları, fərqli özünəməxsusluqları müsbət olan və böyük ədəbiyyatın uğurları kimi qarşılamışdır.

Azərbaycan poeziyasının zənginliyində sərbəst şeir ənənəsinin tarixi-mədəni xronikası və müəyyənləşdirdiyi genoloji sistem etnosun yaradıcılıq təsəvvürünə bağlanır. "Kitabi-Dədə Qorqud"dan üzü bəri gələnlər və onun müxtəlif dönəmlərdə kəsb elədiyi mətn və yaddaş tekstuallığı bütünlükdə çağdaş vəziyyətdə özünü bir tərəf kimi göstərənlərin modelləşmə prosesinin ratifikasiyasıdır. Müsbət olan odur ki, ənənənin sərgilədiyi tarixi təcrübə özlüyündə invariantların, yaddaş konstruksiyasının yeni məkan və yeni mühit ampluasında mətn paradiqmalarının funksional xarakterinin hərəkətliliyi ilə reallaşır. Ə.Kərim, F.Qoca, V.Səmədoğlu, R.Rövşən, V.Cəbrayılzadə və digərlərinin şəxsində boy göstərən zənginləşmə tarixi təcrübənin və təkamülün arxitekstuallıq səviyyəsində gedişini və Paşa Qəlbinura gələn yolunu müəyyənləşdirir. Bütün bunlar P.Qəlbinur yaradıcılığının daxili mahiyyətini, struktur sxemlərini tipoloji səviyyədə təhlilə gətirməyi bir zərurət olaraq qarşıya qoyur.

## 1.2. Paşa Qəlbinurun poeziyasını formalaşdıran amillər və üslub fərdiyyətinin özəllikləri

Çağdaş ədəbi-mədəni mühitin istedadlı nümayəndələrindən olan P.Qəlbinur yaradıcılığında aydınlaşdırılmalı problemlərdən biri onun poeziyasını formalaşdıran amillərin və üslub fərdiyyətinin özəlliklərinin aşkarlanmasıdır. Burada ədibin

həyatının avtobioqrafik cizgiləri, mühiti, poeziyaya gələn yolunun keşməkeşləri bir tərəf kimi diqqət önünə gəlir. Bütün bunların tipoloji təhlilində yaradıcı şəxsiyyəti və onun dünyagörüşü, poetexnoloji təfəkkürünün təbii və fövqəltəbii xarakteri müəyyənləşir.

Paşa İsmayıl oğlu Musayev (Qəlbinur) 1952-ci il martın 30-da Şəmkir rayonunun Çinarlı kəndində anadan olmuşdur. Səkkizinci sinifdə oxuyarkən (1965) "Gözlər" adlı ilk şeirini yazmışdır (indiyə qədər çap olunmayıb). Orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olmuş və müalicə-profilaktika fakültəsini fərqlənmə ilə başa vurmuşdur. Hələ orta məktəbin son illərində göz həkimi olmaq qərarına gəlmişdir. Bu istək onda dayısına və onun sənətinə olan sevgidən yaranmışdır.

1978-ci ildə S.M.Seçenov adına I Moskva Tibb İnstitunun aspiranturasına daxil olub, 1981-ci ildə oftalmoloq, akademik M.M.Krasnovun rəhbərliyi ilə "Gözün buynuz qişasının bulloz distrofiyasının yeni cərrahi üsulla müalicəsi" mövzusunda namizədlik, 1987-ci ildə "Gözün yarımkeçirici baryerləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bütün bu fəaliyyəti ilə tibb sahəsində uğurlara imza atmış və bu gün də atmaqdadır.

P.Qəlbinurun çoxşaxəli fəaliyyətində digər bir xətt bədii yaradıcılıq sahəsində formalaşdırdığı təsəvvürlə bağlıdır. O, Azərbaycan ədəbi-mədəni mühitinin yaddaşına adını həkim-şair kimi yazmışdır. "Ay bir əlçim buluddur" (1984) adı ilə çap olunmuş ilk kitabından başlayan uğurlu yol bir-birindən maraqlı kitabların yaranması üçün əsas olmuşdur. "Rəngli göz yaşları" (1990), "İtmiş həsrət kimi" (1996), "Ağlıma gələnlər başıma gəldi" (2003) kitabları bunun göstəricisi olub, şairin yaradıcılıq dinamikasını müəyyənləşdirir. "Rəngli göz yaşları" kitabına görə Araz ali ədəbi mükafatına, 1999-cu ildə Azərbaycanda elmin, maarifçiliyin inkişafında xidmətlərinə görə Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

Azərbaycan poeziyasının tarixi ənənələrinə və keçib gəldiyi yolun möhtəşəmliyinə köklənən ədibin yaradıcılığını izlədikdə onun bədii təfəkkürünün genetik mahiyyətində dayananlar ruhani dünyasının dərinliklərində olanlara işıq tutur. Şair istedadının imkanları, bədii-estetik təfəkkürünün əhatələdiyi məzmun, ayrı-ayrı

şeirlərində özünü göstərən poetexnoloji mükəmməlliyin dinamikası mahiyyətin aydınlaşmasına diqqəti yönəldir. Böyük Azərbaycan şairi S.Vurğun "Sözün şöhrəti" şeirində poeziya və söz timsalında olanlara diqqət yetirir və onun möhtəşəmliyi baxımından "*adın sözdür, özün insan, nə mənalar yaşar səndə*" söyləyirdi [120, s.20]. P.Qəlbinur poeziyası da mənalar zənginliyi, orijinal təsəvvür formalaşdırma imkanları, fonopoetik, morfopoetik sistemin mükəmməlliyi və uğurluluq əmsalı, sintaktik səviyyənin paradiqmatik mənzərəsi ilə üfüqi və şaquli yanaşmaları gərəkli edir. Bütün bunlar isə şairin poeziyasının özünəməxsusluq formulasında və üslub fərdiyyətinin arxitektonik müəyyənliyində bütövləşir və bunun bir yaradıcılıq keyfiyyəti olaraq aydınlaşması aşağıdakı məsələlərə diqqət yetirməyin gərəkliliyini zəruriləşdirir:

a) mühitin zəngin yaradıcılıq təsəvvürünün müəyyənləşdirdiyi konsepsiyanın P.Qəlbinur poeziyasında özünəməxsusluq kodları;

b) etnokulturoloji düşüncənin şairin yaradıcılığında funksional rolu və onun ümumi sisteminin təsir amilləri;

c) xalq poeziyasının ədibin yaradıcılığında bir qaynaq olaraq sərgilədiyi məzmun;

ç) sərbəst şeir təfəkkürünün inkişaf və zənginləşmə dinamikasında P.Qəlbinurun yaradıcı özünəməxsusluğu;

d) güclənməkdə olan milli müəyyənlik və özünüdərk şəraitində sənətkar axtarışlarının metaforik mənzərəsi;

e) üslub fərdiyyətində mətn//mətn, mətn//subyekt münasibətləri və onun janr paradiqmaları və s.

Bütün bunlar 80-ci illər nəslinin istedadlı nümayəndəsi kimi P.Qəlbinurun hansı düşüncə üzrə köklənməsinin və onun bədii-estetik intelleksiyasının mahiyyətini əks etdirən aparıcı tərəf kimi özünü göstərir. İncə, zərif hiss və duyğuların müqəddəsliyinə köklənən sənətkar onun özünəməxsusluq sistemini mətndən-mətnə işləmiş və mükəmməl bir konsepsiyasını ortaya qoymuşdur. Çünki sənətin ümumi axarında "*poeziya nəzəriyyəsinin ən aktual problemlərinin aydınlaşdırılması, estetik məğzinin aşkarlanması həmişə lirik düşüncənin qüvvəsinin təsdiqinə xidmət*

*göstərmişdir. Xüsusən şeir dilinə xas olan ümdə əlamətlər üzə çıxarılmaqla onun digər ədəbi növ və janrlardan fərqli keyfiyyətlərini, oxşar tərəflərini, ümumilik təşkil edən ifadə vasitələrini müəyyənləşdirmək olduqca vacib problemlərdəndir*" [67, s.11]. Çünki bədii sənət modelləşdirmənin və sənətkar təfəkkürünün elə dərin və həm də incə qatlarını hərəkətə gətirmək imkanında olur ki, hansısa bir ştrix, boya və ya bədiilik yaradan kiçik bir element bütövlükdə mətnin ümumi ahənginə öz təsirini göstərir. Paşa Qəlbinur poeziyası da bu düşüncəyə köklü olub ənənənin uğurlu davamı səviyyəsində mükəmməl təsəvvürlə faktlaşır. Burada xalq mənəviyyatının çox-çox əski qatlarından gələn və bütövlükdə mental mədəniyyət klişesi olaraq kodlaşan bir axar özünə yer alır. Bütün mərhələlərdə şeir sənətinin tərəqqi və çiçəklənməsinin dinamiklik göstəriciləri ümumxalq dilinin zənginləşmə göstəriciləri ilə həmahənglik təşkil edir.

Paşa Qəlbinurun şeir fəlsəfəsi, bədii-estetik təfəkkürünün əhatələdiyi yaddaş etnik layın arxetip olaraq müəyyənləşdirdiyi klişelərə, kanonik sistemin mükəmməlləşmə xronotoplarına bağlanır. "Sən, mən", "Tənhalıq", "Öyrətdin", "Məktub", "Sən getsən", "Məndən uzaqlarda", "Əsəbi qadın", "Söndürdüyün telefona", "Gözlərinin kölgəsi", "Yerlər gömgöy olacaq", "Dünya ətir gölündə" və s. kimi şeirlərin mətn informasiyası lirik mənin özünəməxsusluq təsəvvürünə, sənətkarın poeziya anlamında müəyyənləşdirdiyi etnik yaddaşa köklənir. Onun şeirləri ana qaynaq olaraq ənənəyə bağlansa da, bir istiqamətdə keyfiyyət yeniləşmələrinə köklənməklə yaradıcı axtarışlarının özünəməxsusluqlarında əlavə dəyər qazanır. Y.M.Lotman "Poetik mətnin təhlili" əsərində sözdən istifadə və yaradıcı imkanları baxımında müqayisələr apararaq yazır: "*Həcmcə çox da böyük olmayan bir şeir özündə neçə cildlik qeyri-bədii mətnin ifadə eləyə bilmədiyi informasiyanı yerləşdirə bilir*" [136, s.35]. Xalq bayatıları, atalar sözü və məsəllər, ustadnamələr, klassik ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığı və s. bu baxımdan lazımi qədər zənginliklə səciyyələnir. P.Qəlbinurun yaradıcılığı da bu baxımdan həm misranın fikir yükü, həm də yüksək poetik tapıntıların özünəməxsusluq çalarları ilə zəngindir. Heca və sərbəst vəzndə yazdığı şeir örnəkləri janr metadilinin yüksək panoramik mənzərəsi ilə sənətkar qayəsini aydınlaşdırır.

Bədii mətnin özünün idraki (məntiqi) mühiti ilə hissi qavrayış sərhədləri arasında müəyyənləşən təsəvvür modeli həm də onun arxitektonik sistemini diqqət önünə gətirir. Ədəbi-nəzəri fikirdə sənətkar üslubunun fərdiyyətliliyi məsələsində P.Qəlbinur yaradıcılığı müxtəlif təhlillərin probleminə çevrilmişdir. Təhlillərdə təkmisralı şeirin yaradıcısı kimi diqqət önünə gətirilən sənətkar həm də çeşidli şeir örnəklərinin müəllifi kimi də diqqət önünə gətirilir. Ona görə də xəlqilik və novatorluq və onun özünəməxsusluq spektrləri bir bütöv olaraq P.Qəlbinur poeziyasına əlavə ovqat qatan və formalaşdıran bir keyfiyyət kimi görünür. Bədii mətnin ortaya qoyduğu modellər onun xəlqilik və novatorluq konsepsiyasına əlavə məzmun gətirmişdir, daha doğrusu bütün bədii elementlər məzmunyaradıcı funksiyaya köklənmişdir. Şairin geniş fikir axarı, xırda bir epizoda gətirdiyi bədiilik aurası, böyük mətləbləri bir neçə misraya sığışdırma bacarığı daha dərin qatlara diqqət yetirməyin gərəkliyini düşünməyə əsas verir.

Üslub fərdiliyinin mahiyyətində yaradıcı özünəməxsusluğu, sənətkar istedadının müəyyənləşdirdiyi təsəvvür, sözdən istifadənin imkanlılıq dərəcəsi və s. diqqət önünə gəlir. Bir qaynaq olaraq ənənə kontekstində sənətkar istedadını faktlaşdıran özünəməxsusluğun qan daşıyan damarlarının xronikal məzmunu məsələsi ortaya çıxır. Burada bir istiqamətdə təsir amilləri, yaradıcı ruhunun çevrələdiyi imkanlılıq təsəvvürü, zəngin ədəbiyyat ənənələrindən istifadənin uğurluluq məsələsi faktlaşır. Bütün bunlar sənətkar üslubunun, sənət təsəvvürünün kodeksi kimi müəyyənləşir. P.Qəlbinur yaradıcılığının diaxron və sinxron təhlili qaynaq olaraq bunların araşdırılmasını ön cərgəyə çıxarır. Üslub fərdiliyi və poeziya təfəkkürünü formalaşdıran amillərin müəyyənliyində ilk və əsas olan kimi diqqət önünə gələn xalqın zəngin yaradıcılıq ənənələridir. Bütün sənətkarlar bunlardan istifadə etməklə özlərinin dünya şöhrətli əsərlərini yaratmışlar. Məlum olduğu kimi, "*folklor yazılı ədəbiyyatın yaranması və inkişafı üçün əsas mənbələrdən biridir. Bütün dünya ölkələrinin şairlərinin ən yaxşı əsərləri xalqın kollektiv yaradıcılıq xəzinəsindən götürülmüşdür*" [27, s.465-466]. P.Qəlbinurun yaradıcılığı da nə qədər müasir ənənəyə bağlansa da, onun qan daşıyan fikir damarları xalq ədəbiyyatına, xalqın zəngin mədəniyyət təsəvvürlərinə bağlanır. Digər istiqamət çağdaş ədəbi-

mədəni mühitin ayrı-ayrı sənətkarlarının şairin yaradıcılığına təsir nümunələri ilə bağlıdır. Məsələn, M.Şəhriyarın “Heydərbabaya salam” poemasının təsiri altında yaranan “Kəndimizin adamları”, R.Rzanın “Rənglər” silsiləsi ruhunda yazdığı “Rənglər” şeirini (Bu şeirləri özünün qeydlərinə görə müəllimi cərrah Umnisə xanıma və ilk “Rənglər” müəllifi Rəsul Rzaya ithaf etmişdir. – A.H.) və s. qeyd etmək olar. Zəngin yaradıcı istedadının əhatələdiyi məzmun onun bədii estetik düşüncəsinin təfəkkür intelleksiyasını, poetexnoloji üsullarının uğurluluq səviyyəsini aydınlaşdırır. Bütün mahiyyət isə hiss və duyğuların metaforik məzmunundan, məzmun semiotikliyinə, mətnin formalaşdırdığı uğurluluk konseptinə bağlanır.

*Şəlalə!*
*Yalnız həyat!*
*Özünü qayadan at,*
*Dünyanın yaşı qədər!*
*Yoxsa ölüm sənə də,*
*Sənə də yaxın gələr.* [91, s.124.]

Mətn sisteminin müəyyənləşdirdiyi janr kodu özü ilə birlikdə addımlayacaq məzmun qəliblərinin ifadəlilik təsəvvürünə bağlanır. Burada fonopoetik uğurluluqdan sintaktik səviyyənin funksionallığına qədər nə varsa hamısı mətnin uğurluluğunu (və ya uğursuzluğunu) ortaya qoyur. Yuxarıdakı nümunədə şəlalə, həyat və ölüm timsalında vurğulananlar yaradıcı düşüncəsinin bir anı olaraq şeirə gətirilirsə, ancaq məzmun anlamında dərin mətləbləri işarələyir. Məlum olduğu kimi, “*səslər və onların yaratdığı fonetik kombinasiyalar bədii mətndə minimal semiotik işarə rolunu oynayır və bütövlükdə poetik sistemin quruluşunu və bəzi cəhətlərdən mənasını təyin edir*” [44, s.16]. P.Qəlbinur poeziyasında folklor motivlərindən, canlı xalq danışıq dilindən, zəngin söz ehtiyatlarından o qədər ustalıqla yararlanılır ki, bu da bir müəyyənlik olaraq yaradıcı özünəməxsusluğunu faktlaşdırır. “*Öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir, başqalarının söz, düşüncə və duyğu pərdələri altında gizlənib qalmaq isə şair üçün fəlakətdir*” [94, s.34]. P.Qəlbinur poeziyasının ümumi axarı məhz üslub müəyyənliyinə, bədii düşüncənin sərgilədiyi ümumi məzmuna bağlanır.

Şeirin bel sütununu təşkil edən ritmik quruluş həm də mənayaratmanın komponenti olaraq yaradıcı imkanlarını aşkarlayır. Xalqın zəngin şifahi ədəbiyyatında, mərasim folklorunda, aşıq şeirinin çeşidli poetik örnəklərində, eləcə də yazılı ədəbiyyatın möhtəşəmliyində bu bir tərəf olaraq həmişə özünü göstərir. Ədəbiyyatın bu iki qanadı (şifahi və yazılı ədəbiyyat) təsirlilik və əhatələdiyi təsəvvür, bəhrələnmə anlamında ucu-bucağı görünməyən bir zənginliyə bağlanır. Etnik təcrübənin müəyyənləşdirdiyi ənənə klişeləri, janr tipologiyasında nəzərə çarpan rəngarənglik mənzərəsi (atalar sözləri, tapmacalar, lətifələr, əfsanələr, nağıllar, dastanlar və s.) ağızdan-ağıza keçərək əsrlər boyu həm də etnosun bədii-estetik zövqünü formalaşdırmaq üçün əsas olmuşdur. Yazılı ədəbiyyatın görkəmli nümayəndələri bütün zaman kəsiklərində bundan imkanları daxilində bəhrələnməklə bir-birindən gözəl əsərlərini yaratmışlar. 60-80-ci illər ədəbiyyat təsərrüfatında da bunlar bir xətt olaraq əsas götürülmüş və həmin zənginliklər müxtəlif formalarda ədəbi mühitə daşınmışdır. P.Qəlbinur da yaradıcı özünəməxsusluğunda fərdi sənət konsepsiyası ilə "üslub insandır" təsəvvürünü ortaya qoyur. Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələrindən V.V.Vinoqradov vurğulayır ki, "*ümumiyyətlə söhbət fərdi söz yaradıcılığından gedəndə üslub məsələsi fövqəladə dərəcədə kəskin şəkildə meydana çıxır. Adətən belə deyirlər ki, üslub elə insanın özüdür, o təkrarolunmaz fərdiyyətdir*" [138, s.7]. P.Qəlbinur poeziyasını formalaşdıran amillər və üslub fərdiyyətində də bu bir tərəf olaraq özünü aydınlıqla göstərir. Çünki bədii yaradıcılıq, ümumiyyətlə bədii sənət elə bir möhtəşəm düşüncə hadisəsidir ki, onun mövcudluq mexanizmi özünütəsdiqdən keçir. P.Qəlbinur da bədii düşüncəni formalaşdıran amillər sırasında mühüm rol oynayan zəngin xalq yaradıcılığından, folklor ənənələrinin mövzu, hadisə, əhvalat örnəklərindən yararlanmaqla orijinal əsərlər yaratmaq yolunu tutur.

*"Vətən bağı al-əlvandır*
*Yox içində Xarıbülbül".*
*Doğradılar gülü dil-dil,*
*gülü dil-dil...* [91, s.534]

Göründüyü kimi, mətn hadisəsi olaraq bu poetik nümunə öz qaynağını məlum-

məşhur xalq mahnılarından alır və bu mahnı ilə əlaqədar folklor yaddaşında lazımı qədər dərinliklərə gedib çıxacaq məqamlar vardır. “Tahir və Zöhrə” dastanında [13, s.266], eləcə də xalq mahnısı “Sarı bülbül” [14, s.115] və s., bu mahnı ilə bağlı söyləmələr ədəbiyyatın bəzəyinə çevrilmişdir. P.Qəlbinur da bu zənginlikdən bəhrələnərək poetik mətnin yeni bir uğurlu variantını yaratmışdır. Və yaxud “İtmiş həsrət kimi” şeirində istifadə etdiyi bayatı nümunəsi xalqın bağrının başından qopmuş, hiss və duyğularını dilə gətirən ağrı, acı, həsrət dolu lirik-emosional nümunələrdir. Ümumiyyətlə, ədəbiyyatın həm şifahi, həm də yazılı qolunda Xan Arazla bağlı bir-birindən maraqlı çeşidli poetik nümunələr vardır. P.Qəlbinur da bunlardan yaradıcılığında fərdi özünəməxsusluğun nümunəsi fonunda bəhrələnir.

*Aman Araz, Xan Araz,*
*Bingöldən qalxan Araz,*
*Al başımdan sevdayı –*
*Xəzərdən çalxan, Araz!* [91, s.535]

P.Qəlbinur poeziyasını formalaşdıran amil kimi xalq yaradıcılığının rəngarəng formaları, atalar sözü, məsəl, nəğmə, bayatı, uşaq folkloru, xalq mərasimləri, əfsanə, rəvayət, nağıl, dastan nümunələri, zəngin aşıq şeir şəkilləri və onun özünəməxsus ifadə üsulları, səs assosiasiyalarının müxtəliflik mənzərəsi və s. yaradıcı auditoriyasının zənginlik mənzərəsini müəyyənləşdirir. “*Həyat həqiqətinin obrazlı ifadəsini verən bədii ədəbiyyat ayrı-ayrı fərdlər – yazıçılar tərəfindən yaranan bir sənətdir...*

*Bəzi ədəbiyyatçılar bədii yaradıcılığın fərdi iş olduğunu nəzərə alaraq belə qənaətə gəlirlər ki, dünyada nə qədər yazıçı varsa, bir o qədər də bədii stil vardır, çünki bir yazıçı ilə digər yazıçı arasında tam mənada eyniyyət işarəsi qoymaq olmur*” [73, s.100]. P.Qəlbinur da bir sənətkar kimi bütün yaradıcı təfəkkürü və fikrin çatdırılması, mənalandırılması baxımından sənətkar fərdiyyəti ilə müsbət təsəvvür formalaşdırır. Məsələn, “Söndürdüyün telefona” şeirində o, Azərbaycan xalq mahnılarından “Bəri bax” mahnısının sözlərindən özünəməxsus şəkildə istifadə etməklə şeirə əlavə ovqat qatır.

*Söndürdüyün telefona*

*Pəncərədən daş gəlir:*

*Ay bəri bax, bəri bax!*

*Yağış yağır damınıza;*

*Gilə-gilə yaş gəlir:*

*Ay bəri bax, bəri bax!* [91, s.599]

Göründüyü kimi, mətn informasiyası, onun mətn olaraq fonopoetik, morfopoetik mənzərəsi, sintaktik səviyyənin ümumi ahəngi xalq poetikasından gələnlərlə sənətkar fərdiliyinin ortaqlığında yeni çalar və məna qazanır. V.Q.Belinski vurğulayırdı ki, "*şairin yaradıcılıq fərdiliyinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır*" [15, s.137]. P.Qəlbinur poeziyasının fonopoetik qatı, səslərin simmetrik düzümü, qafiyələrin yaratdığı səs dalğaları üslub fərdiliyinin keyfiyyət göstəricisi olaraq nəzər-diqqəti cəlb edir. Əsərlərinin ümumi ahənginə bağlanan məsələ olaraq sənətkar düşüncəsindəki modelləşdirmənin tipologiyasını faktlaşdırır.

"Dünya ətir gölündə", "Gözlərinin kölgəsi", "İtmiş həsrət kimi", "Söndürdüyün telefona", "Dünyam" və s. şeirləri vəzn məhdudluğu tanımayan mətn nümunəsi olaraq bədii-estetik təsəvvürün müəyyənləşdirdiyi təbiilik axarına bağlanır. Qaynağı isə etnik təfəkkürün müəyyənləşdirdiyi sistemlə əlaqələnir və onun müxtəlif rəngarənglikləri fonunda yararlanma üsulları ilə səciyyələnir. Məsələn, məşhur xalq mahnısı olan "Tut ağacı" mahnısının iki misrası əsasında müəyyənləşdirdiyi sıralanma bədii mətnə həm səs simvolizmi timsalında, həm də məna yaratma funksiyasında yaratdığı orijinallığı sərgiləyir.

*"Tut ağacı boyunca*

*Tut yemədim doyunca"*

*Balıq kürüsü kimi,*

*Töküldülər getdilər*

*Tut yemədim doyunca...* [91, s.378]

Xəlqi şeirin poetexnoloji sistemi bütün struktur elementləri və sözün məna yükü

ilə mahiyyətin üfüqi və şaquli qatlarını açmağa köklənir. Bədii mətn və məntiqi mətləb üslubi keyfiyyət olaraq o sənətkarda uğurluluq qazanır ki, onun bədii-estetik təfəkkürünün sərhədləri aydınlıqlı olur. P.Qəlbinur poeziyası da onun ruhani dünyasının etnik qatları ilə kifayət qədər bağlantıda görünür. "*Mənə elə gəlir ki, müğənni öz səsi ilə doğulduğu kimi, şair də özünəməxsus dili ilə doğulur, zil, yaxud pəs səsə malik olmaq müğənnidən asılı deyil və bu səsi yenidən qurmaq qeyri-mümkündür. Onu yalnız təkmilləşdirmək, diapazonunu genişləndirmək olar*" [139, s.59]. Paşa Qəlbinurun poetik təfəkkürü də məhz sənətkar özünəməxsusluqları ilə çeşidli imkanlılıqlarla şərtlənir. Sırf xalq şeirlərini xatırladan elə poetik nümunələri vardır ki, onlar bütün poetik sistemi ilə bayatı ovqatına köklənir. Bunların özünəməxsusluq elementləri müxtəlifliklərlə, bəzən misra və bütöv bayatı örnəklərinin mətnə gətirilməsi faktları ilə səciyyələnir. Məsələn, "Dünyam", "İtmiş həsrət kimi" şeirləri bunun tipik nümunəsidir. Ayrı-ayrı şeirlərində xalq deyimlərinə, atalar sözlərinə müraciət etməsi ("yazıya pozu yoxdur"; "birimiz Əsliydik, Kərəm birimiz"; "özü yıxılan ağlamaz"; "ağlıma gələnlər başıma gəldi" və s.) və onun mətn uğurluluğunda yaratdığı təsəvvür yaradıcı istedadının təzahür tipi kimi uğurlu təsir bağışlayır. "Dünyam " şeirindəki bayatı örnəyi bunun nümunəsidir:

*Dağlar dağımdı mənim,*
*Qəm ovlağımdı mənim,*
*Dindirmə qan ağlaram,*
*Yaman çağımdı mənim* [91, s. 489].

Şeirin bayatı mətninə daxil edilməsi və bədii mətn//bayatı münasibətlərində bağlantıların ümumi uğurluluq əmsalı yaradıcı istedadının imkanlılığı ilə müəyyənləşir. Burada poetik təcrübədən, fərdi üslubi dəst-xəttə, estetik zövqdən idraki təfəkkürə qədər bütövlüyün təmini vardır. Çünki şeirdə obrazlı leksika poetik fikrin obrazlılığının təşkili üçün təminatçı olur. P.Qəlbinur da bütün bunları nəzərə alaraq yaradıcılıq axtarışlarında müxtəlif üsul və vasitələrdən yararlanır. Xalq poeziyasının zənginlikləri, məsələn, dastanlardan gələn bədii kamilliyin özünəməxsusluq elementləri və onun yazılı ədəbiyyatda işləklik formaları bir istiqamət olaraq P.Qəlbinur poeziyasına əlavə ovqat, çalar, bütövlük gətirir. Anası

Ulduz xanıma həsr etdiyi şeirində "Koroğlu" dastanından bir parçanı bədii mətnə daxil etməklə janr paradiqmasında orijinallığı müəyyənləşdirən bir model yaradır.

*Göydən gələn beş durnalar*
*Bizim ellər yerindəmi?*
*Bir-birindən xoş durnalar,*
*Bizim ellər yerindəmi?* [91, s.269]

P.Qəlbinur yaradıcılığı bir istiqamətdə estetik işarələr sistemi olmaqla arxetiplərin hərəkətliliyinə, ilkin təsəvvürdən üzü bəri olanların ehtiva etdiyi semiotik modelin diaxroniyasına yüklənir. Mif, mifik məkan, mifik xronotopların əhatələdiyi müəyyənlikli sistem ədibin şeirlərinin çox əski çağlardan gələn qatlarını sənətkar fərdiliyinin faktı kimi diqqət önünə gətirir. Məsələn, "Yol gəlir işıq" adlı şeirimdə atəşpərəstliklə bağlanan məqamlar, dünyanın dualizmində xeyir//şər sıralanması, bunun daha əvvəllər və sonrakı çağlarda formalaşdırdığı təsəvvür və s. özünə yer alır və yaradıcı münasibətində təsəvvür kodu olaraq şifrələnir.

*... Ürəyim qəfəsdə, dar ağacında.*
*Hardasa xilaskar*
*Bir ağ qağayı...*
*Qara qəhqəhələr!*
*Sus, ey Əhrimən!* [91,s. 243]

P.Qəlbinur poeziyasında hər bir işarə, söz, misra və cərgənin özünəməxsus funksiyası (mənayaradıcı məzmunu) olsa da, bədii örnəyin tamlığını təşkil edən mətn semantikası daha çox nəzər-diqqəti cəlb edir. Onu da əlavə edək ki, "*bir ritmik vahid kimi şeirin analizinə keçərkən belə bir şərtdən çıxış edirik ki, şeir xüsusi mürəkkəb bir prosesin məna strukturudur və bu struktur xüsusi bir mürəkkəb məzmunun ifadəsinə xidmət edir. Buna görə də şeirin məzmununu nəsrlə vermək istədikdə şeirin sözlə ifadə meyarını dağıdırıq, sanki bu molekulların formasını, şəffaflığını, strukturunu, rəngini pozur*" [135, s.169]. Yuxarıdakı mətnin məna strukturu formanın məzmunyaratmada iştirakının uğurluluq səviyyəsi ilə alınıb-alınmama təsəvvürünü formalaşdırır. Mürəkkəb məzmun//mürəkkəb struktur texnologiyası yaradıcı təfəkkürünün hansısa informasiyanı çatdırma gücünün (istedadının) imkanları ilə

reallaşır. Şeir məzmunun onun özünü ifadə kodları ilə müəyyənlikli olur, daha doğrusu janr paradiqması ilə meyar faktlaşır.

P.Qəlbinur poeziyasının genoloji sisteminin, janr invariantlarının aydınlaşdırılması məsələsində yazılı ədəbiyyat və onun qazandığı tarixi təcrübə zənginliyi mühüm rol oynayır. İslam mədəniyyəti, islam yönümlü ədəbiyyatın kəsb etdiyi fundamental təsəvvür klassik ədəbiyyat anlamında ucu-bucağı görünməyən zənginliklə müəyyənləşir. Azərbaycan ədəbiyyatının bu müstəvidə keçib gəldiyi tarixi yolun xronikası özlüyündə ictimai-siyasi, tarixi-mədəni, dini-fəlsəfi səviyyəni əhatələyəcək çeşidliliklə faktlaşır. "İslam mədəniyyəti təkcə ərəblərin deyil, bütün islam bayrağı altında birləşən xalqların yaratdığı böyük mədəniyyətdir" təsəvvürü proyeksiyalaşdırdığı məzmunla Azərbaycan ədəbiyyatının bu zənginlikdə xüsusi statusla görünüşünü də diqqət önünə gətirir. Ona görə də onun bədii-estetik və fəlsəfi qatlarında böy göstərən zənginləşmə etnik təsəvvürdə olanların qoruyuculuq missiyasına köklənməklə, həm də yeni gələnlərlə zənginləşməni bir qaçılmazlıq, zərurət olaraq qarşıya qoyur. "Divan ədəbiyyatı", "saray ədəbiyyatı", "qəzəl ədəbiyyatı" və s. kimi dürlü adlarla yüzilliklərin bədii zövqünü bəzəyən ədəbiyyat janr tipologiyasında da öz sözünü demişdir. P.Qəlbinur poeziyasının ümumi sistemini formalaşdıran məziyyətlər sırasında ədəbiyyatın yazılı qolundan gələn təsirlərin rolu kifayət qədərdir. Azərbaycan ədəbiyyatının ərəbdilli qolu (İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əbu-l-Abbas əl-Əma və s.), farsdilli qolu (Q.Təbrizi, X.Şirvani, N.Gəncəvi, M.Gəncəvi, Q.Mütərrizi və s.), eləcə də anadilli ədəbiyyatın meydanagəlmə və inkişaf dinamikası ədəbiyyatın bədii arsenalının ümumi diaxroniyasını müəyyənləşdirir. XIX əsr boyu bədii düşüncə və bütünlükdə ictimai-siyasi, ədəbi-mədəni qavrayış və dərk səviyyəsində baş verən proseslər janr tipologiyasında da poetexnoloji sistemin əlavə tiplərinin mövcudluğunu əsas etdi. XX əsr isə mövcud ədəbi mədəni yeniləşmə ruhuna köklənməklə (vərəsəlik baxımından sahib çıxmaqla) ədəbi meyl və axınlar timsalında daha əhatəli faktura ilə sərgilənəcək axtarışlara əsas oldu. Azərbaycan poeziyasının Paşa Qəlbinura gələn yolu son dərəcədə kəmiyyət və keyfiyyət baxımından nəzərə çarpacaq faktura ilə təmsil olunur. Ana babası Şeyx Hacı Məhəmməd Ağadan və nəslin digər ziyalılarından

gələn qutsallıq, törə ənənələri, etnik dəyərlərin uca tutulması təsəvvürü bir sistem kimi P.Qəlbinur yaradıcılığına öz diktəsini edir.

P.Qəlbinur poeziyasının enerji qaynaqlarında onun yaradıcılığının ümumi axarını müəyyənləşdirən amillər sırasında genetik kodların, geniş və dar müstəvidə mühit, şəcərə fenomenliyinin də rolu vardır. Elmə, ədəbiyyata maraq, zəngin etnik dəyərlər üzərində pərvəriş tapma, yaddaş kodlarının hərəkət və dominantlığı onun qan daşıyan damarlarında ruhun yaşarlığı üçün əsas olmuşdu. Nəsil şəcərəsində ərəb və fars dillərini mükəmməl bilən, Müqəddəs Qurani-Kərimi, İslam dinini və əxlaqını dərindən mənimsəyən Şeyx Hacı Məhəmməd Ağa bunun üçün örnəkdir. Deyilənlərə görə ali dini təhsilini İraqın məşhur Nəcəfül Əşrəf Universitetində alımış və İrəvanın ali ruhanisi olmuşdur. Peşə etibarilə P.Qəlbinurun həkim olması, insan orqanizminə mütəxəssis kimi bələdliyi və bundan daha yüksəkdə şair kimi ruhani dərinliyi, insan qəlbinin mütəxəssisi olması qarşıda çox dərinliklərə işıq tutacaq bir təsəvvür formalaşdırır.

*Gedirəm, bağrımda Rəbbimin eşqi,*
*Şəriksiz göylərim göydən nur səpir.*
*Tanrım görür məni, Tanrım eşidir,*
*Sənin qarşındayam, İlahi, sənin* [91, s.184].

Paşa Qəlbinur poeziyasını formalaşdıran amillər sırasını təkcə şifahi və yazılı ədəbiyyatın özünəməxsusluqları müstəvisində janr paradiqması məsələni həll etmir. Burada etnik sistemin dəyər kodları, inam, etiqad, əxlaq, davranış mədəniyyət, çoxçeşidli və çoxşəbəkəli qutsal təsəvvür klişeləri sıralanır. "Gedirəm, bağrımda Rəbbimin eşqi" deyən şair öz qəlb dünyasından bütün dünyaya bu eşqlə baxır və yaradıcılığı boyu sözdən-sözə, misradan-misraya onun mahiyyəti daha da dərindən dərk olunur.. "Azadlıq", "Hər gecə", "Peyğəmbər nuru", "Vətənim" "Çox gözlədik", "Bir ətrim var" və s. kimi şeirləri etnik özünüifadənin (eləcə də özünüdərkin) faktı olaraq qəlibləşmiş etnokosmosu müəyyənləşdirir.

Bədii mətnin modernləşdirilməsi mahiyyət hadisəsi olaraq şeirin bütün komponentlərinin (qafiyə, ritm, intonasiya, misra yükü, heca və s.) tamlığına, uğurluluq seçiminin formalaşdırdığı təsəvvürə bağlanır. Onu da əlavə edək ki, "*şeirin*

*şeirliyi hərfi hərfinə alınmır, bir halda onun bir, digər halda başqa əlaməti əsas tutulur. Bir də görürsən qafiyə yoxdur, ancaq bütövlükdə poetiklik var; qafiyə seyrəkdir, ancaq tam halında poetik hörüm sıxdır: vəzn sınır, ancaq melodiya, harmoniya qalır və s.*" [46, s.69]. Ümumiyyətlə, mətnin metadil funksiyası şeir boyu çatdırılan məzmunun bütövlüyünə, deyimin üsul və vasitələrinin düzümünə hesablanır. P.Qəlbinur poeziyasında mövzunun reallaşdırılmasının üsul və yolları bədii sözün sıralanmasına bağlanır. Burada tamlığı şərtləndirən faktor qafiyənin yoxluğunda (və yaxud da azlığında) deyil, poetik sıralanmada harmoniyanın ortaya qoyduğu simmetriyadadır. Ona görə də yaradıcı təfəkkürünü formalaşdıran amillər sırasında P.Qəlbinurun idraki qavrayışından hissi dərkinə qədər bütün olanların ortaqlıq formulunda yazıçı istedadının müəyyənləşdirdiyi təsəvvür dayanır. Burada mövzu anlamında etnik yaddaşın müəyyənləşdirdiyi formullar, arxetiplərin hərəkətliliyi, inam və etiqadların, təsəvvürdə oturuşmuş əfsanə, rəvayət elementlərinin kodlaşdırdığı rəmzlər və s. diqqət önünə gəlir. Məsələn, Tanrıya müraciət formasında yazılımış poetik örnəklərin müəyyənləşdirdiyi metamodel sxemi mətn hadisəsi olaraq yaradıcı informasiyasının düşüncə özünəməxsusluğu ilə reallaşır. İnam və etiqadlardan mifoloji yaddaşa, şaman rituallarına, İslam tarixinə, hədislərə və s. qədər bir çeşidlilik boy göstərir. P.Qəlbinur bunların uğurlu ifadəliliyində həm də onun forma və üsullarını çatdırma (canlandırma) bacarığı ilə görünür. Məsələn, tarixi rəvayətə görə peyğəmbərimiz Həzrəti Məhəmməd (S.Ə.A.V.) və Əbubəkr Məkkə müşriklərindən qaçıb Mədinəyə gedərkən Səvir adlı mağarada gizlənmişlər. Allahın əmri ilə hörümçək mağaranın qapısında tor hörmüş və bununla da düşmən onların yerini tapa bilməmiş, mağaranın yanından şübhələnməyərək keçmişdir. Beləliklə, Səvir mağarası ən etibarlı sığınaq yeri kimi rəvayətlərdə özünə yer almışdır. Paşa Qəlbinurun poetik canlandırmasında isə bu bir bənzətmə tipi olaraq mətnə əlavə məzmun qatır, yaradıcı imkanlarının genişliyi ilə faktlaşır.

*Gülüşün – dan yerimdi –*
*Qaranlıqdan ağaran.*
*Darda qalsam - sığnağım –*
*"Səvir mağaram!"* [91, s.567]

Göründüyü kimi, şeirin fonopoetik qatı, misranın fikir yükü, heca dalğalarının özünəməxsus avazlanma mənzərəsi bir bütöv olaraq mətnin uğurluluğu üçün əsas olur. Gülüş // dan yeri paralelizmi, gülüş // Səvir mağarası sıralanmasının mətnə gətirdiyi məzmun və onun əhatələdiyi təsəvvür qatı yaradıcı imkanlarına bağlanır. Bunlar hamısı yaradıcı özünəməxsusluğunda üslub göstəricilərinin nümunəsidir. “Elmin yollarında” şeirindəki (oğlu Turala müraciətlə yazılmışdır) bənzətmələr, adı gedən Məkkə, Mədinə, Kəbə, Səvir və s. kimi müqəddəs məkanlar bir istiqamətdə informasiya imkanlılığı ilə səciyyələnir. Tipoloji müqayisədə Ərəfat dağında (Məkkədə) günçıxandan günbatana qədər zikr ayini ilə elmin əzabları uğurlu təsir bağışlayır [91, s.307]. “Peyğəmbər nuru” poeması da şairin yaradıcılığında uğurlu örnək kimi müsbət təsəvvür formalaşdırır. Müqəddəs kitabımız Qurani Kərim haqqında verilən bilgilər, milyard yarımdan çox insanı əhatə etməsi, səmavi kitabların sonuncusu olması və s. məsələlər yaradıcı özünəməxsusluğunda canlandırılır. Mətndə vurğulanır ki, onun ilahi gözəlliyi sayəsində ərəb dilini bilməyənlər belə onu dinləməkdən doymur, yorulmurlar. Müqəddəs kitabımızla bağlı günümüzə qədər çoxlu təfsirlər, şərh və mahiyyətinin açımına yönəlik gərəkli işlər görülmüşdür. P.Qəlbinur da bir yaradıcı kimi bu ənənəyə özünün töhfələrini vermiş, qəlbinin dərinliklərdə kök salmış bu möhtəşəmliyə bir abidə qoymağa çalışmıdır.

Azərbaycan poeziyasının müəyyənləşdirdiyi təsəvvür, onun ayrı-ayrı zaman kəsiklərində nəzərə çarpan mövzu və ideya zənginlikləri, mühitin və ədəbi axınların verdiyi töhfələr həmişə bir qaynaq olaraq ənənənin möhtəşəmliyinə, etnik dəyərlərin müqəddəslik dərəcəsinə bağlanır. P.Qəlbinur poeziyası da bütün aspektləri, mövzu mündəricəsi, üslub özünəməxsusluqları fonunda tarixi-mədəni təcrübəyə, etnokulturoloji sistemin formalaşdırdığı təsəvvürə bağlanmaqla, həm də həmin ruhun yaşarlığına köklənir. “*Poeziyaya bağlılıq şair ömrünün sözə, sözün qüdrətinə həsr etməsinin ilkin şərtidir. Onun ürəyi sözdən qüvvət alır, söz eşqi ilə döyünür. Səslər, sözlər aləminin cazibəsinə düşən yaradıcı şəxs xalqının doğma dili ilə nəfəs alır, bu dillə yaşayır, bu dilin melodiyasını yaşadıb inkişaf etdirir*” [69, s.207]. P.Qəlbinur poeziyasını formalaşdıran amillər bütün parametrləri ilə tarixi ənənənin ortaya qoyduğu şeir təsəvvürlərinə və onun müasirlik adında diqqət önünə gələn

prinsiplərinə bağlanır. Burada janr tipologiyasından paradiqmatik səviyyənin sərgilədiyi gerçəklik faktlarına qədər bir əhatəlilik özünə yer alır. Mətnin semantik qatı, formullar sisteminin mükəmməllik mənzərəsi, janr fakturasının bütövlük kodları, estetik keyfiyyətin təminatçısı rolunda çıxış edən hecalanma və səs dalğaları, morfopoetik sistemin mükəmməlliyi və s. bir bütöv olaraq özünə yer alır.

Paşa Qəlbinurun yaradıcılığının mövzu rəngarəngliyini müəyyənləşdirən məsələlər də onun bədii düşüncəsinin qaynağı olaraq funksional səciyyə daşıyır. 60-80-ci illərin yaradıcılıq axtarışları, kökləndiyi milli konsepsiya, mühitin sərgilədiyi mövzu və düşüncə formulu, ictimai-sosial çevrənin yaradıcı qarşısına qoyduğu tələblər və ondan gözləntiləri, tarixi reallıqların bədii mətnə gətirilməsinin üsul və yollarının orijinallığı və s. bir bütöv olaraq Paşa Qəlbinur poeziyasının ümumi axarını müəyyənləşdirir. Şairin vətənin təsvir və tərənnümünə həsr etdiyi şeirlər bütün mahiyyəti ilə özünüdərk və baş verənlərə bir sənətkar nümunəsi olaraq görünür. Paramparça olmuş müqəddəs Vətənin ağrı və əzabları, çəkdiyi müsibətlər müxtəlif formalarda P.Qəlbinur poeziyasını izləyir, bir növ baş verən tarixi ədalətsizliklərə haqq səsi olaraq görünür. Cənubi Azərbaycan, İrəvan, Zəngəzur, Göyçə itkisi, tarixi torpaqlardan soydaşlarımızın düşünülmüş şəkildə qovulması, imperiya siyasətinin xalqımıza yönəlikli məkrli mövqeyi və son olaraq birinci Qarabağ müharibəsi şairin poeziyasının mövzu şəbəkəsinin çeşidliliyini və nələrlə səciyyələndiyini aydınlaşdırır.

P.Qəlbinurun milli oyanış və özünüdərk mübarizəsində tarixi yaddaşa, pozulmuş nizamın bərpası düşüncəsinə köklənir. Doğrudur, 60-cı illər poeziyasının nümayəndələrindən olan M.Araz, X.R.Ulutürk, N.Həsənzadə, H.Kürdoğlu, S.Əsəd, T.Bayram, C.Novruz və başqalarının yaradıcılığında bir xətt olaraq özünü göstərən etnik yaddaş müxtəlif istiqamətlərdə simvollaşmalarla (məsələn, Arazın bir çay olaraq bədii düşüncədə formalaşdırdığı təsəvvür) ədəbiyyata möhürünü vururdu. Burada metaforik çatdırmadan üsyankarlığa, etiraza, çağırışa qədər rəngarənglik və yaradıcı etirazı özünü göstərirdi. P.Qəlbinur da bir yaradıcı olaraq baş verənlərə, tarixin pozulmuş nizamına, yaşadığı mühitin ədalətsizliklərinə bir vətəndaş şair olaraq münasibətini bildirir. Milli estetik dünyagörüşündə parçalanmış vətənin bütövlük obrazı qırmızı xətt kimi keçir.

*Əlimizdə zülməti*
*Kəsib-doğrayan bıçaq.*
*Vətənimin gözünə*
*Araz boyda ağ gəlib,*
*Kəsə bilmirik ancaq...* [91, s.327]

Bədii mətnin estetik funksiyası onun mahiyyətini, məzmun qatlarında və janr səviyyəsində olanların uğurluluğunda müəyyənləşir. Yuxarıda verdiyimiz örnəkdə mətnin proyeksiyalaşdırdığı informasiya sənətkarın vətən təsəvvürünə, pozulmuş nizama etirazın ifadəsidir. Nitqin estetik funksiyası, göründüyü kimi, söz sıralanmasında dilin kommunikativ funksiyasında hansısa qırıqlığa şərait yaratmır, əksinə uğurluluğu təmin edən vasitəyə çevrilir. P.Qəlbinur yaradıcılığını formalaşdıran və onu sözə gətirən amillər ədibin sənətkar istedadından, milli düşüncədə formalaşmış müəyyənlik təsəvvürlərinə, fikri ifadə üsullarının rəngarəngliyinə, metamodel şəbəkəsində özünü göstərən üsul və vasitələrə, tarixi ənənədə müəyyənləşmiş yaradıcılıq təsəvvürlərinə qədər bir zənginliyi əhatə edir. Burada etnosun özünəməxsus rituallar, arxaik təsəvvürlər toplumunda qəlibləşmiş arxetiplərin hərəkətliliyi, türk metadünya modelinin xüsusi təzahür tiplərinin bədii mətndə ifadə və əksi imkanları və s. maraqlı olan kimi özünə yer alır. 60-80-ci illər, eləcə də çağdaş Azərbaycan poeziyası yeniləşmənin özünəməxsus konseptual sistemlərinin təzahür formalarına köklənmə yolunu tutdu. Əsas qaynaq isə bütün olanların (düşüncə tiplərinin) milli olana köklənməsi və onun yeni forma, üsullarının cızılması idi. Məsələnin konkret tarixi mənzərəsi imperiya təsəvvürünün ortaya qoymağa çalışdığı konsepsiyanın uğursuzluğu və etnik mədəniyyət, təsəvvür tiplərinin çökdürülməsinə yönəlikli siyasətin aparılması idi. Bütün bunların ədəbi-mədəni mühitdə dərki və ona qarşı mövqe sərgiləmə gücü istiqlaliyyət dövrü və istiqlaliyyət şeiri, milli təəssübkeşlik duyğusu, özünüdərk və özünütəsdiq kimi çətin (həm də keşməkeşli) yollardan keçirdi. P.Qəlbinur da bir şair, yaradıcı olaraq son dövrün ictimai-siyasi proseslərində baş verənlər və xalqın yaşadığı acılar (müharibə və torpaq itkiləri, tarixi dədə-baba yurdlarının işğalı və s.) timsalında yaradıcı mövqeyini nümayiş etdirirdi. Ona görə də "azadlıq idealı Ana obrazı kimi Qəlbinurun

bir çox şeirlərində nəqarət olaraq səslənir. Şair üçün azadlıq insanın yaşaya bilməsi üçün müqəddəm şərtlər olan çörək hava və su kimi ən başlıca nemətlərdən biridir:

*Arzuların ulusu*
*Və bir də*
*Azadlıq iyi*
*Ciyər dolusu...*" [97, s.68-69].

Ümumiyyətlə, ədibin bütün şeirləri demək olar zəngin fikir qatları ilə reallığı, hansısa pozulmuş nizamın çatdırılmasını və ona münasibəti ifadə baxımından tipikdir. Çünki poeziyanın təbiəti və tarixi dinamikası, formalaşdırdığı təsəvvür məhz ruhun yaşarlığına, etnik dəyərlərin qorunuşuna köklənmişdir. P.Qəlbinur poeziyası da öz geniş məzmun qatları, həyat hadisələrinə fəal mövqe sərgiləməsi, yaradıcı duyğularının nələrlə səciyyələnməsi kontekstində möhtəşəmlik qazanır. Burada təkcə yaradıcı istedadı ilə məsələ bitmir, həm də vətəndaş mövqeyinin, baş verənlərə münasibətin aydın və dəqiq mənzərəsi vardır. İlk şeirlərində son şeirlərinə qədər bunlar bir yaradıcı mövqeyi olaraq özünü göstərir. Son dövrün olayları, Azərbaycanda və dünyada baş verənlər, insanların çəkdiyi sıxıntılar, qarşılaşdığı faciəli situasiyalar P.Qəlbinur poeziyasında müxtəlif səviyyələrdə ifadəsini tapır. Maraqlı olan burada sadəcə olaraq onun təsviri deyil, sərt sənətkar mövqeyinin ortaya qoyulmasıdır. Yaradıcı istedadı və onu xarakterizə edən yaradıcı özünəməxsusluqları ədəbi-nəzəri fikrin həmişə diqqət mərkəzində olmuş və müxtəlif aspektləri ilə təhlil probleminə çevrilmişdir. P.Qəlbinur poeziyası da üslub fərdiyyəti və onun dinamik mənzərəsi timsalında kifayət qədər geniş faktura ilə müəyyənləşir. Həyat hadisələrinin təsvir və tərənnümü, yaradıcı düşüncəsində olanları dərk və təqdim üsulları, sənətkar yanaşmaları və s. ciddi təsəvvür formalaşdırır. Bütün bunlar P.Qəlbinur poeziyasının ümumi axarında olanları əhatələmək gücü ilə, həm də qaynaq olaraq bu zənginliyi səciyyələndirən sistemlərin mükəmməlliyini, etnik təsəvvürü əhatələmək xarakteri ilə sərgilədiyi imkanlılığı, yaradıcı özünəməxsusluğunun paradiqmatik mənzərəsini aydınlaşdırır.

# II FƏSİL
# LİRİK "MƏN"İN TƏŞƏKKÜL VƏ TƏKAMÜL MÜƏYYƏNLİYİ

## 2.1. Paşa Qəlbinur poeziyasının psixologizmi və poetik obrazlar kultu

Paşa Qəlbinur poeziyasının zənginliyində araşdırmalı problemlərdən biri bədii-estetik təfəkkürünün təşəkkül və təkamül müəyyənliyində dayananların ümumi mahiyyətini aydınlaşdırmaq, yaradıcı şəxsiyyətinin əhatələdiyi təsəvvür və düşüncə qatlarını bir bütöv olaraq ortaya qoymaqdır. Ədəbiyyatın işi və bütövlükdə cövhərində dayananlar (eləcə də bədii sənətin) məhz hadisə və əhvalatçılıqdan uzaq insan hisslərinin anatomiyasına həssaslıq göstərmək və onun mahiyyətində dayananların spektrlərini aydınlaşdırmaqdır. Əlbəttə böyük ədəbiyyatın axarında hadisə və əhvalatların müəyyən süjet (xətt) üzrə sıralanması bir tendensiya olaraq özünü göstərmişdir. Ancaq o sıralanmada xarakterlərin sərgilədiyi təsəvvür, insan düşüncəsinin alt qatında dayanan düşüncə tiplərinin nələrlə səciyyələnməsi məsələsi vardır. Bu isə hansı yana çevirməyimizdən asılı olmayaraq insanı təhlilə, onun mahiyyətində olanları aydınlaşdırmağa gəlib çıxır. Daha doğrusu, "psixologiyasız ədəbiyyat yoxdur" anlayışına bağlanır. Mümkün bütün təhlillər bu və ya digər dərəcədə psixologizmə, insana diqqətə bağlanır. P.Qəlbinur yaradıcılığının bədii düşüncə konsepsiyası bütün aspektləri ilə insanı öyrənməyə, insanı dərkə və onu ifadəyə köklənmişdir.

Ümumiyyətlə, ötən əsrin 60-cı illərindən ədəbiyyatda başlayan yeniləşmə tendensiyası (yeni nəsil və yeni nəsr təsəvvürü) bir istiqamətdə insanın daxili aləmini, iç dünyasını, daxili nitqində özünə yer alan fikir və düşüncələrini aydınlaşdırmağa köklənmişdi. Onu da əlavə edək ki, bu təkcə Azərbaycan ədəbiyyatında özünü göstərən xarakterik keyfiyyət olmayıb, dünya ədəbiyyatı üçün nəzərə çarpan tendensiya idi. *70-80-ci illər ədəbiyyatında, eləcə də müstəqillik dövrü ədəbiyyatında "bədii yaradıcılıqda psixologizm", "yaradıcılıq və psixologiya" problemləri bədii düşüncənin, eləcə də ədəbi-nəzəri fikrin problemi olaraq daha geniş mahiyyət kəsb edir. İ.Şıxlının, İ.Hüseynovun, Anarın, Elçinin, Y.Səmədoğlunun, V.Səmədoğlunun,*

*H.Arifin, M.Arazın, N.Kəsəmənlinin, M.Süleymanlının, R.Rövşənin və onlarla başqalarının yaradıcılığında özünü göstərən psixoloji əksetdirmə, daxili monoloq bir xətt olaraq ədəbiyyatın məzmun xronotoplarında ciddi mənzərə ilə səciyyələnirdi".* [31]. Təkcə nəsr əsərləri deyil, poeziya da bütün aspektləri ilə insanı bir mahiyyət məsələsi olaraq dərkə, etnokulturoloji yaddaşda müəyyənləşdirdiyi təsəvvürə köklənir. P.Qəlbinur yaradıcılığı kontekstdə apardığımız təhlillər lirik "mən"in təşəkkül və təkamül müəyyənliyində sənətkar psixologizmini aydınlaşdırmaq məqsədi daşıyır.

Bədii-estetik təfəkkür texnologiyalarının əksetdirmə imkanları insanı, onun mahiyyətində, mənəvi dünyasında olanları ifadəyə köklənir. Çünki ədəbiyyatın yaradıcısı insandır və insanı bir varlıq olaraq dərk, maddi və mənəvi məzmunun paradiqmatik mənzərəsini aydınlaşdırmaq müxtəlif səviyyələrdə (fəlsəfi, tarixi, psixoloji, mədəni və s.) ilkin təsəvvürdən günümüzə qədər həmişə diqqət önündə olmuşdur. "*Sözün hər bir kəlməsinin arxasında canlı insan, onun mürəkkəb və zəngin daxili aləmi, hiss-həyəcanları, duyğu və düşüncələri dayanır*" [69, s.18]. Bütün bunlar kontekstində xalq şairi S.Vurğun "*adın sözdür, özün insan, nə mənalar yaşar səndə*" [120, s.20] deməklə diqqəti insanın mahiyyətinə yönəldir. P.Qəlbinur yaradıcılığı da öz zəngin fakturası, işarələr sisteminin simvolizə etdiyi yaddaş kodları ilə lirik "mən"in təşəkkül və təkamülü konsepsiyasına yüklənir. "Nənəm", "Ağla", "Anam elçi gedən gün", "Dağlar kəpənəkdi bu yay günündə", "Ay gözlərin", "Bir yaşında uşaqlar", "Qubanın ağ alması", "Pinəçi dükanı", "Dilənçi", "Nar", "Sahibsiz məzarlara kim keşik çəkir", "Nədənsə yaşıla çalmadın axı", "Sual", "İndicə" və s. şeirlər sənətkar düşüncəsinin bədii-estetik prinsiplərində müəyyənləşmiş poetik obrazlar kultunu sərgiləyir.

*O sözü soruşmaq istəyəndə mən,*
*Çadar torpaqlara sular hopantək*
*Cürətim tükənir...*
*Bir arı pətəyi göydən qopantək*
*Havam iynələnir, göyüm göynəyir...* [91, s.477].

Mətn fenomeni, sözün məna yaddaşı və janr məzmunu bir bütöv olaraq lirik

“mən”i ifadəyə və onun psixoloji vəziyyətini, daxili duyğular selində sıralanmanın axarını faktlaşdırır. Burada söz sıralanması mətn//mətn münasibətlərində davranış etiketləri, psixoloji əksetdirmə, daxili monoloq kimi çeşidli bir rəngarəngliklə təzahür edir. Mənəvi-estetik mövqe, şəxsiləşmiş baxış müqayisələrə, “sözü soruşmaq istəyən”lə söz soruşulan arasında olan vəziyyətə və soruşanın “cadar torpaqlarda sular hopantək” vəziyyətinə bağlanır. Aparılan müqayisələr təkcə sənətkar duyğularının hərəkətliliyi və düşdüyü vəziyyətin məqamı ilə maraq doğurmur, bunun ikinci tərəfində psixoloji vəziyyətin izahı müstəvisində çatdırmanın üsul və yolları diqqət önünə gəlir. Çünki dil özlüyündə fikrin ifadə materialı olaraq uğurluluq əmsalı kimi ciddi təsəvvür formalaşdırır. Məsələyə dilin imkanlığı mövqeyindən yanaşan K.D.Uşinski vurğulayır ki, “*dildə bütün xalq və vətən təcəssüm olunur: onda xalqın ruhunun yaradıcı gücü, vətən göylərinin səsi, onun havası, fiziki hadisələri, ab-havası, çölləri, dağları, düzləri, onun meşələri və çayları, onun burulğan və tufanları gerçəkləşir... Ancaq xalq dilinin işıqlı və şəffaf ənginliklərində doğma yurdun təkcə təbiəti deyil, həmin xalqın mənəvi həyatının bütün tarixi əks olunur*” [137, s.20]. P.Qəlbinur poeziyası öz qaynağı, genetik məzmununda daşınanların polifonikliyi və xronikal mənzərəsi ilə xalq ruhunun yaradıcı gücü təsəvvürünə bağlanır. Etnosun mənəvi həyatını əks etdirmə gücü ilə təmsil olunan ədəbi-mədəni mühit yaradıcı axtarışlarında bunun özünəməxsusluq formullarını da diqqət önünə gətirir. Sənətin nəzəri tipologiyası mahiyyətində real zaman kəsiklərinin qoyduğu təsəvvürləri, tarixi özəllikləri də bir tərəf olaraq sıralayır. Ona görə də P.Qəlbinur poeziyasında nəzərə çarpan şəbəkəli özünəməxsusluqlar həm də yaradıcı mühitin sənətkar qarşısına qoyduğu təsəvvürlə bağlanır. Lirik “mən”in təşəkkül və təkamül müəyyənliyində olanları bir bütöv olaraq sıralayır. Bütün bunların mahiyyəti isə sənətkarın yaradıcı psixologizmini, obrazlar kultunu əhatələyir. Şairin zəngin bədii-estetik təfəkkürünün sərgilədiyi çeşidli mənzərənin ümumi sistemi yaradıcı psixologizminin mahiyyətini aydınlaşdırmaq üçün bir sıra məsələlərə diqqət yetirməyi zəruri edir.

a) psixoloji əksetdirmə üsullarının özünəməxsusluğu baxımından bədii mətnin sərgilədiyi təsəvvür və onun ümumi tipoloji sistemi;

b) lirik “mən”in daxili monoloqunun polifonik mənzərəsində nitq

subyektlərinin (müəllif "mən"inin nitq subyekti və tərənnüm obyekti olması) sərgilədiyi təsəvvür;

c) davranış etiketlərinin bədii mətndə özünü göstərən forma üsulları;

ç) mətn//mühit səviyyəsində bədii ümumiləşdirmə, inikas tamlığı və tipikləşdirmənin paradiqmatik mənzərəsi;

d) bədii məzmunun janr strukturuna uyğunlaşdırdığı modelləşdirici yaradıcılıq üsulunun ortaya qoyduğu məna qatları;

e) üslub müəyyənliyində fərdi özünəməxsusluğu şərtləndirən amillər və s.

Azərbaycan poeziyası bütün dönəmlərdə şifahi və yazılı ədəbiyyat qolunu əhatələməklə mahiyyəti ifadə baxımından nitq janrlarının rəngarəngliklər, özünüifadənin yeni model və üsullarının tapıntısı, yaradıcı düşüncəsində daxili təbəddülatların hərəkətliliyi, onu dilləndirmə üsullarının spesifikası ilə əhatələnir. Bayatılar, xalq mahnıları, dastanlar, mərasim folkloru, zəngin aşıq yaradıcılığı, əmək nəğmələri etnosun davranış etiketlərini, duyğu və hisslər aləmindəki tipik mənzərənin psixoloji ovqatını, paraqmatik vasitə olaraq formalaşdırdığı təsəvvürü aydınlaşdırır. Hər bir poetik mətn isə müxtəlif səviyyələrdə estetik-psixoloji aləmi bir məqsəd olaraq ehtiva etmək funksiyasına yüklənir. Poeziyanın bu baxımdan imkanlılığı daha çox diqqət önünə gəlir. Çünki onun cövhərində vəcdə gəlməyin, vəcd yaratmağın ucu-bucağı görünməyən vasitə və imkanları özünü göstərir. Aristotel poeziyanın təsir və ifadə imkanlığını təhlilə gətirərkən vurğulayırdı ki, "yalnız həyəcanlanan həyəcanlandıra, qəzəblənən qəzəbləndirə bilər" [11, s.84].

Poeziyanın bütövlükdə genetikası hiss və duyğuların hərəkətliliyinə, insan ruhunun rübabını dilləndirməyə (dilə gətirməyə), duyğular əsasında onun öz dünyasını kəşf etməyə köklənmişdir. Onun enerji qaynağını isə şairin bitib-tükənməyən duyğular selində pərvazlanan şair təxəyyülü və onun yaradıcı fantaziyası təşkil edir. Yaradıcı laboratoriyasının mürəkkəbliyi, bədii-estetik təfəkkürünün poetexnoloji sistemi mövcud mətləbi çatdırmanın üsul və yollarının imkanlılığı (uğurluluğu) ilə müəyyənləşr. Obyektiv aləm və subyektiv yanaşmalar səviyyəsində baş verən sıralanma mətn//subyekt münasibətlərində reallaşır. Subyekt dərkinin və ifadəsinin prinsipləri isə psixoloji ovqata, mətləbi çatdırmanın pataloji üsullarına

hesablanır. Lirik mətn nəğmənin özünəməxsusluqlarla səciyyələnən və bütünlükdə daxili monoloqun spesifiklik komponentlərinə yüklənən bir formasıdır. *"Lirika lal duyğulara söz və surət verir, onları köksün dar qəfəsindən bədii həyatın təmiz havasına çıxarır... Burada predmet öz-özlüyündə heç bir qiymətə malik deyildir; hər şey subyektin ona verdiyi qiymətdən, hər şey xəyal və duyğunun predmetə verdiyi ruh və mənadan asılıdır"* [73, s.59]. P.Qəlbinur poeziyası 60-cı illərin ümumi ruhuna köklənməklə onun müəyyənləşdirdiyi sənət prinsiplərinə, işarələrin kəsb etdiyi simvolizmə, metaforik məzmun qatlarının özünəməxsusluq modellərinə bağlanmışdır. Obyektiv aləmin subyektiv dərkinə, "həyatda olduğundan daha gözəl" düşüncəsinə köklənən ədəbiyyat nitq janrlarının özünəməxsus üsulları ilə müəyyənləşdirdiyi məqsəd və məramı reallaşdırmağa, dürlü örnəklərini bir istiqamət olaraq ortaya qoymağa çalışır. Sənətkarın hiss və ehtiraslarının subyektivliyində sıralanan mətn axarı onda həm də orijinallığın təminatçısına çevrilir. "*Çünki yalnız nəhəng şəxsiyyət cəmiyyətin diqqətini özünün xüsusi şəxsi və psixi aləminə cəlb etdikdə ona fayda verə bilər"* [140, s.166]. Azərbaycan ədəbiyyatının tarixi dinamikasında bunun lazımı qədər mükəmməl örnəkləri vardır və bunlar N.Gəncəvi, Ş.İ.Xətai, M.Füzuli, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.Vurğun, H.Arif və s. kimi böyük simaların düşüncə zənginliyində olan fikir və ifadə modellərinin simmetriyası ilə müəyyənləşir. Sənətkarın lirik məni estetik keyfiyyətə qalxdığı şəraitdə əsər sənət abidəsi təsəvvürü formalaşdırır və mətn informasiyasında yaradıcı psixologizminin koordinatlarını aydınlaşdırmaq üçün əsas olur. P.Qəlbinur poeziyası sərgilədiyi məzmunla davranış etiketlərini, daxili monoloqda olanların çeşidlilik formulları ilə təkamül müəyyənliyinə köklənir. Bunların uğurluluğunda bədii-fəlsəfi təcəssümün (psixoloji əksetdirmənin) sənətkarın yaradıcı laboratoriyası üçün özünəməxsus təqdim üsulları bir keyfiyyət göstəricisi kimi mahiyyət kəsb edir. Daha doğrusu, yaradıcı şəxs hiss və duyğuların axarında yaradıcı fərdiliyi timsalında bədii-fəlsəfi təcəssüm prinsiplərini ortaya qoyur. "Ağ çiçək kimi" şeirində modelləşdirmənin ümumi prinsipi psixoloji əksetdirmə üsulu ilə orijinallığı sərgiləyir və sənətkar özünəməxsusluğunun faktı olaraq şərtlənir.

*Bir mələk qonaydı çiyinlərimə,*

*Bu kağızın alnına*

*Bircə misra yazaydı.*

*Sonra da, sonra da ağ çiçək kimi*

*O bir əlçim kağızı,*

*Kağızın altında mavi yazını*

*Barmağımı batırıb gözlərimin yaşına*

*Qoyaydım Cavidin sinə daşına.* [91, s.38].

Burada situasiyalar və situasiya daxili hadisələrin sıralanması psixoloji əksetdirmənin özünəməxsusluq komponentləri, semantemlərin ("bir mələk qonaydı çiyinlərimə"), fərdi-psixoloji yanlamaların hissi təzahürü arxetiplərin hərəkətliliyi üçün əsas olur. "Mələyin çiyinə qonması" arxetipi mifik yaddaşda bir alın yazısı, tale məqamı kimi təzahürünü tapsa da, onun poetik düşüncədə kəsb etdiyi məzmun metaferik xarakteri ilə başqa bir sıralanmanı zərurət olaraq ortaya qoyur. Mətnin analitik – psixoloji təfsiri özlüyündə aşağıdakı situasiya və situasiya daxili mənzərə ilə sıralanır.

a) mələyin çiyinə qonma istəyi;

b) arzulama olaraq alnıma qədər olaraq yazılacaq misranın mahiyyəti;

c) bircə misranın "ağ çiçək kimi" sərgilədiyi metaforik məqam, məna semantemi;

ç) Cavidin sinə daşına qoyma istəyinin düşüncənin məzmun qatları və s.

Mələk, aç çiçək, ağ kağız, mavi yazı və Cavidin sinə daşı bir bütöv olaraq mətn və məzmun sıralanmaşında düşüncə kodu olaraq analitik-psixoloji qatın hissi və emosional mahiyyətinə dayanır. İsa Muğanna yaradıcılığının mahiyyət qatlarına diqqət yönəldən akademik T.Hacıyev vurğulayır ki, "*indi tarixi öyrənmək üçün İsanı oxu: onları dəyərləndirmək üçün İsanı oxu, Gələcəyi görmək üçün İsanı oxu, insan psixologiyasını duymaq üçün İsanı oxu; həyatın əziyyətlərinə bir sufi qeyrəti ilə dözmək üçün İsanı oxu…"* [47]. Mətnin unikallığnın və çoxqatlı məzmun sıralanmasının ümumi sistemlərini müəyyənləşdirmək üçün müəllif təxəyyülü ilə yaradıcı qavrayışının işarələdiyi sərhədlər həm də yaddaş və arxetip anlamında

mövzunun poetexnoloji sistemində dayananların nələrlə səciyyələnməsini diqqət önünə gətirir. Cavid etnik yaddaşın kodu olaraq modelləşir və ifadə axarında tarixin çox dərinliklərindən süzülüb gələn reallıqlarla yanaşı, həm də psixoloji hadisə olaraq bütövləşir. Çünki P.Qəlbinurun sənətkar və şəxsiyyət təsəvvüründə 37-ci ilin ölüm saçan psixoloji anları var və xalq bir etnos olaraq bunların içərisindən keçməklə, həm də baş verənləri öz içərisindən vaxtaşırı (zaman-zaman keçirmək) stixiyasına köklənir.

Mətn//mətn, mətn//subyekt münasibətlərində proyeksiyalaşan bədii təfəkkürün metatekstuallıq konsepti sənətkar psixologizminin geneoloji mahiyyətinin də nələrlə səciyyələnməsini diqqət önünə gətirir. P.Qəlbinur poeziyasında bunun özünəməxsusluq kodları peşə psixologizmi ilə yaradıcı (şair) psixologizminin ortaya qoyduğu özünəməxsusluq simptomları ilə təzahür edir. Son olaraq yaradıcı psixologizminin müəyyənlik şəbəkəsində mükəmməl davranış kodu olaraq bir bütövün olduğunu düşünməyə əsas vermişdir. “Gəlin sizə pay verim”, “Soyuldu”, “Bu gecə qanımda işıq sayrışır”, “Bu gecənin yarısı”, “Durna qatarı”, “Ağac kötüyündə tale yazılır”, “Bu gün”, “Hörümçək torunda can verən cücü”, “Qorxuram dünyanın günahlarından”, “Görə bilməsəm” və s. şeirləri hər birisi psixoloji əksetdirmənin özünəməxsusluq formulları ilə janr səviyyəsini və mətnin sintaktik xarakterini aydınlaşdırır. Çünki *“personajın hiss və düşüncələrinin axarı, fasiləsizliyi və mütəhərrikliyinin açıqlanması; bədii subyekt və obrazların birləşmə və qovuşma formaları, o cümlədən təhkiyədə müəllif nitqinin priyomları; müasir insanın peşəkarlıq psixologiyasının açıqlanması; təhtəlşüur proseslərin insanın idrak və hərəkətləri ilə əlaqəsi; hərəkətlərin və ümumiyyətlə əməli fəaliyyətin insanın qəlbində baş verən keyfiyyət dəyişikliklərinə təsiri, qəhrəmanın mənəvi təkamülü, daxili ziddiyyətlərin onun inkişafındakı rolu, ədəbi qəhrəmanın mənəvi yüksəlişinin sosial mühitlə əlaqələndirilməsi və şərtləndirilməsi; qəhrəmanların fəlsəfi duyum və düşüncələri - detalların seçilməsi və onlardan istifadə etmə, insanların həyəcan və ideologiyasının “molekulyar” təhlili”* [121, s.5] məsələləri ilə şərtlənir.

70-80-ci illər Azərbaycan poeziyası, eləcə də müstəqillik dövrünün ədəbi prosesi

nə qədər 60-cı illərin ədəbiyyatı ruhuna (yeni nəsil, yeni nəsr) bağlansa da onun genetik qaynaqlarını müəyyənləşdirən ana xətt kifayət qədər dərinliklərə, ilkin təsəvvürdən gələnlərə, mifoloji zamanın dərk düşüncəsinə və sonrakı çağların ləngərli axarına bağlanır. Həyatın ümumi axarı və cövhərində dayananlar bir istiqamətdə bədii düşüncəni zərurət olaraq ortaya qoymuşdusa və ona münasibət üsullarını bir sistem olaraq formalaşdırmışdısa, digər kontekstdə onu həm də yaşam (bədii-estetik zövq, düşüncə) modelinə çevirmişdir. Konservativ yanaşmada reallıq da bunu göstərir və düşünməyə əsas verir ki, *"həyat haradadırsa poeziya da oradadır. Yalnız məzmun hər bir şairin – həm dahi, həm də sadəcə istedadlı şairin həqiqi meyarı ola bilər"* [15, s.226]. P.Qəlbinur poeziyasının dinamik mənzərəsi, məzmun və forma qatları əhatələdiyi faktura ilə bədii düşüncənin modelləşdirici xarakterinə bağlanır. Zəngin mövzu şəbəkəsində bütünlükdə insan və onun daxili mahiyyəti, dərk və qavrama prinsipləri, duyğu və düşüncə selində sıralanan lirik "mən"in hərəkətliliyi, ailə və yurd, torpaq sevgisi, ətraf mühitin ümumi məzmunu, dünya düzənində gedən proseslərin qiymətləndirilməsi və s. dayanır.

Lirik-psixoloji canlandırmanın ümumi prinsipləri üzərində köklənən P.Qəlbinur hər bir şeirində bu modelə, özü üçün müəyyənləşdirdiyi prinsiplərə, psixoloji əksetdirmə maneralarına, daxili monoloqun müxtəlif forma və üsullarının bədii mətnə gətirilməsinə köklənməklə orijinallıqla səciyyələnəcək bir özünəməxsusluğu ortaya qoydu. Ədəbiyyatşünas Ə.Əsgərli şairin yaradıcılığını bütün qövsləri, mövzu və struktur xətləri ilə təhlil edərək vurğulayır ki, *"Paşanın şeirlərini asanlıqla başa düşmək, dərk etmək olmur. Bəzən qeyri-müəyyən qavrayış şeirlərindəki fikir və düşüncəni psixoloji hissiyyatları ilə "min yerə yozur". Yəni P.Qəlbinur poeziyası intellektual poeziya olduğundan oxucunu yüksək fəlsəfi səviyyəyə, hazırlıq, poetik zövq, həssas duyum tələb edir, deməli həm də hazır oxucu istəyir"* [37, s.19]. Lirik-psixoloji üslubun müəyyənləşdirdiyi prinsiplər, insanın daxili aləminə nüfuz etmək, mənəvi ehtiyaclarının tələblərinə və ifadəsinə köklənmək və real ictimai-siyasi mühitin problemlərindən çıxış etməklə obrazlaşdırmaq, olanlara mövqe nümayişi göstərə bilmək P.Qəlbinur poeziyasının daxili harmoniyasına dayanır. İdeya-estetik düşüncənin ümumi prinsiplərinə dayanan və poeziyanın lirik-psixoloji axarına

köklənən sənətkar özünəməxsusluqları həmişə əksetdirmənin özünəməxsus üsulları ilə faktlaşır və onun zənginliyi bir növ şeirdən-şeirə açılır.

*Məni imtahana çəkir taleyim –*
*Suda balıq olub qarmağı görəm.*
*Məni imtahana çəkir taleyim –*
*Ov olub tətkidə barmağı görəm.*
*Yük oldu qeyrətim illər uzunu –*
*Boynuma minənlər yəhər bildilər.*
*Gözlərimdə çaxan ildırımları –*
*Yadlar yox, doğmalar səhər bildilər.* [91, s.83].

P.Qəlbinur poeziyası yüksək intelleksiyanın nümunəsidir, onun sərgilədiyi məzmun bir neçə qatlı olmaqla, həm də müxtəlif istiqamətlərə gedib çıxa biləcək yaddaşa, mənəvi zənginliyin hissi qavrayışından, platonik dərkinə qədər şəbəkəli təfsilatlara yüklənir. "Görə bilməsəm" şeirində ehtiva olunan şəxsi tale, yaradıcı həyatının keşməkeşli anları mühit və sənətkar səviyyəsində mükəmməl informasiyaya köklənir. Lirik "mən", yaradıcı insanın istək və arzuları, mənəvi aləmin real həyat həqiqətləri ilə tənasübündə olanların yaxınlıq və təzadlılıq dərəcəsi bir bütöv olaraq bədii mətnin polifonik sisteminə köklənir. Mətn situasiyasının sərgilədiyi məzmun yaradıcı taleyi timsalında "məni imtahana çəkir taleyim"lə faktlaşır. Burada mühitin (zamanın) mürəkkəb axarı timsalında mən və tale münasibətləri reallıqla dil tapa bilməyən (və ya tapmaq istəməyən) sənətkar mövqeyinin həssaslığı diqqət önünə gəlir. Reallığın isə yaradıcı istəyinə uyğunluğu "suda balıq olub qarmağı görəm" fəlsəfəsinin ümumi prinsipləri əsasında mümkün ola bilər (o da olsa). Burada yaradıcı ümumiləşdirməsinin cızdığı surət bir istiqamətdə sırf əksetdirmənin özünəməxsusluq sisteminə bağlanırsa, digər kontekstdə fövqəlsubyektivliklə şərtlənir. Lirik "mən" imtahana çəkilmədə bütün situasiyaların uğurlu, xeyrinə olan həlli üçün lazım olan keyfiyyətləri də diqqət önünə gətirir ("suda balıq olub qarmağı görəm", "ov olub tətikdə çaxmağı görəm") həm də bunun elə də asan olmayacağını unutmur. Bu bir növ həyatın özünün təbii qanunauyğunluğu olmaqla, həm də pozulmuş nizamın prinsipsizliyindən qaynaqlanır.

Şairin fərdi hisslər zəminində ortaya qoyduqları mühitin olacaqları timsalında qəm, qüssə, müəmma, coşğunluq, kədər, vəcd, etiraz, üsyankarlıq və s. kimi duyğusallıqların da həssaslığını diqqət önünə gətirir. Mətn informasiyası və onun daxili aləmindəki harmoniya bütün aspektlərdə fövqəlzamanlıq və fövqəlməkanlılıq səviyyəsində özünü göstərəcək reallığa bağlanır. Federiko Qarsia Lorka təxəyyül və ilham haqqında danışarkən xüsusi həssaslıqla vurğulayır ki, *"mənim üçün təxəyyül kəşf qabiliyyətinin sinonimidir. Təxəyyül insanın hərəkət etdiyi gizli gerçəyin fraqmentlərini əlaqələndirir və onlara həyati aşkarlıq verir. Təxəyyülün əsil övladı intusiyanın ani partlayışından doğan, uzun gözləntinin həyəcanı və parlayan metaforasıdır"* [43, s.226]. P.Qəlbinur poeziyasının təxəyyül qatları şairin yaradıcı dünyasının təsəvvürlər sisteminə və onun təbii axarda müəyyənləşmiş prinsiplərinə uyğunlaşır. Burada isə yaradıcı mövqeyi və həyatın pozulmuş nizamı arasındakı mütənasibliyin "qeyrətin yük olması"na qədər ciddi bir çeşidliliyi (həm də qarşıdurmaları) faktlaşdırır.

Paşa Qəlbinur poeziyası davranış etiketlərinin özünəməxsusluqları ilə seçilən və daim orijinallığa yüklənən poeziyadır. Ümumiyyətlə, poeziyanın mahiyyət məsələsi kimi vurğulanan romantika bütün zaman kəsiklərində ədəbi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur. XIV əsrin görkəmli şairlərindən A.Ərdəbili "sözdə xəyal yoxsa onda can olmaz" söyləyirdi. X.Şirvaninin, N.Gəncəvinin, M.Füzulinin, S.Təbrizinin və onlarla başqalarının ayrı-ayrı poetik örnəklərində vurğulanan fikir və mülahizələr bədii sənətin meyar prinsipləri olaraq qəlibləşmişdir. Poeziyanın cövhərində dayanan hiss və duyğu, romantika onun pardaqlanması, könülləri fəth etməsi üçün əsas olmuşdur. Ədəbiyyat hiss və ağıl müstəvisində yanaşmalarla, rəngarəng münasibətlər qalereyasının çevrələdiyi təsəvvürlərlə möhtəşəmlik qazanır. Ümumiyyətlə, poeziyanın dinamik axarında nəzərə çarpan fəlsəfi-intellektuallıq və lirik-romantiklik həmişə bir təmayül səviyyəsində özünə yer almışdır. Düzdür, bunların arasına axıra qədər sərhəd qoymaq da olmur, çünki burada birinin digərində ehtiva olunması da bir tərəf kimi özünü göstərir. Ədəbi-nəzəri fikirdə bu müəyyənliyin aparıcı tendensiyasını M.Füzuli // M.P.Vaqif şəxsində bir təmayül olaraq təhlilə gətirilməsi cəhdləri özünü göstərir. M.Füzulini fəlsəfi-intellektual

poeziyanın nümayəndəsi və kifayət qədər mükəmməl örnəklərini yaratması ilə təhlilə gətirirlərsə, M.P.Vaqifi lirik-romantik təmayül üzrə araşdırmağa üstünlük verirlər. XX əsrin ümumi poeziya axarında bu təmayüllər əlbəttə bir-birinə yaxınlıqlar və tendensiyaların özünəməxsusluq paradiqmaları ilə faktlaşır. Xalq şairi S.Vurğun və R.Rza şəxsində olan mənzərə bunun yeni mərhələdə klassik tipini ortaya qoyur. 60-cı illərin yeni axarında (eləcə də 70-80-ci illərdə) bu tendensiya B.Vahabzadə, Ə.Kərimli, V.Səmədoğlu, F.Qoca, F.Sadıq, Ə.Salahzadə, R.Rövşən, V.Cəbrayılzadə və başqaları ilə fəlsəfi-intellektual poeziya axarında zənginləşmə keçirdi. Lirik-romantik təmayülün tarixi-mədəni çevrəsi etnos təsəvvürünün yaradıcılıq ənənələrinə köklənməklə ciddi bir şəbəkəni özündə müəyyənləşdirirdi. H.Arif, N.Xəzri, N.Həsənzadə, M.Araz, M.Yaqub, M.İsmayıl, Qabil, X.Rza, C.Novruz, N.Kəsəmənli, A.Kəmərli, A.Sadiq, S.Osmanoğlu və s. kimi sənətkarların yaradıcılığı ilə bütöv təsəvvür formalaşdırır. Azərbaycan poeziyasının tarixi ənənə dalğalarında möhtəşəmlik qazanan 60-cı illər və ondan sonrakı dövr ciddi yaradıcılıq uğurları, özünəməxsusluqlar poeziyası olması ilə şərtlənir.

Fəlsəfi-intellektual, lirik-romantik təmayül olaraq qeyd etdiyimiz tendensiya bir-birindən ayrılmalardan (əks mövqedə dayanmalardan) çox, daxili mahiyyətində özünü göstərən yaxınlaşmalarla (bəhrələnmələrlə) səciyyələnir. P.Qəlbinur poeziyası da məhz bu zənginliyin yaradıcı axtarışlarında keyfiyyət göstəricilərinin yüksək intelleksiyasını nümayiş etdirmə baxımından mükəmməl təsəvvür formalaşdırır. Tomas Sternz Eliot "Ənənə və fərdi istedad" məqaləsində bunları mahiyyət məsələsi olaraq təhlil faktına çevirərək vurğulayır: *"Əgər ənənə yalnız bir nəslin təcrübəsinin digərinə ötürülməsindən, onun uğurunu kor və ürkək təqlidindən ibarət olsa idi, tam əminliklə demək olardı ki, hələ "ənənə"ni inkişaf etdirməyə dəyməz. Yenilik təkrardan yaxşıdır. Ənənənin əhəmiyyəti və anlayışı daha genişdir"* [118, s.256]. P.Qəlbinurun yaradıcılığı isə ənənə və özünəməxsusluqların fərdi üslubun müəyyənliyində formalaşmış poeziyadır. Heca və sərbəst şeir ölçülərində yazdığı bütün nümunələri ciddi axtarışlarla, müəllifin daxili nitqinin, hiss və duyğularının hərəkətliliyi ilə səciyyələnir və bütün vəziyyətlərdə müəllif üslubunu, fərdi mənin mahiyyətini əks etdirmək məqsədi daşıyır. Burada mənəvi aləmin ifadəliliyi və onun

çatdırılma üsullarının zənginlik şəbəkəsi, forma, üsulları bir tərəf olaraq müxtəlif səviyyələrdə sıralanır. Bir növ lirik mənin çatdırmağa çalışdığı estetik idealın formulasını yaratmaq məqsədi daşıyır. Burada psixoloji özünüifadənin davaranış və yanaşma etiketlərindən əksetdirmə üsullarının rəngarəngliyinə qədər bir müxtəliflik boy göstərir.

*Elə utancaqdı, elə yazıqdı*
*Bənövşədən betər boynu buruqdu*
*Qızılgül kolunun dibində lalə.*
*Üstəlik başına sarmaşıq çıxıb,*
*Yanında tumurcuq balaları da*
*Qıvrılıb elə bil, ot-ələf sıxıb –*
*Qızılgül kolunun dibində lalə* [91, s.246].

Lirizm elə geniş mahiyyətli hissi, bədii-estetik düşüncəni şərtləndirən məsələdir ki, onun əhatələdiyi məzmun təkcə poeziya ilə yekunlaşmır. Bədii düşüncənin faktı olaraq nəsrdə və dramaturgiyada da bir yaradıcılıq, üslubi-keyfiyyət olaraq mətnə əlavə çalarlar gətirir, bir növ məzmunyaradıcı fakt kimi ciddi funksiyaya yüklənir. Poeziyada isə onun yeri müstəsnalıqdır və üst qatda görünən hadisə olaraq estetik idealın cövlanına xüsusi imkanlar yaradır. Arxitekstuallıq müstəvisində P.Qəlbinurun "Qızılgül kolunun dibində lalə" şeiri yaddaş təsəvvüründə müəyyənləşmiş kodların arxetiplərinə bağlanır. Etnik düşüncənin müəyyənləşdirdiyi gül simvolikası və onun özünün tipoloji sıralanmada ortaya qoyduğu təsəvvür yuxarıdakı mətndə yeni məna çalarları ilə səciyyələnir. Qızılgül, bənövşə, lalə sıralanmasında şairin yanaşmaları və klassik ədəbiyyatın, eləcə də aşıq yaradıcılığının, xalq ədəbiyyatının zənginliklərində nəzərə çarpan özünəməxsusluqlar və orijinal mənalandırmalar sıralanmada kifayət qədər maraqlı təsəvvürlə faktlaşır. Dirili Qurbaninin "Bənövşəsi", Hüseyn Şəmkirlinin "Ağ gül, qırmızı gül, bir də sarı gül"ü, Xurşidbanu Natəvanın "Qərənfil"i, R.Rzanın "Rənglər" silsiləsi", H.Arifin bu sırada yazdığı örnəklər və s. hamısı mətn tipologiyasında sistemli müqayisələri həmişə diqqət önünə gətirmişdir. P.Qəlbinur da qızılgül kolunun dibində bitən lalənin poetik obrazını yaradır. Mətn axarında poetik sistemin sərgilədiyi məzmun situasiya və situasiya daxili potensiyası

ilə etnokulturoloji təfəkkür modellərinə bağlanır. Müqayisələr məzmun yaradıcı funksiyası ilə yaradıcı yanaşmalarındakı orijinallığı aşkarlayır. Məzmunun daşıdığı informasiya yükü aşağıdakı səviyyələrdə təhlillərə istiqamət verir

a) paradiqmatik səviyyədə şeirin ehtiva etdiyi məzmun;

b) sintaqmatik səviyyənin reallaşdırdığı təsəvvür;

c) janr səviyyəsində bədii mətnin verdiyi informasiya.

Bunlar hamısı bütünlükdə mətn üzərində işin gerçəklik imkanlarını şərtləndirir. Zaman-zaman ədəbiyyatın bəzəyinə çevrilmiş və müxtəlif səpkilərdə müqayisələrə yol açmış gül simvolikası P.Qəlbinur poeziyasında bir istiqamətdə ənənəyə bağlanırsa, digər tərəfdən sənətkar yanaşmalarının orijinallıq fakturasını aşkarlayır. T.Hüseynoğlu "Psixologizmə dair" məqaləsində yazır: *"60-70-ci illərdə insanın daxili aləminə, mənəvi dünyasına maraq artır. Ədəbiyyat şəxsiyyəti ideologiya və dövlət mexanizmində "vintcik" hesab etməkdən imtina edir. Sosial-psixoloji təhlil və obrazın mənəvi-psixoloji məzmununun zənginləşməsi prosesi gedir"* [62]. Doğrudan da, ədəbiyyatın kəsb etdiyi məzmun insanın daxili aləminə enmək, onun zəruri mənəvi ehtiyaclarına köklənmək, davranış etiketlərində müəyyənlik komponentlərini sıralamaq, həyat hadisələrini "lirik mənin" qavrayışı və psixoloji əksetdirmədə daxili aləm, bədii əksetdirmədə fiziki ilə mənəvinin, mənəvi ilə ictimainin simmetriyası və s. kimi məsələlər diqqət önündə dayanır. P.Qəlbinur poeziyasında bunlara bir yaradıcılıq üslubu olaraq meyllilik və onun əksetdirmə üsullarının axtarışı və tapıntısı yaradıcılıq istedadı olaraq şifrələnir.

Ədəbi tənqidin təhlillərində yeniləşmə meyllərinin keyfiyyət göstəriciləri müxtəlif səviyyələrdə problem olaraq ciddi fikir və mülahizələrin ortaya çıxması üçün əsas olmuşdur. Burada paradiqmatik səviyyənin sərgilədiyi təsəvvürdən sənətkar üslubuna, mövzu və yaradıcı laboratoriyasının əhatələdiyi yaddaş arxetiplərinə, etnik kodların münəccirlik mənzərəsinə qədər bir genişlik özünü göstərir. Çünki *"ədəbi tənqid başlıca tendensiyalarında yeni nəsri məhz "keyfiyyət dəyişməsi" kimi qeydə alırsa da, həmişə bunun təsbitinə nail ola bilmir; həm obyektiv olaraq; - yeni nəsrin mahiyyətinə varmaq, istər-istəməz onu həm sosializm realizmi ədəbiyyatının hüdudlarından kənara çıxarırdı, rəsmi sosializm idelojisinin hakim*

*olduğu, bütün "sovet məkanı"nda vahid metodlu ədəbiyyatın mövcudluğu aksiom kimi təlqin edildiyi şəraitdə bunu etmək, həqiqətən də çətin idi"* [30, s.15]. Nəsr haqqında deyilmiş bu fikirlər özlüyündə poeziyanı da əhatələyir və ədəbi-mədəni prosesin ana axarında gedən axtarış, yeniləşmə meyllərinin ümumi dinamikasını faktlaşdırır.

Məlum olduğu kimi, poeziya bədii düşüncənin elə qanadlı, mənəvi-psixoloji düşüncənin kifayət qədər dərin və əhatəli tərəfidir ki, zaman və mühit konseptlərində onun ana axarı öz rişələri ilə daha köklü və fundamental görünür. Ona görə də onun ümumi axarında boy göstərən poetik fiqurların ehtiva etdiyi məzmun xətləri çoxşaxəli və çoxqatlılığı ilə müxtəlif aspektlərdə təhlilə gətirməyi zəruri edir. P.Qəlbinur poeziyasının müəyyənləşdirdiyi lirik "mən" təşəkkül və təkamül müstəvisində bir sərhədsizliyi, intəhasızlığı işarələyir və onun arxitektonik sistemi fövqəlzamanlılıq və fövqəlməkanlılıq səviyyəsi ilə şərtlənir. Bu isə bir istiqamətdə poeziyanın daxili mahiyyətində boy göstərən sistemin özünün mükəmməlliyi səviyyəsində məna qatlarına bağlanır.

P.Qəlbinur poeziyasında paradiqmatik səviyyə (gerçəkliyi əks etdirmə imkanları) yaradıcı dərkinə və mövzunu yaşam fəlsəfəsinə köklənir. Onun hər bir şeiri bu kontekstdə mükəmməl bir düşüncəni, dövr// mühit// zaman münasibətlərində fəlsəfi dərkdən psixoloji yaşama qədər bir zənginliklə səciyyələnir. Çünki bütün olanlar yaradıcı laboratoriyasında özünü göstərən üsul və özünəməxsusluqların bir bütöv olaraq tamlığında ortaya çıxır. Ümumiyyətlə, *"bədii düşüncədə şəxsi fikir və qənaət xüsusi əhəmiyyət kəsb etdiyindən əsərlərdə avtobioqrafik elementlər aydın nəzərə çarpır. Müəlliflə təhkiyəçi arasında, qəhrəman arasında məsafə xeyli qısalır, altmışıncı illər nəslinin yaradıcılığı ilə həmin yaxınlıq daha da artır, hətta bəzən eyniləşmə yaranır"* [66, s.35]. Poeziyada isə vəziyyət bir qədər başqadır və onun ümumi ahəngi, ruhu "lirik mənin" mahiyyətini, içində olanların bir duyğu seli olaraq axarını sıralamağa (açmağa) köklənir. Sənətkar// lirik mən// oxucu münasibətləri hiss və duyğuların, tərənnümün qanadlarında sıraladığı əksetdirmə üsulları həm də mənayarıdıcı funksiyası ilə bədii mətnin alınmasına (və yaxud da alınmamasına) əsas olur. Ona görə də P.Qəlbinur poeziyası lirik mən timsalında özünütəhlil və özünü

dərk baxımından mükəmməl təsəvvür formalaşdırır. Şairin mövzu dairəsi mahiyyət məsələsi olaraq fonopoetik, morfopoetik sistemin mükəmməlliyi ilə həm də sintaktik səviyyənin özü üçün də bir uğurluluq modeli ortaya qoyur. Psixoloji yekrənglik ayrı-ayrı poetik örnəklərdə psixoloji əhvali-ruhiyyəni müəyyənləşdirən detal funksiyasında daxili əksetdirmənin tipologiyasını müəyyənləşdirir.

Ümumiyyətlə, P.Qəlbinur poeziyasında tipoloji səviyyədə nəzərə çarpan müəyyənlik lirik mənin təşəkkül və təkamül müəyyənliyi ilə eyni addımlayır. Ayrı-ayrı şeirlərdə özünü göstərən psixoloji əksetdirmə üsulları, daxili monoloqun sərgilədiyi məzmun sənətkarın yaradıcı istedadının imkanlarına bağlanır. Mətnin alt qatındakı məzmun sıralanması identik (eyni) xarakteri ilə sənətkar təxəyyülündə bir bütöv olaraq mahiyyəti ifadəyə, daha doğrusu ortaya qoymağa köklənir. Ona görə də P.Qəlbinur poeziyasında yüksək və həm də uğurlu bir səviyyədə xalq təfəkküründən gələn janr və ifadə modelləri (nəğmə, xalq mərasimi, dastan, nağıl, rəvayət, əfsanə, aşıq şeiri və s.) qaynayıb qarışır və bədii mətnin bütövlüyünü təşkil edən element səviyyəsində özünü göstərir.

*Şamxal əmi, Eldar qağa.*
*Gilətağda bir ev qalıb –*
*Ağ divarlar ağlar qlıb,*
*Ürəyimdə dağlar qalıb.*
*Dağlar, ondan soraq verin* [91, s.159].

Mətn informasiyasının müəyyənləşdirdiyi təsəvvür bir necə istiqamətdə yanaşmanı, funksional struktur və situasiyaların sintaktik ardıcıllığı müstəvisində özünü göstərən mənzərənin aydınlaşmasını gərəkli edir. Çünki poeziya elə möhtəşəm təfəkkür hadisəsidir ki, onun sərgilədiyi məzmun ultrasəsliliyi ilə bütünlükdə etnoyaddaşı silkələmək, hərəkətə gətirə bilmək gücü ilə bütün zamanların və bütün məkanların nümunəsi ola bilmək səviyyəsinə yüklənir. "Gilətağda bir ev qalıb" şeirinin müəyyənləşdirdiyi paradiqmatik mənzərə, həm də janr səviyyəsində bütövlüyü aydınlaşdırmaq üçün əsaslı material verir. Situasiya və situasiya daxili vəziyyət yaradıcı yaddaşında olanları təkcə bədii mətnə gətirməklə yekunlaşmır, burada daha çox diqqət önünə gələn baş verənlər baxımından pozulmuş nizama olan

münasibətdir. Sıralanmada və mətnin yaratdığı təsəvvürdə tarixi bir reallığın diqqət önünə gətirilməsi bir prinsip olaraq əsas götürülür:

a) Gilətağın coğrafi məkan olaraq formalaşdırdığı təsəvvür;

b) müraciət formasının (Şamxal əmi, Eldar qağa müraciəti) mətnə verdiyi poetiklik;

c) evin paradiqmatik səviyyədə gerçəkləşdirdiyi mənzərə;

ç) "ağ divarlar ağlar qalıb" ifadəsinin metaforik məzmunu;

d) son olaraq bu ağlar qalmanın (vəziyyətin) lirik məndə yaratdığı ovqat ("ürəyimdə dağlar qalıb") və s.

P.Qəlbinur bu şeirdə epiqraf olaraq iki məqamı diqqət önünə gətirir və onlardan birində tarixi dədə-baba torpaqlarından ağır türk ellərinin qovulmasını qeyd edir və daha sonra "Koroğlu" dastanından məşhur "göynən gedən beş durnalar, bizim ellər yerindəmi" poetik örnəyini verir. Janr səviyyəsində poetik mətnin yaratdığı təsəvvür bir tərəfdən eposdan gələnlərə bağlanırsa, digər istiqamətdə, nağıl, rəvayət müstəvisində bir təhkiyə təsəvvürünü müəyyənləşdirir. Burada müəllifin özünəməxsusluq anlamında Koroğlunun yaşadığı psixoloji gərginliklər (Ərəb Reyhan və onun başındakı dəstə ilə), uçurumun kənarında, qayanın başında olan situasiya qələbədən-qələbəyə gedən qəhrəmanı kövrək notlara (Çənlibel tərəfdən gələn durnalara müraciətə) kökləyir. Mətn bağlantılarında P.Qəlbinurun şeiri ilə Koroğlunun dedikləri daha çox daxili monoloqun ifadəliliyi, psixoloji əksetdirmənin uğurluluğu ilə nəzər-diqqəti cəlb edir. Koroğlu durnalara, P.Qəlbinur isə dağlara müraciət edir və bu müraciətlərin ədəbiyyatın şifahi və yazılı qolunda proyeksiyalaşdırdığı məzmun yaddaşa bağlanır. Dağlar bədii-estetik düşüncənin ümumi axarında ucalıq, dözümlülük, mətanət, əyilməzlik, şahidlik və s. kimi rəngarəng təsəvvür kodları ilə rəmzləşir. Burada digər məqam etnosun son dönəmlərində taleyindən keçən ağrıların, yurd itkisinin, vətən, torpaq müqəddəsliyinin diqqət önünə gətirilməsidir. Türk ictimai-siyasi fikrinin böyük ideoloqlarından olan İ.Qaspıralı yazılarında "Torpaq, torpaq" deyə ardıcıl təkrarlara üstünlük verirdi və bu da təsadüfi deyildi. P.Qəlbinur da Gilətağda qalan ev timsalında dağlara müraciət edir və "dağlar, ondan xəbər verin" söyləyir. *"Müasir*

*şeirşünaslıq öz konsepsiyasını şeirin təbiəti, şeir dili və onun tarixinə əsasən formalaşdırmağa çalışır. Tədqiqatçılar şeirin təbiətini daha çox dil qanunlarına əsasən araşdırmağa üstünlük verirlər. Şeirin ideya-bədii mənası konkret hadisəni, insan taleyini və şəxsin əhvali-ruhiyyəsini ifadə etməsi ilə sıx bağlıdır"* [36, s.36]. Çağdaş poeziya mövzu və ifadə axtarışlarında modern düşüncəyə köklənməklə bu istiqaməti əsas götürür. P.Qəlbinur poeziyasının psixoloji mahiyyətində dayananlar və obrazlar kultu bütün məzmun xətləri ilə yüksək ideyalılığa, etnomədəni sistemi əhatəyə köklənməsi ilə xarakterik məzmun kəsb edir.

Ədəbiyyatda lirizmi canlandıran, ona əlavə qol-qanad verən sənətkarın mənəvi zənginliyi, psixoloji situasiyaları yarada bilmək bacarığıdır. Psixoloji situasiyalar yarada bilmə bacarığı bədii mətnə poetik çalar, əlvanlıq gətirir. XX əsrin əvvəllərində və 60-70-ci illərdə bədii ədəbiyyatın kökləndiyi ideya bir ədəbiyyat faktı olaraq etnokulturoloji təfəkkürün intellektual mənzərəsinin təqdiminə köklənmişdi. Düzdür, istər XX əsrin əvvəllərində gedən proses (bunu XIX əsrin sonlarına da aid etmək olar), istərsə də əsrin 60-cı illərində ədəbiyyatın kökləndiyi ruh bütün müstəvilərdə eyni bərabərliyi əhatələmir. Əlbəttə burada əsas olan milli arxetiplərin oyanışı və özünüdərkə meyllənmənin bir xətt olaraq əsas götürülməsi idi. Belə olan şəraitdə təbii ki, bədii-mədəni sferanın özündə müəyyənləşmiş klişelər, üslub etiketləri, ifadə üsulları yeniləşməni, yeni olanı, daha doğrusu etnik təsəvvürdə zaman-zaman alt qatda görünənlərin aparıcılığı ortaya gəlir. Paşa Qəlbinur da bu yeniləşmə dalğasında bir yaradıcı olaraq etnik müstəvidə baş verənləri, ədəbiyyatda siyasi ideologiyanın "mədəni qəhrəman" təsəvvürlərini, "sovet adamı" konsepsiyasının milli düşüncə modellərini dağıtmağa kökləndiyini görür və mahiyyətin hansı istiqamətə yönləndiyini yaxşı bilirdi. Ona görə də onun poeziyası 80-ci illərin ümumi ahəngində modern bir təsəvvürlə özünüdərkə kökləndi. Ümumiyyətlə, "*fərqli təfəkkür tipləri üslub cərəyanlarının təsnifində əsas prinsiplərdən biri kimi götürülsə də, yeganə təsnifat prinsipi kimi qəbul edilmir. Üslubyaradıcı faktor kimi janrların roluna da diqqət yetirilir. Təfəkkür tiplərindən və ədəbi növlərdən fərqli olaraq ayrı-ayrı janrlar üslub təmayüllərinin formalaşmasında mühüm faktor kimi götürülür*" [107, s.270]. Nitq janrları və mətn tipləri, zəngin təfəkkür intelleksiyaları həmişə

üslubyaradıcı faktor kimi əlavələrlə, sənətkar özünəməxsusluqlarını ortaya qoymaqla, münasibət fərqliliklərinin nümunəsi olaraq ciddi faktura ilə nəzərə çarpır. 60-80-ci illər poeziyası, eləcə də nəsr və dramaturgiyası etnosu ifadə, yaxın zaman çevrəsində baş verənlərin yeni baxış bucağında qiymətləndirilməsi, uzun omilliklər boyu ayrı-ayrı padtekstlərdə mesaj olaraq deyilənlərin modern səviyyədə bir üslub, yaradıcılıq tendensiyası olaraq səciyyələnməsi bədii düşüncənin modern mənzərəsinə dayanır.

P.Qəlbinur poeziyası lirik "mən"in təşəkkül və təkamül müəyyənliyi tendensiyasında öz qaynağını bir istiqamətdə ədəbi-mədəni prosesin tarixi ənənəsinə köklənməkdən alırsa, digər müstəvidə mühitin yenilənməsi timsalında "yeni nəsil", "yeni nəsr" anlamında qəlibləşən təsəvvürə bağlanır. "Mənim icazəm", "Sənsən", "Qarşıla", "Ürəyim dəstəyə uzalı qalıb", "Ucalardan qorxanım", "Qorxuram", "Bir ətrim var", "Mən odun içində" və s. şeirlərin mətn//subyekt münasibətlərində sərgilədiyi təsəvvür bütün diaxroniyası ilə müəlilf psixologizmini, əksetdirmənin psixoloji formulasını və janr səviyyəsində bunların sərgilədiyi uğurluluq əmsalını ortaya qoyur. Bunlar bir istiqamətdə ədəbiyyatın konsepsiya olaraq daşıdığı milli idealogiyanın təqdimi və nələrlə səciyyələnməsi təsəvvürünə köklənir. Çünki "*milli ideologiyanın formalaşmasında mədəniyyətin və təbii ki ədəbiyyatın rolu danılmazdır*" [108, s.12]. P.Qəlbinur poeziyası da bədii detal, bədii həqiqət və yaradıcı üslubu, psixoloji əksetdirmənin rəngarəng modullarının bədii mətnə gətirilməsi ilə mühüm spesifiklik sərgiləyir. Çünki şeirin bədii-estetik qatı həm də fəlsəfi mahiyyətin, tarixi həqiqətin təcəssüm və təqdimatının özünəməxsusluqlarına bağlanır. Burada sənətkarın dərki, faktları hansı fonda sıralaması, yanaşma və mənalandırma üsulları və s. bir tərəf olaraq özünə yer alır. Məhz bütün bunlar nisbətində Aristotel vurğulayırdı ki, "*poeziya tarixdən daha fəlsəfi və daha ciddidir*" [11, s.63]. P.Qəlbinur poeziyasında isə mahiyyət bir qat olaraq tarixiliyi və fəlsəfi məzmunu (buraya bədii-estetik əksetdirməni də əlavə etmək olar) axıra qədər qoruma prinsipinə köklənir. Çünki onun poeziyasının polifonik xarakteri paradiqmatik səviyyənin daxili dinamikasına söykənməklə həm də onun müəyyənləşdirdiyi prinsiplərə əməl edir. Bütün bunlar isə sənətkar təxəyyülündə davranış etiketi olaraq yaradıcılığın keyfiyyət məsələsi kimi özünü göstərir. Paşa Qəlbinur poeziyası

özünəməxsusluqlar, orijinal canlandırmalar, mənalandırmalar poeziyasıdır. Onun mahiyyətində daşınanlar yaradıcı istedadının təkamülünü, müəyyənlik mənzərəsinin dinamikasında olanların xarakter cizgilərini, özünəməxsusluq səviyyəsində baş verənlərin nələrlə səciyyələnməsini aydınlaşdırır.

*Ürəyim gözümə sığışıb indi -*
*Qabarır, qabarır çatammır sənə.*
*Sən qarın içində, kolun dibində,*
*Qalan bənövşəsən gecələr yenə.*
*Nəfəsim əridər bu qarı-qışı,*
*Gəlib ürəyimdə bit, ay bənövşə.* [90, s.159].

Gülün, çiçəyin, təbiətin obrazlaşmasının, müxtəlif səviyyələrdə ədəbiyyatda canlandırılmasının klassik ənənəsi vardır. Azərbaycan ədəbiyyatının yazılı və şifahi qanadında bunun bir-birindən maraqlı, həm də keyfiyyət göstəricilərinə dayanan örnəkləri vardır. Bənövşənin obrazlaşması və gül simvolikasında kəsb etdiyi məzmun bütün aspektləri ilə xalq düşüncəsində olanların özünəməxsusluq konsepsiyasına hesablanmışdır. Qurbanidən X.Natəvana, S.Vurğundan N.Kəsəmənliyə gələn yolun möhtəşəmliyində bu özünəməxsusluğun sərgilədiyi orijinallıq bütün parametrlərdə ədəbiyyatın zənginliyinin göstəricisi və sənətkar fərdiliyinin nümunəsi olaraq mükəmməl təsəvvür formalaşdırır. Mövcud nümunələrlə P.Qəlbinur poeziyasında olanları tipoloji təhlilə gətirsək bu orijinallığın müxtəlif səviyyələrdə nəzərə çarpacaq özəllikləri ilə qarşılaşa bilərik. Mətnin verdiyi informasiyada yaradıcı özünəməxsusluğunun funksional çəkisi obrazın qavranılma təsəvvürünə və təqdim üsullarının çeşidliliyinə bağlanır. Situasiya, situasiya daxili vəziyyət mətnin mahiyyətində mükəmməl bir sıralanma müəyyənləşdirir.

a) yaradıcı narahatçılığında obrazlaşmanın bir meyar olaraq sərgilədiyi təsəvvür (“ürəyim gözümə sığışıb indi” situasiyasının semantik məzmun qatı);

b) müqayisələrin tipologiyası səviyyəsində sıralanmanın meyar və prinsipi (“sən qarın içində, kolun dibində, qalan bənövşəsən gecələr yenə”);

c) sintaqmatik səviyyənin ehtiva etdiyi struktur elementlərinin keyfiyyət göstəricisi;

ç) “qar”// “gül”, “kol” // “gül” paralelizmində “sən”in mətn səviyyəsində yaratdığı təsəvvür;

d) lirik “mən”in bütün olanlar timsalında bənövşəyə müraciətinin (“gəlib ürəyimdə bit, ay bənövşə”) metaforik xarakteri və s.

Məlum olduğu kimi, “*sözün poetik ləyaqəti onun ürəklə, şairin səmimi duyğuları ilə bağlılığındadır. Onun uzunömürlülüyünün qarantı da poetik həqiqətin səmimi ifadə olunmasındadır. Sözün şeiriyyəti ürəkdə oyatdığı duyğuların təlatümündə, poetik hisslərin təkamülündədir*” [69, s.12]. P.Qəlbinurun poeziyası sözün (morfopoetik sistemin) mükəmməllliyi və sıralanma spesifikası orijinal bir təfəkkür nümunəsi kimi maraq doğurur. Fonopoetik, morfopoetik və sintaqmatik səciyyənin ortaqlığında elə bir mükəmməllik qazanır ki, o, poeziyanın bütün təsəvvür modellərinin ümumi sistemini ortaya qoymaq gücü ilə görünür. “Mən odun içində” şeiri ətrafında apardığımız təhlillər mətn gerçəkliyi olaraq paradiqmatik səviyyənin tipik bir modeli ilə münəccirlik qazanır. Burada sözün məsuliyyəti, onunla davranış normaları, qavrayışın özünün tipologiyasında sərgilədiyi təsəvvür, etnik kulturoloji yaddaşın dinamik özəlliklərinin mahiyyət çevrəsi və s. bir bütöv olaraq özünə yer alır. Sözü canlandırmaq, onun mətn daxilində imkanlarını açmaq (pərvazlandırmaq), söz qatarında düzümün arxitektonik mənzərəsini ortaya qoya bilmək P.Qəlbinur yaradıcılığında keyfiyyət göstəricisidir. Bənövşə timsalında aparılan müqayisələr, həyatın təzadları, kol və bənövşə, soyuq, şaxta və bənövşə timsalında aparılan müqayisələr mətn daxilində kəsb elədiyi məna və poetiklik yaratma funksiyası ilə sənətkar üslubunun mahiyyət göstəricisidir. “Gəlib ürəyimdə bit, ay bənövşə” deyən şair bütün parametrlərdə bu zərifliyin rahatlığı və həm də ən yaxşı məkanı ola biləcək təsəvvüründə ürəyini (şair ürəyini) bir nümunə olaraq göstərir. Bütün bunlar özlüyündə bədiiliyə, onun poetik mükəmməllik təsəvvürünə bağlanır. Ümumiyyətlə, “*bədiilik elə ondan ibarətdir ki, bir cizgi, bir sözlə elə bir şeyi bizə canlı və hərtərəfli təqdim edir ki, bədiilik olmasa həmin şeyi heç on cilddə də ifadə edib qurtara bilməzsən*” [15, s.226]. P.Qəlbinur poeziyasında mətnin ritmik kompozisiyası və onun ayrı-ayrı komponentləri məzmun yaradıcı funksiyasında çıxış etməklə bütövlüyün təminatçısı funksiyasında özünü göstərir. Ayrı-ayrı misraların fikir yükü,

fonopoetik və morfopoetik sıralanmanın səs və məna effektləri bir tendensiya olaraq yaradıcı dünyagörüşünün sənət fəlsəfəsini aydınlaşdırır.

Bədii sistemin mükəmməlliyində mətnin məna qatı və əksetdirmənin rəngarəng üsullarında nəzərə çarpan elementlər bədii-estetik bütövlüyün xronotoplarını aşkarlayır. Burada yaradıcı psixologizmi, daxili monoloqun müxtəliflik kodları sənətkarın təfəkkür intelleksiyasının göstəricisi olaraq tipoloji yanaşmaları gərəkli edir. P.Qəlbinur poeziyasının sərgilədiyi metadil poetik obrazlar kultunun daxili harmoniyasının təminatçısı funksiyasında çıxış edir. Ona görə də onun yaradıcılığının müəyyənləşdirdiyi təkamül özlüyündə bir yaradıcı özünəməxsusluğuna, üslub müəyyənliyinə bağlanır. İlk şeirlərindən sonuncu şeirinə qədər mətn informasiyasında nəzərə çarpan sənətkar statusu birbaşa yaradıcılıq axtarışlarında boy göstərən özünəməxsusluq konsepsiyasına hesablanır. “Bu qış gecəsi”, “Bilirəm göylərdə ilahi eşq var”, “Ağ dənizdə burulğanım”, “Mən sənə o qədər inanıram ki”, “Yenə”, “Ağlama” və s. çeşidli poetik örnəkləri yüksək yaradıcı intelleksiyasının göstəricisi olaraq mükəmməl təsəvvür formalaşdırır. Ona görə də “*P. Qəlbinur şeirlərinin hər biri analiz predmetidir... P.Qəlbinur poeziyasında – motiv, psixoloji müxtəliflik o qədər zəngindir ki, onlarda qruplaşma, ümumiləşdirmə aparmaq əslində çətin olur. Bununla belə, biz “nəyisə”, - bu “nəyisəni” tapmaq isə həmişə asan olmur, -əsas götürüb təhlil edirik*” [37, s.20-21]. Çünki P.Qəlbinur poeziyasında hər bir şeirin özünəməxsusluq kodu, təsəvvür və düşüncə modeli, modelləşdirmə prinsipi vardır. Bunların isə ümumilikdə təşəkkül və təkamül mənzərəsini sistemli şəkildə aydınlaşdırmaq sənətkarın yaradıcılığında özünəməxsusluq və mətn fərdiliyi prinsipində boy göstərən zənginliyi bir kod olaraq dərkə hesablanır.

Poeziyada lirizmin sərgilədiyi məzmun çoxçeşidliliyi mövzu və ifadə çalarlarının rəngarənglikləri ilə şərtlənir. Klassik ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığında özünü göstərən özünü ifadə üsulları, yaradıcı axtarışları, əsər boyu nəzərə çarpan obraz və müəllifin davranış kodları, əksetdirmə üsullarının çeşidlilik mənzərəsi bir mahiyyət məsələsi olaraq faktlaşır və müxtəlifliklərlə müəllif üslubunu şərtləndirir. Q.Təbrizi, X.Şirvani, N.Gəncəvi, M.Gəncəvi, M.Əvhədi, İ.Həsənoğlu, A.Ərdəbili, Ş.İ.Xətai, M.Füzuli, Məsihi,

S.Təbrizi, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid, M.Müşfiq, C.Cabbarlı, S.Vurğun və s. sənətkarların yaradıcılığında özünü göstərən əksetdirmə üsulları psixoloji mahiyyətə, daxili monoloqun tipologiyasına bağlanır. 60-80-ci illər ədəbiyyatının, eləcə də P.Qəlbnur poeziyasının enerji qaynaqlarını müəyyənləşdirən yaddaş və ənənə nümunələri kifayət qədər dərinliklərə gedib çıxır. M.Füzuli qəmi poeziyanın sərmayəsi hesab edirdi. Doğrudan da, lirikanın və sənətkar istedadının mahiyyətində dayanan əsas məsələlərdən birisi obrazın daxili mahiyyətini açmaq və aça bilmək istedadıdır. Lirikanın geneologiyasında məhz insanın qəlb dünyasının rübabını dilləndirə bilmək bacarığı dayanır. P.Qəlbinur poeziyasının özünəməxsusluğunda, üslub çalarlarında mahiyyətə yönlənmə və lirik ”mən”in daxili aləmində olanları yüksək səviyyədə dilləndirmə bacarığı dayanır. Sənətkarın özünüifadə prinsipinə dayanan bu məsələ lirizmin təbiətindən irəli gələrək poetik obrazlar şəbəkəsində mövzu və ifadə üsullarının rəngarəngliyində sıralanır. “*Şairin Vətəni onun ana dili, ana dilinin hər kəlməsi, hər səsidir, hər söz elə Vətənin bir parçasıdır, hər sözün yaddaşı Vətənin və xalqın tarixidir*” [102, s.164]. P.Qəlbinur poeziyası bu kontekstdə həm mövzu əhatəsi, həm də bütünlükdə ruhani bağlantıları, iç dünyasında əhatələdiyi təsəvvür baxımından milli düşüncənin ən dərin qatlarından boy göstərir və günümüzə qədər olanları əhatələmək imkanları ilə xarakterik görünür.

*Min illik şərabı çəkdim başıma*
*Bir az qan dadırdı, bir az da şərbət,*
*Nalənin qoxusu vurdu başıma.*
*Gördüm bir dənizdi, damlası heyrət!*
*Hər damla özü də min bir şəxsiyyət.*
*Nəşə də, əzab da, bayram da, yas da,*
*Hamısı bir yerə sıxışdırılıb.*
*Gördüm alov qalxır, od yanır* suda. [91, s.18].

Paşa Qəlbinur poeziyası düşüncə və ifadəlilik imkanları baxımından sərhəd tanımır. Onun yaradıcı təsəvvürünə dayananlar bütünlükdə etnosa, etnokulturoloji sistemin ilkinlikdən bu yana olan mənzərəsinə, tarixi-mədəni təsəvvürlərin, bədii-

estetik modellərin mükəmməllik konsepsiyasına və şairin genetik yaddaş kodlarına bağlanır. Görkəmli dilçi alimimiz, professor Əzizxan Tanrıverdi "Cərrah bıçağından süzülən işıq sözə çevriləndə" məqaləsində tipoloji müstəvidə vurğulayır ki, "*Paşa Qəlbinur şair qələmi ilə cərrah bıçağını qovuşdurub təfəkkürünə - oradan da şeirə, sözə ötürə bilir. Şairin "Ağlıma gələnlər, başıma gəldi" kitabı vərəqləndikcə ilk növbədə işıq obrazı yada düşür, işıq barədə düşünür, sanki hər şeyin aydınlığa, işığa uyğunlaşdırıldığının şahidi olursan*" [116, s.57]. Doğrudan da dilçi, ədəbiyyatşünas alimin P.Qəlbinur poeziyasını işıq müstəvisində təhlilə gətirməsi və onun mahiyyət səviyyəsində dərinliklərinə diqqət yetirməsi şairin yaradıcılığı boyu nəzərə çarpan mövzu özünəməxsusluqlarına həssaslığını ifadə edir. Çünki imzasındakı (Qəlbinur) nurdan ayrı-ayrı şeirlərində tez-tez və həm də orijinallıqla nəzərə çarpan obrazlaşmada işıq bir yaradıcı kodu olaraq semantikləşir. Onun yaradıcılığının mövzu və ideya qatını təşkil edən vətən, yurd, torpaq, ailə, insan, dünya, təbiət və s. hamısı yaradıcı düşüncəsində bir-biri ilə bir sistem çərçivəsində elə bağlanır ki, bunların vasitəsi ilə yaradıcı mahiyyəti dərk olunur. Yaradıcının kimlik, vətəndaşlıq, millilik konsepsiyasına, kult səviyyəsində qəlibləşmələrin genelogiyasına aydınlıq gəlir. "Min illik şərab" şeirinin söz və misra yükü, paradiqmatik səviyyənin əhatələdiyi məzmun qatı və bütün mətn elementlərinin mətn//mətn, mətn//subyekt münasibətlərində ehtiva etdiyi məna yaddaşı mükəmməl bir təsəvvürə bağlanır. Mətn gerçəkliyinin simvollaşdırdığı məzmun çoxqatlılığı və çeşidliliyi ifadə üsulunun orijinallıq dərəcəsi ilə yaradıcı imkanlarını bir bütöv olaraq ortaya qoyur. Bədii nümunənin əhatələdiyi təsəvvür qatı bir forma olaraq metamif və tarix anlamında möhtəşəm bir metatekstuallığa bağlanır.

a) yaddaş anlamında mətnin verdiyi informasiya;

b) məzmunun metaforik xarakterində ayrı-ayrı söz komponentlərinin simvolikası (məsələn, "min illik şərab");

c) tarixi gerçəklik və tarix anlamında keçib gəlinən yolun keşməkeşləri ("nalənin qoxusu vurdu başıma");

ç) qan//şərbət, nəşə//əzab, bayram//yas sıralanması min ilin şərabı timsalında işarələdiyi təsəvvür;

d) “gördüm alov qalxır, od yanır suda” düşüncəsinin etnos müstəvisində sərgilədiyi məzmun və s.

Xalq bayatılarından birində vurğulanır ki, “dərdimi suya dedim, alışdı o da yandı” kəlməsi hipertekstuallıq kontekstində xronotopları (zaman və məkan) diqqət önünə gətirir. Bütün bunlar P.Qəlbinur poeziyasının janr və məzmun fakturasında əksetdirmənin imkanlılıq səviyyəsini, mahiyyətində olanların nələrlə əhatələnməsini, bədii-estetik təfəkkürünün intelleksiyasını aydınlaşdırır.

### 2.2. Təzad assosiativ fikir müəyyənliyinin mahiyyəti kimi

P.Qəlbinur poeziyasında araşdırılmalı problemlərdən birisi onun zəngin məzmun qatlarında böy göstərən özünəməxsusluqların, ayrı-ayrı məsələlərə yanaşmaların fəlsəfi sistemini ortaya qoymaqdır. 60-cı illərin uğurları üzərinə köklənən şairin yaradıcılığı təfəkkür intelleksiyasının nümunəsi olaraq ciddi paradiqmatik yanaşmaları gerçəkləşdirir. Çünki onun yaradıcılığının ifadə üsulları, mənalandırma imkanları üfüqi və şaquli yanaşmalarda keyfiyyət faktı olaraq nəzərə çarpır. Milli düşüncənin qaynaqları üzərində nitq etiketlərinin özünəməxsus üslub zənginliyi ilə faktlaşan P.Qəlbinur yaradıcılığı geniş mövzu dairəsi ilə səciyyələnir. Burada sənətkarın hadisəni dərki və onun fəlsəfi mahiyyəti, təqdimi məsələsi orijinallığa köklənir. Çağdaş nəsrin problemləri üzərində təhlil aparan tənqidçi T.Salamoğlu vurğulayır ki, “*çağdaş Azərbaycan nəsri həqiqi sənət faktını insanın təbiətindəki (mənəvi-əxlaqi və sosial varlığındakı) yeni-yeni keyfiyyətlərin bədii “kəşfi” ilə ortaya qoyur. Bu meyl ədəbi prosesdə daha da güclənir. İnsanın “ideoloji yük”dən azad olmuş təbii varlığı yazıçının onun duyğu və düşüncələr aləminə bədii nüfuzu ilə açılır*” [107, s.106]. Nəsr müstəvisində deyilmiş bu fikirlər özlüyündə P.Qəlbinur poeziyasının sərgilədiyi təsəvvür, məzmun və özünəməxsusluq anlamında da eyni sistemə köklənir. Çünki şairin bədii yaradıcılığında insanın təbiətindəki mənəvi-əxlaqi qatların, sosial varlığını əhatələyən konsorsiumun özünəməxsus qatları ortaya çıxır. İnsanın daxili mahiyyətini, onun düşüncəsinin dərin qatlarını dərkə və bədii mətnə gətirmək istəyi mühüm məsələ kimi 60-cı illərdə daha təfərrüatlı və məqsədli

olan kimi görünür. P.Qəlbinur poeziyası da bu axara köklənməklə ənənəvi olandan fərqli və həm də orijinallığa köklənmə xüsusiyyəti ilə səciyyələnir. Cəmiyyət, reallıq və insan müstəvisində sıralanan bu nizam yaradıcı təxəyyülündə fərqli sistemlərlə və onun fərqli təqdim tipləri ilə müəyyənləşir. Assosiativ fikir müəyyənliyində arxetiplərin, etnomədəni sistemin hərəkətliliyi, hipertekstuallıq səviyyəsində mətn tipinin ehtiva etdiyi yaddaş, mövcud vəziyyətə münasibət və qiymətləndirmə baxımından sənətkar təxəyyülünün sərgilədiyi məzmun bir bütöv olaraq mahiyyəti ortaya qoyur.

"Ay bir əlçim buluddur" (1984), "Payız məktubu" (1987), "Rəngli göz yaşları" (1990), "İtmiş həsrət kimi" (1996), "Ağlıma gələnlər başıma gəldi" (2003) kitablarına toplanmış poetik örnəklər P.Qəlbinur poeziyasındakı assosiativ fikir müəyyənliyinin mahiyyətini aydınlaşdırmaq üçün mühüm önəm kəsb edir. Bu kitablar həm də şairin yaradıcılıq imkanlarını, onun şeirdən-şeirə, kitabdan-kitaba boyartımını, prosesin ümumi axarını aydınlaşdırmaq üçün ciddi imkanlarla səciyyələnir. Məsələn, "Ay bir əlçim buluddur" (1984) şeirlər kitabında toplanmış poetik nümunələr ("Çörək kimi bişir söz", "Vətən", "Ayda ilan olsaydı", Doluxsunmuş sükut", "Min illik şərab", "Xəyalımda yallı gedir dağlarımız", "Qubanın ağ alması", "Bənövşə", "Üç alma", "Hələ nə yaşamışam ki", "Anam elçi gedən gün", "Bir uşaq ağlayır yaxınlığında", "Anam gözləyir səni", "Küsülü xəyal", "Ağ qu, qara qu", "Gecələr işığa sürtər üzünü" və s.) zəngin fikir axarını, dünyanın təzadlı keşməkeşlərində şairin fikir müəyyənliyində boy göstərən özünəməxsus yanaşma və münasibət fəlsəfəsini aydınlaşdırmaq üçün meyar funksiyasını yerinə yetirir. Söz, misra, bənd sıralanmasında bütövləşən mətn sənətkarın bədii-estetik baxışlarının fikir müəyyənliyində nələrlə səciyyələnməsini aydınlaşdırır. Onu da əlavə edək ki, P.Qəlbinur poeziyasında "*səslərin simmetrik düzümü və bununla bilavasitə bağlı olan sintaktik paralellik müəyyən ritmə əsaslanır. Misraların təşkilində ritm elə bir təşkiledici amilə çevrilir ki, onun sayəsində mətni təşkil edən dil materialları ahəngdar konstruksiya çərçivəsində misralaşırlar. Bu cür nitq şəraitində fonoloji təkrarlar da poetik texnikanın, səs ahənginin sıralanma qanunauyğunluqlarının tənzimləyici funksiyasını yerinə yetirir*" [68, s.213]. Bütün

bunlar isə fikir axarında şairin təfəkkür intelleksiyasına bağlanır. Daha doğrusu, onun fonopoetik, morfopoetik sistemi özlüyündə mahiyyəti işarələyən, mənayaradıcı funksiyasını ortaya qoyan qanunauyğunluğa köklənir. Təzadlar, həyatın ikilikləri bütün aspektləri ilə sənətkarın yaradıcılıq imkanlarına, həyatı dərk və qiymətləndirmə bacarığına əsaslanır. Məşhur rus linqvisti L.B. Şeirba xüsusi olaraq vurğulayır ki, "*antiteza poeziyanın qrammatikasıdır*" [142, s.48]. P.Qəlbinur poeziyasında paradiqmatik səviyyənin uğurluluğunu müəyyənləşdirən vasitə kimi morfopoetik sıralanmanın uğurluluq təminatı həm də mənayaradıcı funksiyaya köklənir.

*Tanrım!*
*Ürəyimə qanad tax,*
*Namərd badalağından*
*Ucalardan yıxılanda*
*Qayalara qonum mən,*
*Halallığın heykəlinə dönüm mən!* [91, 39].

Göründüyü kimi, bədii mətnin sərgilədiyi təsəvvür yaradıcı düşüncəsinin həyatın mürəkkəblikləri, təzadları timsalında poetik canlandırılmasına hesablanmışdır. Şeirin sintaktik səviyyəsi onun məna sırlalanmasında işarələnən bütün poetik formulların seçimi və işlənmə məqamı ilə bütövləşir. Mərd//namərd, halal//haram ikiliklərinin yaratdığı təsəvvür mifoloji yaddaşdan, dünyanın yaranışından günümüzə qədər bədii düşüncənin rəngarəng örnəklərində müxtəlif səviyyələrdə özünü göstərir. Nağıl, əfsanə, rəvayət, nəğmə, bayatı, dastan və s. çeşidli folklor örnəklərində, "ağqoç//qaraqoç" ikiliyindən P.Qəlbinurun "halallığın heykəlinə dönüm mən" istəyinə qədər olanlar hamısı eyni tipli olub haqqın möhtəşəmliyinə və onun formalaşdırdığı təsəvvürə bağlanır. Bədii sferada üslubi fiqur kimi vurğuladığımız bu antitezalar əslində poeziyanın, bütünlükdə ədəbiyyatın mahiyyətini ehtiva edə bilmək gücü ilə faktlaşır. Ümumiyyətlə, ədəbiyyat özlüyündə "gözəllik mələyi" anlamında həmişə ciddi təsəvvür formalaşdırılmış və insanlığın kitabı olaraq ideallıqların ifadə və tərənnümünə köklənmişdir. Bədii düşüncənin qaynağı həyat və onun geneoloji sisteminə dayanan estetik kateqoriyalar bütün parametrlərdə nəticəyə, uğurlu qiymətləndirməyə, ləyaqət məfhumunun

formalaşdırdığı təsəvvürə bağlanır. Çünki burada lirik ovqatın mürəkkəb psixoloji dərinliklə, təzadlı situasiya ilə vəziyyətə, həyat reallığına münasibəti bir prinsip olaraq əsas götürülür. Onu da əlavə edək ki, təzadlı situasiyalar, daha doğrusu "*antitezalar antonimlər vasitəsilə yaranmır. Bu poetik təsvir vasitəsilə obrazların nitqində, bədii vəziyyət və situasiyalarda, hisslərin, duyğu və düşüncələrin, arzu, meyl, təşəbbüs, lövhə və mənzərələrin təzadlı müqayisəsi, qarşı-qarşıya qoyulması yolu ilə yaranır*" [45, s.202]. Yuxarıda nümunə verdiyimiz şeirin mətn informasiyasında situasiyalararası münasibətlərin sıralanmasının mükəmməllik konsepsiyası bütövlükdə yaddaş təsəvvürlərinə əsaslanmaqla həm də ona olan münasibəti aşkarlayır.

a) mətn başlanğıcında müraciətin poesemiotik xarakteri və sərgilədiyi məzmun;

b) "ürəyimə qanad tax" arzulamasının səbəb və mahiyyəti;

c) mərd//namərd tandemində "namərd badalağı" təsəvvürü və ona hazır olmaq;

ç) "ucalardan yıxılanda" nümunə olaraq görünmək istəyi;

d) halallığın heykəli kimi simvollaşma və yaddaşlarda bununla yer almaq təsəvvürü və s.

Paralel sıralanmalarla müşahidə olunan poetik struktur mətn və informasiya paralelizmində həm də müəyyənləşmiş mənəviyyat və əxlaq prinsiplərinin nümunəsi kimi faktlaşır. "*Antonimlərlə şeir dilinin sanballaşması, onun estetik mahiyyətinin dərinləşməsi bir də onunla şərtlənir ki, əks mənalı sözlər şeirdə həyat materiallarının poetik mənalandırılması və obrazlı təqdimi üçün olduqca yararlı dil vahididir. Antonimlərin əsasında şair antiteza yaradır ki, bu da öz estetik təbiətinə xas olaraq müxtəlif anlayışların, obrazların, əlamətlərin əks qütblərini qarşılaşdırır*" [60, s.348]. Bunlar isə özlüyündə yaradıcı istedadına bağlanmaqla metaforik və aforizmlər səciyyəsində dəqiqliyə, poetik mətnin bütövlüyünə vəsilə olur. "Əyilib bir ovuc su götürdüm" ("Ədəbiyyat və incəsənət" qəzeti, 15 iyul, 1978-ci il], "Sakit okean" ("Azərbaycan təbiəti" jur., 1981, № 1, s. 39), "Qara; Qırmızı; Sarı; Bənövşəyi; Ağ ("Göy qurşağının rəngləri" silsiləsindən). ("Ulduz" jur., 1984, № 2, s.14-15) və s. şeirlərinin sərgilədiyi məzmun və poetik struktur bütün parametrlərdə yaradıcı təfəkkürünün imkanlarını sərgiləməklə ədəbi-mədəni prosesdəki mövcud təfəkkür

intelleksiyasını aydınlaşdırır. Assosiativ fikir müəyyənliyində özünü göstərən mövzu rəngarənglikləri (ictimai-siyasi məzmunlu şeirləri, təbiətin gözəlliklərinə həsr olunmuş poetik nümunələri, məhəbbət mövzulu poetik örnəkləri, eləcə də fəlsəfi mahiyyət daşıyan nümunələr) ilə yaradıcı dünyagörüşünün bütün stixiyasını ortaya qoyur. Bunlar eyni zamanda ədəbi-mədəni mühit anlamında geniş təhlillərə yol açır. Çünki bədii mətnin kəsb etdiyi məzmun və onun əhatələdiyi poetik ştrixlər birdən-birə açılmır və tədriciliyi ilə müqayisələrdə mahiyyəti ortaya qoyur.

"Payız məktubu" [80] şeirlər kitabında toplanan poetik örnəklər ("Ürəyə dünyanın işığı sığar", "Uzaqlar yaxın olur", "Dağlar kəpənəkdi bu yay günündə", "Bu gecə qanımda işıq sayrışır", "Taleyim –tanrım", "Durna qatarı" , "Azadlıq", "Ağ qu, qara qu", "Doluxsunmuş sükut", "Sən deyirdin", "Gecə gözlərimdə böyüyüb mənim", "Günlərin bir günü" , "Rəssama məktub", "Ağac kötüyündə tale yazılar", "Bu gecənin yarısı", "Mən ağac üstündə son payız narı", "Günləri bir həsrət munciğu kimi", "Mən ağ işığam", "Bu evin havası çox xoşuma gəlir" və s.) şairin yaradıcılığının bədii axarını, məzmun qatlarında əksini tapan mövzu rəngarəngliyinin ümumi mahiyyət məsələlərini, hər bir nümunənin poetik əksetdirmə imkanlarını aydınlaşdırmaq üçün mükəmməl material verir. Çünki P.Qəlbinur yaradıcılığı fikrin və hissin ortaqlığında böyük yaradıcı imkanları nümayiş etdirmək xüsusiyyəti ilə nəzərə çarpır. Digər istiqamətdə bu ortaqlığın paralelizmini müəyyənləşdirən istiqamətlər müstəvisində də onun şeirləri ciddi faktura ilə, modelləşdirmə gücü ilə nəzər-diqqəti cəlb edir. Mətn//mühit, mətn//subyekt səviyyəsində bu nümunələrin ortaya qoyduğu məzmun bədii ümumiləşdirmənin gücü, inikas tamlığı, tipikliyin əhatələdiyi təsəvvürə bağlanır. Burada nəzərə çarpan mükəmməllik mətn fenomenliyi, sözün məna yaddaşı və janr məzmununun sayəsində reallaşır.

*Əyilib bir ovuc*
*Su götürdüm dənizdən-*
*Əlimdən bir ovuc*
*mavilik axdı...*
*Ovcumda*
*ağappaq su qaldı* [82, s.240].

Şairin ruhani dünyasının ilğım bir kövrəkliyini sərgiləyən bu misralar bədii-estetik xarakteri, fəlsəfi mahiyyəti ilə özündə ciddi bir düşüncəni sərgiləyir. Paşa Qəlbinur yaradıcılığında mətn modellərinin metadil kodu yazıçı təxəyyülünün özünəməxsusluq prinsipinə uyğun sıralanır. Hətta intermətnlilik baxımından maraqlı və həm də unikal görünməsi ilə faktlaşır. Fövqəlsubyektivlik kontekstində işarələnmənin gedişi üslub çaları olmaqdan əlavə, həm də yaradıcı imkanları ilə şərtlənir.

P.Qəlbinur poeziyası çoxçalarlığı, çox rəngliliyi ilə müxtəlif yönlü yanaşmaları zəruriləşdirir. Onun poeziyasında hər bir detalın, sıralanmanın, sözün məna qatının öz yeri və kəsb etdiyi funksiya vardır. Bütün bunlar bir istiqamətdə semantik məlumatlandırma xüsusiyyəti ilə səciyyələnirsə, digər baxımdan estetik informasiya qatının mükəmməlliyi ilə nəzər-diqqəti cəlb edir. Burada estetik məzmun fərdiliyi, unikal mətn tipi olma, metaforik xarakterlilik, çoxmənalı olma xarakteri bütün komponentləri ilə sənətkar təfəkkürünün tipi kimi də səciyyələnə bilər. Onu da əlavə edək ki, bədiilik, bədi mənanın yaradılması konkret ifadə formasından kənarda deyildir. Sənətkarın yaradıcı potensiyası hansısa fikrin (və yaxud da mövzunun) çatdırılmasında uğurlu modelləşmənin aparılmasına bağlanır. Ümumiyyətlə, "*insan ruhunda parçalanma – ictimai həyatda təzahür edən parçalanmanın episentridir. O müxtəlif formalarda aşkarlanır və sivilizasiya ilə bağlı saydığımız bütün davranış, duyum, həyat tərzi variantlarına toxunur*" [12, s.291]. Burada əsas olan isə yaradıcı səciyyə daşımanın ümumi axarına bağlanır. P.Qəlbinur poeziyası yaradıcı səciyyə daşımanın tipik nümunəsi olaraq bunlardan (aktiv və passiv olmadan) tamamilə fərqli istiqamətə köklənir. Milli düşüncənin yaradıcılıq axtarışları üzərində zənginləşmə keçirən bu proses əlbəttə 60-cı illər səviyyəsində dinamik bir təsəvvür formalaşdırır.

"Əyilib bir ovuc su götürdüm" şeirinin orijinallıq mənzərəsi təkcə məzmun səviyyəsində müsbət təsir yaratmır, yaradıcı istedadı bunun özünəməxsusluqlarında həm də uğurlu formanı ortaya qoyur, daha doğrusu uğurlu modelləşmə ilə mətn tipini faktlaşdırır. Bir ovuc suyun təəssüratı altında ortaya çıxan fikir düzümü həmin bir ovuc su səviyyəsində axmanı, "diri balıq" timsalında baş verənləri (ölüb//dirilməni) həyatın təzadlarını ortaya qoyur. Burada qavrayışın müəyyənləşdirdiyi mətn kodu

hadisənin özünü mətn kimi simvolizə edir. "*Müasir semantikada estetik işarələrin əsas keyfiyyəti strukturluq, ümumilik, sosial-fəlsəfi dəyərlərə uyğunluq, invariantlılıq hesab olunur. Estetik işarələrin və bədii mənaların tədqiqində poetikanın qanunlarına - ahəng, kompozisiya, polifoniya, ritm meyarlarına əsaslanmaq vacibdir. İnformasiya nəzəriyyəsinə xas prinsipləri yalnız şərti mənada tutmaq olar*" [44, s.75]. P.Qəlbinur poeziyası poeziyanın mükəmməllik prinsiplərinə köklənməklə, səs, söz, fikir sıralanmasında sənətkar müəyyənliyi ilə bütövləşir. Onun geniş mövzu dairəsi, rəngarəngliklə səciyyələnən ifadə üsulları üslub səviyyəsində özünəməxsusluğu müəyyənləşdirir.

"İtmiş həsrət kimi" [89] kitabına toplanmış poetik örnəklər ("Haray", "Yol gəlir işıq", "Sahibsiz məzarlara kim keşik çəkir", "Hər gecə", "Səbrimin içində boğuldum, Allah", "Gözlərimi yumub", "Qeyrət", "Doluxsunmuş sükut", "Bu gün", "Görəm gözlər", "İşıq cərrahı", "Qar üstə", "Bülbül", "O tər bənövşəlik," Mənim günahlarım", "Yanmış ocaq yeri var", "Göyərən səs, "Mənə mehman deməyin", "Narın yağışlar yağır" və s.) öz fikir tutumu və məna qatları ilə şair düşüncəsində olanları, milli-mənəvi müəyyənliyi, ümumi axarında qəliblənmiş təsəvvürləri ehtiva edir. Tərbiyəvi mahiyyəti ilə yüksək əxlaqi dəyərlərə köklənmiş P.Qəlbinur yaradıcılığı təkcə bədii-estetik funksiyası ilə diqqəti cəlb etmir, onun fəlsəfi qatı daha dərinlərə işıq tutur, etnik yaddaşı, mənəviyyat və mədəniyyət klişelərini əhatələmək gücü ilə xarakterik görünür. Çünki poeziya elə bir yaradıcılıq sahəsidir ki, onun morfopoetik, fonopoetik sistemində, eləcə də sintaktik səviyyəsində özünə yer alan bütün laylar məna yaratmaya bağlanır. Ona görə də P.Qəlbinur poeziyasında qavrama və şüur hüdudları özlüyündə onların mətn tipi formasını da müəyyənləşdirir.

*Mən ağac üstündə son payız narı –*

*Günəşlə, atəşlə dolmuşam, gülüm.*

*Sən mənim önümdə açan çiçəksən,*

*Niyə gecikmisən,*

*Niyə, a gülüm?*

*Mən,*

*Bir az bənövşəyəm, bir az göz yaşı,*

*Bir az da şan-şöhrət, fişəng, çay daşı...*

*Sən*

*Göylərdən indicə enibsən gülüm –*

*Buluddan köynəyin, çəndən köynəyin* [84, s.2].

Göründüyü kimi, "mən" və "sən" müstəvisində nizamlanan mətn sistemi yaradıcı mahiyyətində olanları, onun fikir axarında hisslər və duyğular əsasında sıralananları mətnə daşımaq baxımından mükəmməl təsəvvür formalaşdırır. Mətnin poetik ümumiləşdirməsində "mən" və "sən"in müəyyənləşdirdiyi ikili kod bədii-estetik işarələnmənin xüsusi faktı olaraq uğurlu təsir bağışlayır. "Mən"in kodlaşdırdığı məzmun "mən ağac üstündə son payız narı" şəklində reallaşması ilə səciyyələnirsə, "sən"də bu "sən mənim önümdə açan çiçəksən"lə müqayisə faktına çevrilir və bu pozulmuş nizamın sonluğu "niyə gecikmisən" sualı ilə sonuclanır. Əslində bədiilik faktı timsalında buna sonuclanma da demək olmur. Bunun mahiyyətində olanlar çoxqatlı bir sırlanma ilə müəyyənləşir və müəllifin demək istədiyi nə varsa bütünlükdə burada ümumiləşir. Bu baxımdan P.Qəlbinur yaradıcılığını mövzusundan, ideya axarından asılı olmayaraq ikili xətdə; hissi və fikri poeziya müstəvisində təhlilə gətirməyin gərəyi yaranır. Düzdü, burada hissi olannın fikri olana və əksinə qarşıması halı var və bu təbiidir, daha doğrusu müəllif üslubunun mənalandırma nümunəsi kimi mühüm önəm daşıyır. "Mən ağac üstündə son payız narı" şeiri poetik sıralanmanın situasiyalar və situasiyaların ardıcıllıq mənzərəsi baxımından mükəmməl bir vəziyyətlə faktlaşır.

a) ağacın mifoloji məkanda sərgilədiyi məzmun;

b) narın substantivləşdirdiyi məna yaddaşı ("son payız narı")

c) çiçəyin etnik düşüncədə formalaşdırdığı təsəvvür və onun semantik xarakteri;

d) "mən" və "sən" arasında sıralanmanın paradiqmatik səviyyəsi;

e) tipoloji müstəvidə bənövşə//göz yaşı sıralanmasının metaforik səciyyəsi;

ə) xalq təsəvvüründə göylərdən enmənin arxetipləri (məsələn, "inanmıram səni analar doğub, ərdəki qılmansan") və s.

Bütün bunlar bir yaddaş hadisəsi, etnik mədəniyyətin arxaik kodları olaraq P.Qəlbinur poeziyasında sənətkarlıq səviyyəsində öz mükəmməl sistemini ortaya

qoyur. "*Şeirin əsas bədii mətləbi üçün çıxış nöqtəsi olan antonimlərin semantik tutumluluğu bir də onunla şərtlənir ki, hiss və fikirlərin kəsişməsindən zənginləşən, bütövləşən estetik füsunkarlıq onların köməyi ilə daha qabarıqlaşdırılır, həyatın şairanə duyumunu və zərifliyin tərzini təzahür etdirir*" [68, s.350]. "Mən ağac üstündə son payız narı" şeiri təzadların assosiativ fikir müəyyənliyində mətnin mahiyyətini ifadə eləyən kod kimi funksional xarakter daşıyır. Müxtəlifliklərin yaratdığı poetiklik həm də məzmun yaradıcı funksiyası ilə şeirə əlavə ovqat qatır, fikir müəyyənliyi üçün əsas olur. Burada özünü göstərən məna qütbləri poetikliyin mahiyyətinə hesablanmış qarşılıqlı vəhdətlə bütövləşir. P.Qəlbinur poeziyası bu baxımdan fikrin çatdırılması və ifadə üsullarının özünəməxsus sıralanması və onun fiqurlaşaraq bədiilik müstəvisində ciddi funksiya daşıdığını şərtləndirir. Məlum olduğu kimi, "*bədii üslubda hər növ antonimdən istifadə etmək mümkündür və ümumiyyətlə, bədii üslubu məqsədəuyğunluluq əsasında, hətta məcazi antonimliliyə də geniş imkanlar vardır*" [22, s.141]. P.Qəlbinur poeziyasının gücü bir istiqamətdə metaforik xarakterin orijinallığına, məcazi məqamların poetik mətn çərçivəsində əhatə elədiyi məzmuna bağlanır.

Fikir müəyyənliyində əsas məsələlərdən birisi sənətkar özünəməxsusluğunun şeirdən-şeirə hansı keyfiyyət göstəriciliyi ilə səciyyələnməsinin görünüşüdür. Yaradıcı düşüncəsi bütün zaman kəsiklərində həyatiliyə və onun romantik təqdiminə köklənməklə axtarışları, ifadə üsullarının ən uğurlu olanını tapmağa hesablanır. "Gecələr", "Azadlıq kimi dadlı", "Qeyrət", "Doluxsunmuş sükut", "Göyərən səs", "Mənli günlərini", "Səni tanımırdım", "Mənim uzun şeirlərim", "Yağaq Qarabağa", "Qar üstə", "Bülbül", "Gözlərim yol çəkir", "Mənim icazəm", "Sənsiz qalsam", "Çatdılar sənə", "O yay axşamı", "Sən özün yıxıldın, ağlama dünyam", "Sabahlardan o yanda" və s. poetik örnəklərin sərgilədiyi məzmun mövzu xüsusiyyətlərinin çeşidliliyi ilə nəzər-diqqəti cəlb edir. Burada sənətkarın həyata, dünyaya münasibəti, sevgi hissləri, ailə münasibətləri çevrəsində baş verən mənəvi dəyərlərin dinamik mənzərəsi, siyasi mühitin ortaya qoyduğu təsəvvür və Azərbaycan səviyyəsində son dövrlərdə yaşananlar, tarixi dədə-baba torpaqlarının işğalı, Qarabağ savaşı və s. müxtəlif səviyyələrdə özünün poetik ifadəsini, yaradıcı münasibətlərində baş

verənlərin spesifikasını aşkarlayır. Onu da qeyd edək ki, "*yeni sənət heç vaxt yeni formalardan başlanmır, yeni sənət həmişə yeni insanla birlikdə doğulur*" [127, s.95]. Sənətin özünəməxsusluq qanunları və tarixi diaxroniyası bütün kontekstlərdə etnomədəni sistemə, yaradıcı dünyagörüşünü, təsəvvürlər sistemini formalaşdıran mühitə, milli-mənəvi yaddaşın dinamik mənzərəsinə bağlanır.

P.Qəlbinur poeziyası da bir şüur mətni olaraq yaradıcı intelleksiyasına köklənməklə onun özünəməxsus çatdırılma modellərini ortaya qoyur. Yeni sənət, yeni forma prinsipində bu yeniliyin müəyyənləşdirdiyi kod yaradıcının özünün dünyagörüşü, həyata baxışı, bədii-estetik prinsiplərinin ortaya qoyduğu imkanla şərtlənir. Ona görə də P.Qəlbinur poeziyasında hər bir söz və misra, eləcə də mətn özlüyündə mükəmməl bir sistemə oturur və onların söz, misra sıralanmasında hər bir ifadənin yeri dar, sərgilədiyi məzmun isə çoxçeşidli və çoxqatlı olması ilə müqayisələrə yol açır. Məsələn, şairin "Qürbətdə yazılan şeir"i mətn paradiqması kontekstində mükəmməl bir təsəvvürlə səciyyələnir.

Mənim taleyimin, şah qapıları!
*Açıl ağ vərəqlər, alın yazılar,*
*Qədim kitabələr açılan kimi.*
*Mənim əllərimdə qalın yazı var,*
*Yuxusuz gecələr, duzsuz gündüzlər*
*Qan qusub ürəyim onu yazıbdı.*
*Damarlar köksümdə elə qıvrılıb*
*Bağrımın başına "Vətən" yazıbdı* [85, s.3].

Azərbaycan poeziyası xalqın tarix, mədəniyyət, etnoqrafiya, mifoloji yaddaş və s. bütün olanları ilə onun göstəricisi, bir növ əks-sədası, cızılmış surətidir. Xalqın tarixinin, mədəniyyətinin, ictimai-siyasi, sosial mənzərəsinin bütün təfsilatları ən dolğun şəkildə bədii sferada özünə yer almışdır. Yurddan-yuvadan uzaq düşmək, müharibələrin, təbii fəlakətlərin gətirdiyi ucu-bucağı görünməyən sızıltılar, göz yaşları ədəbiyyatın hər iki qanadında müxtəlif mövzuların ənənəvi tiplərini müəyyənləşdirmişdir. Qəriblik də bu sırada olub bayatı, nəğmə, nağıl, rəvayət, dastan və s. səviyyəsində bütünlükdə ədəbiyyatın şifahi və yazılı qolunu izləmişdir. Məşhur

xalq bayatılarımızdan birində deyildiyi kimi, "burda bir qərib ölüb göy kişnər, bulud ağlar" dan M.V.Vidadinin "*qərib öldüm, bikəs öldüm, yad öldüm*"ünə [119] qədər (buraya Mustafa Ağa Arifin "ağlaram hər zaman düşəndə yada, bizim Qazax, Qaramanlar, ağlaram"ı da əlavə etmək olar) bir rəngarəngllik var. Bunların isə ümumi mahiyyətində etnik təsəvvürdə özünə yer almış tipik hadisələrin sıralanması dayanır. Məsələn, "Kitabi-Dədə Qorqud" [75] dastanında "Baybura oğlu Bamsı beyrək boyu", eləcə də "Aşıq Qərib və Şahsənəm" [13] dastanında qəribliyin aparıcı motiv olaraq sərgilədiyi təsəvvür bütünlükdə etnik şüurda faktlaşmış hadisələrin tipik örnəkləridir. Çağdaş ədəbiyyatın tipik örnəklərindən olan Elçinin "Bülbülün nağılı" hekayəsini [23, s.148-149] də buraya aid etmək olar. Bütün bunlar P.Qəlbinura gələn tarixi-mədəni yaradıcılıq və yaddaş ənənəsinin ümumi sistemini aşkarlayır. Burada maraqlı olan və həm də diqqəti cəlb edən sənətkarın məsələlərə "qürbətdə yazılmış şeir" kontekstində yanaşmasıdır. Doğrudan da, original bədii mətn, original ədəbiyyat faktı bütün parametrlərdə yaradıcı təfəkkürünün orijinallığına, yanaşma və ifadə özünəməxsusluğuna bağlanır. Şüur mətni olaraq bədii nümunənin verdiyi informasiya bütövlükdə mənsubluğa, tarixi mənlik şüurunun sərgilədiyi müəyyənləşmiş təfəkkür modelinə bağlanır. Mətndə hadisələrin sıralanması mükəmməl bir sistemlə müəyyənləşir:

a) tale yazısı, alın yazısı müstəvisində lirik "mən"in istəyi;

b) ağ vərəq, alın yazısı timsalında formalaşan təsəvvür;

c) "qədim kitabələr" kontekstində aparılan müqayisə və onun məzmunu;

ç) "mənim əllərimdə qalın yazı var" deyiminin semantik informasiyası;

d) bağrın başına yazılan "Vətən"in mətn daxilində sərgilədiyi paradiqmatik mənzərə və s.

Bütün bunlar P.Qəlbinur poeziyasının assosiativ fikir müəyyənliyində mahiyyətə və onun orijinal ifadəliliyinə hesablanmış faktlardır. Çünki burada məsələnin ümumi mənzərəsi bir istiqamətdə semantik məlumatlandırma ilə səciyyələnirsə, digər xətdə estetik informasiyalılığın formalaşdırdığı təsəvvürlə (fərdi, unikal, metaforik və çoxmənalı olma) faktlaşır. Bunları bədii semantikanın məntiqi metodları ilə təhlil müstəvisinə gətirsək işarəvi məna vahidlərinin ehtiva etdiyi bir rəngarəngliklə

qarşılaşmış olarıq. Məlum olduğu kimi, "*estetik cəhətdən əhəmiyyətli olan yaradıcılığın hamı üçün əhəmiyyətli olan bir qanunu vardır ki, bu yaradıcılıq müxtəlif miqyaslı söz sənətkarını poetik dilin inkişafının iştirakçısına çevirir*" [128, s.101]. Paşa Qəlbinur poeziyası da bütün dinamikası, müəyyənləşdirdiyi assosiativ fikir mahiyyəti ilə original bir düşüncəyə, yaradıcılıq imkanlarına bağlanır. Onun yaradıcılıq fəlsəfəsi bütün sxem və sistemləri ilə etnomilli düşüncənin intelleksiyasına hesablanmışdır. Enerji qaynağı isə "bağrın başına yazılan Vətən" təsəvvürünün ehtiva etdiyi böyüklüyə bağlanır.

P.Qəlbinur poeziyasında bütöv bir mahiyyəti əhatələyən və özünəməxsusluq kimi nəzərə çarpan obrazlaşmanın xüsusi elementləri vardır. Bu onun şeirlərinin mövzu və ideya istiqamətlərində, mətn tiplərinin müxtəlif formalarında, eləcə də müəyyənlik səciyyəsində nəzərə çarpan obraz tipləridir. İşıq, şüa, göy, qırmızı, yaşıl, günəş, gün və s. ayrı-ayrı şeirlərində nəzərə çarpan obrazlar silsiləsidir. Burada maraqlı olan həmin obrazlaşmanın, daha doğrusu mətn səviyyəsində fikrə yüklənmənin yeri və məqamıdır. Məsələn, P.Qəlbinur şeirlərində obrazlaşmanın metaforik və simvolik məkanı daha çox işıqla kodlaşır. Bunun isə özünün çox əski təsəvvürlərə, şairin mənəvi-ruhani dünyasına bağlanacaq funksiyaları vardır. Obrazlaşma səviyyəsində işıq ilk olaraq yaranışın başlanğıcında duran dörd ünsürdən (ab, atəş, xak, bad) biridir. Hətta bir sıra nəzəriyyəçilər, o cümlədən işraqiyyə fəlsəfəsinin nümayəndələri dünyanın başlanğıcında işığın olması qənaətində dayanırlar. P.Qəlbinur poeziyasında isə işığın özünün məqamı və yeri bir neçə istiqamətlidir. Əvvələ o şair və həkimdir. Bir tərəfdən qəlbləri oxşayan şeirləri ilə ürəklərə nur səpirsə, digər tərəfdən göz həkimi olaraq o, sözün həqiqi mənasında gözlərə şəfa, işıq verir. Bunların ortaqlığında sənətkarın şeirlərində obrazlaşmanın özünəməxsus modelləri nəzər-diqqəti cəlb edir. Məsələn, ayrı-ayrı şeirlərində sözün işləklik məqamları müxtəlifliklərlə səciyyələnir. "İşıqlar içimdən keçib gedirlər" ("Könlümün eşq qibləlıəri" şeirindən), "İşığı içimdən üzümə düşür" ("Bilmirəm bu şeiri necə yazacam" şeirindən), "işıqsızlara doğranam yem edəm özüm-özümü" ("Gecələr işığa sürtər üzünü" şeirindən), "biz işıqdan yaranmışıq" ("Bu gün" şeirindən) və s. misraların verdiyi informativ bilgi mətn içində obrazlaşmanın poetik

spesifikasını şərtləndirir.

*Bu gün ulu bir dərvişəm,*
*Dağam elə bil – möhtəşəm!*
*Haradasa qart düşmüşəm.*
*Ürəyim*
*Qısılıbdı qəfəsinin dar köksünə -*
*Zingildəyən yabalanmış it küçüyü…*
*Qəfəsimin divarları*
*Yemədiyi sür-sümüyü.*
*İşıq dolur nəfəsimə*
*Ruhum işıq, bağrım işıq!*
*Ulu-ulu səslər gəlir qulağıma*
*Biz işıqdan yaranmışıq!* [91, s.55].

P.Qəlbinur poeziyası mətn fenomenliyi, sözün məna yaddaşı, janr məzmunu baxımından mükəmməlliklə şərtlənir. Şairin özünü təqdim üsulu dərvişlik missiyası ("bu gün ulu bir dərvişəm"), ucalıq, böyüklük baxımından ("dağam elə bil – möhtəşəm") mənalandırma və bu müqayisələrin bir-birinə yaxınlıq (həm də fərqlilik) məqamı bir mükəmməlliyi, sənətkar özünü təqdimini faktlaşdırır. Dərvişliyin Azərbaycan poeziyasındakı funksiyanın formalaşdırdığı təsəvvür orta əsrlərin ümumi axarında yasəvilikdən, bəktaşilikdən, mövləvilikdən, nəqşbəndilikdən və s. gələnlərə bağlanmaqla, həm də etnosa hamilik, nümunə olma təsəvvürü ilə əlaqələnir. Bunların poetik mətndə ortaqlığı və misra fikir yükündə mövcud təsəvvürün canlandırma üsul və imkanları yaradıcı istedadının zənginliyinə hesablanır. Xalq şairi H.Arif "bir xalqa atadır, anadır şair" deyirdi. Son olaraq mahiyyətə varma, "ruhum işıq, bağrım işıq" səviyyəsində səciyyələndirmə bir qənaət olaraq "biz işıqdan yaranmışıq" səviyyəsində ümumiləşdirilir. Konkret estetik məqamları əks etdirmək gücü ilə faktlaşan P.Qəlbinur poeziyası ritm-intonasiya zənginliklərində (bütünlükdə poetik strukturun uğurluluğunda) ciddi bir paralelizmlərə yol açır, bu isə yaradıcı bacarığı olaraq reallaşır. "*Paşa Qəlbinur poeziyası təkcə mövzu dairəsi yox, həm də poetik dili baxımından zəngindir. Şairin*

*dili ozan dili kimi çevik, qələmi cərrah bıçağı kimi iti və kəsərlidir. Onun şeirlərində səs də, söz də, cümlə də obrazlıdır. Bu sistemdə epitetlərin rolu daha qabarıq görünür*" [116, s.63-64]. Zəngin yaradıcılıq ənənələrinə köklənmiş P.Qəlbinur bütün yaradıcılığı ilə milli düşüncəyə, mənəvi dəyərlərin yüksək davranış modellərinə köklənməsi ilə həmişə nəzər-diqqəti cəlb etmişdir.

Obrazlaşmanın ümumi sistemi və özünəməxsusluq komponentləri P.Qəlbinurda müxtəlif səviyyələrdə assosiativ fikir müəyyənliyi ilə reallaşır. Həyatın müxtəliflikləri, təzadlı situasiyaları, mürəkkəbliklərin və qarşıdurmaların sərgilədiyi təsəvvür sistemi özlüyündə yaradıcı düşüncəsində münasibəti, qiymətləndirmələrin aparılmasını qaçılmaz edir. İşıq, həyat fonunda şərhini verdiyimiz obrazlaşma sırf həyat faktları ilə də şairin poeziyasında özünə yer alır. Qaranlıq (gecə) // işıq (gündüz) timsalında vurğulanan sıralanma onun həqiqi və metaforik xarakterliliyi ilə bədii mətndə sərgilədiyi mənzərəni aydınlaşdırmağı da diqqət önünə gətirir. Məsələn, "Gecələr işığa sürtər üzünü" şeirində tipik nümunə olaraq məşhur ustad ozan Aşıq Veysəlin xatırlanması təsadüfi deyildir. Yeddi yaşından sonra dünya işığına həsrət qalan bu ustad gözlərindən birini çiçək xəstəliyi zamanı itirmişsə, digərini isə təsadüfi hadisə nəticəsində itirmişdir. Böyük istedad sahibi olan bu ustadın şeirə gətirilməsi təsadüfi deyildir. Burada digər maraqlı cəhət P.Qəlbinurun bir şair, bir göz həkimi kimi təsəvvürünün obrazlaşdırılmasıdır.

*İşıqsızlara*
*Doğranam yem edəm özüm özümü.*
*Sonsuz gecələrin zülümdür, Allah!*
*Dünyada nə qədər Aşıq Veysəlin*
*Gündüzlər işığa sürtüb üzünü* [91, s.35].

Bədii dilin leksik-semantik normalarından yüksək ustalıqla istifadəsi sayəsində ortaya qoyulan bu təsvir-tərənnümlər həm də yaradıcı istəyini, həyata, dünyaya münasibətini, bir işıq paylamaq funksiyasına köklənmə arzusunu ("işıqsızlara doğranam yem edəm özüm özümü") ortaya qoyur. Qaranlıq//işıq paralelizmində assosiativ təzadın ehtiva etdiyi təsəvvür qütblənmələrlə "sonsuz gecələrin zülümdür, Allah" deyiminin yaratdığı təsəvvürdə özünü göstərir. Tipoloji yanaşmalar

P.Qəlbinur poeziyasında bunları məna yaratmanın bir faktoru olması qənaətinə gəlmək üçün də əsas edir.

P.Qəlbinur poeziyasında obrazlaşmanın elə canlı, özünəməxsus tipologiyası müəyyənləşir ki, hansısa bir söz, ifadə, misra və yaxud da bütövlükdə şeir yaradıcı haqqında ciddi təsəvvür formalaşdırır. Ana, Vətən, Torpaq, Gül, Günəş və s. kimi anlayışların obrazlaşması və onların kəsb etdiyi mahiyyət mətn daxilində yaradıcı imkanlarını müəyyənləşdirir. Bunların hamısı fikir müəyyənliyində mahiyyəti ortaya qoymağa və yaradıcı istedadının bədii-estetik gücünün ümumi sistemini aşkarlamağa xidmət edir. Gecə//gündüz, işıq// qaranlıq, həyat//ölüm və s. prizmasından aparılan müqayisələr yaradıcı dünyagörüşünün diaxroniyasını, sənətkar münasibətinin panoramasını sərgiləyir. Assosiativ fikir müəyyənliyində ortaya qoyulan bu məsələlər bir tərəfdən P.Qəlbinur yaradıcılığının mövzu əhatəsinə bağlanırsa, digər tərəfdən onun ifadəliliyinin imkanlarını aşkarlayır. Burada nəzərə çarpan poetik fiqurlar "söz təkrarları ilə birlikdə sintaktik paralelizmlər şeir vəzninin əsasıdır" və bütünlükdə bədii mətnin mükəmməllik sistemini faktlaşdırır. Mətn faktı olaraq şeirin ümumi axarında özünü göstərən istiqamət bir tərəfdən şairin "işıqsızlara doğranam yem edəm özüm özümü" deyimi ilə mahiyyəti və yaradıcı istəyini aydınlaşdırırsa, digər tərəfdən bunun daha kəskin və etiraz doğuracaq "onsuz gecələrin zülümdür, Allah" ifadəsi ilə bütövləşir. Ümumiyyətlə, yeni sənət, yeni forma axtarışlarında P.Qəlbinurun içində olduğu 80-ci illər poeziyası yeni insan düşüncəsi ilə özünü büruzə verdi. Burada məsələ formanın yeniliyi timsalında deyil, düşüncənin, yeni yaradıcı insan konsepsiyasının özünəməxsusluq üsulları başlıca olan kimi nəzər-diqqəti cəlb etdi. Çünki "*60-cı illər ərəfəsində müsbət qəhrəmanın gözdən düşməsinin, novator yaradıcılıq axtarışları üçün az qala təhlükəli bir anlayışa çevrilməsinin bir səbəbi onun milli zəmindən uzaqlaşması, bütün milli incəsənətlər üçün eyni dərəcədə məqbul hesab edilən şablon əsasında yaradılması idi*" [114, s.44-45]. Əslində ədəbiyyatın millilik konsepsiyasına imperiyanın diktəsində axıra qədər sədaqət göstərməyin özünün mümkünsüzlüyü vardı və bunlar müxtəlif forma, üsullarla mətnin axarında, alt qatında metaforik səviyyədə, xalq ədəbiyyatından gələn epizod və əhvalatların

canlandırma formaları ilə işlənirdi. 60-80-ci illər ədəbiyyatın isə üstünlüyü bu metaforik sxemlərlə çatdırmaları 60-cı illərin insanı ilə ortaya qoydu. Yeni sənət yeni insanla birlikdə doğulur konsepsiyası ədəbiyyatın ümumi axarında ciddi faktlarla reallaşdı və böyük bir yaradıcı nəslin formalaşması üçün əsas oldu.

Ədəbiyyatın möhtəşəm ənənələrinə köklənən P.Qəlbinur yaradıcılığı bütün ruhu, qaynağı ilə milli təsəvvürdə müəyyənləşmiş mənsubluq kodlarının özünəməxsus ifadəliliyinə bağlanır. "Ay bir əlçim buluddur" (1984), "Payız məktubu" (1987), "Rəngli göz yaşları" (1990), "İtmiş həsrət kimi" (1996) və s. şeir kitablarında toplanan poetik örnəklər yaradıcı düşüncəsində olanların ümumi axarını, nələrlə əhatələndiyini aydınlaşdırmaq üçün lazımı qədər informasiya verir. Məhz bunun nəticəsidir ki, ədəbi tənqidin (eləcə də ədəbi-mədəni mühitin) görkəmli nümayəndələri (İman Mustafayev, Mirəli Seyidov, Altay Məmmədov, Yusif Səmədoğlu, Budaq Budaqov, Fikrət Sadıq, Kamil Vəli Nərimanoğlu, Məhərrəm Qasımlı, Vilayət Quliyev, Ramiz Rövşən, Vaqif Bayatlı, Rüstəm Behrudi, Məmməd Aslan və başqaları) müxtəlif səviyyələrdə söz deməyə çalışmışlar. Bu böyük marağın qaynağı isə şairin yaradıcı istedadına, milli düşüncənin ruhuna köklənməsinə bağlanır. Ədəbiyyatşünas alim Ə.Əsgərli "Fərdi üslubun poeziyası" adlı kitabında P.Qəlbinurun yaradıcılığını bütün qövsləri ilə təhlilə gətirmiş və onun monoqrafik təhlilini vermişdir. "*Paşa Qəlbinur XX əsr Azərbaycan şeirimizin poetik söz sahiblərindəndir. Onun poeziyası heca və sərbəst şeirimizin gələnəkləri ilə möhkəm bağlıdır. P.Qəlbinur bədii qidasını, əsasən, Mikayıl Müşfiq, Rəsul Rza, Əli Kərim, Fikrət Qoca və Vaqif Səmədoğludan alıb*" [37, s.3]. Doğrudan da, ədəbi-nəzəri fikirdə "yeni poeziya yeni insanla doğulur" fəlsəfəsi düşüncəsindən baxdıqda P.Qəlbinur yaradıcılığı ciddi təsəvvür formalaşdırır. Deyim və düşüncə özünəməxsusluğunda faktlaşan müxtəlif mövzulu (məhəbbət mövzusunda, ictimai-siyasi mövzuda, təbiət mövzusunda) yazdığı şeirlərinin hər birisi yaradıcı üslubunun və təfəkkür intelleksiyasının nümunəsi olaraq uğurlu təsir bağışlayır. Məsələn, "Yaxşı ki", "Gilətağda bir ev qalıb", "Şuşanın dağları", "Şəhid ruhlarıdı göylərim, Allah", "On üç yaşlı şəhidin ürəyindən çıxarılmış gülləylə söhbət", "Yağaq Qarabağa" və s.

şeirləri vətən sevgisi, vətən məhəbbəti ilə süslənmiş poetik örnəklərdir. Bunların hamısı bir növ tarixin reallığının əks-sədası olaraq şair düşüncəsində obrazlaşır və ciddi münasibət sərgiləyir.

*Yaxşı ki, Qobustan qayaları var –*
*Xalça, üzük... olsa aparardılar.*
*London muzeyində "Şeyx Səfi" kimi*
*Gözümün odundan qopararardılar* [87, s.36].

Paşa Qəlbinur poeziyası rəngarəngliklər poeziyası olaraq təkcə məna özünəməxsusluqları ilə səciyyələnmir, burada həm də mövzu baxımından seçimin uğurluluğu və onu ifadəyə köklənmə kimi ciddi maraqlı məqamlar özünə yer alır. Azərbaycan xalqının tarixi keşməkeşlərlə, fəlakətlər, müharibələr, qarşıdurmalarla doludur. Ayrı-ayrı zaman kəsiklərində baş verənlər bunun göstəricisidir. "Yaxşı ki" şeirindən verdiyimiz nümunə də həmin vəziyyətin ifadəsi baxımından əvəzsizdir. Onun klassik nümunəsi isə xalq şairi S.Vurğunun "Ziyafət" şeirində *("mərmər döşəmələr, üstdə xalılar, bəzisi Hinddəndir, bəzisi Çindən"* [120, 207]) ifadəsini tapmışdır. Xalq yazıçısı M.Cəlalın "Bir gəncin manifesti" əsərində "itə ataram, yada satmaram" da bu təsəvvürün klassik nümunəsidir. P.Qəlbinur da eyni ruhun nümunəsi olan "Yaxşı ki" şeirilə Azərbaycan xalqının tarixi taleyində olanlara diqqəti yönəldir. Bir şair, vətəndaş təəssübkeşliyi ilə baş verənləri, xalqın maddi və mənəvi mədəniyyətini müxtəlif səviyyələrdə daşıyanlara qarşı öz mövqeyini nümayiş etdirir. Tarixi reallıq belədir; nə qədər yazılı abidələr, sənət nümunələri, xalçalar, rəsmlər, ədəbiyyat nümunələri, kitablar və s., məqsədli olaraq qəsbkarlar tərəfindən Avropaya, Amerikaya, Rusiyaya, yad məmləkətlərə daşınmışdır. Bütün bunların nümunəsi və baş verənlərə cavab olaraq şair "yaxşı ki, Qobustan qayaları var" deməklə diqqəti baş verənlərə yönəldir. Qobustan qayaları xalqın mədəniyyət dərsliyidir. Azərbaycanın nə qədər zəngin, möhtəşəm, həm də ucu-bucağı bilinməyən mədəniyyət beşiyi olmasının göstəricisidir.

Mətn informasiyası diqqəti olanlar timsalında London muzeylərində saxlanan "Şeyx Səfi" xalçasına yönəldir. Burada paradiqmatik səviyyənin ümumi mənzərəsi gerçəkliyi ifadə və əks etdirmə baxımından uğurluluğu ilə səciyyələnir. Bu verilən

nümunə baş verənlər timsalında mahiyyəti, xalqa yönəlik siyasətin mənzərəsini aşkarlayır. "Şuşanın dağları" şeiri vətən, yurd sevgisinin və baş verənlərə yaradıcı mövqeyinin nümunəsi olaraq mükəmməl sənət örnəyidir.

*Lalədən həyalı, göydən çətirli,*
*Pənbə buludlardan kirşanlı dağlar.*
*Nanədən yarpızdan, baldan ətirli,*
*Durna qatarına nişanlı dağlar.*

*Bu gecə Şuşada əllərim göydə...*
*Gördüm qaranlıqdı – bu dünya boyda.*
*Özüm – daş, qeyrətim –bir göy quşuydu...*
*Bağırdım! Zülmətə daşdandı dağlar.*

*Bayıldım... ayıldım, gördüm yuxudu,*
*Dağlar Koroğlunun qeyrət ruhudu.*
*Mənim təpərimi istilər uddu –*
*Ələn göz yaşınla, yaşınla, dağlar* [88].

Xalq ədəbiyyatında, bayatı, nəğmə, dastan örnəklərində, eləcə də ədəbiyyatın yazılı qanadında dağlara həsr olunmuş bir-birindən maraqlı əvəzsiz poetik örnəklər vardır. Xan Qazandan, Qoç Koroğludan Aşıq Ələsgərə, S.Vurğuna, oradan da P.Qəlbinura gələn möhtəşəm yolda bu tip klassik örnəklər ədəbiyyatımızın bəzəyinə çevrilmişdir. "Şuşanın dağları" da məhz orijinal bir düşüncə nümunəsi olaraq faktlaşmışdır. Azərbaycan ədəbiyyatının yaddaşında artıq son dövrün olayları "Qarabağ", "Şuşa", "Kəlbəcər", "Laçın" və s. kimi müqəddəs yerlərin obrazlaşmasına yol açdı. Şuşa ilə bağlı yazılanların obrazlaşma mənzərəsi tarixi yaddaşa və son dövrün olaylarına bağlanma xüsusiyyəti ilə seçilir. H.Arif, M.Aslan, H.Kürdoğlu, M.Yaqub, A.Abdulla, M.İsmayıl, Z.Yaqub və s. onlarla şairlərimiz Şuşa timsalında müqəddəs Vətən obrazını cızdılar. Məsələn, S.Osmanoğlunun "Şuşa düşüncələri" öz ruhu və məzmun qatları ilə sanki bir rəssam tablosunu xatırladır.

*"Xarı bülbül"lərin dili "Şikəstə",*

*Çiçəyi ürpəşər Cıdır düzünün.*

*Yaddaşı hönkürüb dikələr yerdən,*

*Qatar durnaların nəğməsi üstə.*

*Qoşma ilmələri toxuyar birdən,*

*Vaqif həsrətilə oxuyar birdən.* [104, s.26].

Bunlar və bu kimi nümunələr Azərbaycan poeziyasının ümumi axarını, etnik təsəvvürləri əhatələmə gücünü aydınlaşdırır. P.Qəlbinur da məhz Şuşa timsalında Vətəni, onun dağını, dərəsini, flora və faunasını bütün olanları ilə şeirə gətirir. Dağların etnik təsəvvürdə müəyyənləşmiş obrazını semantik və estetik məlumatlandırma səviyyəsində cızmaq yolunu tutur və "dağlar Koroğlunun qeyrət ruhudu" deyir. Şeirin müəyyənləşdirdiyi informasiya qatı və poetik mənalandırma potensiyası özlüyündə P.Qəlbinur düşüncəsində olanları sərgiləmək baxımından mükəmməl bir mənzərə ilə səciyyələnir. Baş verən hadisələr timsalında "gördüm qaranlıqdı – bu dünya boyda" deyən şairin narahatçılığı bir növ çağırışdı, ruhun həyəcanı və oyanışıdır. XIX əsrdə nəqşbəndilik təriqətinin mürşidi Mir Həmzə Seyid Nigari "Qarabağım qanlı Qarabağımdı" söyləyirdi. Bütün bunlar xalqımızın başına gələnlər və gətirilənlər timsalında bədii düşüncənin faktlaşdırdıqlarıdır və baş verənlərə mövqe nümayiş etdirmək baxımından yaradıcı çağırışıdır.

P.Qəlbinur yaradıcılığında yurd, vətən, torpaq mövzusunda yazılmış şeirlər, eləcə də bütün yaradıcılığı etnokulturoloji düşüncənin təfəkkür intelleksiyasını ifadəyə köklənmişdir. Tərbiyəvi mahiyyəti, şüur kodu ilə milli-mənəvi dəyərlərin müqəddəsliyinə və təlqininə bağlanan bu örnəklər mətn fenomenliyi, sözün məna yaddaşı və janr məzmunu mükəmməl təsəvvür sərgiləyir. "Yağaq Qarabağa" şeiri də "Şuşa dağları" səviyyəsində bir başqa orijinallığa, baş verənlər timsalında xalqı ayaq üstə saxlamağa, tarixi yaddaşın oyanışına köklənmişdir.

*Dirilər kimi getdik, uduzduq,*

*Ruhlar kimi yağaq, Qarabağa!*

*Diri-diri döyüşəndə ucuzduq,*

*Ruhlar kimi yağaq, Qarabağa!* [91, s.180].

P.Qəlbinur poeziyası müxtəlifliklər poeziyasıdır və onun mahiyyətində daşınan

əksliklər bütünlükdə fəlsəfi funksiyası ilə dərki və üfüqi, şaquli yanaşmalarda daha sistematik təhlilləri zəruri edir. Təzadların yaratdığı mənzərə assosiativ bağlantılara, fikir müəyyənliyinin mahiyyətində nələrin durmasına və sənətkarın nələri çatdırmasına köklənir. Qarabağ, onun sıraladığı ağrılar, rus şovinizminin xalqımıza yönəlikli siyasəti, erməni məkri və müharibənin acı nəticələri şairi “dirilər kimi getdik, uduzduq” qənaətinə gətirir, lakin bunun digər tərəfində məsələlərin hələ qurtarmadığı və son savaş olmadığı “ruhlar kimi yağaq, Qarabağa” deyimi bütün aspektləri ilə xalqın oyanışına çağırışdır. Mövzu rəngarəngliyi ilə səciyyələnən P.Qəlbinur poeziyası  yaddaş tutumu, modelləşdirmənin özünəməxsusluq prinsipi, estetik işarələnmənin yüksək intelleksiyası ilə mahiyyəti ortaya qoyur. Bütün bunlar bir istiqamət olaraq P.Qəlbinur poeziyasının ümumi sistemini mətn sxemlərini geniş kontekstdə təhlilə gətirməyi zəruri edir.

# III FƏSİL
# BƏDİİ BÜTÖVLÜKDƏ MƏCAZLAR SİSTEMİNİN ROLU

## 3.1. Lirik təsvir təhkiyəsinin forma və məzmun birliyi

Paşa Qəlbinur poeziyasının mükəmməllik sisteminin müəyyənliyində janr və struktur səviyyəsinin aydınlaşdırılması ən aktual tərəflərdən biridir. Çünki sənətkarın zəngin yaradıcılıq özünəməxsusluğunda mətn fenomenliyini ortaya qoyan məsələlərdən biri sözün məna yaddaşı və janr məzmununun sərgilədiyi mənzərədir. Mətn//mətn, mətn// subyekt səviyyəsində fonopoetik, morfopoetik və sintaktik qatların ortaya qoyduğu təsəvvür həm də yaradıcı imkanlarını faktlaşdırır. Burada dil, üslub, formulların sıralanması, nitq etiketləri, modelləşdirmənin spesifiklik üsulları və s. bir bütöv olaraq özünə yer alır. Bu isə bütövlükdə sənətkarın yaradıcılıq və həyat fəlsəfəsinə bağlanır, çünki "*həyat haradadırsa poeziya da oradadır və deməli poeziya üçün məzmun da oradadır. Yalnız məzmun hər bir şairin - həm dahi, həm də sadəcə istedadlı şairin həqiqi meyarı ola bilər. Şeirin poetik olması üçün nəinki təkcə rəvanlıq və ahəngdarlıq azdır, hətta hiss özü də təklikdə hələ kifayət eləməz: burada fikir lazımdır ki, hər cür poeziyanın da elə əsl məzmununu təşkil edən budur*" [15, s.227]. P.Qəlbinur poeziyası həyatın fəlsəfi, bədii-estetik, sosial-psixoloji dərki olaraq yekunlaşmır, həm də onun ifadəliliyinin mükəmməl nümunəsi olaraq diqqət önünə gəlir. Bu mükəmməllik, bütövlük dediyimiz məsələlər isə yaradıcı üslubunun özünəməxsusluqları prizmasında keyfiyyət səviyyəsinə qalxır.

Ümumilikdə lirik düşüncənin imkanlılığı bütünlükdə dil, üslub, şüur və təfəkkür hüdudlarında sənətkar intelleksiyası ilə reallaşır. Uğurluluq əmsalı isə daha çox janrla deyil, yaradıcı insan tipinin imkanlarına, onun həyatı təqdim üsullarının ustalığına bağlanır. 60-80-ci illər nəslinin yaradıcılıq axtarşları bütün düşüncə və mətn simpatiyası ilə etnokulturoloji sistemə bağlanmaları və ona köklənmələri hesabına özünü təsdiqlədi. Əlbəttə, burada heç şübhəsiz aparıcı xətt olaraq milli ruh, milli-mənəvi dəyərlərin arxaik kodları, mifoloji yaddaşın çox dərin qatlarından günümüzə daşınıb gələn təsəvvür qatlarının oyanışı vardı. P.Qəlbinur da məhz bütün bunlara

fövqəlzamanlılıq və fövqəlməkanlılıq [hətta fövqəlsubyektivliyi də buraya artırmaq olar) kontekstindən çıxış etməklə lirik təsvir unikallığı hesabına nail olmuşdur. “Gözləyir”, “Qış lövhələri”, “Dağlar” şeirlərindən (ilk çap olunan şeirləridir) “Ağlıma gələnlər başıma gəldi” (2003) kitabında toplanan nümunələrə qədər olanlar sənətkar yaradıcılığının inkişaf dinamikasını, ədəbiyyat təsəvvürlərini aydınlaşdırmaq üçün lazımı qədər material verir.

Lirikanın mündəricəsini təşkil edən tərənnüm özünün struktur sistemdə yeri, məzmunyaratma funksiyası ilə bədii mətnin uğurluluq sistemini müəyyənləşdirən iki əsas olandan biridir. Tərənnüm poeziyanın qan daşıyan damarları olmaqla, həm də bütövlüyün təminatçısı funksiyasında çıxış etməsi ilə faktlaşır. Bir növ yaradıcı sənətkarlığını, istedad dediyimiz məsələni özündə ehtiva edir. Hələ XII əsrdə X.Şirvani bədii mətndə sənətkarlıq məsələlərinə xüsusi həssaslıqla yanaşaraq “sənətkarlıq nədir bilmək istəsən gəl məndən sən onun sirrini öyrən” söyləyirdi. Klassik ədəbiyyatın bütün görkəmli nümayəndələri, eləcə də ədəbi-nəzəri fikrin araşdırıcıları, təzkirəçilər, şərhçilər sənətkarlıq məsələlərinə müxtəlif səviyyədə münasibət bildirmişlər. Onlar tərənnümü lirik təsvir təhkiyəsinin forma və məzmun birliyi müstəvisində təhlil etmişlər. Böyük Azərbaycan şairi M.Füzuli “mənim könlüm müəllimdir, dənizdir elmim” deyir və əlavə olaraq vurğulayır ki, bunlar həm də “Allah feyzidir”. Ümumiyyətlə, yaradıcılıq, sənətkarın yaradılcı istedadı və onun imkanlılıq mənzərəsi bədii prosesin ümumi axarında ortaya çıxır. Yaradıcılıq uğurları yeni forma axtarışları ilə deyil, yeni yaradıcı istedadının imkanları çərçivəsində faktlaşır. Məsələn, XVIII əsrin görkəmli sənətkarı M.P.Vaqif yaradıcılığı ilə ilkin tanışlıq zamanı təzkirələr vurğulayırdı ki, “bu şeir deyil, üzü ağ, gözləri qara bir gözəlin zülf və rüxsarının surətidir”. Belə bir təsəvvürün formalaşması lirik tərənnümün uğurluluğu sayəsində mümkün olur, bədii nümunəni şüur hadisəsi olaraq ortaya qoyur. Hətta bunun digər tərəfində şüur mətn kimi təsəvvürü formalaşır ki, poeziyanın bədii-estetik tonikasında modelləşdirmənin səviyyəsini aşkarlayır. P.Qəlbinur yaradıcılığı bu baxımdan geniş fakturaya malik olub üfüqi və şaquli yanaşmalarda metamodel səviyyəsində özünəməxsusluqlarla, heca və sərbəst şeir ənənəsinin ümumi axarında orijinal deyim üslubları ilə səciyyələnir. Onu da əlavə

edək ki, həmin üslub müəyyənliyi yaradıcı keyfiyyəti olaraq sənətkarın bütün şeirlərində bir nümunə kimi tipikləşir. "*Əsl söz sənətkarlarının taleyi elədir ki, o istəsə də, istəməsə də ətrafındakıların, müşahidə etdiyi adamların sevincləri ilə yanaşı, dərdlərini, kədərlərini də özününküləşdirir, bu dərdləri özünün iliyinə, qanına bələyir.*" [97, s.90]. P.Qəlbinur poeziyası sənətkar münasibəti və bu münasibətin bədii ifadəsi baxımından özünəməxsus ifadə, məzmun özəllikləri ilə səciyyələnir.

"Ay bir əlçim buluddur" (1984), "Payız məktubu" (1987), "Rəngli göz yaşları" (1990), "İtmiş həsrət kimi" (1996) kitablarındakı şeirlər, eləcə də "Ulduz", "Ədəbiyyat və incəsənət", "Azərbaycan", "Azərbaycan təbiəti", "Azərbaycan qadını", "Azərbaycan gəncləri", "Kitablar aləmində", "Rezonans", "Olaylar" və s. mətbu orqanlarında çap olunmuş poetik örnəklər şairin yaradıcılığının inkişaf dinamikasını, poetik sistemin mükəmməlləşmə mənzərəsini aydınlaşdırmaq baxımından kifayət qədər ciddi mənzərə ilə faktlaşır. Burada rəngarəng mövzularda yazılmış nümunələrin forma və ifadə özünəməxsusluqları yaradıcı imkanlarının genişliyini müəyyənləşdirmək üçün əsas olur. Həm heca, həm də sərbəst vəznli şeirlərin mətn strukturu lirik təcəssümün əhatələdiyi xətlər yaradıcı axtarışlarını və orijinal düşünə bilmə bacarığını müəyyənləşdirir. Daha doğrusu, P.Qəlbinur hansısa mövzuda yazmaq istədiyi poetik örnəyin uğurlu formulasını cıza bilməsi ilə xüsusi marağa səbəb ola bilən sənətkarlardandır. "Həyatda hər şeyin – cisimlərin, əşyaların, faktların, əhvalat və hadisələrin öz məzmunu, öz forması vardır. Mürəkkəb bir struktur – bədii əsər də yalnız məzmun və forma daxilində mövcuddur. Antik yunan filosofu –Aristotelin anlamında *"Təqlid" – məzmun sadəcə predmet, "surət çıxartmaq", natura deyildir; varlığın güclü fantaziya ilə yaradılan "bədii modelidir", ona ədəbi şəxsiyyətin fikri-mənəvi zənginliyinin hopması, daxil olmasıdır. Çünki obrazın və bədii məzmunun "tikinti materialı" gerçəkliklə bərabər sənətkarın şəxsiyyətidir, emosiyaları, fikir və düşüncəsi, meyl və münasibətidir*" [45, s.123]. P.Qəlbinurun bütün düşüncələri, hiss və duyğuları, həyat fəlsəfəsi və reallığa münasibəti, mənəvi zənginlik qatları müxtəlif səviyyələrdə öz yüksək sənət prinsipləri ilə mətnə gətirilir. Bütövlükdə bu gətirilmə imkanları mahiyyət məsələsi olaraq həm də yaradıcı üslubunun spesifik sxemlərini sərgiləmək gücü ilə ciddi

məzmun daşıyır. Lirik təsvir (təcəssüm) təhkiyəsinin forma və məzmun birliyi müstəvisində P.Qəlbinur poeziyası bir sıra istiqamətdən yanaşmaları gərəkli edir.

a) sözün məna yaddaşı kontekstində bədii mətnin verdiyi informasiya;

b) mətn fenomenliyini şərtləndirən amillər və onun ümumi mənzərəsi;

c) janr məzmununun bədii mətnin bütövlüyündə funksional rolu;

ç) estetik informasiyanın fərdi, unikal, metaforik və çoxmənalılıq qatı;

d) estetik işarələnmə və müəllif paradiqmasının özünəməxsusluq kodları və s.

Bütün bunlar P.Qəlbinur poeziyasının ümumi sistemini, yaradıcı istedadının əhatələdiyi fakturanı ortaya qoyur. "Ağ qu, qara qu", "Bir uşaq ağlayır yaxınlığımda", "İlkini gözləyən gəlinlər kimi", "Sən deyirdin", "Əli Kərimə", "Yaxşı ki", "Dünya ətir gölündə", "Bu eşqlə", "Nədənsə yaşıla çalmadın axı", "Hörümçək torunda can verən cücü", "Yozulan həmişə əyri yozulub", "Səndən uzaqlarda", "Qara", "Qırmızı", "Sarı", "Bənövşəyi", "Ərəb qardaş", "Duz sarayı", "İşığın kölgəsi", "Durna qatarı", "Gecə gözlərimdə böyüyüb mənim" və s. müxtəlif illərdə yazılmış poetik nümunələr lirik təsvir müstəvisində sənətkar yanaşmasının tipik faktıdır. Məsələn, Azərbaycan poeziyasında, ədəbiyyatın şifahi və yazılı qolunda rənglərin simvolikası kifayət qədər müxtəlif rəngarəngliklərlə özünə yer alıb. Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələri intertekstuallıq müstəvisində rəng simvolikasının mahiyyətində olanlara müxtəlif səviyyələrdə aydınlıq gətirmişlər. P.Qəlbinur poeziyasında rənglərin simvolikası özünəməxsusluq və yaddaş anlamında geniş fakturası, mahiyyəti əks etdirmə imkanları, məzmun çalarlarının estetik informasiya gücü, semantik məlumatlılıq səviyyəsi və s. ilə mükəmməl təsəvvür formalaşdırır və bir növ müxtəlif səviyyələrdə yazılmış örnəklərin uğurlu davamı kimi nəzər-diqqəti cəlb edir. "Mavi" rəng timsalında dediyi fikrin poetik canlandırma texnologiyası bir növ mətn fenomenliyini diqqət önünə gətirir:

*Kəmər-kəmər daşınan odum-alovum.*
*Azərbaycan Demokratik Respublikası.*
*Hüseyin babamın könül dünyası.*
*Dəniz dediyimiz səmanın əksi.*
*Əxlaq dərsi.*

*Bəlgəli qızın, nişanlı oğlanın nəzakəti.*

*Cicim ayında qudaların söhbəti,*

*Dəmir əllərə geyilən məxmər əlcəklər.*

*Tarix boyu edilən inqilablardakı nitqlər,*

*vədlər...*

*Mehrinin gözləri, Leylalı günlərim.*

*Məscidim, minarəm, öz kitabım, öz rəngim.* [91, s.118].

Xalq yaradıcılığında rənglərin geniş məna şəbəkəsi və onların mətn simvolikasında özünü göstərən mükəmməl sistemi vardır. Atalar sözü və məsəllər, nəğmələr, bayatılar, miflər, əfsanə, rəvayət, nağıl, dastan örnəkləri və s. bunun tipik, həm də çeşidli məzmun çalarları ilə nəzər-diqqəti cəlb edir. Şaman mərasimlərində ağ şaman, qara şaman anlamının ehtiva etdiyi məzmun, nağıllarda ("Ağ atlı oğlan", "Məlikməmməd" nağılı və s.), "Kitabi-Dədə Qorqud" ("Qaradərə ağzında qadir verən, qara buğa dərisindən beşiyinin yapığı olan, acığı tutanda qara daşı kül eləyən... Qaragünə"), "Koroğlu" dastanında (Qırat, Dürat, Ağ qaya və s.), Aşıq Hüseyn Şəmkirlinin "Ağ gül, qırmızı gül", sarı gül", Aşıq Ələsgərin "Sarı köynək", xalq mərasimlərində, məsələn, Novruz" bayramında rənglərin özünün simvolikası bütün mahiyyəti ilə etnomədəni sistemdəki arxaik yaddaşa bağlanır. Ədəbiyyatın yazılı qolunda, eləcə də ayrı-ayrı görkəmli sənətkarların, məsələn, S.Mənsur, R.Rza, H.Arif və s. sənətkarların yaradıcılığında rənglərin özünəməxsus mənalandırılması vardır. H.Arif yaradıcılığında rənglərin simvolik məna çalarlarını təhlilə gətirən S.Əliyeva yazır: "*Şairin orijinallığı ondadır ki, o, bizim "möhür" vurduğumuz rənglərə tamamilə yeni baxışdan işıq salıb, onun çalarlarını üzə çıxarır. Həm də bu rəngləri bilavasitə insan həyatı ilə əlaqələndirir. H.Arifə görə hər rəngin, hər boyanın öz uğuru var. O, "rənglərdə, səslərdə yaşar dilimiz" ("Yaxşı ki, babalar varmış dünyada") deyərək rənglərlə bağlı insanın təfəkküründə oyanan anımları, assosiasiyaları üzə çıxarmağa çalışmışdır*" [34, s.25-26]. R.Rza yaradıcılığında rənglərin özünəməxsusluq simmetriyası şəbəkəli xarakteri ilə nəzər-diqqəti cəlb edir. Məsələn, qara rənglə bağlı mənalandırmada assosiativ düşüncənin özünəməxsus bir kodu faktlaşır; "qara matəm rəngidir, deyirlər, yox bu yalandır, qaldır kirpiklərini,

gözlərinlə inandır" orijinallığı bədii düşüncədəki imkanlılığı faktlaşdırır.

Ədəbiyyatşünas V.Yusifli vurğulayır ki, "*Rəsul Rzanın "Rənglər" silsiləsi ilə çağdaş Azərbaycan şeirində novatorluq meylləri daha da gücləndi. Bu silsilə, heç şübhəsiz, 60-cı illərdə araya-ərsəyə gələn bir çox istedadlı şairlərimiz üçün "şeiri belə yazarlar" qənaətini gücləndirdi*" [125]. P.Qəlbinur da məhz S.Mənsurun "Həpsi rəngdir", R.Rzanın "Rənglər" silsiləsi əsasında öz orijinal "Rəngli göz yaşları" silsiləsindən olan şeiri ilə ədəbiyyatımızı bu kontekstdə bir qədər də zənginləşdirmiş və ona öz töhfələrini vermişdir. Silsiləyə daxil olan "Qara", "Qırmızı", "Narıncı", "Sarı", "Yaşıl", "Mavi", "Göy", "Bənövşəyi", "Ağ" özlüyündə genetik yaddaşı, arxetipləri və invariant kimi məqamları aşkarlamaq baxımından informasiya vermə (verə bilmə) funksiyası ilə mühüm əhəmiyyət daşıyır.

Paratekstuallıq (yan mətnlərlə əlaqə) baxımından P.Qəlbinur şeirinin verdiyi informasiya özlüyündə orijinallıqla özünəməxsusluğun ortaqlığında mükəmməl təsəvvürə və yaradıcı mənalandırmasının imkanlarına bağlanır. Mətn informasiyası, situasiyalar arası vəziyyət, sözün məna yaddaşı, janr məzmunu özlüyündə yaradıcı təfəkkürünün imkanlılığı ilə şərtlənir. Burada ən maraqlı olan mətn imkanlılığında sənətkarın apardığı mənalandırmanın tipologiyası məsələsidir.

a) ictimai-siyasi çevrədə baş verənlər timsalında ümumiləşdirmə ("Kəmər-kəmər daşınan odum-alovum");

b) dövlət rəmzləri müstəvisində təsəvvürün milli dəyər olaraq mətnə gətirilməsi ("Azərbaycan Demokratik Respublikası");

c) tarixi-mənəvi yaddaş anlamında ("Hüseyin babamın könül dünyası");

ç) mavilik və səma anlamında ülviliyin simvollaşması ("Dəniz dediyimiz səmanın əksi"), türk düşüncə tərzində özünə yer alan maviliyin (məsələn, göytürklərdə arxaik təsəvvürün mavilik (göy) anlamında işarələdiyi məzmun (Göy Tanrı);

d) dəyər, mənəviyyat müstəvisində göy rəngin metaforik məzmunu ("əxlaq dərsi - bəlgəli qızın, nişanlı oğlanın nəzakəti") və s.

Bütün bunlar yaradıcı təsəvvüründə rəng simvolikasının nələrlə səciyyələndiyini və əksi təsəvvürdən çağdaş zamanımıza qədərki mənzərəsini aydınlaşdırır. Burada

maraqlı olan digər məqam yaradıcı axtarışlarında bu mükəmməlliyin, çeşidli təsəvvürlərin bir araya gətirilməsi, mahiyyət qatına diqqətin yönləndirilməsidir. Metatekstuallıq (yan mətnlərlə əlaqə) baxımından P.Qəlbinur yaradıcılığı mükəmməl bir təsəvvürlə şərtlənir və həm də ciddi yanamaları zəruri edir. Rənglər silsiləsində "Rəngli göz yaşları"ında "Ağ"ın işarələdiyi məzmun özlüyündə bir bütövü əks etdirmək və etdirə bilmək gücü ilə şərtlənir.

*Bir yuva...*
*Dörd yumurta.*
*Yumru-yumru xırdaca*
*Kəklik yumurtasıdı*
*Bəlkə də yanılıram.*
*...Bizim eldə kəkliyin,*
*Turacın yumurtası*
*Sınsa günah sayılır.* [91, s.123].

P.Qəlbinur yaradıcılığı bütün müstəvilərdə tarixi yaddaşa, inamlara, xalq yaddaşında olanların, dəyər səviyyəsində müəyyənləşmiş arxetiplərin hərəkətliliyinə bağlanır. Burada maraqlı cəhət yaradıcı üslubunun mövzuya, mətnə əlavə çalar qata bilmək imkanlılığıdır. Kəklik, turac yumurtası timsalında ağlığın ("ağ" rəngin) yaratdığı təsəvvür məna yaddaşına bağlanır və "bizim eldə kəkliyin, turacın yumurtası sınsa günah sayılır" qənaəti bir tabu səviyyəsində vəziyyəti ortaya qoyur. "*Paşa Qəlbinurun şeirləri istər mövzu, istərsə də forma baxımından kifayət qədər rəngarəngdir. O, istənilən mövzunu özününküləşdirməyi bacarır, hətta poeziyanın min illərdən bəri müraciət etdiyi ənənəvi predmetlərə də, yeni gözlə baxa, onların indiyə qədər diqqətdən yayınmış hansısa cəhətlərini, xüsusiyyətlərini üzə çıxara bilir*" [92, s.184]. Ümumiyyətlə, özünütəsdiq, incəsənətdə, ədəbiyyatda üslub müəyyənliyi yaradıcı üçün ən önəmli məsələdir. Bir növ yaradıcının taleyi məsələsidir. Böyük ədəbiyyat həmişə orijinallığı, yeni forma axtarışlarını deyil, yeni yaradıcı nəfəsini, insan intellektini diqqət önünə gətirir və onların sayəsində zənginləşmə keçirir. P.Qəlbinur da 60-80-ci illər ədəbiyyatı timsalında milli-mənəvi dəyərlərə, etnik sistemin müəyyənləşmiş tabularına köklənməklə ciddi uğurlara imza atdı.

Mövzu sərhədləri tanımayan şairin erudisiyası, həyat hadisələrinə münasibəti, dünya düzənində gedən proseslərin səngimək bilməyən ziqzaqları müxtəlif nümunələrdə fəal yaradıcı mövqeyi ilə özünü göstərir. İmperiya təsəvvürünün xalqlara (azlıqlara) münasibəti, işğalçılıq siyasəti, Avropanın Şərqə koloniya münasibəti, törətdiyi faciələr, eləcə də Azərbaycanın son iki yüz ildə yaşadığı faciələr müxtəlif səviyyələrdə P.Qəlbinur poeziyasında əksini tapır. "Vətən", "Xəyalımda yallı getdi dağlarımız", "İki min ildir", "Gilətağda bir ev qalıb", "Yaxşı ki", "Şuşanın dağları", "Azadlıq – deyirəm", "Şəhid ruhlarıdı göylərim, Allah", "On üç yaşında şəhidin ürəyindən çıxarılan gülləylə söhbət", "Azadlıq", "Yağaq Qarabağa" və s. şeirlər lirik təsvir (tərənnüm) təhkiyyəsinin forma və məzmun birliyi kontekstində ciddi sənət əsəri təsəvvürünü formalaşdırır. Poeziya, ümumiyyətlə, bədii sənət öz missiyası və daxili mahiyyəti, ruhani düşüncə kodları ilə etnosu və insan oğlunu ifadəyə (daha çox dərkə) köklənməklə həmişə axtarışdadı. Bu konkret hansısa zaman və ya hansısa şəxsiyyət səviyyəsində olan məsələ deyildir, bütünlükdə ədəbiyyatın, sənətin özünün mahiyyətində dayanan məsələdir. Ümumiyyətlə, "*hər bir dövr poeziyanın təkrarsızlığını təyin edən mühüm xüsusiyyətlər mövcuddur. Bu özünəməxsus cəhətlər əksərən lirik qəhrəman və bədii ideal kimi mühüm estetik kateqoriyaların mahiyyətində əks edir. Deməli, konkret bir dövr poeziyanın qeyri-fəlsəfi əsasları və estetik pafosunu bədii konflikt və inikas üsulunun xarakterinə əsasən müəyyən etmək olar*" [78, s.328]. P.Qəlbinur poeziyası da məhz öz inikas üsullarının spesifikası və ümumi xarakteri ilə, estetik pafosun müəyyənləşdirdiyi düşüncə sxemləri ilə 80-ci illərin ümumi axarına bağlanır. Mühitə, dünyada baş verənlərə münasibət də bir yaradıcı mövqeyi olaraq özünəməxsus sənətkar üslubunun zənginliyində reallaşır. Məsələn, 70-ci illərin sonunda yazılmış "Ərəb qardaş" şeiri bunun klassik nümunəsi olaraq səciyyəvidir. Onu da əlavə edək ki, 60-80-ci illər poeziyasında bu tip şeirlərin yazılmasının klassik ənənəsi vardır. P.Qəlbinur da məhz bu ənənədə baş verənlərə özünün yaradıcı mövqeyini bildirməklə uğurlu bir poetik örnəyə imza atır.

*Ərəb qardaş,*
*Qara neftin damarında*

*fəvvarəylə axmayırsa,*

*Buxçaların ev küncündə*

*Oğulların xanə-xanə*

*"şükür" – deyib tıxcayırsa,*

*demək, hələ kölləsən sən.*

*O yellənən çuxan var ha,*

*qeyrətindən od almırsa,*

*Hər doğulan çağan var ha,*

*"Qorqudun"dan ad almırsa,*

*demək, hələ kölləsən sən!* [82, s.37-38].

Göründüyü kimi, kifayət qədər ciddi və həm də zəngin faktura ilə səciyyələnən bu poetik örnək ərəblərin və ərəb dünyasının başına gələnlər timsalında zəngin bir faktura ilə müəyyənləşir. Onu da əlavə edək ki, bu tip nümunələr hansısa zaman kəsiklərinin hadisəsi deyil, bütünlükdə bütün zamanların nümunəsi olmaq gücü ilə şərtlənir. İmperiyaların məkrli siyasətinə və xalqların yaşadığı acı taleyə münasibəti sərgiləyir. 1979-cu ildə yazılmış bu poetik örnək bu gün mahiyyəti daha dərindən dərk etmək və vəziyyəti, eləcə də siyasi proseslərin gedişini, müasir mənzərəsini aydınlaşdırmaq və yaradıcı mövqeyinin nə qədər həssas olduğunu ortaya qoymaq baxımından əvəzsizdi. Ümumiyyətlə, P.Qəlbinur yaradıcılığının xarakterik və səciyyəvi görünən tərəflərindən birisi mətn informasiyası baxımından bir neçə qatlı olması ilə faktlaşır. Məsələn, yuxarıda "Göy qurşağı" silsiləsindən yazdığı "Mavi" və "Ağ" rənglə bağlı örnəkdən nümunə verdik və burada canlandırmanın üsul və yolları təkcə xalq yaddaşında olan simvolikanı əhatələməklə yekunlaşmadı. Sənətkar yanaşmalarında onun alt qatında etnosu ictimai, siyasi, fəlsəfi və s. baxımdan ehtiva edən istiqamətlər özünə yer alır. Oxucu burada düşünməli olur və yaradıcının nələrə diqqəti yönləndirdiyini aydınlaşdırmaq özü bir tərəf kimi zərurətə çevrilir. "Kəmər-kəmər daşınan odum-alovum" deyən şair xalqın zəngin maddi sərvətinin talanmasına və eyni zamanda başına gətirilənlərin nə qədər acı olmasına diqqəti yönəldir. Tarixi və günümüzün reallığı olan bu faktlara həm də yaradıcı mövqeyidir. P.Qəlbinur poeziyası mahiyyət baxımından çoxqatlılığı ilə diqqəti cəlb edən poeziyadır. Eləcə də

“Ağ” rəng simvolikası ilə əlaqəli düşüncələrini yazıya gətirəndə “Bir yuva... Dörd yumurta” ifadəsini təsadüfi işlətmir  və mahiyyət əlavəsində, “bizim eldə kəkliyin, turacın yumurtası sınsa günah sayılır” qənaətində aydınlaşır. Bu gün dünya düzənində gedən proseslər, müharibələr, savaşlar, imperiya maraqları, xalqların yaşadığı faciələr və s. hamısı bu mənalandırmanın alt qatlarında  özünü göstərir. Şairin göz bəbəyi kimi sevdiyi Vətən, onun parça-parça olunmuş torpaqları, Qarabağ savaşı, insanların dağıdılmış, viran qoyulmuş evi-ocağı timsalında geniş bir mənzərəni əhatələyir.

“Ərəb qardaş” şeiri poetik sistemin mükəmməlliyi və məna aydınlığı, şair qənaətinin həssaslığı baxımından bir çağırışdır. Baş verənlərə və gedən prosesin mahiyyətinə diqqətin yönləndirilməsidir. Şeirin adı və hər misranın sərgilədiyi məzmun mahiyyətə, “demək sən hələ kölədən” təsəvvürünə bağlanır. “Qara neftin damarında fəvvarəylə axmayırsa” deyən şair baş verənlər timsalında “şükür” deməyin təhlükəsini diqqət önünə gətirir və mənəviyyat, mənlik düşüncəsi baxımından münasibət bildirib qiymətləndirmələr aparır, bir növ özünəqayıdışa səsləyir. Xalq şairi H.Arif vurğulayırdı ki, “bir anın içində şair çəkəni, bir yerə yığılıb illər çəkməyib” deyirdi. P.Qəlbinur da təfəkkür aydınlığı, yaradıcı mövqeyi ilə baş verənlərə, dünyanın pozulmuş nizamına misra, şeir səviyyəsində münasibətini bildirir. Böyük mədəniyyətin yaradıcısı olan ərəblərin çağdaş vəziyyətdə durumunu (bəlkə də daha çox acınacaqlı vəziyyətini) bədii mətnə gətirir və “köləlik” düşüncəsindən xilas olmağa çağırır. K.V.Nərimanoğlu P.Qəlbinur poeziyasını təhlil edərkən vurğulayır: “*Əlbəttə ki, şeir heyrətdən yaranıb. Heyrət içində qalan  minlərlə insandan biri bu heyrəti sözə çevirib. Bütün şeirlərində heyrətlənən Paşa Qəlbinur o qədər aydın görünür ki, istər-istəməz razılaşırsan ki, yazılmış və yazılacaq şeirlərində Paşanın öz rəsmi var: qayğılı, ağrılı, sevincli, kədərli, ümidli,  ümidsiz, sirli, müəmmalı, tanış və naməlum. Bütün bu əlamətlər dəyişən Paşanın yaratdığı dəyişməz Paşa Qəlbinurdur*” [102, s.187]. Doğrudan da sənətkar özünəməxsusluğunda lirik təsvir (təcəssüm) təhkiyəsinin forma və məzmun uğurluluğu yaradıcı imkanlarına hesablanır və bədii nümunənin alınıb-alınmaması qənaətini  formalaşdırır. P.Qəlbinur yaradıcılığı isə fikrin ifadə üsulları, düşüncə aydınlığı və orijinal çatdırma texnologiyaları ilə nəzər-diqqəti cəlb edir. Bütün bunlar isə bədii mətn daxilindəki

forma və məzmun tamlığında sözün məna yaddaşının semantik mənalandırmadan əlavə estetik informasiya gücünü də ortaya qoyur. Məsələn, “Ərəb qardaş” şeirindəki müraciət bir tərəfdən (və daha çox) ərəblərə ünvanlanırsa, digər istiqamətdə demokratiya adı ilə xalqlara bəlalar gətirən, sərvətlərini (maddi və mədəni) dünyanın müxtəlif məmləkətlərinə daşıyan imperialist ölkələrə etiraz, mövqe nümayişidir. Bir növ xalqların mədəniyyətinə, tarixinə, varlığına müdaxilə kimi təqdim olunan bu poetik örnək lirik təsvirdə lazımi qədər unikal bir mənzərəni sərgiləyir. Əsas məsələ isə “demək sən kölləsən” deyimində köləliyin ehtiva olunan məzmununun çatdırılmasına yönlənmişdir. Tənqidçi Ş.Salmanov yazır: “*Axtarış hissi onun şeirlərinin bütün ünsürlərində - mövzuda, ideyada, əhvali-ruhiyyədə və o cümlədən strukturda, formada, poetik ifadədə sezilir, duyulur. Paşa müasir nəzm mədəniyyətinə can atır və onu mənimsəyir. Belə ki, onun şeirlərində XX əsr Azərbaycan şeir məktəbinin bir çox dəyərlərinə rast gəlmək mümkündür*” [97, s.187]. Doğrudan da, bədii düşüncə bütün kontekstlərdə unikallığı, mətn fenomenliyini, sözün məna yaddaşını, janr məzmununu bir bütöv olaraq ortaya qoyur. Bu isə bir tərəfdən istedada və deyimin uğurlu formalarını tapmağa hesablanırsa, digər istiqamətdə yaradıcı axtarışlarına bağlanır. Hər bir bədii nümunə uğurlu deyimin sayəsində özünün unikallığını faktlaşdırır və bunlar isə yaradıcı imkanları ilə bağlı olan məsələ kimi ciddi mahiyyət daşıyır.

Ədəbi tənqidin ayrı-ayrı nümayəndələrinin P.Qəlbinur poeziyasına həssaslığının qaynağında yaradıcı istedadının özünəməxsusluqlarına olan maraq dayanır. B.Nəbiyev, B.Budaqov, M.İsmayıl, V.Quliyev, Ş.Salmanov, Qabil, K.V.Nərimanoğlu, R.Rövşən, A.Məmmədov, V.Yusifli, Ə.Əsgərli, V.Soltanlı, A.Kəngərli, F.Sadıq, B.Azəroğlu, M.Qasımlı, V.Bayatlı, Ə.Tanrıverdi, Ə.Ələkbərli və başqaları öz təhlil yazılarında P.Qəlbinur yaradıcılığının genetik sistemini, onun ifadə üsullarının özünəməxsusluqlarını, forma və məzmun uğurluluğu timsalında formalaşdırdığı təsəvvürü aydınlaşdırmağa çalışmışlar. Sənətkarın zəngin bədii-elmi təfəkkürü, dövrün ictimai-siyasi düzənində baş verənlərə həssaslığı və təfəkkür aydınlığı bütün şeirlərində mükəmməl bir informasiyaya köklənməsinə zəmin yaradır. Şairin şeir fəlsəfəsinin üfüqi və şaquli spektrləri mətləbin çatdırılması və

dolğun ifadəsi üçün nəyin harada və necə sıralanması üçün əsas olur. Sözün mətn mühitində yeri və funksiyası onun semantik imkanlarını sıralayır. P.Qəlbinur da mətn fenomenliyi baxımından bunlara yüksək səviyyədə önəm verməsi ilə sayılıb seçilən istedad sahiblərindəndir. Ona görə də hər bir bədii nümunə müxtəlifliklərin örnəyi olaraq yaradıcı haqqında təsəvvür formalaşdırır və bir növ sənətkar obrazının çeşidli rəsmlərini cızır.

*Qurd kimi yalnızam, şir kimi güclü!*
*Sən mənim yoluma çıxa bilməzsən.*
*Sən deyən deyiləm; sən olammaram* -
*Pul kimi hamının xoşuna gələm...*

*Mənim bir az – gülnən yaxınlığım var,*
*Mənim bir az –aynan yaxınlığım var.*
*Ayın nurundan çox üzdə həyam var,*
*Kürün suyundan çox ilham payım var...* [90].

P.Qəlbinur yaradıcılığında lirik "mən", yaradıcı şəxsiyyəti müxtəlif vəziyyətlərdə və müxtəlif şəraitlərdə öz üslubuna sədaqətliliyi ilə, xarakter keyfiyyətlərinin müəyyənləşmiş prinsipləri ilə nəzər-diqqəti cəlb edir. Demək olar, bütün şeirlərində nəzərə çarpan yaradıcı dünyagörüşü və onun özünəməxsus həyat fəlsəfəsi müqəddəs dəyərlərə, etnomədəni sistemin mənlik, əxlaq və davranış konsepsiyasına yüklənir. Daha doğrusu, hər bir poetik örnəkdə yaradıcı şəxsiyyətinin təqdimi və onun nitq janrı səviyyəsində açılması prosesi vardır. Yuxarıdakı nümunədə də bu bir tərəf kimi özünü göstərir və həm də hansısa ovqatın, münasibətin əks-sədası olaraq cavablandırma təsiri bağışlayır. Burada lirik təsvir mənlə tərəf müqabili arasında açılır və situasiya, situasiya daxili vəziyyətlərdə müxtəlif tipoloji yanaşma müstəvisində bir yaradıcı, şəxsiyyət kimi kimliyini, "mən kiməm" sualını cavablandırır. Mətnin verdiyi informasiya mükəmməl bir biçimdə forma və məzmun birliyinin nümayişi ilə diqqət önünə gəlir və uğurlu bir tipoloji yanaşma ilə faktlaşır.

a) etnik yaddaşda (qurdun) yalquzağın formalaşdırdığı təsəvvür;

b) güc, qüvvət anlamında şir müstəvisində aparılan müqayisə;

c) dünyagirlik anlamında “sən deyən deyiləm, sən olammaram” müqayisəsi;

ç) güllə və ayla aparılan paralelizmin mahiyyət kontekstində ehtiva etdiyi məzmun;

d) əxlaq, mənəviyyat, dəyər anlamında “ayın nurundan çox üzdə həyam var” deyiminin estetik informasiya kodu və s.

Bütün bunlar P.Qəlbinurun özü ilə bağlı həqiqi və metaforik səviyyədə verdiyi bilgi və yaratmağa çalışdığı təsəvvürdür. Paralelizmlərə söykənən bu mətn öz mahiyyətində həm də uğurlu bir sistemi formalaşdırır, lirik “mən”in daxili mahiyyətinin kimlik formulunu cızmaqla yanaşı, həm də unikal bir ədəbiyyat olma təsəvvürü ilə nəzər-diqqəti cəlb edir.

Zəngin yaradıcı təfəkkürü ilə maraq doğuran sənətkarın bənzətmələri, özünü güllə yaxınlıq timsalında “mənim bir az gülnən yaxınlığım var” müqayisəsi qəlb, duyğu, düşüncə, hiss baxımından uğurlu təsir bağışlayır. Gül ədəbiyyatda, eləcə də etnik təsəvvürdə incəlik, zəriflik, kövrəklik və gözəllik kimi dəyərləri simvolizə edir. P.Qəlbinur da bütün bunlardan çıxış edərək xarakter xüsusiyyətlərini, şair qəlbinin kövrəklik və zərifliyini diqqət önünə gətirərək maraqlı bir müqayisə ilə şeirə əlavə ovqat gətirir. Bununla da kifayətlənməyən sənətkar əlavə edir ki, “mənim bir az aynan yaxınlığım var” və bu yaxınlığın simvolikası folklorda lazımı qədər geniş və şəbəkəli təsəvvürlə canlanır. P.Qəlbinur da məhz xalq təsəvvüründə olanlardan çıxış etməklə bu qənaətə gəlir və maraqlı tərzdə əlavə edir ki, “ayın nurundan çox üzdə həyam var”. Bu işarələnmə isə etnik sistemdə əxlaq, tərbiyə, mənəviyyat məsələlərini özündə ehtiva etmək potensiyası ilə şairin xarakter keyfiyyətlərini diqqət önünə gətirir. Son olaraq Tanrının verdiyi istedad payı anlamında Kürlə özü arasında müqayisə aparır və “Kürün suyundan çox ilham payım var” söyləyir. Kürün isə xalq təsəvvüründə adından tutmuş (coşqunluq, kükrəmək və s.) etimoloji mahiyyətinə qədər ciddi bir rəngarənglik özünə yer alır. Bütün bunlar P.Qəlbinurun gül, Ay, Kür timsalında apardığı paralelizmlərdir ki, şeirə məna çalarlarından əlavə, eyni zamanda bədiiliyi artıran ovqat səviyyəsinə qalxır. “*Poeziya nəzəriyyəsinin ən aktual problemlərinin aydınlaşdırılması, estetik məğzinin aşkarlanması həmişə lirik düşüncənin qüvvəsinin təsdiqinə xidmət göstərmişdir. Xüsusən şeir dilinə xas olan*

*ümdə əlamətlər üzə çıxarılmaqla onun digər ədəbi növ və janrlardan fərqli keyfiyyətlərini, oxşar tərəflərini, ümumilik təşkil edən ifadə vasitələrini müəyyənləşdirmək olduqca vacib problemlərdəndir*" [68, s.11]. Lirik təsvir özlüyündə lirik düşüncənin bütün cizgilərini əks etdirmək istəyi və məqsədi ilə poetik sıralanmanın unikallığına köklənir. P.Qəlbinur poeziyası da məhz bu xüsusiyyəti ilə eyni funksiyanı, fövqəlsubyektivlik səviyyəsində mətn//mətn, mətn//subyekt məsələlərinin uğurluluğunu bir məqsəd olaraq qarşıya qoyur.

Konstruktiv yanaşmalarda P.Qəlbinur poeziyası modelləşdirmənin spesifik xüsusiyyətlərini özündə əks etdirmə baxımından daha çox təhlil faktına çevrilir. Bu isə özlüyündə 60-80-ci illər poeziyasının ümumi ruhuna bağlanma, milli ənənənin metamodel, metadil funksiyasına köklənmə təsəvvüründən qaynaqlanır. Çüki şeirin poetexnoloji strukturu onun həm də məzmun yaratma funksiyaları ilə şərtlənir və janrın məzmun yaddaşı bədii mətnin bütövlüyünün təminatçısı təsəvvürünə bağlanır. Ona görə də Paşa Qəlbinur poeziyası heca və sərbəst vəzndə yazdığı şeirlərinin hər birisində forma seçiminin uğurluluğu ilə diqqəti cəlb edir. Üslub özlüyündə həm də mətn daxilində məna rənglərinin çalarlığı və təqdim etmə məqamlarının üstünlüyü ilə diqqət önünə gəlir. Mətn daxilində sözün emosional rəngi semantik amil səviyyəsində P.Qəlbinur yaradıcılığına əlavə çalar qatır. Bədii söz mətnin hüdudları daxilində imkanları ilə orata çıxa bilir (bədii-estetik və fəlsəfi mahiyyəti ilə), daha doğrusu söz mətn daxilində kontekstin işarələdiyi məzmunla qadirliyini faktlaşdırır. "Duz saray", "Gedər", "Ayda ilan olsaydı", "Kölgələr", "Daşı daşa döyüb dünya", "Kimdir günahkar", "Ana südüm", "Anan gözləyir səni", "Bu gecə", "Bu evin havası çox tanış gəlir", "Mənim əllərimin işıq sürməsi", "Bu yolların işığı nəm, gözü nəm", "Yol gəlir işıq", "Qızılgül kolunun dibində lalə" və s. şeirlər sözün daxili hərarəti, möcüzəli təbiəti ilə mətn daxilində, sintaktik sıralanmanın məzmun yaratma funksiyasında ortaya çıxır.

*Evdə qalmış qızdır – qartıb qarıyan,*
*Yanmış əlim kimi suda zarıyan.*
*Mənim Araz arzum,*
*Araz murazım*

*Gözümdə qalma sən, gözümdə qalma.*

*Üç alma düşəydi göydən, üç alma,*
*Bir üzü qırmızı, bir üzü sarı.*
*Biri Araz boyu axıb gedəydi*
*Sarala-sarala,*
*Gözümün köksümdə çaxıb gedəydi!..* [91, s.148].

“Üç alma” şeirindən verdiyimiz bu nümunə xalq təfəkküründə, xüsusilə nağıllarımızda sonluq formulu kimi qəlibləşmiş bir modelin mətnə gətirilməsi sayəsində reallaşmışdır. P.Qəlbinur poeziyasının enerji qaynaqları sırasında xalq ədəbiyyatından gələn mövzu, motiv, əhvalat və ifadə formullarının özünəməxsusluğu əvvəldən axıra qədər bir tərəf kimi özünü göstərir. Onu da əlavə edək ki, bu təkcə P.Qəlbinur poeziyası üçün xarakterik məsələ olmayıb, bütünlükdə dünya ədəbiyyatının ən görkəmli şəxsiyyətləri timsalında örnəkdir. Onlar dünya şöhrətli əsərlərini xalq ədəbiyyatının zənginliklərindən istifadə etməklə əbədiyaşarlıq qazanmışlar. P.Qəlbinur da müxtəlif səviyyələrdə nəğmə, bayatı, əfsanə, rəvayət, nağıl, dastan formullarından yararlanmaqla əsərinə əlavə ahəngdarlıq gətirmişdir. Xalq mərasimlərindən, aşıq yaradıcılığından gələn notlar da lazımi qədər özünə yer alır. Ancaq bunların poetik örnəklərdə görünüşü və işləklik məqamı yerinə və mahiyyətinə görə fərqlənir və bəzən üst qatda özünü göstərməsi ilə nəzər-diqqəti cəlb edirsə, bəzən alt qatda bədii mətnin ümumi ruhunda olması ilə səciyyəvilik qazanır. “Üç alma” şeiri də bu baxımdan xarakterik nümunə olub, nağıllarımızdan gələn və onun ümumi bəzəyinə çevrilən “üç alma” formuluna hesablanmışdır. Rəqəmlərin simvolikasına hesablanan “üç” mətn daxilində bütünlükdə Azərbaycanın problemlərinə bağlanır. Tipoloji yanaşmalarda təzadlı situasiyaların sərgilədiyi məzmun şairin vətən, yurd həsrətini, bölünmüş Azərbaycanın ağrılarını ifadəyə köklənmişdir. Azərbaycan xalqının yaddaşında iki yüz illik bir Araz həsrəti, Araz dərdi vardır. Bu vətən torpaqlarının Rusiya və İran şovinizmi səviyyəsində işğalından boy qaldırmışdır. Baş verənlər timsalında isə Araz Azərbaycan poeziyasında, ədəbi-bədii düşüncəsində bir mövzu olaraq qəlibləşmişdir. Bunun siyasi, ictimai və mədəni-

fəlsəfi təfsilatı bütün incəlikləri ilə etnosun yaddaş hadisəsi kimi qəlibləşmişdir. "Arazı ayırdılar, qum ilə doyurdular" anlamında xalq bayatılarından P.Qəlbinur poeziyasına qədər geniş bir sferanı əhatələyən bu mövzu həm də müxtəlif təhlillərin problemi olaraq ədəbi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur.

"Üç alma"nın gözləntiləri və "üç almadan gözləntilərimiz çox olub, milli-mənəvi düşüncəmizin, uşaq xəyallarımızın (həm də arzularımızın) simvolu olaraq onun sirrində-sehrində çox-çox uzaqlara getmişik. P.Qəlbinur da buradan çıxış edərək yaddaşın arxaik hərəkətliliyində siyasi ovqat qatmaqla diqqəti baş verən tarixə yönəldir. Tipoloji yanaşmalar ("evdə qalmış qızdır – qartıb qarıyan", "yanmış əlim kimi suda zarıyan") şairin təfəkkür mexanizminin orijinallıq sistemini ortaya qoyur. Çünki "*həyatın tipik və səciyyəvi bir hadisəsi, maraq doğuran əhvalat – inikasın obyekti hələ məzmun deyildir. Sənətkar faktla, əhvalatla, istedadla, yaradıcı hünərlə münasib keyfiyyətlər aşılayır. Məzmun onun düşüncəsində, xəyal və təxəyyülündə təşəkkül tapır, süzgəcdən keçir, bədii-estetik və etik istiqamət alır, insana həzz verir, qəlbə və şüura, duyğuya və dünyagörüşünə təsir göstərir*" [45, s.125-126]. P.Qəlbinur yaradıcılığı bu kontekstdə geniş imkanlılıqla, yaradıcı dünyagörüşünün zənginliyi və fikir aydınlığı, mövzunu mənimsəmə, onu yaşama baxımından, eləcə də ifadə üsullarının ən mükəmməl variantını ortaya qoyma cəhətdən tipikdir. Ona görə də P.Qəlbinur şeirləri bir nitq, düşüncə janrı olaraq təbii axarı ilə öz ifadə üsullarını və ona uyğun formasını cıza bilmək imkanı baxımından nəzər-diqqəti cəlb edir. Xalqın tarixi problemləri kontekstində sənətkar mövzunu özünəməxsus üsul və vasitələrlə təqdim etmə yolunu tutur və xalq ədəbiyyatından gələn "göydən üç alma düşdü" qəlibləşmiş formulunu bir arzulama tonunda təqdim edir. Mətn informasiyası "üç" və "alma" anlamları etnik təsəvvürdə dərin kök salmış kutsallıqlara bağlanır "üç"ün uğurluluq simvolikası ilə "alma"nın mifoloji yaddaşda bərqərar olmuş semantik işarələnmə qatları (dünya ağacı, buta funksiyası, xoşbəxtlik gətirmə məzmunu) çox-çox dərinliklərə bağlanır. Nağılların, dastanların mahiyyətini, məzmun və struktur qatlarını bəzəyən bir formul kimi geniş şəbəkəni əhatə etmə imkanları ilə xarakterizə olunur. P.Qəlbinur da şeirlərində paradiqmatik səviyyənin ümumi arxitektonik mənzərəsində "mənim Araz arzum, Araz murazım gözümdə qalma sən" arzusuna,

istəyinə köklənir. “Üç alma” isə onun simvolikasına, etnik təsəvvürün çox dərin qatlarında kök salmış yaddaş qəliblərinə və onun estetik informasiya qavrayışına yüklənir.

Paşa Qəlbinur poeziyası rəngarəngliklər və onun özünəməxsus ifadəliklərinə yüklü olan poeziyadır. Hər bir misra öz fikir yükü, mətn unikallığı, sıralanmada cızdığı mənzərə ilə bütöv bir mahiyyəti ehtiva edə bilmək gücü ilə müəyyənlik qazanır. Yaradıcı özünəməxsusluğunda canlandırmanın (mənalandırmanın) poetik mükəmməllik qatı bütün vəziyyətlərdə müvafiq olan forma mükəmməlliyini orijinal məzmun paralelizmində ortaya qoya bilir. İstedadlı sənətkarın yaradıcılığında obrazlaşmanın özünəməxsusluq piramidası bütünlükdə Vətəni, müqqəddəslik timsalında olanları əhatələmək kriteriyasına bağlanır. Necə ki, “Üç alma” timsalında mahiyyətində “Araz”ın bir termin olaraq təsəvvür qatının sərgilədiyi Vətən göz önünə gəlir və onun həsrəti, ağrıları, sevgisi səviyyəsində şüur mətn kimi özünə mətn içində yer alır. Və mətn tipi olaraq öz məna qatında bu sıradan olanları İrəvanı, Zəngəzuru, Göyçəni, Borçalını, Dərbəndi, Təbrizi, Qaradağı, Qarabağı, Şuşanı, Xocalını və s. bir tarix,  mədəniyyət və mənlik faktı olaraq diqqət önünə gətirir. Koroğlunun Çənlibel timsalında müəyyənləşdirdiyi müqəddəsliyə və “şah da gəlsə Çənlibelə qoymaram” təsəvvürünə bağlanır.

*Ay ürəyim, o görünməz ilğımların*
*Vətənin hər boz daşını yalamasa,*
*Sinəsindən şırım keçən buğda dəni*
*Torpaq altda qaranlığa göz açanda*
*Öz qanınla sulamasan*
*Nə mən varam, nə sən varsan.* [91, s.139].

“Xəyalımda yallı getdi dağlarımız” şeirindən verdiyimiz bu nümunə özlüyündə “Vətən”, “Ərəb qardaş”, “Gilətağda bir ev qalıb”, “Yaxşı ki”, “Şuşanın dağları”, “Yağaq Qarabağa” və s. tipli şeirlər sisliləsindən olub  yurd, torpaq, vətən sevgisinə köklənir. “Ciyərimin cadar-cadar təşnəsindən axıb getdin Araz” deyən şair bu təşnənin üfüqi və şaquli mənzərəsində baş verənlərə münasibətini və eyni zamanda pozulmuş nizama yaradıcı mövqeyini ortaya qoyur. “Nə mən varam, nə sən varsan”

fəlsəfəsinin adi (rasional) məntiqi etnosun mövcudluq təsəvvürünü ortaya qoymaq və bunların üzərində köklənmək duyğusunu faktlaşdırır. "Kitabi-Dədə Qorqud"dan, "Manas"dan, "Alpamış"dan, "Oğuz Kağan"dan, "Corabatır"dan", "Edige"dən, "Koroğlu"dan, "Qaçaq Nəbi"dən, "Qaçaq Kərəm"dən gələn arxaik təsəvvürün mövcudluq kodunu müəyyənləşdirir. Çünki P.Qəlbinur təkcə şair, vətəndaş kimi məsələlərə yanaşmaqla kifayətlənmir, həm də yaşadığı zaman çərçivəsində baş verənlərin şahidi olaraq düşünür və göz bəbəyi kimi sevdiyi vətəni timsalında baş verənləri bir yaradıcı olaraq diqqət önünə gətirir, eyni zamanda öz vətəndaş mövqeyini sərgiləməklə xalqı birliyə, mübarizliyə, müqəddəslik ruhunun daşınışına kökləyir.

P.Qəlbinur poeziyası bütün məzmun və ifadə qatları ilə vətənin müqəddəsliyinin təcəssümünə köklənir və lirik təcəssümün əhatələdiyi sistem fövqəlzamanlılıq və fövqəlməkanlılıq kriteriyalarında mükəmməl bir mahiyyət kəsb edir. Şairin ürəyinə müraciətlə "ay ürəyim, o görünməz ilğımların Vətənin hər boz daşını yalamasa nə mən varam, nə sən varsan" deyiminin kəsb etdiyi məzmunun ünvanı bütünlükdə xalqdır. Çünki burada yaxın və uzaq tarixin faktlarının sıralanması və onun real görüntüləri vizual olaraq sıralanır. Etnik mövcudluğun yeganə və əsas səbəbinin milli təəssübkeşliyə, mənlik duyğusunun ayaq üstə olmasına bağlandığını bir aydınlıqla ortaya qoyur.

P.Qəlbinur poeziyasında sözün sıralanma çəkisi, onun kəsb etdiyi məzmun, zəngin, həm də mürəkkəb daxili aləminin yaradıcı düşüncəsində məqamı əsas olan kimi diqqət önünə gəlir. Çünki fonopoetik və morfopoetik sıralanma misra, bənd və bütünlükdə şeir səviyyəsində nitq janrı olaraq məzmunyaradıcı funksiya ilə çıxış edir. Söz mətn daxilində yerinə və məqamına görə əlavə mənalar qazanır, estetik işarəvi kod olaraq semantik məna çalarlarına yüklənir. P.Qəlbinur poeziyası forma və məzmun paralelizmində elə uğurlu bir yaradıcılıq mexanizmi ilə şərtlənir ki, onun hamısı lirik təsvir (təqdim) təhkiyəsinin xronotoplarını bir yerə gətirə bilmək gücü ilə faktlaşır. Hər şeir vətən və xalq sevgisinin (sevdasının) nümunəsi olaraq həm də xalq ruhunun yaşarlığı düşüncəsini ortaya qoyur. Burada vətən göylərinin müqəddəslik simvolikası, dağları, daşları, insanları, məişəti, qayğıları, inam və etiqadları,

əsrarəngiz mənzərəsi bir bütöv olaraq canlanır. Daha doğrusu, olduğundan daha gözəl duyğusuna köklənir. Xalq dilinin işıqlı və şəffaf ecazkarlıqları onun bir istiqamətdə təbiətində, dağları, dərələri, bulaqları, flora və faunasını təqdimdə nəzərə çarpırsa, digər müstəvidə etnosun zəngin mənəviyyat və mədəniyyət fəlsəfəsinə bağlanır. Şair dünyanın sərt, mürəkkəb üzündə "nə mən varam, nə sən varsan" fəlsəfəsinin mahiyyətini etnik şüurun müəyyənləşdirdiyi özgürlük (mövcudluq) təsəvvüründən çıxış etməklə təkrarən diqqət önünə gətirir. Çünki zamanın bu boz, həm də kifayət qədər sərt amansızlıqları şairin yaddaşından sadə, uyumuş şəkildə keçmir, əksinə hay-harayla, dünyanın özü böyüklüyündə xofla, ehtiyatlanmalarla ötüşür.

*Fatma xala, yığ tumanın balağını,*
*Yastı-yastı yeri, görüm.*
*Bax, indicə*
*Xəyalımda yallı getdi dağlarımız,*
*Araz boyu,*
*Tikan-tikan məftilləri*
*Xıncım-xıncım elədi.* [91, s.148].

Mətn nümunəsi olaraq bu poetik örnəyin modelləşdirdiyi qat təkcə forma (və ya məzmun) baxımından unikal görünmür. Burada bir bütöv olaraq ortaqlığı şərtləndirən və onu əsas edən ciddi bir paradiqmatik səviyyə özünə yer alır. Polifonik bir sistemlə səciyyələnən bu nümunə mətn semantikası kontekstində özündə həm də semantik modelləşmənin özünəməxsusluq tipi ilə səciyyələnir. Araz// bölünmüş vətən timsalında dağların yallı getməsinin metaforik məzmunu pozulmuş nizamın bərpasına köklənir. "Fatma xala", "yallı getmə", "yastı-yastı yeri"mə, "dağlar" və s. yaddaşın etnik kodu olaraq özündə hərəkətliliklə, məna tutumunun bütövlüyü ilə səciyyələnir. Bunların hamısı isə sənətkar qayəsinin aydınlığı və lirik təsvir təhkiyəsinin forma//məzmun ortaqlığında unikallığı müəyyənləşdirir. Müəllif paradiqması burada həm də semiotik bir işarələnməni diqqət önünə gətirir, daha doğrusu gerçəkliyin sadə inikası olmaması haqda düşünməni zəruriləşdirir. Burada bütün təsvirlər (təcəssümlər) təfəkkürdəki psixoloji modellərin, işarələr sisteminin ehtiva etdiyi

yaddaşa köklənir. Yaradıcının qavrayış və təqdim modeli, təfəkkür kodu, gerçəkliyi anlama və bədii mətndə reallaşdırma üsulu etnik yaddaş üzərində köklənməklə bütövləşir. Bütün bunlar timsalında P.Qəlbinur poeziyasının imkanları forma və məzmun çeşidliliyi ilə ciddi bir keyfiyyət göstəricisi ilə nikbin təsəvvür formalaşdırır.

Paşa Qəlbinur poeziyasının xarakterik xüsusiyyətlərindən biri şeiriyyətin mətnə yüksək ustalıqla hopdurulması məsələsidir. Ümumiyyətlə, musiqililik, ritm və intonasiyadakı rəvanlıq Azərbaycan dilinin təbiəti ilə bağlı məsələdir. Poetik fikir sənətkarın poetikləşdirməyə çalışdığı, daha doğrusu mövzuya çevirdiyi örnəyin canına, qanına hopdurulma imkanları ilə yüksək sənət nümunəsi statusu qazanır. Burada dil komponentlərinin maksimum səviyyədə bir-birinə uyğunlaşdırılması, bütün xüsusiyyətləri ilə poetikləşdirmə vasitəsi olaraq diqqət önündə saxlanması bir yaradıcılıq keyfiyyəti kimi özünü göstərir. "Çörək kimi bişir söz", "Kəndimizə gedəndə", "Kölgələr", "Doluxsunmuş sükut", "Dağlar", "Bənövşə", "Duz saray", "Dünya", "Hələ nə yaşamışam ki", "Nənəm", "Anam qaynanaya qız tapşıranda", "Ağla", "Anam gözləyir səni", "Bu gecə", "Oyna", Gözlərimə baxın", "Gözəl qız", "Gecikmiş məhəbbət" və s. çeşidli poetik örnəklər təkcə forma baxımından deyil, həm də məzmun rəngarəngllikləri ilə yaradıcı təfəkkürünün zənginliyini ortaya qoyur. Yaradıcı təfəkkürünün estetik bütövlüyü timsalında orijinal ədəbiyyat nümunəsi olaraq müsbət təsəvvür formalaşdırır.

P.Qəlbinur şeirləri və bütövlükdə misra, bənd səviyyəsində özünü göstərən nitq etiketləri hamısı fikrin poetikliyi düşüncəsinə yüklənir. Uğurlu şeir həm də uğurlu yaradıcılıq prosesinin yekunudur. Sənətkarın bədii düşüncəsini, hissini, duyğusunu uzun müddət ayaq üstə saxlayan fikir və qənaətlərinin geniş dil imkanları ilə reallaşmış sonluğudur. Ümumiyyətlə, şeirin bir mədəniyyət faktı olaraq sərgilədiyi mənzərə xalq dilinin zənginliyinə bağlanır. Yaradıcı taleyində dil və onun imkanlılığı elə bir möhtəşəmlik faktıdır ki, onunla hesablaşmadan, poetik təbiətinə həssaslıq göstərmədən hansısa uğura imza atmaq mümkün deyildir. Şairin dil imkanları onun birbaşa istedadının meyarları prinsipini faktlaşdırır. "*Söz sənətkarı tərəfindən müəyyən janr, üslub və ya bədii cərəyan seçilməsi, həmçinin onun oxucu ilə ünsiyyət qurduğu dil seçimidir. Bu dil həmin dövrün, mədəniyyətin, xalqın, bəşəriyyətin*

*olduqca mürəkkəb özünəməxsusluğunu, bədii varlığını əks etdirir*” [133, s.27]. P.Qəlbinur 80-ci illərin sənət prinsiplərində bir qaynaq olaraq tarixi ənənəyə köklənməklə həm də ondan yaradıcı şəkildə bəhrələnməsi ilə xarakterizə olunan sənətkarlardandır. Zəngin mövzu məndəricəsi ilə səciyyələnən yaradıcılığı təbiətin füsunkar gözəlliyini, sevgi və məhəbbət duyğularını, yurd, məhəbbət vurğunluğunu, dövrün ictimai-siyasi münasibətlərini əks etdirmək imkanları ilə xüsusi diqqəti cəlb edir.

Müxtəlif illərdə çap olunmuş kitablarında ("Ay bir əlçim buluddur", "Payız məktubu", "Rəngli göz yaşları", "İtmiş həsrət kimi", "Ağlıma gələnlər başıma gəldi" və s.) toplanan poetik örnəklər onun yaradıcılıq dinamikasını izləmək və sənətkarlıq səviyyəsini aydınlaşdırmaq üçün geniş imkanlar yaradır. Bütün bunların nəticəsidir ki, ədəbi-nəzəri fikrin görkəmli nümayəndələri P.Qəlbinur yaradıcılığına elə ilk şeirlərindən həssaslıq göstərmiş və müxtəlif mülahizələr yürütmək məqsədində olmuşlar. B.Nəbiyev, M.İsmayıl, B.Budaqov, M.Seyidov, Y.Səmədoğlu, A.Abdulla, M.Yaqub, A.Məmmədov, M.Aslan, Z.Yaqub, V.Səmədoğlu, V.Yusifli, Ə.Əsgərli, K.V.Nərimanoğlu, Ə.Tanrıverdi və başqaları müxtəlif kontekstdə mülahizələr yürütmüş, mühit səviyyəsində təhlilini vermişlər. Orijinal düşüncə və özünəməxsus modelləşdirmə xüsusiyyəti ilə səciyyələnən P.Qəlbinur poeziyası lirik təcəssüm üsulunun yüksək sənətkarlıq prinsiplərinə köklənməsi baxımından həm də forma və məzmun mükəmməlliyi ilə şərtlənir. Ümumiyyətlə, "*Azərbaycan poeziyası heç zaman şeir qıtlığından əziyyət çəkməmişdir, "şeir axını" bütün dövrlər üçün səciyyəvi olmuşdur, lakin poetik yaddaşlarda ancaq keyfiyyət dəyişmələrinə məruz qalan nümunələr qalmışdır. Milli və dünya poeziyası kontekstində təhlil edilib araşdırılarkən poetik nəfəsinin səmimiliyi və saflığı ilə seçilən əsərlər diqqət mərkəzində saxlanmışdır*" [71, s.9]. P.Qəlbinur yaradıcılığını da səciyyələndirən məhz bu keyfiyyət göstəriciləri olmuş, şeirlərindəki özünəməxsus nitq etiketləri, estetik işarələnmənin müəyyənlik prinsipləri, mətn daxilində sözlərin leksik-semantik qatlarının genişlənmə mənzərəsi, üslub mükəmməlliyi bir tərəf olaraq diqqət mərkəzində saxlanmışdır.

*Çanaq çeşmə, Zərdəxanı,*

*Qazmayurdda Sarı çeşmə,*

*Qaya bulaq, Göy Gədiyim...*

*Nəbi gəzən yerlər hanı?*

*Oğlannıca, Palantökən,*

*Tulumdurmaz, Qanlı qaya,*

*Qızıl qaya, Ağıllı yurd...*

*Adınıza qurban olum,*

*Ətirindən*

*Bihuş oldum adınızın.* [91, s.160].

Zəngin mətn fakturası, özünəməxsus ifadə üsulları ilə səciyyələnən P.Qəlbinur poeziyası tarixi yaddaşı, etnoqrafik xronikanı, toponimik mənzərəni əhatələmək və onların ehtiva etdiyi mənzərəni bir mədəniyyət kodu olaraq sıralamaq baxımından əvəzsizdir. Qədim türk yurdlarının şeir mətnində sıralanması və ona olan həssas münasibət bir örnək olaraq yaradıcı təsəvvüründə nümunə kimi bütövləşir. Arxaik təsəvvürdə hansısa tarixi olaya, etnik yaddaşın müəyyənləşdirdiyi törə düşüncəsinə köklənən bu sıralanma mətn informasiyasında daha dərin qatlara diqqət yetirməyin gərəkliyini düşünmək üçün əsas olur. Bütün bunlar P.Qəlbinur poeziyasının mövzu zənginliyində yaradıcı imkanlarının çoxqatlığını və modelləşdirmə gücünü, mətn bütövlüyündə formalaşdırdığı təsəvvürü ortaya qoyur.

## 3.2. Təsvir və ifadə vasitələrinin fərdiliyi

Paşa Qəlbinur poeziyasında (əlbəttə buraya bədi-publisistik məqalələrini, esselərini və s. də əlavə etmək olar) araşdırılmalı problemlərdən biri özünəməxsusluq kontekstində sənətkarlıq məsələləridir. 80-ci illər ədəbiyyatında xüsusi dəst-xətti, üslubu və fərdi yazı maneraları ilə diqqəti cəlb edən ədib həmişə ədəbi-nəzəri fikrin marağında olmuş və müxtəlif səpkili yazıların yazılması üçün əsaslı şərait yaratmışdır. Bunlar bir tərəfdən 60-cı illərdən başlayan ədəbiyyatın yeni tendensiyası ilə əlaqələnirsə, digər tərəfdən ədibin yüksək təfəkkür intelleksiyasına bağlanır. Çünki bədii yaradıcılıq elə mürəkkəb və həm də əsrarəngizliklərlə dolu

düşüncə sahəsidir ki, orada hər bir boyanın, ştrixin, nəfəsin öz məqamı və mətn daxilində bütövlüyü təmin etmə funksiyası var. P.Qəlbinur düşüncəsinin sərhədləri, onun həkim, alim, şair, yazıçı, publisist kimi çoxşaxəli yaradıcılığı mahiyyət məsələsi səviyyəsində üslub və özünəməxsusluq tərəflərinə diqqət yetirməyi gərəkli edir. Lirik "mən"in daxili dramatizmi, onun poeziya mühitində yaşadığı psixologizm həm də bir tərəf olaraq estetik fəallıq üçün əsas olur. Bunlar isə özlüyündə təbii prosesdə bütün postulatları ilə bədii emosiyalılığın güclənməsi üçün ciddi şərait yaradır. Son olaraq ədəbi-nəzəri fikrin "fərdi intellektual üslub"un yaranması üçün faktlaşır.

Məlum olduğu kimi, "*bədii dil tədricən ümumxalq dili əsasında yaranır. Bu dil özünün leksik, onomastik və frazeoloji zənginliyini, qrammatik qanunlarını, ayrı-ayrı söz, ifadə və ibarələrini, bütövlükdə bədii-estetik qüdrətini, gözəllik, zəriflik, ifadəlik və sadəliyini ümumxalq dilindən alır. Canlı danışıq dili və ədəbi dil bədii dilə, bədii dil də bunlara təsir göstərir. Ümumxalq dilinin layları, qol və şaxələri əlaqədə, vəhdətdə inkişaf edir*" [45, s.125-166]. P.Qəlbinur poeziyası da bütünlükdə ruhu və qaynağı etibarilə canlı xalq dilinin zənginliklərinə köklənməklə, onun morfopoetik, fonopoetik və sintaktik sistemindən yüksək səviyyədə yararlanmaqla mükəmməl təsəvvür formalaşdırır. Paradiqmatik və sintaktik səviyyənin uğurluluğunda bütövlük qazanan bu çeşidli şeir örnəkləri struktural mükəmməlliyin nümunəsi olaraq janr paradiqmalarında da özünəməxsus formul sıralanması ilə gərəkli mahiyyət daşıyır. Çünki onun ayrı-ayrı şeirlərində nəzərə çarpan nitq etiketləri bütövlükdə bədii mətnin uğurluluq əmsalını müəyyənləşdirən fakt olaraq mühüm əhəmiyyət kəsb edir. Sənətkarın uğurluluğunun meyarı hansısa yeni janr ampluası ilə deyil, yeni yaradıcı insanın təmsil etdiyi (gətirdiyi) bədiilik intelleksiyası ilə müəyyənləşir.

Dilin emosiyası, səslərin və sözlərin assosiasiyası, mətn daxilindəki hərəkətliliyi, kəsb etdiyi məzmun, ümumi intonasiya axarı, fikrin ekspressivliyi, sintaktik fiqurların (bədii təsvir və ifadə vasitələrinin) mətn daxilində qazandığı məna çalarları P.Qəlbinur poeziyasında bir tərəf kimi aparıcılığı, daha doğrusu yaradıcı özünəməxsusluğunu müəyyənləşdirir. İlk mətbu əsərindən ("Gözləyir") son şeirlər kitabına ("Ağlıma gələnlər başıma gəldi") qədər olanların sərgilədiyi məzmun bütün aspektləri ilə özünəməxsusluğa, təsvir və ifadə vasitələrinin fərdiliyi prinsipinə

bağlanır. Məcazlar sisteminin zənginliyində bədii təsvir vasitələri (epitet, təşbeh, metafora, metonimiya, simvol, sinekdoxa) bədii düşüncənin qan daşıyan damarları funksiyasında çıxış edir. Sintaktik fiqurlar (bədii ifadə vasitələri) estetik işarələnmə kodu olaraq mətnin simmetrik düzümündə mühüm funksiya ilə müəyyənləşir. Bunlar eyni zamanda ritm yaradıcı funksiyası ilə təsiredici amilə çevrilir. Fonoloji təkrarlar, eləcə də səs ahənginin özünəməxsus qanunauyğunluğu poetik texnoloji fakt olaraq tənzimləyicilik vəzifəsini yerinə yetirir. Hətta "*elə hallar olur ki, eyni söz bir vəziyyətdə tamamilə məntiq, digər şəraitdə isə özünəxas emosional məzmun ifadə edir*" [141, s.191]. P.Qəlbinur poeziyası bu baxımdan yüksək sənətkarlıq nümunəsi olaraq çeşidli faktura ilə müəyyənləşir. Onun şeirlərində sözün ifadəlilik imkanları, ekspressivlik mənzərəsi mahiyyət məsələsi olaraq mükəmməl imkanlılıqla bədii mətnə əlavə ovqat qatır. Yəni mətn daxilində söz müxtəlif məzmunyaratma funksiyası ilə poetik fiqur səviyyəsinə yüksəlir.

*Lalədən həyalı, göydən çətirli,*
*Pəmbə buludlardan həyalı dağlar,*
*Nanədən, yarpızdan, baldan ətirli,*
*Durna qatarına nişanlı dağlar* [88, s.76].

Uğurlu bənzətmələr, poetik fiqurların özünəməxsus çalarları üzərində nizamlanan mətn Şuşanın dağları timsalında mükəmməl bir lövhəni faktlaşdırır. "Lalədən həyalı", "göydən çətirli", "nanədən ətirli", "yarpızdan ətirli", "baldan ətirli" müqayisə predmeti olaraq mətnin ümumi ahənginə əlavə çalar qatır. "Pənbə bulud", "nişanlı dağ" bədii təyinlik funksiyasında şeirin bütövlüyünü təmin edən və ona yardımçı olan bir funksiyaya yüklənir. "*Səslərin simmetrik düzümü və bununla bilavasitə bağlı olan sintaktik paralellik müəyyən ritmə əsaslanır. Misraların təşkilində ritm elə bir təşkiledici amilə çevrilir ki, onun sayəsində mətni təşkil edən dil materialları ahəngdar konstruksiya çərçivəsində misralaşır. Fonoloji təkrarlar özünü həm ənənəvi olaraq alliterasiya və assonans şəklində, həm də müxtəlif səs kompleksinin təkrarlanması yolu ilə göstərir*" [68, s.213]. Şeir dilinin bütün elementləri forma və məzmun bağlantılarında mükəmməlliyin təmininə və yaradıcı düşüncəsinin aydınlığına köklənməklə poetik bütövlüyün alınıb-alınmaması

məsələsini faktlaşdırır.

Fonoloji təkrarlar, morfopoetik sistem, sintaktik sıralanma əslində estetik kateqoriya olub yaradıcı imkanlarına bağlanır və onun uğurluluğu sayəsində mətn özü haqqında təsəvvür formalaşdırır. Şeir ritmi və onun sərgilədiyi məzmun yaradıcı istedadını və ondan istifadə imkanlarını bir tərəf kimi daha qabarıq diqqət önünə gətirməyi zəruri edir. Çünki ritm, mətn intonasiyası və bütünlükdə arxitektonik sistem şeirin konstruksiyasında bir bütövü şərtləndirməklə həm də məzmun yaratmanın vasitəsi olaraq özünü göstərir. Yaradıcı həssaslığı sözlə rəftardan məna uyğunluğuna qədər bütün olanlara diqqət yetirməklə poetik mükəmməlliyin yaradılmasına həssaslıq göstərirlər. P.Qəlbinur yaradıcılığı sözün məna yaddaşı, mətn fenomenliyi, janr məzmunu ilə özlüyündə mahiyyəti ortaya qoymaq məqsədinə köklənir. Nədən yazmasından asılı olmayaraq bütün müstəvilərdə o, öz yaradıcılıq konsepsiyasına sədaqət göstərir və dil gözəlliyi ilə məzmunu bəzəmək yolunu tutur. “Uzaqlar yaxın olur”, “Ürəyə dünyanın işığı sığar”, “Dağlar kəpənəkdi bu yay günündə” , “Ay gözlərim”, “Elegiya”, “Nar”, “Təzyiq”, “Ağ çiçək kimi”, “Uzaqdan uzağa”, “Daşı daşa döyüb dünya”, “Bu eşqlə”, “Çay axır”, “Günləri bir həsrət muncuğu kimi” və s. çeşidli poetik örnəklərin yaratdığı mənzərə təkcə məzmun baxımından deyil, həm də struktur kontekstində deyimin uğurlu variantlarının tapılması ilə səciyyələnir.

*Baxışıma tablamayan qız kimi,*
*Bilmirəm baxırlar hayana dağlar.*
*Yayın nəfəsindən al bir üz kimi,*
*Lalədən qızarıb boyana dağlar.*

*Gəlindir, duvağı başındakı qar,*
*Yaz gəlib, elə bil toyudur ağlar,*
*Sellər ruh oynadan bir cəngi çalar,*
*Qayalar qoşular oyuna dağlar* [79].

P.Qəlbinurun ilk şeirlərindən olan bu poetik örnək özünəməxsus ifadə üsulları ilə orijinal təsəvvür formalaşdırır. Burada mətn informasiyası sözün məna yaddaşı ilə

işini yekunlaşdırmır və fonopoetik, morfopoetik, sintaktik fiqurların işləklik məqamları ilə yaradıcı fövqəlsubyektivliyini müəyyənləşdirən fakta çevirir və bir növ yaradıcı kodu olaraq səciyyələnir. Dağların "baxışıma tablamayan qız kimi" təqdim etməsi orijinal bir bənzətmə nümunəsi olaraq diqqəti cəlb edir. P.Qəlbinur poeziyasını monoqrafik səviyyədə təhlil edən Ə.Əsgərli maraqlı bir məqama toxunaraq yazır: "*P.Qəlbinur poeziyasında obrazlaşma iki səviyyəlidir:*

*1) Duyğu, qavrayış, təsəvvür – hissi idrakla obrazlaşdırma. Bu çoxluq, üstünlük təşkil edir.*

*2) Anlayış, mühakimə, əqli nəticə - məntiqi idrakla obrazlaşma.*

*Lakin belə bölgü əlbəttə, bir şərtilikdir. Əslində belə obrazlaşdırma arasında sədd qoymaq düzgün deyil. P.Qəlbinur duyğu və qavrayışlarında ifadə olunan obraz hissidir, fəlsəfi dərkində ifadə olunan obraz məntiq və mühakiməlidir*" [37, s.97-98]. Doğrudan da, bədii nümunənin poetik qavrayışı elə özlüyündə məsələlərə bir istiqamət olaraq bu müstəvidə yanaşmağı gərəkli edir. Onu da əlavə edək ki, ədibin yaradıcılığında obrazlaşmanın reallaşması və bütün qövsləri ilə ortaya qoyduğu məzmun hissi və məntiqi idrakın ortaqlığında bir dəyər kimi özünü göstərir və onların ayrılıqda mətn səviyyəsində təhlilini aparmağın özünün çətinliyi yaranır. Bu bir tərəfdən poeziyanın özünün təbiəti, geneoloji xüsusiyyəti ilə bağlı olan məsələ kimi diqqət önünə gəlir. Lakin onun digər qatı yaradıcı axtarışlarında anlayış və mühakimə səviyyəsində əqli qavramanın təzahürü kimi özünü göstərir.

P.Qəlbinur yaradıcılığının bütün parametrlərdə modernləşdirici xüsusiyyəti, dekonstruksiyalı xarakteri müxtəlif yönümlərlə şərtlənir. Ona görə də hissi idrak və məntiqi idrak bir düşüncə tipi olaraq sənətkarın yaradıcılığında çoxşaxəliliyi və çoxqatlılığı ortaya qoyur. Dağlar ətrafında aparılan təcəssüm mətn boyu misra və bənd səviyyəsində orijinal düşüncəyə yüklənməklə nitq etiketlərinin, janr məzmununun prinsipləri ilə uğurluluq qazanır. M.P.Vaqif XVIII əsrdə "lalə tək qızarmaq üz qaydasıdır" deməklə orijinal bir deyim nümunəsi ortaya qoymuşdur. P.Qəlbinur XX əsrin 80-ci illər poeziyası timsalında tamamilə fərqli kontekstdə "Dağlar" rədifli şeir yazır və orada özünəməxsus hissi duyğular axarında "yayın nəfəsindən al bir üz kimi, lalədən qızarıb boyana dağlar" söyləyir. Ədəbiyyatın şifahi

və yazılı qolunda dağlara həsr olunmuş müxtəlif səpkili, hətta sənətkarlıq baxımından kifayət qədər maraqlı örnəklər vardır. Aşıq yaradıcılığı bu baxımdan əvəzsizliyi və zənginliyi ilə səciyyələnir. Bir-birindən maraqlı dağlara ünvanlanmış poetik nümunələr təbiətin əsrarəngizliyi, dağların formalaşdırdığı təsəvvür, hissi və əqli düşüncədə sərgilədiyi məzmunla həmişə böyük marağa səbəb olmuşdur. P.Qəlbinurun ilk şeirləri sırasında yer alan "Dağlar" qoşması bu ənənənin davamı və həm də estetik informasiya qatının özünəməxsusluğu, semantik təfsilatları ilə orijinal təsəvvür formalaşdırır. "Yayın istisində al bir üz kimi qızarma"nın özünəməxsusluq səviyyəsi bənzətmə timsalında "lalədən qızarıb boyana dağlar" istəyinə köklənir.

Misra yükündə aparılan paralelizmlər öz orijinallığı və yaradıcı bənzətmələrinin spesifikası ilə bədiilik faktı olaraq söz sıralanmasında ahəng, intonasiya və onun yaratdığı səs dalğaları sintaktik fiqurların uğurluluğu ilə əlavə bütövlük qazanır. Ədəbi-nəzəri fikir söz təkrarları ilə yanaşı, həm də şeirin ümumi axarında faktlaşan paralelizmləri şeir vəzninin əsası kimi təqdim edirlər. Məlum olduğu kimi, "*emosiya təkrarın canıdır, təkrar isə nitqin ritmik təşkilinin canıdır*" [142, s.148]. P.Qəlbinur poeziyasının bədii sistemi, onun mükəmməllik düsturu emosiyanın yüksək yaddaş intelleksiyasını ifadə edə bilmək gücü ilə şərtlənir. Çünki mətn boyu onun yaratdığı təkrar dalğaları ritmikliyin təminatçısı funksiyası ilə bütövləşməklə mətn daxilində bir tamlıq funksiyasını yerinə yetirir. Xalq şeirinin ümumi ənənələrinə köklənən sənətkar dil faktlarından və xalq düşüncəsindəki əsrarəngiz özünəməxsusluqlardan yararlanmaqla uğurlu bənzətmələr sayəsində orijinal bir poetik örnəyi ədəbiyyatımıza təqdim edir. Məsələn, "sellər ruh oynadan bir cəngi çalar" deyimindəki çoxqatlılıq sel//cəngi müstəvisində uğurlu bir bənzətmə tipini ortaya qoymaqla həm də metaforik xarakterliliyi diqqət önünə gətirir. Məlum olduğu kimi, "Cəngi" döyüş havası olub ozanların, aşıqların musiqisində mükəmməl bir "Cəngi havaları" silsiləsi ilə faktlaşır. Sellərin coşub-daşması, kükrəməsi ilə xalqın qəhrəmanlıq tarixindəki örnəklər arasında aparılan paralellik həm də dağlar timsalında yeni bir təsəvvürü ortaya qoyur. Sellərin kükrəməsi timsalında ruhun coşması ilə "qayalar qoşular oyuna dağlar" deməsi arasındakı müvazilik orijinal bir təsəvvürlə mətn daxilində yaradıcı tapıntısı kimi nəzər-diqqəti cəlb edir. Cəngi havasına oynamaq insana aid olduğu halda həmin

xüsusiyyətin qayaların üzərinə köçürülməsi ilə metaforik məzmun kəsb edir. Söz təkrarları, sintaktik paralellər şeirin ümumi axarında aparıcı funksiya daşıması ilə uğurluluğu müəyyənləşdirir. Çünki "*ritm, vəzn və melodiya təbiətdə və insan əməyində mövcuddur və müvafiq olaraq öz ifadəsini dildə tapmışdır*" [126, s.47]. Şeirin onurğa sütununu təşkil edən ritm, vəzn, intonasiya çərçivəsində P.Qəlbinurun yaratdığı mənzərə dil imkanları ilə reallaşır. Dilin zənginlik imkanlarından, sintaktik fiqurların yüksək poetiklik şəbəkəsindən yararlanmaqla bədii mətnin mükəmməlliyini təmin etmişdir.

P.Qəlbinur poeziyasının strukturu, dil mükəmməlliyi onun məzmunyaratma funksiyası ilə yanaşı, həm də məzmunu açmaq duyğusuna köklənməsi xarakteri ilə səciyyələnir. Ənənəvi üslubiyyatın müəyyənləşdirdiyi sintaktik fiqurlar sırasında bədii təsvir vasitələrinin (epitet, bənzətmə, metonimiya, metafota, sinekdoxa, simvol), bədii ifadə vasitələlərinin (bədii sual, təzad, təkrir, mübaliğə, inversiya, kinayə) müstəsna yeri vardır. Onların mətn daxilində sərgilədiyi məzmun sənətkarın yaradıcı imkanlarının müəyyənliyi üçün əsas olur. Ədəbi-nəzəri fikrin bütün görkəmli nümayəndələri onları məzmun yaratma funksiyası ilə konkret sənətkarların yaradıcılığından çıxış etməklə təhlilə gətirmiş və ənənəvi üsullar içərisində yerinin əzəldən ucalıq olduğunu xüsusi olaraq vurğulamışlar. Məsələn, "Duz saray" şeirində Naxçıvan Duz mədəni haqqında öz təəssüratlarını bölüşən şair məcazlardan yararlanmaqla şeirə əlavə ovqat qatmışdır.

*Səni*
*quzu kimi*
*yalayam gərək*
*Təki dünənimdən danış, sarayım.*
*Kimlərin burnundan gəlib duz-çörək,*
*Bağır!*
*Qulaqları deşsin harayın* [81].

Göründüyü kimi, zəngin obrazlaşdırma funksiyasına köklənən bu poetik nümunə məna çalarları və ifadə üsullarının özünəməxsusluq müstəvisində yaradıcı imkanlarını ortaya qoymaqla faktlaşır. Burada sintaktik fiqurların mətn mühitindəki

funksiyası daha çox poetikliyin təminedicisi düşüncəsinə köklənirsə, digər tərəfdən mənayaratmada oynadığı rolla geniş imkanlar qazanır. Sənətkar sintaktik fiqurların imkanlılığı ilə elə gizli məqamları işarələyir ki, o potensial uğurluluğu hansısa formada ifadə etməyin özü bir problem kimi görünə bilər. Ona görə də yuxarıdakı nümunədə duz saraya müraciət edib "səni quzu kimi yalayam gərək" deməklə maraqlı bir bənzətmə aparır və bənzəyən, bənzədilən, bənzətmə qoşması və bənzətmə əlaməti çərçivəsində özünü göstərən orijinallıq mətn daxilində şeirə əlavə poetiklik, məzmun çalarlığı gətirir. Daha doğrusu, poetik fiqur olaraq məzmunyaratmanın komponentinə çevrilir. Burada lirik "mən" bənzəyən, quzu bənzədilən, kimi qoşma, bənzətmə əlaməti isə "yalamaq"dır. Bütün bunların özünəməxsusluğu və orijinallığı şairin xalq dilində işlək olan bir ifadənin mətn daxilində və poetik örnəyin orijinallığında işlədə bilmək bacarığıdır.

Paşa Qəlbinur yaradıcılığında poetik leksikanın obrazyaratma funksiyası sintaktik fiqurların əlahiddə imkanlığı çərçivəsində geniş mahiyyət kəsb edir. Bədii təsvir və ifadə vasitələri özlüyündə təbiət etibarı ilə şeirin bütövlüyünün, mükəmməl bədii nümunəyə çevrilməsinin əsas komponentlərindən biri kimi mətn daxilində xüsusi statusa yüklənir. Əlbəttə burada bütün məsələlər yaradıcı düşüncəsinin imkanlılıq, estetik işarələnməni düzgün aparmaq və məzmun yaratmada sintaktik səviyyəni hansı səviyyədə nizamlaya bilməsi məsələsinə bağlanır. "Təki dünənimdən danış, sarayım" deyimi özünün metaforik xarakterliliyi ilə poetik-leksikanın zənginləşmə nümunəsi olaraq şeirə əlavə çalar gətirir. Məlum olduğu kimi, danışmaq insanlara məxsus keyfiyyətdir, şair olanlar timsalında "kimlərin burnundan gəlib duz-çörək" məsələsini bir örnək, ibrət dərsi olaraq duz sarayına "dünənimdən danış"-deyir. Əlavə olaraq, "duz saray" müraciəti ilə maraqlı bir epitet yaradır və onunla şeirin bədii-estetik qatını bir qədər də gücləndirir. K.V.Nərimanoğlu yaradıcı özünəməxsusluğu kontekstində vurğulayır ki, *"Azərbaycan şeirində öz forma fərdiliyini ortaya qoymaq olduqca çətindir. Bu çətinliyə baxmayaraq, Paşa Qəlbinur Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Bayatlı Odər, Sabir Rüstəmxanlı, Rüstəm Behrudi sözünün yanında omuz-omuza dayana bilən, bədii sözün, çətin, ağır sınağına tablaşan söz deyə bilir və o sözün arxasında şəxsiyyəti ilə dayana bilir.*

*Paşanın poeziyası incə eyhamla sərt həqiqətin, müdrik düşüncə ilə lirik-psixoloji ovqatın kəsişdiyi məqamın şeiridir*" [104, s.188]. Çünki P.Qəlbinurun poeziyası mühitin qaynarlığında özünəməxsusluğu ilə ortaya çıxan və bütün simpatiyası ilə orijinallığa köklənən, yaradıcı istedadını təqdim edə bilmək gücü ilə görünə bilən poeziyadır. Ayrı-ayrı şeirlərin misra yükü, obrazlı düşünə bilmək imkanları, yüksək sənətkar intelleksiyası bir keyfiyyət kimi dinamikliklə faktlaşır. Məsələn, yuxarıda nümunə verdiyimiz "Duz saray" şeiri sintaktik fiqurların şəbəkəliliyi, "məcazi, danışa, məcazi gülə" keyfiyyəti, məcazların sıralanmasında hər bir ifadənin yeri və məqamı mətnin uğurluluğuna, sənətkar imkanlarına bağlanır. Baş verənlər, olacaqlar, tarix anlamında şair "bağır, qulaqları deşsin harayın" deməklə insanlara məxsus haqsızlıq, ədalətsizlik məkanında "bağırmaq", "hay-haray" salmaq vəziyyətini duz sarayın üzərinə köçürməklə bədii mətnə metaforik bir keyfiyyət gətirir. Göründüyü kimi, burada mətnin verdiyi informasiya sosial sferada, eləcə də ictimai-siyasi mühitdə baş verənlər baxımından tarixin keşməkeşli dönəmlərinə diqqət yetirir və "duz"un xalq təsəvvüründə "halallıq", "bərəkət" funksiyasını diqqət önünə gətirməklə tarix anlamında olanlara diqqəti yönəldir və eyni zamanda ibrət faktı olaraq mətnə gətirir.

Sintaktik fiqurlar bədii düşüncənin elə qanadlı ifadə formuludur ki, onunla böyük-böyük mətləbləri, səhifələr boyu təqdim olacaq fikri bir ştrix, ifadə halında yerinə qoymaq və daha təsirli mühit yaratmaq mümkündür. Sözün məcazlaşdırılması və onun bir üslubi keyfiyyət səviyyəsinə qaldırılması heç şübhəsiz yaradıcı imkanlarına, sənətkarın obrazlı təfəkkür intelleksiyasına bağlanır. Söz duyumu, orijinal düşünmə və ifadə bacarığı bir keyfiyyət olaraq P.Qəlbinur poeziyasında müxtəlifliklərlə müşahidə olunur. Burada əlbəttə sözün qüdrəti, əzəmətlilik məqamı, daxili enerjisinin ortaya qoyula bilməsi imkanları, yaradıcının potensial gücü kimi məsələlər diqqət önünə gəlir. Sözün mətn daxilindəki işləklik məqamı, daha doğrusu yeri, nominativ mənasının ifadəlilik vəziyyətindən əlavə məcazlaşmadan sonrakı qazandığı məzmun yaradıcı istedadını, bədii-estetik informasiya gücünü müəyyənləşdirir. Məlum olduğu kimi, "*söz bədii mətndə fikir və düşüncədir, hiss və həyəcandır, niyyətin sosial münasibət və meylin mahiyyətini açan, varlığı*

*özünəməxsusluğu ilə göstərən vasitədir. Yazıçı xalq dilinin zənginliklərindən – atalar sözlərindən, ibarə, məsəl və idiomatik ifadələrdən, təkmənalı leksik vahidlərdən istifadə edir, yaradıcılıq prosesində onun özü təsirli aforizmlər yaradır*" [45, s.184-185].

P.Qəlbinur yaradıcılığında sözün imkanlılığı çoxqatlı və geniş xarakterli olması ilə mətn daxilində bütün parametrləri ilə açılır, onun məna qatı şeirin bədiilik sistemində əlavə məna qazanma gücü ilə açılır. Bədii təsvir və ifadə vasitələrinin çeşidliliyində yaradıcı istedadı sözün leksik-semantik məna qatına çalar qatma gücü ilə ifadəlilik imkanlarını bir qədər də genişləndirmiş olur. Sintaktik fiqurlar öz semantik funksiyasından asılı olaraq mətndə yaradıcı imkanlarını bütün qövsləri ilə ortaya qoya bilmək gücündə görünür. "Ürəyə dünyanın işığı sığar", "Gülür qarpız", "Quduzluq virusu", "İlkini gözləyən gəlinlər kimi", "Bir uşaq ağlayır yaxınlığımda", "Gecə gözlərimdə böyüyüb mənim", "İşığın kölgəsi", "Bu gecə qanımda işıq sayrışır", "Ağac kötüyündə tale yazılar", "Səndən uzaqlarda" və s. çeşidli poetik örnəklərin dil sənətkarlığı, yüksək ifadəlilik məqamları misranın fikir yükündə, obrazlılıq müstəvisində yaradıcı təfəkkürünü ortaya qoymaq xüsusiyyəti ilə ciddi təsəvvür formalaşdırır. P.Qəlbinur poeziyasının sənət keyfiyyətini, bədii təsvir və ifadə vasitələrinin mətn daxilində işləklik dərəcəsini, hərəkətlilik imkanlarını bir sənətkar üslubu səviyyəsində ortaya qoyur.

*Göylərin ahıydı narın əsən meh,*
*Alaqaranlıqda bir qızılgülün*
*Qara qönçəsində şeh gülümsədi.*
*Qanıma çiləndi gül təbəssümü*
*Ürəyim bir udum bulaq istədi* [91, s.153].

Bədii mətn poetik leksikanın elə mükəmməl yaddaş örnəkləri ilə əhatələnir ki, bunların hər birisi misra, bənd səviyyəsində məzmunyaratma funksiyası, şeirin unikallıq səviyyəsinin mükəmməlliyi ilə bütövlüyə yardımçı olur. Şeir dilinin atributları sayılan sadəlik və aydınlıq obrazlılıq müstəvisində elə çalarları özündə ehtiva edir ki, onların hər birisi etnik təsəvvürün daha dərin qatlarını və yaddaş imkanlarını əhatələmək funksiyası ilə şərtlənir. Burada narın əsən mehin göylərin

ahına bənzədilməsi özlüyündə bədii mətnə poetiklik əlavə edir və P.Qəlbinur qavrayışının imkanlarını sərgiləyir. "Narın meh", "qara qönçə" sadə məcaz kimi fikrin misra yükünə, poetikliyin təmininə geniş imkanlar yaradır. Şeirin poetik kontekstində şairin hiss-həyəcanları, duyğu və düşüncələri sanki qanad açır və yaradıcı qəlbinin pulslarının səsi eşidilməsi kimi təsəvvür formalaşdırır. "Günlərin bir günü" şeirindən verdiyimiz bu nümunə şairin hissi qavrayışından estetik duyumuna qədər bütün nə varsa özünəməxsus obrazlaşmalarla səciyyələnir. Məsələn, "alaqaranlıqda bir qızılgülün qara qönçəsində şeh gülümsədi" deyimi obrazlılığın yaratdığı mühit səviyyəsində uğurlu bir canlandırma üsulu ilə səciyyələnir. Burada şairin sintaktik fiqurlardan uğurlu istifadəsi sayəsində "şeh gülümsədi" deyimi metaforik xarakterliliyi ilə orijinal səciyyə daşıyır. Şeirin sonrakı bəndləri də bu müstəvidə mənalandırmanın özünəməxsus üsul və elementləri ilə nəzər-diqqəti cəlb edir. "Duman köynəyini soyunmuşdu ay" misrasında "duman köynək", "gözümün içində bir salxım söyüd" misrasında "salxım söyüd" ənənəvi üslubun yaratdığı mənzərədə epitetin poetik canlandırmada əvəzsizliyini düşünməyə əsas verir. "*Spesifik xüsusiyyətlərə malik olan şeir dili, məlumdur ki, bədii dildir, obrazlı təfəkkürün məhsuludur. Odur ki, bədii dilin bütün elementlərini, birinci növbədə obrazlılığını əks etdirir. Onun başqa nitq formalarından, hər şeydən öncə nəsr və dramaturgiya dilindən fərqləndirici tərəfləri mövcuddur ki, bu da janrın poetik texnikasından asılı meydana gəlir*" [68, s.67]. Bədii təsvir vasitələri (epitet, təşbih, metafora, metanimiya, sinekdoxa, simvol) və bədii ifadə vasitələri (bədii sual, təzad, mübaliğə, epifora, anafora, inversiya, kinayə) bir bütöv olaraq spesifik xüsusiyyətlərə malik şeir dili üçün daha geniş imkanlılıqla səciyyələnir. Mətnin ümumi axarında bədii fiqurlar, çoxmənalı sözlər və söz sistemləri, məcazlar semantik mənaya təsir göstərir və fikrin obrazlılığı üçün əsas olur. Leksik üslubun zənginlik kateqoriyaları yaradıcı imkanlarının genişliyi ilə əlavə məzmun kəsb edir və nitq janrlarının sayəsində yeni-yeni çalarlar qazanır. Ədəbi-nəzəri fikrin bütün görkəmli nümayəndələri sintaktik fiqurları "istedad nişanəsi" olaraq göstərmiş, bədii sferada ustalıq nişanəsi olaraq səciyyələndirmişlər. Burada fikrin obrazlılığı və obrazlı çatdırma düşüncəsi, zəriflik, yığcamlıq, poetik örnəyin uğurluluğu məsələsi ilk olaraq

diqqət önünə gəlir. Çünki P.Qəlbinurun şeirləri öz estetik informasiya imkanları, təcəssüm prinsipləri, bədii mahiyyəti çatdırma üsulları ilə həmişə nəzər-diqqəti cəlb etmişdir.

*Anası gecikir oğlanın evə,*

*Atası beş ildir evdən gedibdi.*

*Zaman o beş ili bu beş saatdan,*

*Tez gedib, tez udub, tez həll edibdi* [91, s.231].

Ayrı-ayrı misraların fonesemantizm müstəvisində kəsb etdiyi məzmun səs assosiasiyası, səs təqlidi, səs simvolizmi ilə əlavə çalarlar qazanır, daha doğrusu linqvopsixoloji konteksdə məna və təəssürat yaratmaq məqsədinə köklənir. Burada bütövlüyü bir istiqamətdə sənətkar təkrirlərlə reallaşdırmağa çalışır, çünki poetik fiqurlar sırasında təkrarlar özü də məzmun yaradıcı funksiyası ilə uğurlu təsir bağışlayır. Ahəngdarlığı artıran formul olaraq həm də fikri qüvvətləndirmək xarakteri ilə səciyyələnir. Poetik örnəkdə "tez" sözünün işləkliyi bunun nümunəsidir.

*Bu evin havası çox tanış gəlir...*

*Bu mənim dayımın, dostumun evi...*

*Bu evlər qurulu qala bilməyir.*

*Bu evdə uşaqlar taleyi şikəst.*

*Bu evdə itin də üzü gülməyir* [89, s.22].

P.Qəlbinur poeziyası mətn informasiyası baxımından müxtəlif üslubi məqamların özünəməxsusluq prinsiplərinə köklənə bilmə halı ilə uğur qazanır. "Bu evin havası çox tanış gəlir" şeirindən verdiyimiz nümunə söz sıralanması, spesifik xüsusiyyətlərə malik şeir dilinin özünəməxsusluqları, sintaktik fiqurların işləkliyi ilə bütövləşir və burada şair duyğularının ifadəliliyinə anaforaların qatdığı çalar həm də uğurluluğun alınmasını təmin edən vasitələr sırasında görünür. Təkrarların yaratdığı estetik keyfiyyət həm də semantik zənginləşdirmə, poeziya üçün əsas olan semantik sıxılma (şeir mətnində sözün yeri dar məna əhatəsi geniş olmalıdır təsəvvürü) baxımından da funksional mahiyyət daşıyır. P.Qəlbinur poeziyası bütün kontekstlərdə üslubi fəallığı (çeşidliliyi) ilə diqqəti cəlb edən poeziyadır.

*Qeyrətinə bir az qeyrət gəlinə,*

*Heyrətinə bir az heyrət gəlinə,*

*Sevgisinə bir az istək gəlinə,*

*Bir az, bir az, bir az artıq olaydı* [91, s.260].

Fikir yükünün ağırlığı linqvistik vahidlərin mətn daxilində say çoxluğu ilə deyil, sıralanmadakı funksiyası ilə şərtlənir. Çünki poeziyada hər bir element estetik işarə funksiyası ilə təsirliliyin və misra fikir yükünün sərgilədiyi funksiyaya bağlanır. Ona görə də P.Qəlbinur poeziyası çeşidliliyi, fikir yükünün çatdırılma üsulları, səs simvolizmi, səs assosiasiyasından mətnin metaforik qatına qədər geniş şəbəkəli olması ilə nəzər-diqqəti cəlb edir. Yuxarıdakı misralarda epiforanın ("gəlinə" sözünün misra sonunda təkrarları) yaratdığı mənzərə təkcə bədii-estetik işarələnməni ortaya qoymaqla məhdudlaşmır, həm də mənayaradıcı funksiyası ilə diqqəti cəlb edir.

Paşa Qəlbinur poeziyasında bütün sintaktik fiqurlar estetik tamlığın tərkib hissəsi olma funksiyasına köklənir. Bunlar isə ümumiyyətlə şeirin estetiklik konsepsiyası olaraq yaradıcı imkanları ilə genişlənir və yeni mahiyyət kəsb edir. Fikrin dərinliyi və deyimin sərhədləri dilin nitq etiketlərində morfopoetik, fonopoetik və sintaktik sıralanmanın ümumi prinsiplərində reallaşır. Sözün məna sərhədləri və onun estetik işarə funksiyası sintaktik fiqurların mətn daxilində daşıdığı məzmun qatı ilə mükəmməlləşir. Şeir mətnində mühüm əhəmiyyət daşıyan məsələlərdən birisi fonosemantizm məsələsidir ki, burada səs simvolizmi, səs təqlidi, səs assosiasiyaları sıralanır. Bunlar özlüyündə yaradıcı istedadının sərhədləri daxilində mənayaratmanın (forma və məzmun sxemlərinin) mühüm komponenti olaraq bədii mətnə əlavə çalarlar qatır, fonomorfoloji və sintaktik quruluşu ilə estetik qavramanın bütövlüyünə yardımçı olur. P.Qəlbinur məhz səs assosiasiyası ilə misra, bənd axarında semantik paralelizmi gücləndirir və mətn daxilində səs paralelizminin özünəməxsus sistemlərini qurur. Bütün bunlar üslubi çevikliklə, qrammatik qatın mətn daxilində rangarəngllikləri və dəyişkənliyi ilə nəzər-diqqəti cəlb edir. Məlum olduğu kimi, "*janr əslində yaradıcı şəxsdən və mühitdən tam asılı olmayan müstəqil məfhum, estetik yaddaşdır. Buna görə də kanonik janrlar özlüyündə müəyyən daxili məzmuna, assosiativ mənalara malikdir. Janr təfəkküründə həyata, mühitə, insana müstəqil münasibət, sözün məna yaddaşı var*" [44, s.114]. P.Qəlbinur poeziyası məhz mətn

sxemlərinin, sintaktik fiqurların kanonik sistem daxilində özünəməxsusluqlarına köklənən təfəkkürlə şərtlənir. Onun janr təfəkkürünün estetik yaddaşı fərqli yanaşmalarla, orijinal düşüncə özünəməxsusluğunun söz sıralanması və canlandırma üsullarının spesifik özəllikləri ilə nəzərə çarpır. Bunlar şeir adlarından tutmuş misra və bənd səviyyəsində ifadəliliyin metaforik qatlarına qədər bir genişlikdə müəyyənləşir. "Eşq ürəyin ətridi", "Ətir kimi", "Ana ürəyi", "Qanadlarım", "Tələbələrimə", "Kəndimizin adamları", "Kök ceyran", "Arıq ceyran", "Xavər xalaya uzaqdan payız məktubu", "Ürəyə dünyanın işığı sığar", "Uzaqlar yaxın olur", "Ürəyimi uşaq üzü bilir o" və s. şeirlərin formalaşdırdığı təsəvvür sənətkar özünəməxsusluğunu, bədii təsvir və ifadə vasitələrindən yararlanmanın yüksək sənət meyarı olması qənaətini ortaya qoyur. Həm heca, həm də sərbəst vəzndə yazdığı şeirlərində şair xalq dilinin zənginliklərindən, ifadə üsullarının ən uğurlu variantlarından yararlanmaqla bədii örnəyin alınmasına nail olur.

*O sözü soruşmaq istəyəndə mən,*
*Cadar torpaqlara sular hopantək*
*Cürətim tükənir...*
*Bir arı pətəyi göydən qopantək*
*Havam iynələnir, göyüm göynəyir.* [91, s.260].

Obrazlı düşüncə poeziyanın mahiyyət məsələsi olub onun geneoloji sistemini müəyyənləşdirir. Sənətkarın yaradıcı istedadı, sənətkarlıq imkanları bu çərçivə (prinsip) əsasında təhlil edilib qiymətləndirilir. Həyatda olduğundan daha gözəl duyğusunun sərgilədiyi təsəvvür şeirinin alınması qənaətini ortaya qoyur. P.Qəlbinur da 80-ci illər Azərbaycan poeziyası və çağdaş poeziyanın uğurlu axtarışları timsalında ədəbiyyatımıza öz mütərəqqi yaradıcılıq konsepsiyası ilə töhfələrini vermiş sənətkarlardandır. Onun yaradıcı təfəkkürü, yazı üslubu nədən yazmasından asılı olmayaraq dilin yüksək ifadəlilik prinsipləri üzərində nizamlanır. Məlum olduğu kimi, "*şeir dilin çiçəklənməsidir. Ən yaxşı kamil sənət əsərləri xalq dilinin daxili mahiyyətini təzahür etdirir, onun daxili estetik (emosional-estetik) qüdrətini nümayiş etdirir. Şeir dilin təravətidir. Xalq dilinin bütün ehtiyat qüvvəsi şeir vasitəsi ilə üzə çıxarılır. Xalqın dilini də sənətkarları ilə tanıyırlar*" [4, s.151]. P.Qəlbinurun

yaradıcılığına bu kontekstdə baxdıqda onun şeir düşüncəsi bütün gücünü xalq dilinin zənginliklərindən qidalanmaq hesabına reallaşdırır. “Sual” şeirindən verdiyimiz nümunə, eləcə də bütünlükdə yaradıcılığı boyu müşahidə etdiyimiz tendensiya obrazlı dil kontekstində mükəmməl bir dil mexanizmlərinin işlənmə hərəkətliliyi ilə nəzər-diqqəti cəlb edir. Şair hansısa məsələni soruşmaq, aydınlaşdırmaq məsələsində daxili emosiyalarını, yaşantılarını şeirə gətirərkən vəziyyətini, lirik “mən”in hiss və duyğularını sintaktik fiqurlardan yüksək ustalıqla istifadə etmək hesabına bədiiliyi daha da artırmaq yolunu tutur. “Cadar torpaqlara sular hopantək cürətim tükənir”- apardığı müqayisələrdə uğurlu bir bənzətmə yaradır və fikrin daha poetik, daha emosional çatdırılma formasını tapmağa nail olur. Yaradıcı istedadı elə möhtəşəm, elə mürəkkəb (və bəlkə də sadə) situasiyalı keyfiyyətdir ki, onun geneologiyasında obrazlılıq, emosiyalı düşüncə, özünəməxsus yanaşma üsulları ağıla gəlməyəcək vəziyyətdə deyimin özünün formulunu cıza bilir. P.Qəlbinur da xəlqiliyin yüksək bədii-estetik qavranış və idrak prinsipləri üzərində köklənməklə ədəbiyyata öz töhfələrini verir. Şeirin sonrakı axarında şair bir başqa kontekstdən müqayisə aparır və hansısa sözü soruşmaq, məsələni aydınlaşdırmaq zamanı yaşadığı mənzərəni arı pətəyinin dağılması vəziyyətindəki mənzərə ilə əlaqələndirir, “bir arı pətəyi göydən qopantək havam iynələnir, göyüm göynəyir” söyləyir və bununla orijinal bənzətməyə yol açır.

Şeir dili və onun çevrələdiyi rəngarənglik səs, söz, ifadə və bütünlükdə dil materiallarının uğurlu işləklik, daha doğru bədii-estetiklik prinsiplərinə əsaslanır. Onun daxili xronologiyası özünəməxsus nizama, yaradıcı istedadının imkanlarına hesablanır və mətn daxilində müəyyənləşir. Burada bədii tamlıq, mükəmməllik təsəvvürü fonopoetik, morfopoetik, sintaktik sıralanmanın sərgilədiyi məzmun unikallığından asılıdır. Sözün məna yaddaşı, janr məzmunu və mətn fenomenliyi hüdudlarında (ortaqlığında) faktlaşan yüksək sənət nümunəsi təsəvvürü sənətkarın yaradıcı imkanları daxilində mümkün olur. Janr paradiqmasından müəllif paradiqmasına qədər bütün olanlar həm də üslub paradiqmasını bir tərəf kimi ortaya qoyur. P.Qəlbinur poeziyası bütüb bunların sərhədləri daxilində öz sənət kriteriyasını müəyyənləşdirir. Qafiyə, heca, söz, ifadə, misra, sintaktik fiqurların

ümumi axarı onların yaratdığı dalğalar timsalında sənətkar qayəsində emosiyaları, bədii-estetik intonasiyanın effektlərini ortaya qoyur.

*İtmiş həsrət kimi,*

*uzaqdan gələn,*

*Güclə eşidilən hənirsən, ünsən.*

*Sən bahar deyilsən, bahardan əvvəl,*

*Qışdan sonra gələn yağmurlu günsən* [91, s.535].

Göründüyü kimi, kifayət qədər obrazlı düşüncəyə, zəngin həyat təsəvvürlərinə, güclü müqayisə imkanlarına malik olan sənətkarın bu müqayisələri bir-birindən uğurlu bənzətmələr hesabına şeirin təsirediciliyini artırır. "İtmiş həsrət kimi" timsalında verilən sıralanmada "uzaqdan gələn səs", güclə eşidilən hənir, ün" olması, "bahardan əvvəl, qışdan sonra gələn yağmurlu günsən" kontekstində "səni" təqdimi sənətkar erudisiyası hesabına obrazlılıq qazanır. "*Xalq dilində və şeirində əks olunan vəzn, ahəng, bəhr, ritm sərbəstliyi poetik yeknəsəqlikdən, ifadə və üslub monotonluğundan qaçmağa kömək göstərir. Əsrin yeni problemləri ilə birgə yeni ritmi, sürəti, enerji və tempi də şeirə gəlir və klassik irsin, milli folklorun ənənə və imkanlarını yeni bədii vəzifələrin həlli xeyrinə daha fəal səfərbərliyə almağa ehtiyac yaranır*" [77, s.49]. P.Qəlbinur poeziya da məhz 60-80-ci illərin etnokulturoloji təfəkkür intelleksiyasında nikbin təsəvvür formalaşdıran istedadlar sırasında öz üslubu, orijinal düşüncəsi ilə seçilən yaradıcılardandır. Zəngin folklor üsullarından, fikri çatdırmanın müxtəlif formalarından yararlan sənətkar dil və ifadə imkanları ilə sintaktik səviyyənin mətn daxilində yeni çalarlarını ortaya qoya bilir. Məsələn, "İtmiş həsrət kimi" şeirində mahiyyət, demək olar, şeirin ümumi misra axarına xalq bayatısı əlavə etməklə aydınlaşır.

*Anam Araz, Xan Araz,*

*Bingöldən qalxan Araz,*

*Al başımdan sevdayı –*

*Xəzərə çatsan Araz!* [91, s.535].

Lirik mənin itmiş həsrət timsalında təqdim etdiyi düşüncə axarı sintaktik fiqurların kəsb etdiyi məna axarında geniş bir informasiya yükünün kəsb etdiyi məna

fakturası ilə səciyyələnir. Azərbaycan xalqının tarixi yaddaşı, onun ibtidai təsəvvürdən bu yana gələn keşməkeşli həyat yolunda baş verənlər, siyasi münasibətlər, qanlı savaşlar, ölüm-itimlər, bir hakimiyyətin digərini əvəzləməsi və xalqın həmin gərginlikdə yaşadığı acılar bu və ya digər dərəcədə simvollaşmaya, yeni məzmun və ifadə çalarlarında mahiyyətindən asılı olmayaraq yaddaş kodlaşmasına əsas olmuşdur. Araz, Təbriz, Kərkük, Dərbənd, Xoy və s. bunun tipik örnəkləridir. Araz bu baxımdan xalqın ayrılıq, həsrət, kədər və acılarına yüklənməklə xalq bayatılarında özünəməxsusluqlarla səciyyələnəcək maraqlı bir mənzərə yaratmışdır. "Anam Araz, Xan Araz" misrası ilə başlayan bayatının şeirdə verilməsi mətnə canlılıq gətirmiş və sənətkarın qarşıya qoyduğu ideyanın açılması məramına köklənmişdir. P.Qəlbinur yaradıcılığında bunlar keyfiyyət və yaradıcılıq özünəməxsusluğu kimi uğurlu təsir bağışlayır. Ümumiyyətlə, "*şeir sənətinin yaranma və təkamül prosesi bütün dövrlərdə onun sənətkarlıq sirlərində ciddi maraqla müşayiət olunmuşdur. Şeir forma və şəkillərinin inkişaf tarixinin dərindən və hərtərəfli tədqiqində dil sənətkarlığı demək olar ki, heç zaman kənarda qalmamışdır*" [72, s.44]. P.Qəlbinur poeziyası bütün komponentləri ilə etnomədəni sistemi ehtiva etməyə faktlaşır və bunun da mühüm bir istiqaməti məhz sintaktik fiqurların uğurlu işləkliyinə bağlanır. Çünki bədii dil sənətkarlığın, daha doğrusu, bədii düşüncənin əsas və başlıca olanıdır. Dünya ədəbiyyatının ən möhtəşəm abidələri məhz bu dilin sayəsində əsrlərin dərinliklərindən, ibtidai düşüncədən günümüzə qədər olanları daşıyıb gətirmişdir.

Çeşidli məcazlar sistemi (bədii təsvir və bədii ifadə vasitələri) xalq təfəkkürünün özünəməxsusluq qatlarını, zənginlik və həm də imkanlılıq dərəcəsini (bəlkə də dilin qədimliyini) ortaya çıxarmaq üçün ən mühüm qaynaqlardandır. Ədəbiyyat şedevrləri bu bədiiliyin yerli-yerində nizamlanması və mövzu ilə formanın uğurlu tandemində ürəkləri fəth etmiş, obrazlılıq deyən düşüncəni formalaşdırmışdır. P.Qəlbinur da yaradıcılığında bir sənətkar kimi daim axtarışda olması və müxtəlif ifadə formalarından yararlanması, orijinal çatdırma imkanlarına yiyələnə bilmə bacarığı ilə seçilmişdir. Onun şeirlərinin bəzəyinə çevrilən epitetlər, frazemlər, metafora, metanimiya, sinekdoxa, simvol, təzad, inversiya və s. poetikliyi yaradan fiqur kimi

mətnin sintaktik, paradiqmatik, janr səviyyəsinin bütövləşməsinin təminatçısı olmuşdur. Poeziyanın qramatikası kimi səciyyələndirilən bu fiqurlar özlüyündə xalq ruhunun ifadə formulu funksiyası daşıyır. “Səssiz-səmirsiz”, “Oyan”, “İşıq kimi”, “Bənzərsizim”, “Bu qış gecəsi”, “Bilirəm göylərdə ilahi eşq var”, “Sən ilahi tam”, “Ağ dənizdə burulğanım”, “Mən sənə o qədər inanıram ki”, “Yenə”, “Ağlama”, “Mən və sən”, “Sənə yazacağım şeir” və s. zəngin poetik fiqurlar, frazemlər, xalq dilinin geniş imkanları ilə yüksək bütövlük qazanmışdır. “Mən ki, Xarıbülbülü dərməmişəm, Qaragilə” misrası ilə başlayan şeir müəllifin zəngin eridusiyasını, xalq düşüncəsində olanlardan yüksək ustalıqla istifadə etmə imkanlarını aydınlaşdırır.

*Mən ki, Xarıbülbülü*
*dərməmişdim, Qaragilə,*
*Dərib pünhan yerə*
*sərməmişdim, Qaragilə?!*
*Sınmış ətir qabından*
*ətir dağılan kimi*
*Bəs niyə başımdan uçdun, ay eşqim?* [91, s.534].

Şeirin bədii-estetik tutumu mətn daxilində yerinə yetirdiyi funksiya ilə faktlaşır. Ritm, intonasiya rəngarəngliyi, təkrarların mətn daxilində məzmun yaratma imkanları, sintaktik paralelizmlərin şəbəkəli xarakteri, frazemlər yaradıcı imkanları çərçivəsində poetikliyi artırma funksiyası ilə bütövləşir. “*Söz sənətkarının yaradıcılıq fəaliyyəti, dəsti-xəttinin özünəməxsusluğu, təkrarolunmazlığı bilavasitə dilə estetik münasibətin fərdi cəhətləri ilə aşkarlanır. Fərdi üslub dillə bağlı üslubi-estetik kateqoriyaların bir-biri ilə sıx əlaqədə olub, bir-birini tamamlayan və orijinallıqla müşaiyət olunan daxili əlamətlərin sistemidir*” [72, s.219]. P.Qəlbinur poeziyası fərdi üslub, fərdi söz duyumu, xalq dilinin geniş imkanları baxımından əlavə dəyər qazanır. Məsələn, yuxarıdakı nümunə verdiyimiz poetik örnəyin uğurluluğunu şərtləndirən bir sıra xətlər vardır ki, bu da birincisi xalq şeir ənənəsində nizamlanma ilə bağlanır. Xalq mahnılarından (“Sarı gəlin” mahnısı) yararlanmaqla sənətkar maraqlı bir poetik örnəyin ortaya çıxmasına nail olur. Burada məsələ təkcə bununla bitmir və mətn içərisində digər bir mahnıdan (“Xarıbülbül”) yüksək səviyyədə

istifadə edir və onların (həm "Sarı gəlin", həm də "Xarıbülbül" mahnısı nəzərdə tutulur) ortaqlığında elə bir yaradıcılıq gedişləri edə bilir ki, bununla orijinal bir nümunənin alınmasına şərait yaradır.

*Vətən bağı al-əlvandır*

*Yox içində Xarıbülbül".*

*Doğradılar gülü dil-dil,*

*gülü dil-dil...* [91, s534].

Xalq mahnılarından, əfsanə və rəvayətlərdən, dastanlardan gələn yüksək yaddaş və düşüncə intelleksiyası bu şeirdə eyni uğurluluqla sıralanır. Həm üslub, həm də ifadəlilik və dil zənginliklərindən yararlanmaq hesabına sənətkar orijinal bir poetik nümunəni ədəbiyyata təqdim edir. Ayrı-ayrı misraladakı poetik fiqurlar; müraciətlər ("mən ki, Xarıbülbülü dərməmişəm, Qaragilə"), bənzətmələr ("sınmış ətir qabından ətir dağılan kimi"), simvollaşma ("doğradılar gülü dil-dil"), xalq mahnısının estetik informasiyalılığı ("vətən bağı al-əlvandı") və s. bir bütöv olaraq bədii mətnin ümumi sistemini müəyyənləşdirir.

P.Qəlbinur yaradıcılığı bədii-estetik düşüncənin ümumi prinsipləri üzərində köklənməklə paradiqmatik səviyyənin elə özünəməxsus mənalandırma formullarına həssaslıq göstərir ki, bu ancaq yaradıcı özünəməxsusluqları ilə mümkün olur. Bunların sıralanmasının məqamı və yeri həmin formulların, sintaktik fiqurların, frazemlərin, fonopoetik, morfopoetik çalarların məzmun yaratma dinamizmini ortaya qoyur. Çünki sənətkarın yaradıcı düşüncəsindəki zənginlik qatları onun seçimi və daha uğurlu variantı ortaya çıxarması üçün əsas olur. Daha doğrusu, bütün bunlar fövqəlsubyektivlik mühitində müəllif paradiqması səviyyəsində reallaşır. Xalq düşüncəsində özünə geniş yer almış deyim üsullarının, eləcə də simvollaşmış obrazlar şəbəkəsinin, ədəbi-nəzəri fikrin görkəmli nümayəndələrinin hazır şeir komponenti kimi vurğuladığı frazeoloji birləşmələrin, sintaktik fiqurların uğurlu işlədilməsi yaradıcı istedadına bağlanır. P.Qəlbinur da bunlardan müxtəlif səviyyələrdə yararlanmaqla bədii nümunənin poetik siqlətini artırmağa nail olmuşdur. "Günləri bir həsrət muncuğu kimi", "Mən ağ işığam", "Qubanın ağ alması", "Uşaq xəstəxanası", "Ürəyimə yağış yağır", "Ətir kimi", "Haray", "Qan buxarı", "Anam yanımdadı" və

s. şeirləri məcazın rəngarəng şəkilləri sayəsində əlavə çalar qazanmış, bir növ bədii siqlətin artırılması üçün əsas olmuşdur.

"*Get, ey Leyli..." deyən, Məcnun kimi mən*
*Düşmüşəm bir haldan, bir hala, Leylam.*
*Həqiqət deyiləm, yalan deyiləm...*
*Tuş oldum cavabsız suala, Leylam*" [91, s.523].

P.Qəlbinur yaradıcılığında özünü göstərən müqayisələr, fikri obrazlı çatdırma üsulları, məntiqi gücləndirmə vasitələri, rəngarəng keyfiyyət assosiasiyaları bədii-estetik işarələnmənin mükəmməl kodu olaraq yeni mahiyyət qazanır. Şairin apardığı müqayisələr ("get, ey Leyli..." deyən, Məcnun kimi"), mövzuya yanaşma üsulları çeşidliliyi, klassik ənənədən gələnlərdən çağdaş mühitin rəngarəng örnəklərinə qədər seçim aparma imkanları və s. hamısı bədiilik komponenti olaraq unikallığa köklənir. Məlum olduğu kimi, "*ümumiləşdirmə əsəri bütöv – məzmun və forma vəhdətində əhatə edir: rənglər, boyalar, lövhə və mənzərələr, təsvir və ifadə vasitələri ümumiləşir, tipik obraz tipik şəraitə düşür, qayə müasirliklə aşılanır*" [45, s.108]. Bədii ümumiləşdirmənin özünəməxsusluqları, yaradıcı istedadının sərgilədiyi geniş təsəvvür klişeləri və yanaşma üsulları, həyat hadisələrinə münasibət və baxışları bütün aspektləri ilə müxtəlif səviyyələrdə misra fikir yükündə özünü tərəf kimi göstərir. Ritm, intonasiya, poetik fiqurların rəngarəng çeşidləri, təkrarlar sistemi, frazemlər, sözün və ifadənin mətn daxilində kəsb elədiyi məzmun çalarları, psixoloji paralelizmlərin yaratdığı təsəvvür bütünlükdə sənətkar istedadının göstəricisi olaraq bədii kamilliyin mümkünlüyü təsəvvürünü formalaşdırır.

Lirik-emosional tonallığı yaradan və onun uğurluluğunun təminatçısı olan sintaktik fiqurlar uğurluluq məqamına görə şeirdə məzmun yaratmanın elementi kimi mühüm əhəmiyyət daşıyır. Səslərin simmetrik düzümü, lirik-emosional paralelizmlərin bədii nümunəyə qatdığı ovqat, sənətkarın canlandırma və əksetdirmə üsulları mətn//mətn, mətn//mühit, mətn//subyekt səviyyəsində geniş bir mənzərə ilə faktlaşır. P.Qəlbinur poeziyasının müxtəlif kontekstlərdə təhlili onun sənətkar dünyagörüşünün dinamikasını, həyat hadisələrinə və faktlara (mövzuya) özünəməxsus yanaşma üsullarını bir bütöv olaraq şərtləndirir. Bədiilik sisteminin

mükəmməlliyində nəzərə çarpan və hətta bir tərəf kimi özünü göstərən fonoloji təkrarlardan sintaktik fiqurların çeşidliliyinə qədər bütün olanlar yaradıcı istedadının zənginlik göstəricisini aydınlaşdırır.

Təkrarolunmaz fərdilik keyfiyyətinə yüklənən poeziya söz fəhmi və söz duyumu ilə həmişə zənginləşmiş və ədəbiyyatın böyük yolunda yeni-yeni axınların meydana gəlməsi üçün əsas olmuşdur. 60-80-ci illərin keyfiyyət dəyişmələrində öz fərdi üslubi, yüksək yaradıcı istedadı ilə ədəbiyyatımıza töhfələr verən P.Qəlbinur yaradıcılığı təkcə məzmun səviyyəsində deyil, həm də fonopoetik, morfopoetik, sintaktik səviyyənin geniş imkanlılıq göstəriciləri ilə nəzər-diqqəti cəlb edir. Ayrı-ayrı şeirlərində nəzərə çarpan fonoloji təkrarlar, poetik fiqurların özünəməxsusluqla sıralanması, məcazlar sisteminin formalaşdırdığı təsəvvür bütövlükdə ədibin yaradıcı istedadının unikallığını aşkarlayır.

Məlum olduğu kimi, hər bir poetik mətn özlüyündə uğurlu yaradıcılıq prosesinin yekunudur. Orada sənətkarın dünyagörüşündən, həyat hadisələrinə münasibətindən, fəlsəfi baxışlarından təqdim üsullarına qədər bir rəngarənglik və özünəməxsusluq yer alır. P.Qəlbinur poeziyası da bu kontekstdə geniş imkanlılıqla, janr yaddaşının əhatələdiyi təsəvvürlə, mətn fenomenliyi, sözün məna yaddaşı, etnokulturoloji düşüncəyə köklənmə funksiyası ilə möhtəşəmlik qazanır. Bütün bunlar istedadlı sənətkarın təkcə mövzu zənginliyi baxımından deyil, həm də yaradıcı istedadının sənətkarlıq səviyyəsində geniş imkanlarını aydınlaşdıran məsələ kimi mühüm əhəmiyyət daşıyır.

# NƏTİCƏ

Bütün bunlar 70-80-ci illər ədəbi-mədəni mühitinin qaynarlığında formalaşan Paşa Qəlbinur (Paşa İsmayıl oğlu Musayev) poeziyasının mahiyyətində dayanan problemlərin aktuallıq səviyyəsini, etnik sistemin mükəmməllik mənzərəsini və tarixi-mədəni ənənənin davamlılığını müəyyənləşdirmək müstəvisində ciddi nəticələrin ortaya çıxması üçün əsas olmuşdur. Keçən əsrin 60-cı illərindən başlayan milli oyanış düşüncəsi fundamental mahiyyəti ilə ədəbi-mədəni prosesin yeni dəyərlər qazanması, yaradıcı axtarışlarında etnokulturoloji aspektlərin əsas götürülməsi prinsipinə köklənməklə öz mahiyyətində milli-ictimai təfəkkür enerjisini daşıma baxımından uğurlu bir dinamika ilə nəzər-diqqəti cəlb edir. Sosial-siyasi, ideoloji və mənəvi-estetik dünyagörüşün milli müəyyənlik stixiyasına köklənən ədəbi-mədəni mühit özünüdərk prizmasından çıxış etməklə bütün aspektləri ilə yeni sferaya daxil olur. P.Qəlbinur yaradıcılığı da bu zənginləşmənin uğurlu nümunəsi olaraq düşüncə və mətn tipi kimi ciddi təsəvvür formalaşdırması kontekstində mükəmməl bir faktura ilə müəyyənləşir.

Çağdaş ədəbi mühitin keyfiyyət yeniləşməsində özünü göstərən meyl və axınlar təkcə poetexnoloji müstəvidə olanlarla yekunlaşmır, bunlar həm də məzmun qatlarında faktlaşan orijinal düşüncə tiplərinin ortaya çıxması ilə şərtlənir. Çünki etnik özünüdərkin ifadə kodu sovetlər dönəminin müəyyənləşdirdiyi yaradıcılıq kriteriyalarını kortəbii qəbul etmək tendensiyasından daha çox, bətnində onu dağıtmaq təsəvvürünə köklənirdi. İmperiya təfəkküründə qəlibləşmiş qəhrəman tipləri, ideoloji sistemin ortaya qoyduğu yaradıcılıq konsepsiyası, ədəbiyyatı yönləndirmə üsulları həm də ədəbi-mədəni prosesdə mahiyyətin dərkini də bir zərurət olaraq qarşıya qoyurdu. Çünki böyük ədəbiyyat 20-30-cu illərin basqısını, 37-ci illərin repressiyasını, ikinci dünya savaşından sonrakı illərin məqsəd və məramını içindən keçirməklə 60-cı illərin özünüdərkinə gəlib çıxmışdı.

İ.Hüseynov, İ.Şıxlı, R.Rza, İ.Əfəndiyev, İ.Məlikzadə, Qabil, Y.Səmədoğlu, Anar, Elçin, V.Səmədoğlu, M.Süleymanlı, R.Rövşən və s. kimi şəxsiyyətlərin milli təfəkkür intelleksiyasına köklənən ədəbi-mədəni mühit kəmiyyət və keyfiyyət müstəvisində nikbin təsəvvürlə səciyyələnir. P.Qəlbinur da öz zəngin yaradıcılığı və

fərdi yazı texnologiyası ilə bu yeniləşməyə töhfələrini vermiş şəxsiyyətlərdəndir. Ədəbiyyata qədəm basdığı ilk gündən ədəbi-mədəni mühitin marağına səbəb olan sənətkar həmişə üslub müəyyənliyi, yaradıcı istedadının dinamik mənzərəsi ilə nəzər-diqqəti cəlb etmişdir. “Ay bir əlçim buluddur” (1984), “Payız məktubu” (1987), “Rəngli göz yaşları” (1990), “İtmiş həsrət kimi” (1996), “Ağlıma gələnlər başıma gəldi” (2003) və s. kitablarına toplanan poetik örnəklər fərdi üslubun və yaradıcı axtarışlarının ümumi sistemini, geneologiyasını aydınlaşdırmaq üçün zəngin faktura ilə müəyyənləşir.

1.Şair, alim, publisist, həkim, nasir kimi geniş yaradıcı fəaliyyəti ilə ədəbi-mədəni mühitin diqqətində olan P.Qəlbinur bütün kontekstlərdə orijinal dünyagörüşü, fərqli yanaşma və mənalandırmaları ilə həmişə ədəbi-nəzəri fikrin diqqətini özünə cəlb etmişdir. B.Nəbiyev, B.Budaqov, İ.Mustafayev, Ş.Salmanov, K.V.Nərimanoğlu, Q.Qəhrəmanov, M.Seyidov, R.Azadə, A.Abdullazadə, Y.Səmədoğlu, A.Məmmədov, V.Quliyev, M.İsmayıl, M.Aslan, Qabil, İ.Rəhimli, V.Səmədoğlu, Ə.Əsgərli, V.B.Odər, F.Sadıq, Ş.Rza, S.Rüstəmxanlı, S.Murtuzayev, E.Əlibəyzadə və s. kimi ədəbi-nəzəri fikrin nümayəndələrinin P.Qəlbinur poeziyasına həssaslığı onun sənətkar təsəvvürü formalaşdırması düşüncəsindən irəli gəlmişdir. Aparılan təhlillər konseptual xarakteri ilə ədibin yaradıcılığındakı üslub və düşüncə özünəməxsusluqlarını və orijinal canlandırma üsullarını aydınlaşdırmaq məqsədi daşıyır.

2. P.Qəlbinur poeziyası mühit və yaradıcı özünəməxsusluğu müstəvisində ciddi mükəmməlliklə faktlaşır. 70-80-ci illər poeziyasında özünü göstərən meyl və tendensiyalar üzərində köklənən sənətkarın yaradıcılığının enerji qaynaqları mahiyyəti etibarı ilə onun əsərlərinə əlavə çalar qatmış və yaradıcı imkanlarının ortaya çıxması üçün əsas olmuşdur. Etnik sistemin mükəmməl mənlik təsəvvürləri, milli-mənəvi yaddaşın davranış və düşüncə kodları yeni şəraitdə dərk və təqdim üsullarının spesifikliyi ilə müəyyənləşir. Çağdaş ədəbi-mədəni mühitin bir kriteriya olaraq əsas götürdüyü yaradıcılıq konsepsiyası 60-cı illərin ruhu üzərində köklənməklə mahiyyətə yönəlikli tendensiyası ilə ciddi təsəvvür formalaşdırır. P.Qəlbinur da məhz bu yeniləşmənin ən istedadlı nümayəndələrindən biri olaraq

ədəbiyyata öz töhfələrini vermiş şəxsiyyətlərdəndir. Bütün bunlar kontekstində ədibin yaradıcılığı müxtəlif aspektlərdə sistemli təhlillərin probleminə çevrilmişdir. Aparılan təhlillərdə də bu bir istiqamət olaraq əsas götürülmüş və müxtəlif aspektləri ilə açılma məqsədi daşımışdır. Məsələn, 60-cı illər ədəbiyyatının ümumi axarında P.Qəlbinur yaradıcılığının poetexnoloji mənzərəsi və milli-mənəvi yaddaşa köklənmə səviyyəsi, 70-80-ci illər ədəbiyyatının yaradıcı axtarışlarında P.Qəlbinur poeziyasının yeri və məqamı, 90-cı illər poeziyasında üslub müəyyənlikləri və yaradıcı şəxsiyyəti və s. kimi məsələlər baxımından ciddi faktura ilə nəzər-diqqəti cəlb edir.

3. Fərdi üslubun ənənə və özünəməxsusluq xüsusiyyətləri üzərində köklənən P.Qəlbinur poeziyası formal strukturların mükəmməlliyi və janr tipologiyasının spesifik formulları baxımından da uğurlu təsəvvür formalaşdırır. Onun heca və sərbəst vəznlərdə yazdığı şeirlərin struktur sxemləri formanın özünün məzmun yaratma imkanları ilə səciyyələnir. Mətn fenomenliyi, sözün məna yaddaşı bütün imkanları ilə janrın məzmun yaratma funksiyasında bütövləşir. Daha doğrusu, forma və məzmun bütövlüyünün qarantı kimi mükəmməl təsəvvürə yüklənir.

4. Azərbaycan poeziyasının şifahi və yazılı qanadı ilkin nümunələrdən P.Qəlbinur yaradıcılığı da daxil olmaqla günümüzə qədər həmişə ənənə və yenilik müstəvisində zənginləşmələrlə səciyyələnmişdir. Bunlar hamısı etnik sistemin bədii-estetik təsəvvürləri və onun əhatələdiyi mədəniyyət çərçivəsində təzahür etmişdir. Zəngin etnoqrafik yaddaş, müəyyənləşmiş tabular, etnosun münasibət və davranışında qəlibləşmiş mənsubluq kodları bütün dövrlərdə bədii düşüncəni izləmiş və onun ana xətti olaraq əsas götürülmüşdür. P.Qəlbinur poeziyasının düşüncə qaynaqları bütün müstəvilərdə bunlara köklənməklə ənənənin yaşarlığını və hansı özünəməxsusluqlarla ehtiva olunduğunu göstərmək baxımından əvəzsizdir. Xalqın zəngin məişəti, folklor yaddaşı, ilkin təsəvvürləri, inam və etiqadları, arzu və istəkləri, təbiətə, cəmiyyətə, insana münasibət kredosu bir tərəf olaraq əsas götürülür.

5. Paşa Qəlbinur poeziyası Azərbaycan sərbəst şeir ənənəsinin ədəbi tarixi təcrübəsi və təkamülü prosesinin ümumi mənzərəsini aydınlaşdırmaq müstəvisində gərəkli faktura ilə müəyyənləşir. Ümumiyyətlə, son dövrlərdə ədəbi-nəzəri fikrin təhlillərində diqqət önünə gətirilən məsələlərdən biri sərbəst şeir ənənəsinin tarixi

dinamikasının mahiyyətinə olan həssaslıqdır. Türk şeirinin oturuşmuş heca modeli öz mükəmməlliyi və çeşidli örnəklərinin zənginləşmə prosesi ilə həm tarixilik, həm də etnik müəyyənlik aspektində daha təfərrüatlı yanaşmalara yol açır. P.Qəlbinur poeziyasında özünüifadənin əsas modeli olan sərbəst şeir ənənəsi tarixi kökləri ilə etnosun ilkin yaradıcılıq təsəvvürlərinə bağlanır. Qədim türk şeir ənənəsi, etnosun özünü ifadə modelləri, qopuz təhkiyə üsullarında qəlibləşmiş formullar və son olaraq Oğuz epos mühitində nəzərə çarpan nəzm üsulları sərbəst şeir təsəvvürünün genelogiyasını aydınlaşdırmaq üçün əsaslı material verir. "Türk xalqlarının tarix dərsliyi" kimi möhtəşəmlik qazanan "Kitabi-Dədə Qorqud" dastanları öz mahiyyətində etnosun təkcə dastan yaddaşını əhatələməklə kifayətlənmir, əksinə onun əhatələdiyi məzmun bir qaynaq olaraq bədii-estetik təsəvvürdən əxlaq konsepsiyasına qədər geniş bir paradiqmanı sərgiləyir. Etnoqrafların, tarixçilərin, musiqişünasların, folklorşünasların, dilçilərin, etimoloqların, coğrafiyaçıların, siyasətçilərin və s. bu abidəyə bir mənbə olaraq müraciətləri onun imkanlılıq dərəcəsindən və Oğuz institutunun mükəmməlliyindən qaynaqlanır. Sərbəst şeirin nəzəri problemləri ilə bağlı təhlillərdə də bu mənbə kimi fundamental təsəvvür formalaşdırır. P.Qəlbinur poeziyasının ruhunda, qaynağında və ifadə zənginliyində "Kitabi-Dədə Qorqud"dan gələn təsirlər bir xətt olaraq aydınlıqla görünür. Burada ifadə formullarından poetik fiqurların işləkliyinə qədər ciddi təsir faktları özünü göstərir.

Azərbaycan ədəbiyyatında sərbəst şeirin bir təmayül olaraq inkişaf dinamikası XX əsrin 20-30-cu illərinə bağlanır. Ümumiyyətlə, Avropa və dünya ictimai-siyasi düzənində baş verən proseslər ədəbi-mədəni sferada da müxtəlif axın və ədəbi cərəyanların yaranmasını zərurət olaraq qarşıya qoyurdu. Dünya ədəbiyyatının Lui Araqon, Pablo Neruda, Vladimir Mayakovski, Nazim Hikmət və s. kimi görkəmli şəxsiyyətlərinin yaradıcılığında mükəmməl bir sistem olaraq müəyyənləşən sərbəst şeir konsepsiyası Azərbaycan ədəbiyyatında S.Vurğun, M.Müşfiq, M.Rəfili, O.Sarıvəlli, R.Rza və başqaları ilə yeni sferaya daxil oldu. R.Rza bütün yaradıcılığı boyu bu təmayülə köklənməklə ədəbiyyatda adı ilə bağlanacaq bir istiqamətin prinsiplərini müəyyənləşdirdi. Ə.Kərim, F.Qoca, V.Səmədoğlu, F.Sadıq,

Ə.Salahzadə, R.Rövşən, V.Cəbrayılzadə və onlarla başqaları kəmiyyət və keyfiyyət müstəvisində uğurlu örnəkləri ilə ədəbiyyata öz töhfələrini verdilər. P.Qəlbinur da 70-80-ci illər ədəbiyyatının yaradıcı axtarışlarında məhz bu tendensiyaya köklənməklə çeşidli nümunələrini yaratdı və yaradıcı istedadı, düşüncə texnologiyası məhz sərbəst şeir modelində orijinal bir təsəvvür formalaşdırdı. Daha doğrusu, ədəbiyyatın zənginliyində bu ənənənin istedadlı nümayəndəsi olması qənaətini bütün yaradıcılığı ilə ortaya qoydu. "Doluxsunmuş sükut", "Ağ çiçək kimi", "Min illik şərab", "Borc", "Sarı gül", "Ağ qu, qara qu", "Bu göl niyə quruyubdu", "Durna qatarı", "qorxuram dünyanın günahlarından", "Gəlin sizə pay verim", "Novxanıda nar ağacı", "Duz saray", "Gedər", "Ərəb qardaş", "Vətən", "Xəyalımda yallı getdi dağlarımız", "İki min ildir" və s. şeirləri sərbəst vəzn ənənəsinin ən gözəl örnəklərindən biri kimi orijinal təsəvvürlə faktlaşır.

6. P.Qəlbinur poeziyası bütün mahiyyəti ilə xalqın zəngin etnik sistemini ifadəyə köklənməklə həm də etnik yaddaşın göstəricisi olaraq mühüm dəyər qazanır. Bayatı, nəğmə, atalar sözü, məsəl, əfsanə, rəvayət, nağıl, dastan, epos və s. kimi folklor örnəklərindən yararlanma onun şeirlərinə əlavə ovqat qatmaqla yanaşı, həm də yeni məna çalarları gətirməklə mətnin bədii-estetik imkanlarını gücləndirmişdir. Bu yararlanma özünü müxtəlif səviyyələrdə göstərmişdir. Məsələn, bəzi məqamlarda şair xalq bayatısını və yaxud da hansısa nəğmənin müəyyən bir misra, beyt və bəndini yaradıcı şəkildə artırmaqla bədii mətnə əlavə ovqat qatmış və onun sənət nümunəsi olaraq uğurluluğunu təmin etmişdir. "Üç alma", "Xəyalımda yallı getdi dağlarımız", "Şuşanın dağları", "Gilətağda bir ev var", "Yağaq Qarabağa", "Ərəb qardaş", "Mən ağ işığam", "Dünyam", "Falçı", "İtmiş həsrət kimi", "Söndürdüyün telefon", "Sən ilahi tam", "Sən getsən" və s. şeirləri bunun klassik örnəyidir.

Xalq şeir ənənəsinin zənginlikləri, aşıq şeirinin çeşidli şəkillərindən yararlanma P.Qəlbinur poeziyasının ümumi ruhuna dayanan məsələ kimi nəzər diqqəti cəlb edir [50]. Heca vəznində yazdığı poetik örnəklər təkcə bədiilik, kanonik sistemin mükəmməlliyi baxımından deyil, həm də janrın məzmun yaratma imkanları ilə yüksək təsəvvür formalaşdırır. Burada sözün məna yaddaşı, bədii nümunənin fenomenlik kodu özlüyündə həm də yaradıcı imkanlarına bağlanır. "Dünya",

“Dağlar”, “Balıqçı və xəşəm”, “Şuşanın dağları”, “Ürəyimdə yağış yağır” və s. şeirləri bütün parametrlərdə etnik ruhun yüksək səviyyədə daşınışı təsəvvürünə köklənmişdir. Burada təkcə vəznin ümumi prinsipləri deyil, həm də formullar sistemi bədii nümunənin uğurluluğu, paradiqmatik səviyyənin orijinallığının mühüm komponenti olaraq mükəmməl təsəvvür formalaşdırır.

Zəngin faktura ilə səciyyələnən sənətkarın yaradıcılığı mətn fenomenliyi müstəvisində kifayət qədər geniş imkanlılıqla faktlaşır. Əhatəli məzmun şəbəkəsi ilə səciyyələnən çeşidli poetik örnəklər mətn//mətn, mətn//mühit, mətn//subyekt müstəvisində mükəmməl bir təfsilatla xarakterizə olunur. Etnokulturoloji sistemin bütün incəlikləri, arxaik yaddaş, invariantların özünəməxsusluğu, arxetiplərin funksional səciyyəsi P.Qəlbinur poeziyasının keyfiyyət göstəricisi olaraq ilk şeirlərindən başlamış bütün yaradıcılığı boyu mükəmməl bir dinamika ilə özünü göstərir. Geniş mövzu əhatəsinə malik poetik nümunələr şairin yurd, torpaq sevgisini, təbiətə həssas münasibətini, bədii-estetik dünyagörüşünü, fəlsəfi baxışlarını, məhəbbət duyğularını, dövrün ictimai-siyasi proseslərinə münasibətini təqdim edə bilmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın sovetlər imperiyasının çöküşündən sonrakı mərhələsinin ümumi mənzərəsi, eləcə də xalqın tarixi dədə-baba torpaqlarından zorla köçürülməsi, Qarabağ savaşı, soyqırım məsələləri və s. müxtəlif səviyyələrdə yaradıcı düşüncəsində özünə yer alır.

Keçən əsrin 70-80-ci illər bədii düşüncəsinin genoloji mahiyyətini, məzmununda daşınanların nələrlə səciyyələnməsini, milli mənsubluq düşüncəsinin bir tərəf olaraq aparıcı mövqeyə gəlişinin ümumi axarını aydınlaşdırmaq anlamında P.Qəlbinur poeziyası mükəmməl bir faktura ilə müəyyənləşir. Burada etnokulturoloji sistemin elə epizodik məqamları ilə qarşılaşırsan ki, mifik təfəkkürdən, ilkin inamlardan gələnlərin yüksək sənətkarlıq nümunəsi timsalında mətnə gətirilməsi ancaq fərdi özünəməxsusluq baxımından təhlilləri bir tərəf olaraq tədqiqata gətirməyi aktuallaşdırır. Məsələn, ədibin yaradıcılığında işığın mətn daxilində müxtəlif səviyyələrdə yaratdığı təsəvvür, eləcə də rənglər ətrafında apardığı mənalandırmalar və s. sənətkarın təfəkkür intelleksiyasının nümunəsi olaraq diqqət önünə gəlir. Demək olar, hər bir örnək özlüyündə sənətkar dünyagörüşündə müəyyənləşmiş sistemin

orijinallıq mənzərəsini, arxetiplərin rəng çalarlarını və mətn daxilində yerinə yetirdiyi funksiyanı bir bütöv olaraq sıralaya bilmək gücü ilə mühüm önəm kəsb edir. Ona görə də P.Qəbinur poeziyası axtarışlar və tapıntılar toplusu olmaqla yanaşı, həm də milli-mənəvi düşüncəyə köklənmiş yaradıcılıq abidəsidir.

7. P.Qəlbinur poeziyası bütün kontekstlərdə tipoloji təhlillərə yol açır. Bu mətn tiplərindən tutmuş hipertekstuallığa qədər mükəmməl bir təsəvvürlə müəyyənləşir. Çünki ədibin mövzunu seçmə, ona yanaşma üsulları, eləcə də sənətkar düşüncəsində yaradıcı intelleksiyasını ifadə üsulları həmişə orijinallığa köklənməsi ilə səciyyələnir. Zəngin yaradıcı istedadı, özünəməxsus yanaşma texnologiyası, poetexnoloji sistem mükəmməlliyi P.Qəlbinur poeziyasında mahiyyət məsələsi olaraq faktlaşır. Fonopoetik, morfopoetik sistemin mükəmməlliyi, sintaktik səviyyənin modelləşdirmə imkanları, misranın fikir yükü, fövqəlməkanlılıq və fövqəlzamanlılıq funksiyası bütün aspektləri ilə yaradıcı istedadının əhatəliliyini ortaya qoyur. Şairin yaradıcılığında özünü göstərən səs simvolizmi, səs assosiasiyaları, janr paradiqması, semantik modelləşmə səviyyəsi, mətnin estetik işarə funksiyası və s. bir bütöv olaraq P.Qəlbinurun çağdaş ədəbi-mədəni mühitdə yerini müəyyənləşdirir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Abdullayev, C. Lirika və zaman /C.Abdullayev. – Bakı:Yazıçı, – 1982. – 178 s.

2. Abdullazadə, A. Şairlər və yollar (Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları) / A.Abdullazadə. – Bakı: Elm, – 1984. – 224 s.

3. Abid, Ə. Azərbaycan türklərinin ədəbiyyat tarixi / Ə.Abid. – Bakı: Elm və təhsil, – 2016. – 240 s.

4. Adilov, M. Sənətkar və söz / M.Adilov. – Bakı: Yazıçı, – 1984. – 184 s.

5. Axundov, A. Şeir sənəti və dil / A.Axundov. – Bakı: Gənclik, – 1980. – 159 s.

6. Alışanlı, Ş. Sözün estetik yaddaşı / Ş.Alışanlı. – Bakı: Elm, – 1994. – 228 s.

7. Allahmanlı, M. Təxəllüsü Vaqif, nəzmi dürəfşan / M.Allahmanlı. – Bakı: Ləman, – 2017. – 340 s.

8. Allahverdiyev, V. Müasir Azərbaycan poeziyasının inkişaf problemləri. Filologiya elmlər namizədi elmi dərəcəsi üçün təqdim olunmuş dissertasiya (Əlyazması hüququnda)// V.Allahverdiyev. – Bakı: M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, – 2009. – 139 s.

9. Anar. Xalq yazıçısı İsa Hüseynova //Ədəbiyyat qəzeti, – 1998, 7 iyun. – s.2.

10. Arif, M. Ədəbi– tənqidi məqalələr/ M.Arif. – Bakı: Azərnəşr, – 1958. – 448 s.

11. Aristotel. Poetika/ Aristotel. – Bakı: Azərnəşr, – 1974. – 192 s.

12. Arnold, T. Ruhda parçalanma. XX əsr ədəbi düşüncələr tarixi./ T.Arnold – Bakı: Adiloğlu, – 2018. – 340 s.

13. Aşıq ədəbiyyatı antologiyası. Məhəbbət dastanları. [3 cilddə]. tərtib edənlər: M.Qasımlı, M.Allahmanlı, c.3 – Bakı: Meqaprint, – 2017. – 640 s.

14. Azərbaycan xalq mahnıları. (tərtib edəni S.Kərimi) / – Bakı: Öndər, – 2005. – 168 s.

15. Belinski, V.Q. Seçilmiş məqalələri /V.Belinski. – Bakı: Gənclik, – 1979. – 228 s.

16. Bualo, N.D. Poeziya sənəti / N.Bualo. – Bakı: Şərq– Qərb, – 2006. – 132 s.

17. Cəfər, M. Seçilmiş əsərləri./ M.Cəfər. – Bakı: Azərnəşr, – 1973. – 350 s.

18. Cəfərov, M. Seçilmiş əsərləri. [2 cilddə] / M.Cəfərov. – Bakı: Azərnəşr, – c.2. – 1974. – 342 s.

19. Cəfər, M. Seçilmiş əsərləri./ 3 cilddə, III c./ M.Cəfər. – Bakı: Çinar– Çap, – 2003. – 360 s.

20. Cəfərov, N. Klassiklərdən müasirlərə / N.Cəfərov. – Bakı: Çaşıoğlu, – 2004. – 272 s.

21. Cəfərov, N. Türk xalqları ədəbiyyatı. Qədim dövr. I c./ N.Cəfərov. – Bakı: Çaşıoğlu, – 2006. – 320 s.

22. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı / – Bakı: Azərnəşr, – 1962. – 272 s.

23. Elçin. Seçilmiş əsərləri. I c., – Bakı: Azərnəşr, – 1987.– 456 s.

24. Ədəbiyyatşünaslıq terminləri lüğəti (tərtib edəni: Ə.Mirəhmədov). – Bakı: Maarif, – 1978. – 200 s.

25. Ədilli, Ş. Azərbaycan şeirində forma məsələləri / Ş.Ədilli. – Bakı: Elm və təhsil, – 2014. – 144 s.

26. Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi / B.Əhmədov. Dərslik 3 cilddə. I cild, – Bakı: Elm və təhsil, – 2011. – 480 s.

27. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. – Bakı: Maarif, – 1992. – 477 s.

28. Əlimirzəyev, X. Ədəbiyyatşünaslığın elmi– nəzəri əsasları (tədris vəsaiti) / Əlimirzəyev X. – Bakı: Nurlan, – 2008. – 432 s.

29. Əlioğlu, M. Ədəbi fraqmentlər / M.Ədiloğlu. – Bakı: Gənclik, – 1974. – 176 s.

30. Əlişanoğlu, T. Azərbaycan "yeni nəsri"/ T.Əlişanoğlu. – Bakı: Elm, – 1999. – 128 s.

31. Əliyev, K. Paralel xronologiyalar// 525– ci qəzet, 13 iyul 2015– ci il.

32. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi. Təkmilləşdirilmiş ikinci nəşri/ R.Əliyev. – Bakı: Qanun, – 2012. – 464 s.

33. Əliyeva, A. Paşa Qəlbinur/ A.Əliyeva. – Bakı: Azərnəşr, – 1996. – 48 s.

34. Əliyeva, S. Müasir Azərbaycan ədəbiyyatının aktual problemləri və folklor (H.Arifin yaradıcılığı üzrə)./ S.Əliyeva – Bakı: ADPU, – 2006. – 146 s.

35. Ənvəroğlu, H.Q. Azərbaycan şeirinin poetikası / H.Ənvəroğlu. – Bakı: Nurlan, – 2008. – 392 s.

36. Ənvəroğlu H. Ədəbiyyatşünaslıq problemləri ədəbi– nəzəri düşüncə müstəvisində/ H.Ənvəroğlu. – Bakı: MBM, – 2014. – 395 s.

37. Əsgərli, Ə. Fərdi üslubun poeziyası /Ə.Əsgərli – Bakı: Vektor, – 2017. – 150 s.

38. Əsgərli Ə. Xəlil Rza Ulutürkün poetikası / Ə.Əsgərli. – Bakı: Aspoliqraf, – 2012. – 496 s.

39. Əsgərli Ə. Mir Cəlalın yaradıcılığında Sabir mövzusu.// "Xalq qəzeti", 25 iyun, 2017

40. Əsgərli Ə. Osman Sarıvəllinin poetikası / Ə.Əsgərli. – Bakı: BQU nəşriyyatı, – 2005. – 159 s.

41. Əsgərli Ə. XX əsr Azərbaycan şeirinin poetikası / Ə.Əsgərli. – Bakı: Apostrof, 2014. 316 s.

42. Əsgərli Ə. Bəxtiyar Vahabzadənin ədəbi– fəlsəfi görüşləri / Ə.Əsgərli. – Bakı: 2018. 234 s.

43. Federiko, L. Təxəyyül və ilham haqqında. XX əsr ədəbi düşüncələr tarixi / F.Lorka. – Bakı: Adiloğlu, 2018. 340 s.

44. Hacılı, A. Bayatı poetikası / A.Hacılı. – Bakı: Elm, – 2000. – 162 s.

45. Hacıyev, A. Ədəbiyyatşünaslığın əsasları / A.Hacıyev. – Bakı: ADPU, – 2005. – 367 s.

46. Hacıyev, T. Şeirimiz. Nəsrimiz. Ədəbi dilimiz / T.Hacıyev. – Bakı: Elm, – 1990. – 360 s.

47. Hacıyev, T. Uzaq səfərlər kapitanı //Ədəbiyyat – 2008, 6 iyun, s.2.

48. Həbibbəyli, İ. Romantik lirikanın imkanları / İ.Həbibbəyli. – Bakı: Yazıçı, – 1984. – 168 s.

49. Həşimli, H. XX əsr Azərbaycan ədəbiyyatında yeni lirik janrlar. / Həşimli H. – Bakı: Elm, – 2002. – 80 s.

50. Heybətova, A.C. Azərbaycan ədəbiyyatında sərbəst şeir ənənəsinin yaranma tarixinə bir nəzər// – Naxçıvan: AMEA Naxçıvan bölməsi, Axtarışlar, – 2021. №1,

s.36– 40

51. Heybətova A.C. Azərbaycan poeziyasında sərbəst şeir ənənəsinin təcrübəsi və təkamül mərhələləri// – Bakı: AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Poetika.izm, – 2020. №1– 2, s. 29– 33

52. Heybətova, A.C. Azərbaycan poeziyasında milli ruhun inikası // Al Farabi 5– ci Beynəlxalq Sosial Elmlər Konqresi, – Bakı: 1– 4 avqust, 2019, s.113– 114.

53. Heybətova, A.C. Bədii ədəbiyyatda azərbaycançılıq ideologiyası // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu. Beynəlxalq Elmi Konfransın Materialları, SDU – Bakı: – 4– 5 dekabr, – 2018, – s. 431– 433.

54. Heybətova, A.C. Çağdaş ədəbi mühitdə Paşa Qəlbinur yaradıcılığının yeri və mövqeyi // Elmi əsərlər. Dil və ədəbiyyat seriyası. BSU – Bakı: 2020. №2, – s.279–284.

55. Heybətova, A.C. Müasir Azərbaycan poeziyasında ənənəvi mövzu və ideyalar (Paşa Qəlbinurun yaradıcılığı əsasında) // – Naxçıvan: Naxçıvan Universitetinin elmi əsərləri, Humanitar elmlər seriyası, – 2021. №1, – s.178– 185.

56. Heybətova, A.C. Paşa Qəlbinurun sərbəst şeir yaradıcılığı // – Bakı: Filologiya məsələləri, – 2021. №5, – s.175.

57. Heybətova, A.C. Paşa Qəlbinur Azərbaycan sərbəst vəznli şeirinin yaradıcılarından biri kimi // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2019. №3, – s.59– 64.

58. Heybətova, A.C. Paşa Qəlbinurun yaradıcılığında Tanrı sevgisi // Karadeniz Zirvesi. 2– ci Uluslararası Sosyal Bilimler Kongresi. – Rize: – 23– 25 Avqust, – 2019, – s. 681– 683.

59. Heybətova, A.C. Paşa Qəlbinur yaradıcılığında lirik "Mən"in təşəkkül və təkamül birliyi // – Naxçıvan: Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, – 2020. №4, – s.28– 32.

60. Heybətova, A.C. Sərbəst vəznli şeirlər müəllifi Paşa Qəlbinur yaradıcılığının müasir Azərbaycan ədəbiyyatında mövqeyi və əhəmiyyəti // Filoloji Elmlər innovativ tədqiqatlar Kontekstində – Beynəlxalq elmi praktik konfrans, BSU. – Bakı: – 24 dekabr, – 2020, – s.211– 214

61. Hüseynoğlu, G. Mikayıl Müşfiq. Seçilmiş əsərləri / G.Hüseynoğlu. – Bakı: Şərq– Qərb, – 2004. s. 6– 14.

62. Hüseynoğlu, T. Psixologizmə dair // Ədəbiyyat – 1994. 4 mart, – s.4

63. Hüseynoğlu,G. Seçilmiş əsərləri (iki cilddə)/ G.Hüseynoğlu. II cild. Bakı: Azərnəşr, 1993, 439 səh.

64. Hüseynoğlu, G. M.Müşfiqin "Könlümü al, oxu" kitabına "Ön söz" / G.Hüseynoğlu. – Bakı: Maarif, – 2002. – 96 s.

65. Hüseynoğlu, G. Mikayıl Müşfiq. Seçilmiş əsərləri / G.Hüseynoğlu. – Bakı: Şərq– Qərb, – 2004. s. 6– 14

66. Hüseynov, A. Sənət meyarı / A.Hüseynov. – Bakı: Yazıçı, – 1966. – 315 s.

67. Hüseynov, A. Nəsr və zaman / A.Hüseynov. – Bakı: Yazıçı, – 1980. – 185 s.

68. Hüseynov, A. Müxtəlifliyin birliyi / A.Hüseynov. – Bakı: Yazıçı, – 1983. – 216 s.

69. Hüseynov, M. Dil və poeziya / M.Hüseynov. – Bakı: Elm, – 2008. – 434 s.

70. Hüseynov, M. Sözün poetikası / M.Hüseynov. – Bakı: Elm və təhsil, – 2010. – 368 s.

71. Hüseynov, M. Poeziya dilinin milli qaynaqları /M.Hüseynov. – Bakı: Elm və təhsil, – 2009. – 292 s.

72. Hüseynov, M. Şeirşünaslıqda dil sənətkarlığı /M.Hüseynov. – Bakı: Elm, – 2007. – 240 s.

73. Xəndan, C. Seçilmiş əsərləri/ C.Xəndan. – Bakı: Azərnəşr, – 1972. – 258 s.

74. Xəndan, C. Ədəbi qeydlər / C.Xəndan. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1966. – 194 s.

75. Kitabi– Dədə Qorqud / tərt.ed.H.Araslı – Bakı: Gənclik, – 1978. – 182 s.

76. Koroğlu / – Bakı: Lider, – 2005. – 549 s.

77. Qarayev, Y. Poeziya və nəsr / Y.Qarayev. – Bakı: Yazıçı, – 1979. – 198 s.

78. Qasımbəyli, Y. Milli oyanış və özünəqayıdış lirikası / Y.Qasımbəyli. – Bakı: Elm və təhsil, – 2012. – 452 s.

79. Qəlbinur, P. Dağlar // "Tibb kadrları uğrunda" qəz., 24 noyabr 1971– ci il.

80. Qəlbinur, P. Əyilib bir ovuc su götürdüm //"Ədəbiyyat və incəsənət"

qəzeti, 15 iyul, 1978– ci il.

81. Qəlbinur, P. Duz saray // “Ədəbiyyat və incəsənət” qəzeti, 15 avqust 1980– ci il.

82. Qəlbinur, P. Ərəb qardaş // – Bakı: Kitablar aləmində, – 1984, № 4 – s.37– 38.

83. Qəlbinur, P. Bu evin havası çox tanış gəlir // – Bakı: Ulduz, – 1985, №1, – s 22.

84. Qəlbinur, P. Mən ağac üstündə son payız narı // – Bakı: Ulduz, – 1985, №12, – s. 2– 3.

85. Qəlbinur, P. Qürbətdə yazılan şeir // Ulduz, – 1985. – №12, – s.3.

86. Qəlbinur, P. Payız məktubu / P.Qəlbinur. – Bakı: Gənclik, – 1987. – 80 s.

87. Qəlbinur, P. Yaxşı ki // Ulduz, – 1987. – № 2, – s.36

88. Qəlbinur, P. Şuşanın dağları // “Ədəbiyyat və incəsənət”, – 5 yanvar 1990.

89. Qəlbinur, P. İtmiş həsrət kimi / – Bakı: Göytürk, – 1996. – 135 s.

90. Qəbinur, P. Ay nuru kimi // “525– ci qəzet”, 29 dekabr, 2001– ci il.

91. Qəlbinur, P. Ağlıma gələnlər, başıma gəldi /P.Qəlbinur. – Bakı: Ozan, – 2003. – 656 s.

92. Quliyev, V. XXI əsrdə görüşənədək. A.Məmmədov. Qəlbinur poeziyası XXI əsrin astanasında / V.Quliyev. – Bakı: Gənclik, – 1999. – 264 s.

93. Quliyeva, K. Lirika, müasirlik və qəhrəman / Quliyeva K. – Bakı: Yazıçı, – 1983. – 197 s.

94. Qurbanov, A. Səməd Vurğun bədii əsərlərinin dil və üslubu haqqında / A.Qurbanov. – Bakı: APİ, – 1961. – 44 s.

95. Maarif işçisi – fevral /icmal/, Maarif və mədəniyyət, 1926. № 2– 3, s. 46– 47

96. Maarif və Mədəniyyət: (Sənət ətrafında) / – Bakı: – 1927. № 6, – s.27– 31

97. Məmmədov, A. Qəlbinur poeziyası XXI əsrin astanasında / A. Məmmədov. – Bakı: Gənclik, – 1999. – 264 s.

98. Mikayılov, A. Lirik sətirlər. // Ədəbiyyat və incəsənət, 16 oktyabr 1971– ci il

99. Mir Cəlal, Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları / M.Cəlal. – Bakı: Maarif, – 1988. – 280 s.

100. Müşfiq, M. Seçilmiş əsərləri / M.Müşfiq. – Bakı: Maarif, – 1983. – 212 s.

101. Müşfiq, M. Seçilmiş əsərləri / M.Müşfiq. – Bakı: Şərq– Qərb, – 2004. – 352 s.

102. Nəbiyev, B. Tənqid və ədəbi proses / B.Nəbiyev. – Bakı: Azərnəşr, – 1976. – 188 s.

103. Nərimanoğlu, K.V. Sözündə nur, üzündə nur – Paşa Qəlbinur. A.Məmmədov. Qəlbinur poeziyası XXI əsrin astanasında / K.Nərimanoğlu. – Bakı: Gənclik, – 1999. – 264 s.

104. Osmanoğlu, S. Ata ocağı. / S.Osmanoğlu. – Bakı: Yazıçı, – 1990. – 72 s.

105. Rəfili, M. ("Gülən adam" imzası ilə). Sərbəst şeir haqqında ilk söz // "Maarif işçisi". 1929. № 1, s.71– 78.

106. Rəsul, R. Seçilmiş əsərləri 5 cilddə, IV cild / R.Rza. – Bakı, Azərnəşr, – 2002. – 436 s.

107. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: Səda, – 2009. – 480 s.

108. Salamoğlu, T. İsmayıl Şıxlının bədii nəsri / T.Salamoğlu. – Bakı, "EL" NPŞ MMC, – 2014. – 176 s.

109. Salamoğlu, T. Azərbaycan ədəbiyyatının müasir problemləri / T.Salamoğlu. – Bakı: "E.L." NPŞ MMC, – 2014. – 512 s.

110. Salmanov, Ş. Mikayıl Rəfili. // Azərbaycan, – 1965. – № 11, – s.99– 107

111. Salmanov, Ş. Poeziya və tənqid / Salmanov Ş. – Bakı: Yazıçı, – 1987. – 208 s.

112. Sarıvəlli, O. Seçilmiş əsərləri. Üç cilddə. II c. / O. Sarıvəlli. – Bakı: Azərnəşr, – 1974. – 252 s.

113. Şəmsizadə, N. Ədəbiyyat nəzəriyyəsi / N.Şəmsizadə. – Bakı: Proqres, – 2012. – 434 s.

114. Şəmsizadə, N. Müsbət qəhrəmanın ədəbi taleyi. "Yaradıcılıq metodu məsələləri" / N.Şəmsizadə. – Bakı: Elm, – 1989. s.44 – 45.

115. Şükürov, A.M. Əli Tudənin yaradıcılıq yolu. (F.ü. f. d. elmi dərəcəsi, Avtoreferat). – Bakı: – AMEA kitabxanası, – 2014. – 21 s.

116. Tanrıverdi, Ə. Poeziyanın dili, dilin poeziyası / Ə.Tanrıverdi. – Bakı: Nurlan, – 2008. – 203 s.

117. Tanrıverdi, Ə. Dilimiz, düşüncəmiz / Ə.Tanrıverdi. – Bakı: Elm və təhsil, – 2017. – 360 s.

118. Eliot, Tomas Sternz. Ənənə və fərdi istedad. XX əsr ədəbi düşüncələr tarixi./ E.Tomas. – Bakı: Adiloğlu, – 2018, – 340 s.

119. Vidadi, M.V. Əsərləri./ M.Vidadi. – Bakı: Azərnəşr, – 1977. – 106 s.

120. Vurğun, S. Seçilmiş əsərləri. İki cilddə, I c./ S.Vurğun. – Bakı: Azərnəşr, – 1976. – 288 s.

121. Vurğun, S. Seçilmiş əsərləri. 6 cilddə. II cild. / S.Vurğun. – Bakı: Şərq–Qərb, – 2005. – 270 s.

122. Vurğun, S. Biblioqrafiya. Nizami Cəfərov. Ön söz. – Bakı: Azərbaycan Milli Kitabxanası, – 2016. – 211 s.

123. Yigitoğlu, N.A. Vaqif Səmədoğlu yaradıcılığında poetik bütövlük. (F.ü. f. d. Elmi dərəcəsi, Avtoreferat). – Bakı: AMEA kitabxanası, – 2014. – 22s.

124. Yusifli, V. Poeziyanın yolları və illəri (1960– 2000– ci illər)./ V.Yusifli. – Bakı: Mütərcim, – 2009. – 403 s.

125. Yusifli, V. Bir daha "Rənglər" silsiləsi haqqında. “Ədəbiyyat” qəzeti, 16 aprel 2010– cu il.

## RUS DİLİNDƏ ƏDƏBİYYAT

126. Бехер И.Р. В защиту поэзии. / Р.Бехер. – Москва: Наука, – 1959, – 559 с.

127. Бехер И.Р. О литературе и искусстве./ Р.Бехер. – Москва: Хувожественная литература, – 1981, – 527 с.

128. Бертельс Е.Э. Избр. труды. Суфизм и суфийская литература. / Э.Бертельс. – Москва: – 1965, – 130 с.

129. Гейбатова, А. Любовь к Богу и к Родине в творчестве Паши Гальбинура // теорія та практика сучасної науки та освіти. Матеріали Міжнародної наукової конференції. – Дніпро: – 20– 30 Ноябрь – 2019, с.339– 341

130. Гейбатова, А. Противопоставление ассоциативной мысли как сущность определенности // Освіта і наука у мінливому світі: проблеми та перспективи розвитку. Матеріали Міжнародної наукової конференції. Днепр, 2021, 254 с.

131. Гейбатова, А. Психологизм поэзии П.Гальбинура и культ поэтических образов // – Киев: Вестник Національного Технічного Університету України, – 2021. №2, с.267– 273.

132. Гейбатова, А. Факторы Формирующие поэзию П.Гальбинура и особенности стилистической индивидуальности // – Москва: Глобус, – 2021. №2, – с.40– 43.

133. Григорев В. Поэтика слов / В. Григорев. –Москва: – Наука, – 1979. – 343 с.

134. Никонов В.А. Проблемы восточного стихосложения / В.Никонов. – 1973. – 287 с.

135. Лотман Ю.М. Структура художественного текста /Ю.Лотман. – Москва: – 1970. – 384 с.

136. Лотман Ю. М. Анализ поэтического текста. Структура стиха / Ю.Лотман. – Ленинград: – 1972. – 271 с.

137. Верещагин Е.М., Костромов В.Г. Язык и култура / – Москва: Высшая школа, – 1971. – 240 с.

138. Виноградов В.В. О теории поэтической речи / В.Виноградов. – Москва: Высщая школа, – 1971. – 240 с.

139. Залыгин С. Интервью у самого себя / С.Залыгин. – Москва: Советский писатель, – 1970. – 239 с.

140. Писарев Д.Н. Избр.произведении. Л./ Н. Писарев. – Москва: Художественная литература, – 1968. – 324 с.

141. Шарл Б. Французская стилистика / Шарл Б. – Москва: Иностранная литература, – 1961. – 436 s.

142. Щерба Л.В. Литературный язык и путь его развития (применительно к русскому языку). «Советская педагогика», – 1942. № 3– 4, с. 48– 53.

143. Тимофеев Л. Слово в стихе / Л.Тимофеев– Москва: Советский писатель, – 1987. – 424 с.

144. https://24smi.org/celebrity/5754–konstantin–Paustovskii.html#tableofcontents2

145. https://www.livelib.ru/author/343/quotes– andre– morua